

*Allahverdi İsgəndər oğlu Eminov Vətən Müharibəsi illərində doğulmuş və uşaq yaddaşında sevincli heç nə yaşamamışdır.*

*Yeddiilliyi Salyanın Qırmızıkənd, orta məktəbi Lənkəranın Gərmətük kəndində qurtarmışdır. Azərbaycan Pedaqoji İnstitutunun tarix-filalogiya fa-kültəsini bitirəndən sonra Salyanda müəllim işləmişdir. 1969-1971-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Pedaqogika İnstitutunun aspiranturasında təhsilini davam etdirmişdir. Pedaqoji elmlər na-*
*ədidir, dosentdir, qabaqcıl maarif xadimidir. "Azərbaycan məktəbi" jur-*
*nda (1974-1976), "Azərbaycan müəllimi" qəzetində (1976-1984) çalış-*
*dır. 1984-1992-ci illərdə "Maarif" dövlət nəşriyyatının baş redaktoru və*
*ktoru vəzifələrində işləmişdir. Elmi və bədii yaradıcılıqda uğurlarına*
*anətlidir. "Şagirdlərdə yaradıcı fantaziya tərbiyəsi" (1981), "Gördük-*
*m, yazdıqlarım, unutduqlarım" (1990), "Payıza qədər" (1990), "Şərq ai-*
*nin sirləri" (1992), "Səməd Vurğunun poetikası" (1998), "20 əsrin 20*
*ük azərbaycanlı pedaqoqu" (2002), "Əhməd Seyidov fenomeni" (2003)*
*s. Monoqrafiyaların, "Səsimiz niyə qeyzdən gəlir?" (1996), "S.Səlim-*
*liylə Üzbəüz" (1999) və s. Kitablarının, "Pedaqogika" (1993) dərsliyinin*
*ştərək) müəllifidir. A. Eminovun qələmindən 150 elmi əsər, 200-dən artıq*
*i - məqalə (qəzet), 300-dən çox elmi-publisist, saysız publisist məqalələri*
*nışdır. "Sarı çiçək" (1989) elmi-fantastik povestlər, "Yuxuda dirilən*
*m" (1991) dedektiv roman, "Boz itin ölümü" (2003) hekayələr kitabları*
*olunmuşdur. Dilçi-pedaqoq Həsənağa Mirzəyevin "Allahverdi Emino-*
*yaradıcılıq yolu" monoqrafiyası (2004) çapdan çıxmışdır.*

*Allahverdi Eminov 20 ildən artıqdır ali təhsil müəssisələrində dərs deyir.*
*ırda Azərbaycan Müəllimlər İnstitutunun Salyan filialının direktorudur.*

PROFESSOR FİKRƏT SEYİDOVUN ELMİ-PEDAQOJİ YARADICILIĞI

ALLAHVERDİ EMİNOV



# PROFESSOR FİKRƏT SEYİDOVUN ELMİ-PEDAQOJİ YARADICILIĞI

ALLAHVERDİ EMİNOV

# ƏPROFESSOR FİKRƏT SEYİDOVUN ELMİ-PEDAQOJİ YARADICILIĞI

Bakı - 2004

**Elmi redaktoru:** **Əmrulla Paşayev**
*pedaqoji elmlər doktoru, professor, Gürcüstan Pedaqoji Elmlər Akademiyasının müxbir üzvü*

**Rəyçi:** **Yusif Talıbov**
*p.e.d., professor*

**Fərrux Rüstəmov**
*p.e.d., professor*

**Dizayn:** **Samirə Məmmədova**

**Allahverdi Eminov.** Professor Fikrət Seyidovun elmi-pedaqoji yaradıcılığı. Bakı, 2004, OKA ofset, 238 səh.

ISBN 9952-411-07-7

**OKA Ofset** Azərbaycan-Türkiyə
Nəşriyyat-Poliqrafiya Şirkəti
Tel.: (99412) 4315176

# Mündəricat

**I FƏSİL**
ASLANBƏYLİ: KƏNDDƏN BAŞLANAN YOLLAR

§ 1. Qaranilər - Seyidovlar ailəsi ........ 4
§ 2. Sovetski - ramedilməz mühit ........ 26

**II FƏSİL**
MÜHARİBƏ: SABAHA SƏSLƏYƏN İLLƏR

§ 1. Tələbəlik - gələcəyə körpü ........ 48
§ 2. Addımlar - auditoriyaya yol ........ 67

**III FƏSİL**
PEDAQOGİKA: ELMİ OVQATIN MƏRHƏLƏLƏRİ

§ 1. Vəzifələr - yaradıcılıq təkamülü ........ 80
§ 2. Müdrikləşmə - türkün pəncərəsi ........ 96

**IV FƏSİL**
TARİXİMİZ: İŞIĞA ÇIXAN SƏHİFƏLƏR

§ 1. Dədə Qorqud - Şəhriyara qədər ........ 118
§ 2. Qori (Qazax) seminariyası - şəxsiyyətlər məbədi ........ 128

**V FƏSİL**
EPİSTOLYAR: JANRDA YAŞAYAN MƏKTUBLAR

§ 1. Yazışma - hissin sədası ........ 160
§ 2. Sətirlər - intizarın sonu ........ 172

**VI FƏSİL**
HAQQINDA: MARAQLI ELMİ TƏDQİQATLAR

§ 1. Tənqid - bir nəzər ........ 188
§ 2. Kitablar - fikirlər, rəylər ........ 196

**VII FƏSİL**
YADDAŞ: UZAQ-YAXIN XATİRƏLƏR

§ 1. Avtoqraflar - illərin yadigarı ........ 216
§ 2. Xatirələr - şəkillərin yaddaşı ........ 222
Əlavə ........ 235

-7460-

# I FƏSİL

# ASLANBƏYLİ: KƏNDDƏN BAŞLANAN YOLLAR

## § 1. Qaranilər - Seyidovlar ailəsi

"Mən bilmirəm, doğma kəndimizin sakinləri hansı türk tayfalarından ayrılaraq neçə əsr, neçə min il əvvəl bura gəlib. Ancaq onu bilirəm ki, qeyrətli tayfaların yapıncısından çıxıb. Bilmirəm, keçmişdə hansı düşmənlərə, hansı istilaçılara qarşı sinə gərib. Ancaq onu bilirəm ki, qürurunu itirməyib və türk xalqlarının adət-ənənələrini, dilinin təmizliyi və məğrur döyüş qabiliyyətini qoruyub saxlayıb".

Bu sözlərlə kitabın başlanması da təsadüfi deyil. Fikrət Seyidov uzun illərin ayrılığından sonra doğma el-obasına qayıdır, soy-kökünün tarixinə yol açır. Əslində, torpağın, kəndin, məhəllənin, ailənin sağlam keçmişi - nəsli-nəcabəti yoxdursa gələcəyi naməlumdur, puçdur. Və belələri özlərinə də, xalqına da xidmətdə acizdir. Amma bu memuar-kitab[1] nəşrdən çıxmasaydı da, Seyidovları tanıyanlara bəlliydi ki, öncə professor Əhməd Seyidov bir şəxsiyyət bütövlüyündə, pedaqoq-alim zirvəsində kimdir və ölümündən sonra da əzəmətini saxlamaqdadır...

Mən bu xoş sözləri sözgəlişi deməkdən uzağam, hələ orta məktəbdə oxuyarkən, himayəsində qaldığım xalam, ədəbiyyat müəllimim Durnəstə Eminova pedaqogikadan ona dərs deyən Əhməd Seyidovdan danışırdı. Tarixçi dayısı, uzun illər BDU-da və APU-da tarix kafedralarına rəhbərlik etmiş Məmməd Nadir oğlu Şıxlıyla dostluqlarından da hərdən söz açırdı. 1959-cu ildən Pedaqoji İnstitutunun I kursunda ikən Fikrət Seyidov ingilis dilini bizə tədris edirdi. Taleyə bax ki, 45 ildir tələbə-müəllim hörmət-izzətində münasibətimizi saxlamaqdayıq... Bu sonrakı söhbətdir...

---

1.Seyidov Fikrət. Aslanbəylidən başlanan xatirələr. B., 2000.

Məni bir nüans da daima düşündürmüşdü: Doğulduğun kəndi barı yuxularında görürsənmi, ey vəzifəli şəxs, elmli akademik, qələm sahibi və ilaxır? Suala tam müsbət cavab almaqda çətinlik çəkmişəm, hərçənd belələri danışığında-kəlamında, yazı-pozusunda baş əyirlər o torpağa, əslində isə Bakıdan elə dördəlli yapışırlar ki, neçə at gücü gərəkdi qopartsın. Halbuki ən müdrik adamların son nəfəsində: "Məni kəndimdə torpağa basdırın" nəsihətini dillərinə gətiriblər. Fikrət Seyidov şair deyil, amma azca Aslanbəylisinnən ayrılanda ürəyində poetik misralar doğulub və onu şerin zəifliyi-güclülüyü maraqlandırmayıb, amma kəndin ən xırda detallarına qədər təsvirə gətiribdir:

*Uşaqlığın şirin çağı,*
*Çay qırağı, meyvə bağı.*
*Köhnə daxma, şam çırağı,*
*Çıxmır yaddan, kəndimiz.*
*Dəyirmanın çax-çax səsi,*
*Duzsuz bişən çiy kömbəsi*
*Gecələrin zümzüməsi*
*Çıxmır yaddan, kəndimiz.*
*Nazik-nazik kündə yaymaq,*
*Sacayağı, fətir, qaymaq*
*Qoyunu da açma soymaq*
*Çıxmır yaddan, kəndimiz.*

Bu misraları həmdə ona görə vermədim ki, Fikrət müəllimin şairanə qəlbinə işarə vuram. Əslində, kəndinə olan sevgisindən coşmağa da sakit yanaşır və ürəyi boşalmır, hisslərini toxdada bilmir, İncə dərəsinin şairi İbrahim Qara Sultan oğlunun şerinə tutur:

*Qatıq doğraması çöldə xörəkdi,*
*Görəməzdi, yağ şor ilə çörəkdi.*
*Qonaq gəlsə arançıya gərəkdi,*
*Xına rəngi, üz qaymaqlı yaylaqlar.*
*Aran köçü, kömbə xəmri yoğrulan,*
*Erkəklərin şaqqalanıb qovrulan*

*Gecə-gündüz həsrətinlə qıvrılan,*
*İbrahimdi, bir incəli, yaylaqlar.*

Uzun şerdən seçdiyim bu misralarda təsadüfən eşitdiyim "körəməz", "qatıq doğraması", "kömbə", "erkək qovurması" yemək növləri (rəsmi desək) məni uşaqlığıma, gəncliyimə apardı. Və haşiyə çıxmaqla bəlkə bir təsəlli tapdım.

... Biz Eminlilər nəsli (Babam Hacı Emin, nənəm Zülü Qazağın I Şıxlı qəbristanlığında uyuyurlar. Kümbəzin içərisində) müharibədən çox-çox qabaq başqa bölgələrə repressiya olunubdur. Babam erməni gülləsinə tuş gəlib 1918-ci ildə; ana babam Osman Eminovu Sibirə göndəriblər, səs-sorağı çıxmayıb; əmim Mustafanı da həmçinin (sonra o, qayıdıb, əvvəlki işində, dəmiryolunda çalışıbdır, 1984-cü ildə rəhmətə gedibdir). Atam əvvəlcə İmişlinin Qaradonlu stansiyasında, sonra Masallı və Novoqolovka stansiyalarınada (müharibə vaxtı), 1946-cı ildə isə Salyanın Qırmızıkənd stansiyasında rəis işləmişdi (1986-cı ildə dünyasını dəyişib). Yaxşı yadımdadı, vəziyyət yaxşı deyildi, camaat korluq çəkirdi. Ümid mal-qarayaydı. Bizim də 5-6 yaşında qırmızı-qonura çalan inəyimiz vardı. Rusiya cinsliydi, yaxşı süd verirdi, gündə 3 dəfə anam onu çağırdı. Elə gəldi, dəmiryoluna öyrəncəkli bu inəyin ölümü də relslərin üstündə oldu, paravoz vurdu. Əvəzində camış aldıq. Anam xəngəl bişirirdi, tərəkəmə qaydasıyla. Kənddə ailəmizə simsar Cəvahir adında yaşlı qadın təəccüblənmişdi xəngəldən: Bu nədi, Lütviyyə bacı, - demişdi.

-Bizim yerlərdə buna "xəngəl" deyirlər, - cavabını vermişdi.

Cəvahir arvad dadına baxıb tərifləmişdi. Hər axşam körəməz yeyirdik. Çiy südə qatığı qarışdırırdıq. Kənd bunu da ilk dəfə bizdə gördü. Kömbə payımız (qardaşımla bacım da şərikdi) təndirdən sonra hasilə gəlirdi. Qoyunu dayım Hacı Eminov kəsirdi, qonum-qonşu deyirdi ki, Hacının əli şirindi, bərəkətlidi. Mütləq atamı çağırırdı və lazımi yerinnən təcili qovurma bişirirdi özü. Yaxşı yemək hazırlamağı da yadımdadı... Baxmayaraq mən o Qırmızıkənd kəndinə 5 yaşında gəlmişəm, mənimçin əzizdi, unudulmazdı. Nə dağ-təpəyə sığınıb, nə meşə-ağaclara ümid gətirib, nə

də axarlı Kür çayına. Amma çör-çöpüylə, qızmar günəşiylə, palçığıyla - uşaqlığımla yaddaşımın silinməz abidəsidir. Orada - o torpaqda mənə yer tapacaqlar yəqin ki...

Fikrət Seyidovun yaddaşı kəndlə bağlı insanları xatırlayır. Kəndinə dərin sevgisinnən gəlir bu. Zəhmətsevən yerlilərini yaxşı mənada iddialaşdırır: "Mən kəndimizin namuslu adamlarını zəhmətkeş görmüşəm. Mən onları soyuq qış gecələrində isti yataqlarından dəfələrlə durub heyvanlarına ələf verən, yay biçinində alaqaranlıq səhər naharını edib, başına ağ çit bağlayıb balaca bir bucqada günortaya naharını və orağını götürüb biçinə gedən görmüşəm. 60 il keçməsinə baxmayaraq indi də qan-tər içərisində yorulmaq bilməyən, bir-biriylə yarışan biçinçilər gözümün önündədir". - Və o, belə simalardan Bəkir oğlu Abdullanı xatırlayır. Onun səliqə-sahmanını, qış rüzisini yayda toplamasını yada salır və qürurlanır ki, Aslanbəylilərdə belə keyfiyyətlər əzəldəndir, əlavə dedi-qoduya meyl salmayanlardı, elmə-mədəniyyətə meyl göstərənlərdi - Qazax mahalında adları yaxşılığa çəkilir. Və bir də: "Kəndimizin adamlarının məziyyətlərindən danışarkən onlardakı yüksək əxlaq, doğruçuluq, düzlük, etibar kimi keyfiyyətlərini də deməliyəm" - yazır Fikrəm müəllim.

İncə dərəsi Qazax elatında məşhur ərazidi və Aslanbəyli, Qaymaqlı, Kəmərli kəndlərini əhatə eləyir. Rəhmətlik anam, atam və dayılarım Məhəmməd, Cahandar və Hacı (Atam onları dəmir yoluna işə götürmüşdü, əmioğlulardı) məclis qurardılar (bizim nəsil yeyib-içən, qonaqpərvər, xeyirxah, əltutan, elmli və sairdi), azca "romantikləşəndə" kövrələrdilər. Anam onlara qulluq göstərərdi, söhbətlərinə qoşulardı. Məhəmməd dayım müəllimdi, Qırmızıkənd məktəbində sinif müəllimiydi. Savadlı və söhbətcildi. Keçmişə çox meyillidi. Tez-tez İncədərəsinin adını eşidirdim. Uşaqlıqda mən yaşlıların söz-sözbətinə vurğundum. Dayılarımın çənəsinin altını kəsdirərdim. Sanki onların ağzınnan dürr tökülürdü və mən də yığışdırırdım. İncədərəsi barədə o vaxt məlumatsızdım. Ali təhsil alanda təsəvvürüm oldu. Hətta böyük dayımın İncədə-

rəsinnən kiminsə qızını sevməsinnən kövrəkcəsinə danışmağı da vardı. Həyata bax, kiçik məktəbli uşağı XXI əsrdə İncədərəsi barədə oxuyur və sanki bu Dünyaya gəlməmişlər kimi xatırladığım və doğmalarımı andım.

Mənim İsrafil adlı bir dayım da olub, müharibədən qayıtmayıb. Cahandarla Hacı davada axıradək vuruşmuşdular. Sonbeşik dayım II dərəcəli əlil kimi qayıtmışdı. İsrafil yaxşı şerlər qoşurmuş, İncə dərəsinnən bir qız (adı anamın yadından çıxmamışdı) istəyirmiş, ona çoxlu şerlər həsr eləyirmiş. Çağırış vərəqəsini alanda son şerini yazıb anama verir ki, mütləq ona çatdırarsan. Anam danışırdı ki, həmən qız müharibədən sonra da İsrafilin yolunu gözləyibmiş. "Qara kağızı" gələndə inanıb ki...

Budur, Fikrət Seyidov İncədərəsində gözəl qəlbli şairlər, aşıqlar yetişdiyini xatırlayır: Şöhrət Cəlaloğlu, Cümşüd İskəndərov tərəfinnən toplanmış "Mən aşıq İncədənəm" toplusunda 381 şer toplanmışdır. Müsədir Süleymanoğlunun şerini nümunə gətirmişdir:

*Ay ellər, eşidin, qoy bilsin hamı,*
*Varda, bol nemətdə bəllidi İncəm.*
*Qızıl odda, insan darda tanınar*
*Qonağı hörmətdə bəllidi İncəm.*
*Elə ki, Ay batır, gün axşam olur,*
*Hər yerdə bir şənlik, məclis qurulur,*
*Qədəhlər boşalır, qədəhlər dolur*
*Dosta səxavətdə bəllidir İncəm.*

Seyidovların soy-kökü Qaranilərə gedib çıxır. Ulu kötük-nəsil Veysəl Qaranidir - Hacı Mahmud Əfəndinin atasıdır. F.Seyidovun yazdığına görə:

Qədim Qaranilər nəsli iki qola ayrılır. Birsi ulu babalarının adını daşıyan Veysəl Qarani, ikincisi Əhməd Qaranidir. Veysəlin üç oğlu dünyaya gəlmişdir, ilkini Məhəmməd, sonrakılar Fatma və Hacı Mahmud Əfəndidir. Məhəmməddənsə oğlanları Topal, Həkim və Abdulla olmuşdur. Yeganə qızı Mələkdi. Topalın Alı, Həmid, Söylü, Pəri, Xədicə adında uşaqları dünyaya göz açmışlar. Həkimin



*Hacı Mahmud Əfəndi türbəsinin qapısı*

üç övladı vardı: Nəbi, Fatma və Nəbilədir. Nəbini müharibə uddu, nakamlığına bu cavan ömrü bağışlamadı, Alı dəyirmançı sənətinə yiyələnmişdi. Həmid də davada həlak olmuşdur (1941).

Veysəl Qaraninin oğullarından Məhəmməd Əfəndi sayılıb-seçilən din xadimiydi, elm sahibiydi. Böyük şəcərəyə malik Veysəlin ayrılığı 75 il çəkmişdir.

Fikrət Seyidov mənlə görüşlərində təəssüflə deyirdi ki, güman Türkiyədədirlər, axtarıb tapmalıym. Necə deyərlər, qan çəkdi onu

və məqsədinə çatdı: "75 il ayrı düşdüyümüz, mifik şəkildə təsəvvür etdiyimiz, xəyalları ilə yaşadığımız, qovuşmaq həsrətiylə dolandığımız, valideynlərimiz tərəfindən nağıla çevrilmiş Türkiyədəki qohumları görmək mənə nəsib oldu. Mən Türkiyə ilə buradakı qohumlar arasında körpü yarada bildim. Orada sağ qalanlarla görüşdüm, rəhmətə getmişlərin qəbirlərini ziyarət etdim. Özümü ən xoşbəxt adam hesab edirəm".[1]

Hacı Mahmud Əfəndinin qızı Fikrət Seyidovun anasının (Abıhəyat) anası Səyalı xanımdır, Abıhəyat onun kiçik qızıdır, Əhməd Seyidovun (Fikrət Seyidovun atası) həyat yoldaşıdır. Əhməd müəllim də Veysəl Qaraninin bir qoludur, törəməsidir. Oxuyuruq: "Veysəl Qarani və Əhməd Qarani qardaş olmuşlar. Anam Abıhəyat ana tərəfdən Hacı Mahmud Əfəndinin soyundan, atam isə adı qoyulan Hacı Mahmud Əfəndinin əmisi Əhməd Qaraninin törəmisidir".[2]

Fikrət müəllimin atası, professor, əməkdar elm xadimi Əhməd Yusif oğlu Seyidov haqqında məncə daha ətraflı danışmağa ehtiyac qalmır.[3] Lakin onun anası barədə bəzi məlumat verərdim:

...Abıhəyat ana Sayalı xanımın kiçik qızıdır. Əhməd Seyidov və Veysəl Qaraninin bir qolundan doğulandır. O, ana tərəfdən Hacı Mahmud Əfəndinin soyundandır. 1924-cü ildə 21 yanvarda Əhməd Seyidovla ailə həyatı qurmuşlar. Bu izdivacın işıqlı tərəfləri ço-çoxdur. Əvvəla, dünyaya İsmayıl və Fikrət qardaşlarını, Səyyarə və Nigar qızlarını gətirmişdir. Həyatda bu övladların özlərinə məxsus imicləri vardır. Elm və təhsil sahəsində yüksək pillələrə yüksəlmişlər. İsmayılın oğlu Səməd Seyidov Azərbaycan Dillər Universitetinin rektoru, Millət vəkili, Avropa Şurası Asambleyasında Azərbaycan dövlətinin təmsilçisidir. İkincisi, Əhməd müəllimlə onun ölüm gününədək (1977) qibtəedici dərəcədə səmimi, mehriban və sədaqətli ömür sürmüşdür. Müxtəlif ictimai

---

1. Seyidov F.Ə. Aslanbəylidən başlanan xatirələr. B., 2000, səh. 31.
2. Göstərilən əsəri, səh. 58.
3. Eminov A. Əhməd Seyidov fenomeni. B, 2003.

elmi vəzifələrdə çalışmış, represiyanı görmüş, vaxtaşırı hədələnmiş əriylə bağlı Abıhəyat ana əsla sarsılmamış, ruhdan düşməmiş, mətanətini qorumuşdur. Bu fakt da oxucular üçün maraqlı olar: Əhməd Seyidovla Abıhəyat xanımın toyu Leninin ölüm gününə düşür təsadüfən. Təbii ki, o illərdə informasiya vasitələri gücsüzdü, proletariatın "dahi rəhbər" adlandırdığı Lenin proletariatı pazladı və mənən-fizikicə faciyəli sarsıntılarla canını qurtardı; bu vaxt dövlət məmurları duyuq düşür, toyun çalınmamasını xəbərdar eləyirlər. Lakin el adəti bütün rəsmiyyətə üstün gəlir, 3 gün, 3 gecə Qara zurnanın, Ağ sazın səsi Aslanbəyli kəndində gəzib-dolaşır.

Mən Abıhəyat ananı aspirant illərimdə və sonralar çox görmüşəm. Əhməd müəllim xəstə ikən dostum İramin İsayevlə hər yoluxanda o, əldən-ayaqdan keçər, dərhal çay hazırlayardı. Yemək üçün də dil-ağız eləyərdi. Mehribanlığını, xanım-xatınlığını sifət cizgilərində, hərəkətlərində saxlamışdı. Əhməd müəllim ömrünün son bir neçə ilini Aslanbəylidə dədə-baba evində yaşayanda Abıhəyat ana onu bir dəqiqə belə buraxmamışdı... Mən bu kiçik detalı elə-belə yazmıram və müəyyən nəsil üçün adi işdir. Lakin yeni nəsillər gəlib-gedir, onlarda bu hiss korşalıbdır, bəlkə də laqeydləşibdir. Ata-babalarımız əbəs deməmişlər ki, ərlə arvadın torpağı bir yerdən götürülübdür.

Fikrət müəllimin anası barədə xatirələrindən: "Anam haqqında "Aslanbəylidən başlanan xatirələr" kitabında geniş yazdığım üçün ətraflı təkrar danışmaq istəmirəm. Ancaq bir neçə kəlmə demək istəyirəm.

Kitabda yazdığım kimi, anamın atası, bir qardaşı və anası Qazaxıstana sürgün edilmişdilər. İki qardaşı Türkiyədə yaşayırdılar. Bir qardaşı da Musavat partiyasının üzvü olduğu üçün 10 il həbs cəzasına məruz qalmışdı. Anam tibb institunda I kursda oxuyurdu. Anamın tərcümeyi halı ilə Sovet şəraitində ali məktəbdə oxumaq müşkül iş idi. Partkom, digər tərəfdən komsomol, o biri yandan da KQB-nin nəzarətçiləri gündə-gündə sorğu-sual ilə adamı cana


*Atası Əhməd Seyidov və anası Abuhəyat xanım*

gətirirdilər. Atam anama xatadan uzaqlaşmaq üçün məsləhət görür ki, institutdan çıxsın. Anam təhsilini davam etdirə bilmədiyindən çox əzab çəkirdi. O hər dəfə nəfis şəkildə yazılmış və anatomiya kitabından dəftərində çəkilmiş şəkillərə baxdıqda təhsil ala bilmədiyi üçün gözləri dolurdu. Anam bu dəftərləri gəncliyinin ən gözəl xatirəsi kimi ömrünün son gününə qədər saxladı.

Anam çox inamlı, əqidəli, cürətli qadın idi. 13 yaşından son gününə qədər, hətta Sovet diktaturasının ağır illərində belə, bir dəfə də olsun nə orucunu, nə də namazını buraxmayıb. Ancaq heç vaxt tərki dünyalığa yol verməyib. Din yolunda özünü fəda edənlərə də nifrət edib. Anam bir dəfə də olsun haram çörək yeməyib, dilinə yalan gəlməyib, özgə malında tamahı olmayıb, qonşu ilə savaşmayıb, özgə sultan ola ona qarışmayıb, onunla yol gedən, yoldaş olan ondan inciməz, evə gələnlərin heç birini yedirməmiş buraxmazdı, ərinə dərin məhəbbət bəsləyib, nəvələrini dərindən sevər, gecələr nəvələrin bir balaca səsi çıxanda yuxudan ayılıb

onlara layla çalar, gəlinlərin işinə qarışmaz, onlarla ana-bala kimi dolanar, onlara doğru yol göstərər, ağıllı məsləhət verərdi.

Anam bizi təmkinli hərəkətləri, sakit əsəbsiz danışığı ilə tərbiyə edib. Ona görə evladlarının heç biri dava-dalaş bilməz, hansı biri hirslənəndə də göz yaşlarına müraciət edərdilər. Anam yeznələrinə də hörmət və ehtiramla yanaşardı. Qızların evlərində balaca bir söz-söhbət olanda, qızlarını danlayardı. Anamın bu məziyyətlərinə görə də Atamla birlikdə şəkillərini rəssama çəkdirib iş otağımdan asmışam. Ağır dəqiqələrimdə, məsləhətə ehtiyacım olanda şəklə baxıb təskinlik tapmışam və yorulmadan ilhamla işləmişəm".

İsmayıl müəllimin anası barədə xatirələrindən: "Ana haqqında fikir söyləmək həm asan və həm də çətindir. Asan ona görə ki, bildiyin, tanıdığın, uzun müddət təmasda olduğun, müşahidə etdiyin adam haqqında fikir söyləyirsən. Lakin bu işin başqa bir tərəfi də vardır. Qəribə də görünsə bu da bir həqiqətdir ki, çox yaxınlıq, böyük sevgi, sevdiyin, çox yaxın olduğun insanın bir çox xüsusiyyətlərini görməyə, dərk etməyə imkan vermir, çünki o xüsusiyyətlər təbii bir hal kimi qavranılır. Hələ vaxtilə tanınmış rus şairi S.Yesenin deyirdi ki, "Liüom k liüu, liüa ne vidatğ", yəni insana çox yaxın durduqda onun üzünü görə bilmirsən. Anam qeyrətli, namuslu, fədakar, vəfalı bir türk qadını. Lakin bu onun çox ümumi xarakteristikasıdır. Bu sözləri bir çox qadınlarımız haqqında da demək mümkündür. Lakin anam bir sıra nadir və çox dəyərli müsbət keyfiyyətlərə malik bir adam idi. Anam bir ev qadını deyildi. O, ailədə, cəmiyyətdə öz işini, rolunu, yerini, vəzifəsini dərindən dərk etmiş bir şəxsiyyət idi. Onun ən yüksək dəyərlərə əsaslanan öz fikri, mövqei var idi. Ona görə hamı, o cümlədən atam onun fikri, məsləhəti, tövsiyyəsi ilə hesablaşırdı. Bəzi prinsipial məsələlərdə anam qəti və barışmaz idi. Anamın nadir xüsusiyyətlərindən birincisi və vacibi o idi ki, anam əqidəli bir insan idi, möhkəm etiqad sahibi idi. Anam üçün ən böyük dəyərlər ümumibəşəri dəyərlər, ailə dəyərləri idi. Anam məclisdən, eyş-işrətdən tamam uzaq bir adam idi... Anam tamahsız, dün-

yanın maddi nemətlərinə biganə, özgə varında, özgə malında gözü olmayan öz nəfsini idarə etməyi dacaran bir adam idi.

Anamın ən parlaq, gözə çarpan xüsusiyyətlərindən biri, onun dürüst, halal bir insan olması idi. Anamda, özünü çox qabarıq şəkildə göstərən haram, halal anlayışı, məqbul və qeyri-məqbul şeylər əqidəsi var idi. O, haram saydığı şeyə qətiyyən yaxın durmazdı, əl vurmazdı, yeməzdi, öz əqidəsinə bir bəhanə tapıb zidd hərəkət etməzdi. Bəzən bu anlayış onu çətinliyə salırdı, lakin anam bu çətinliklərə çox mərdcəsinə dözürdü və öz vəziyyətindən, öz halından şikayət etmirdi. Anam həmişə yardıma hazır, xeyirxah bir adam idi. Ona görə də onun həm ailənin içində, həm də ailədən kənarda, onu tanıyanlar, bilənlər, qohumlar, əqrabalar və xüsusən də doğma kəndimizin əhalisi arasında böyük nüfuza malik idi. Ona yalnız atama görə yox, öz yüksək məziyyətlərinə görə hörmət edirdilər. Anam Xəlifə nəfəsi idi və öz babasının şərəfli yolunu ləyaqətlə davam etdirirdi. Anam son dərəcədə qonaqpərvər, səxavətli bir insan idi. Onun süfrəsi hamıya və hər zaman açıq idi. O son parça çörəyini bölməyi, paylaşmağı, ehtiyacı olana verməyi hazır bir insan idi. Çətinlik illərində və xüsusən müharibədən sonrakı illərdə evimizə gələnləri yedirməmiş buraxmazdı.

Anamın təhsili yüksək deyildi, təxminən orta məktəb səviyyəsində idi. Lakin o, ev işləri ilə həddən artıq yüklənməsinə baxmayaraq, cəmiyyətdə, ölkə və ölkə xaricində gedən hadisələrə ciddi maraq göstərirdi və hər dəfə onun yanına gələndə ölkədə, dünyada baş verən hadisələri soruşardı və həmən hadisələrə öz münasibətini bildirərdi.

Anam bir çox analar kimi çox mehriban, qaytıkeş, lakin səbirli, təmkinli, müvazinətli bir insan idi. Mən bir dəfə də olsun onun öz müvazinətini itirdiyni, qışqırdığını, hay-küy saldığını görmədim. O ən çətin şəraitdə öz hisslərinə hakim olmağı, öz davranışını idarə etməyi bacarırdı. O ən ağır hisslərini sakit keçirməyi, sakit yaşamağı bacarırdı. O, son dərəcədə ağıllı, tədbirli, toxtamalı, iradəli, cürətli idi, bir növ hamı üçün nümunə idi. Anam məsuliyyəti öz üzərinə götürməyi

bacaran, çətinliklərdən qorxmayan, həmişə ümidlə yaşayan xoş gələcəyə inanan, optimist təbiətli bir adam idi. Mən bunun müharibə dövründə, ailəmizin həyatında baş verən kritik anlarda dəfələrlə şahidi oldum. Bir də anam olduqca işgüzar, fəal və cəld iş görməyi bacaran idi və bu xüsusiyyəti son günlərinə, yatağa yıxılana qədər saxladı. O öz cəld iş görməyi ilə hamını heyran edirdi.

Anam geniş dünyagörüşlü, irəliyə baxan, müdrik bir insan idi. Atam Qori Seminariyasını bitirdikdən sonra kənddə müəllimlik edirdi və öz işindən razı idi. Atamın kənd şəraitindən ayrılmasının və sonra təhsilini davam etdirməsinin bir səbəbkarı da anam idi. Atam anamın, onun elmi fəaliyyətindəki müsbət rolunu açıq etiraf etməkdən çəkinmirdi".

Professor Əhməd Seyidov kimdir. Sual zahirən elə bir ciddiyyəti mənasında səslənməyə bilər və artıq peşəkar pedaqoqlar, yaşa dolmuş məzunlar, elitar təbəqənin nümayəndələrinin konkret məlumatları var. Sözümüz yoxdur. Lakin oğul professor Fikrət Seyidovdan danışıramsa bu fenomenal şəksiyyətdən söz açmamaq zənnimcə qeyri-mümkün işdi.

Doğulduğu və vəfat etdiyi tarix (1892-1977) bəllidi, Qori Müəllimlər Seminariyasında oxuduğu (1911-1917) illər də həmçinin. Mən istəyirdim ki, görkəmli alimin siması, nüfuzu, sözü və digər keyfiyyətlərinin qiymətini faktların timsalında oxuculara çatdıram. Və ön söz olaraq Fikrət müəllimin sözləriylə başladım: "Atam Əhməd müəllim ağır, əzablı həyat yolunda gördükləri, hiss etdiyi, özü keçirdiyi bu keyfiyyətlərdən bütün böyüyən nəslin, dərs dediyi tələbələrin, aspirantlarının, ətrafındakı adamların və uşaqlarının da düzgün nəticə çıxarmasını istəyirdi".

Gəlin, qənaətin xoş, kövrək tərəfləriylə bərabər, bütövləşmiş insanın zirvə yolunda nələrin mütləqliyi zərurətinə də diqqət yetirək: zəhmətkeşin həyat yollarında qeyri-adi rolu və bu işin müşahidəsi. Nəhayətdə, tətbiqinə nailolma xoşbəxtliyi. Əhməd Seyidov erkən ikən atasını itirmiş, anası Xədicə himayəsində böyümüş, təhsil almışdır. Və bu atasızlıq bəlkə də onun iradəsini for-

malaşdırmışdır. Daha doğrusu, anasının fədakarlığı, zəhmətkeşliyi irsən oğula da keçmişdir.

Bir xatirəyə nəzər yetirək: "Nənəm Xədicənin fədakarcasına ağır zəhmətini yüksək qiymətləndirən atam onu dərin məhəbbətlə sevmiş və hətta qardaşlardan ayrılanda da özü ilə bərabər aparmışdı. Nənəm Xədicə də, atamda olan işgüzarlıq, dəyanət, ürək açıqlığı, anasına məhəbbət, elmə olan həvəsi sezib, onun həyatının uğurlu olması üçün əlindən kələni əsirgəməyib".

Fikrət müəllim nənəsinin oxumağın, savadlanmağın tərəfdarı kimi müsbət xüsusiyyətlərini göstərir, belə olduğu üçündü Əhməd müəllimin təhsil almasına şərait yaratmışdı. Hətta anada həssaslığa bax ki, oğlunu kənd-məişət qayğılarınan azad eləyir. Beləliklə, Əhməd Seyidov Aslanbəylidə Hacı Mahmud Əfəndiyevin hücrəsində, sonra Salahlıda Əhməd ağanın məktəbində ibtidai səviyyədə oxumuşdur. Bir maraqlı detalı qeyd eləməliyik: Professor, əməkdar elm xadimi Əhməd Seyidov müəllimlik sənətini, pedaqoji prosessin məsuliyyətli və şərəfliliyini xüsusi xatırlamışdır. Bu qiymətvermə hətta ən ali təhsil tribunalarında səslənmişdir. İlk müəllimlərindən Əhməd ağanı ləyaqətlə, kövrəkliyilə hafizəsində qorumuşdur: "Əhməd ağa nəinki şagirdlərinə dərs verir, o, həm də uzaq kəndlərdən onun məktəbinə gələn uşaqları evində saxlayıb yedizdirirdi. Biz oxuduğumuz müddətdə bir dəfə də olsun ondan yersiz hərəkət, uca ton, pis münasibət görmədik. Onun şagirdlərinə mənəvi təsiri olduqca böyük idi. Əhməd ağa elə dərs keçərdi ki, o dərsə getməmək olmazdı. Təəssüf ki, bu xalq müəlliminin, *Azərbaycanın Pestalotsinin 50 ildən artıq müəllim kimi fəaliyyəti indiyə qədər öyrənilməmişdir"* (Kursiv bizimdir. - A.E.). Professor Ə.Seyidovun sözləri səlahiyyətli şəxslərin "papağım qarşısına qoyub" düşünməyi, barı öz keçmiş müəllimlərini hörmətlə anmağı,adlarını əbədiləşdirmək cəsarətini (yəqin ki, yoxdur) ortaya qoyur. Dünyanın ən dahi tiranları belə öz müəllimlərinin şəxsiyyətinə və ruhuna izzətlə yanaşmışlar. Hələlik Azərbaycan Məmləkəti bu müqəddəs hissdən çox-çox uzaqdır. Necə ki, Fəxri Xiyabanda bir

görkəmli pedaqoq belə dəfn edilməmişdir! Əhməd Seyidov da heyif ki, belə laqeydlikdən istisna olmamışdır. Adına nə bir məktəb və küçə, nə də mükafat və xatirə lövhəsi vardır. Mən unudulmaz müəllimim barədə (70-ci illərdən başlayaraq) yazanda bu narazılığımı bildirmişəm. Bakının küçələri çox-çox ad-soyadları daşıdığının əzabını çəkməkdədir. Həqiqəti budur ki, kimin vəzifəsi, yuxarıların yanında nüfuzu yetərincədi - doğmaları unudulmur. Orta səviyyəli aktyorlar, sənət adamları və sairə ilə doludur. İstəmirəm onlar da yaddan çıxsın, xeyr, İnsan xatirələrdə əbədiləşməlidir. Amma Zəmanə hər kəsin öz qiymətini verməlidi. Yaxşıya yaxşı... əlbəttə. Bu düşüncələrdə həm sovetlər ideologiyasına, həm də müstəqillimizə qayıtdım. Hansı ki, Ölkə qarantı olduğu Vətəndaşına laqeyddi, biganəydi. O, Vətəndaşa pıçıldayırdı: Təsəlli al ki, ölməyin havayıdı a! Mərhum şairimiz Cabir Novruzun bir gözəl şerini xatırladım və bəzi misraları deməyə borcluyam:

*Bu ölkədə təkcə ölmək havayıdır,*
*Qalan şeylər pulla başa gəlir daha...*
*Bu, qəlbimin naləsidir, harayıdır,*
*Amal olur alqı-satqı gəlir daha...*
*Nanəciblər nəciblərin üstə düşür...*
*Bu ölkədə ən çox inam havayıdır.*
*Bu, qəlbimin ən nigaran sualıdır,*
*Bu məmləkət görən belə hara gedir,*
*İndi ən çox inamsızlıq baha gedir...*

Və bu inamsızlıq get-gedə böyük hərflə yazılır, seçilən tək-tək soydaşımızın Baş daşında qərar tutur. Gəlin, ölən - belə Oğullarımızı "Kimdir?" sualı ilə haqq Dünyasına yola salmayaq...

Əhmədağa Mustafayev də haqlı olaraq "Kimdir?" sualını "qazanır". Qori Müəllimlər Seminariyasının nadir və ardıcıl araşdırıcısı professor F.Ə.Seyidova üz tutduq. Və bu dəfə də "təəssüflə" başladıq: "Təəssüflə qeyd etmək lazımdır ki, Azərbaycan xalq maarifinin əvəzsiz xadimlərindən olan Əhmədağa Mustafayevin həyat və fəaliyyəti haqqındakı materiallar *Qazax Seminariyasının arxivi*



*Professor Əhməd Seyidov*

*yandırılarkən* (kursiv bizimdir - A.E.), onların içərisində məhv olub".[1] Belə xislətliyik, əziz oxucularım, soydaşlarım. Rusların Lomonosov Universiteti qədər xalqımızın maariflənməsində misilsiz xidmətli Seminariyanın arxivi şüurlu şəkildə alovun dilimlərində yanır, bəzi nanəciblərsə əlini bu al-qırmızı alovda isidirlər! - Laqeydlik ətalətdir, necə ki, belə adam düşməndən qorxuludur - haqlı sözdür.

Böyük F.B.Köçərlidə oxuyuruq: "Çox kəndlərdə biçarə müəllimlərin halı ziyadə çətinlik ilə keçir... Kənd müəllimlərinin içində İsa bəy Abakarov, Əhməd ağa Mustafayev, bir neçə möhtərəm şəxslər var ki, həqiqətdə millət xadimi olub, cani dildən təlim və tərbiyə işlərinə ömürlərini sərf ediblər. Bunların hər birisi 20 ildən ziyadədir ki, müəllimlik etməkdədirlər". - Fədakarlıq taleyin zərbələrini heçə endirir. "- Demokratik sözlərdir. Qəribədir ki, Firudinbəyin bu fədakarlığını, mərdliyini zəmanəsi qiymətləndirmədi. Taleyi faciyəylə qurtardı.

Hər hansı bir şəxsdən: alim, sənətkar, pedaqoq, mühəndis, iştirakçı və ilaxırdan yazanda məni məsələnin, mövzunun tərbiyəvi tərəfi də düşündürür. Ortaya gələn o Şəxs necə oldu belə yüksək səviyyəyə çatdı? Mühitmi, doğmalarmı, yaxşı insanlarmı yardımçı oldular? Barı, qollar və çiyinlər üstündə gəlmişlər - oxuyub fikirləşsinlər ki... Bu həyat-dəyirman çox su aparır, axı! Eləcə də Əhməd Seyidov da belə mənəvi - sosial proseslərsiz ötüşməmişdir. Birincisi, anası Xədicə işin baiskarı olmuşdur. Oğlunun təhsil almasınnan ötrü

1. Seyidov F.Ə. Maarifimizin təkrarsız xəzinəsi. B., 2001, səh. 154.

günlərlə götür-qoy eləmiş, oğlanları ilə məsləhətləşmiş və nəhayətdə qərarında qətilik göstərmişdir. İkincisi, Qazax mühiti əzəldən ziyalılığa meyilli olmuşdur. Övladların oxumasını valideynləri problemə çevirməmişlər, əzab-əziyyətə qatlaşmışlar. Üçüncüsü, yaxşı insanlar-müəllimlər olmuşdur, necə ki, Əhməd ağa Mustafayev və Seminariyanın əməkdaşları. Tək inəyi satıb oğlu üçün yol pulu eləyən Xədicə ana: qardaşları Qoriyə göndərmiş, Əhməd də qabiliyyətiylə uğurla imtahan verib girmişdir. Lakin vur-tut 2 pulsuz yeri rus dilini bilən 2 nəfər tutmuşdur. Lakin imtahanda cavabları, M.Lermontovun "Üç xurma ağacı" şerini avazla söyləməsi unudulmamışdır.

Mən, ümumən, tələsməyən oxucularımı xoşlayıram, hövsələləri var ki, müəllif "şıltaqlığma" dözürlər. Seminariyaya imtahan verərkən məhz dahi rus şairindən "Üç xurma ağacı"m əzbərləməsi məndə maraq doğurdu: Kənd məktəbində bu şerin hansı məziyyətinə görə şagirdkən sevmişdir, yaddaşına köçürmüşdür. Mən də M.Y.Lermontovun Azərnəşrin 1989-cu ildə buraxdığı əsərlərini vərəqlədim, şeri axtardım, yoxuydu...

Pullu təhsil qardaşları məyus eləsə də, çarə beləydi ki, oxumalıydı. İnəyin pulu bu təhsil haqqını ödəyir. Lakin (bu "lakinlər" hadisələrin "qapısıdı" ha!) Seminariyanın katibi Qolubyatnikov Əhməd Seyidovu direktorun yanına çağırır, ən yaxşı imtahan verən kimi. Və pulsuz qrupa salır (3 gündən sonra). Maraqlıdır, Əhməd Seyidov o pulları kəndlərinə gedən birisindən anasına göndərir və inək almağı tapşırır.

Seminariyanm xüsusi geyim forması olmuşdur: şapka, yaraşıqlı şalvar, pencək, ayaqqabı, əsgər qayışına bənzər enli kəmər.

Əhməd Seyidov müəllimlik fəaliyyətinə xeyirxahlıq rəmzi kimi başlayır: Öz evində, sonra comuşçuların krişalı evində məktəb açır, hətta orada qızlar da təhsil alırlar. Sadəcə onu demək istərdim ki, gənc müəllimin səmimiliyi, vətəndaşlıq hissi ilkinliyində özünü büruzə verir. Əməkdar müəllim Osman Cəfərovun xatirələrindən: "Professor Seyidov təmiz qəlbli, geniş düşüncəli, gələcəyi yaxşı görə bilən, hamı üçün xeyirxah, düzgün yol göstərən

şəxsiyyət olduğuna görə kəndimizin bütün camaatı Əhməd müəllimə inamr və onun dediklərinə əməl edirdilər. Ona görə də kənd sakinləri uşaqlarını hücrədən çıxarıb Əhməd müəllimin yeni tipli məktəbinə göndərirdilər".[1]

Az sonra (1918) ADR-ın yaranması Ə.Seyidovu daha geniş fəaliyyətə ruhlandırır və artıq Qazaxa göçürülmüş Seminariyanın pedaqoq-müəllim kadrları ilə möhkəmləndirilməsində onun direktoru F.B.Köçərliyə (1863-1920) yardımı olur. Yaxından tanıdığı, bir oxuduğu Hacı Kərim Sanılı, Osman Şıxlınski, İsa Abakarov, Səlim Əfəndiyev, Əli Hüseynov (Mehdi Hüseynin atası), Yusif Qasımov və başqaları ilə bu sahədə əməkdaşlığa girir. 1920-ci ildən etibarən Ə.Seyidov müxtəlif vəzifələrdə çalışmağa üstünlük verir.

Bir dəfə professorla söhbətimdə məsələyə toxundum ki, savadlı gənc, bitkin yaşlarınızda hansısa vəzifəyə gedə bilərdiniz və təkliflər də olmamış deyildi. O, ani xəyala daldı, güman ki, ötən illərinin səsini eşidirdi, dilləndi: - Çox-çox, hətta mənimlə qurtaranlardan sovet, hərbi işlərə gedənlər vardı, amma mən pedaqoji fəaliyyəti üstün tutdum.[2]

Zaman gərdişindən, qanunçuluğundan asılı olaraq diqtəsinə üstünlük verir; bir şərtlə ki, soydaşının ürəyində təpər, eşq, yanğı olsun. Sovet dövrünün ilk illərindən süqutuna az qalmasına qədər yaratdığı qanunların keşiyini çəkdi. Məsələn, böyük şəxsiyyətlərin o illərdəki tərcümeyi-halını oxuyanda bunun şahidinə çevrilirik. O cümlədən Əhməd Seyidov: 1926-cı ildən Lənkəran qəzasının maarif müdiri işləmişdir.

Mən orta məktəbi Lənkəranda, onun yaxınlığındakı Gərmətük kəndində oxumuşam (1955-1958); xalam Dürnəstə Eminova Pedaqoji Universitetin dil və ədəbiyyatı fakültəsini qurtarmışdı. Doğmaca dayısı, məşhur tarixçi, uzun illər BDU-da da çalışmış, kafedra müdiri Məmməd Şıxlıya deyir ki, təyinatımı Lənkərana veriblər, tanıma-

---

1. Seyidov F.Ə. Aslanbəylidən başlanan xatirələr. B., 2000, səh. 95.
2. Eminov A. Əhməd Seyidov fenomeni. B., 2003.

dığım yerdi, heç olmazsa Salyan olsun ki, yeznəm (atam Eminov İsgəndər) orada dəmir yolu rəisidir. Məmməd Şıxlı birmənalı cavab verir: - hara göndərilmisən, oraya da get! Nə isə. O zaman Lənkəranda din və dini təbliğat güclüydü. Qızlar erkən (10-12 yaşlarında) ərə verilirdi. Belə mühitdə Əhməd müəllim gərgin, usandırıcı əməyilə, şəxsiyyətiylə xüsusən geniş nüfuz qazanır. Xalqın balalarını təhsilə istiqamətləndirir. Maraqlıdır, qızların təhsiliylə ayrıca məşğul olmaq üçün "inspektor" vəzifəsini təsis edir. Eyni zamanda mühüm problemlərdən sayılan ana dilinin tədrisinə, təmizliyinə, qadın təhsilinə diqqəti artırır və belə məsələləri birbaşa öz nəzarətinə alır.

Professor Əhməd Seyidovun qadın təhsilinə diqqətliliyi onunla proqnozlaşırdı ki, azəri-türk qadınları oxusunlar, maariflənsinlər. Yaxın Şərq və Güney Azərbaycan xalqlarının və qızlarınm azadlığında, təhsilində rol oynasınlar. Bu işi o, hətta Azərbaycan Pedaqoji Universitetdə çalışdığı 60 ildə də davam etdirmişdir. Aspirantı Zümrüd Axundovaya dissertasiya mövzusu olaraq "Azərbaycanda qadın təhsilinin inkişafı"nı vermişdir.

Lənkərandan sonra Bakıya qayıdır. Müxtəlif sahələrdə işləyir, elmi-tədqiqata meyil göstərir və məqsədinə nail olur. 1939-cu ildə "A.A.Bakıxanovun pedaqoji görüşləri" adlı dissertasiyam müdafiyə edir və Azərbaycanda ilk pedaqoji elmlər namizədi, 1947-ci ildə isə "XIX əsrin Azərbaycan Pedaqoji fikrin əsas nümayəndələri" doktorluq dissertasiyası ilə də ilk elmlər doktoru olur, həm də bütün Zaqafqaziya və Orta Asiyada.[1]

Əhməd Seyidov Bakıya qayıdır və mürəkkəb, amma şərəfli şəraitdə öz işini davam etdirir. Belə hallarda qayğıya ehtiyac olur. Xoşbəxtlikdən hər şey axarına düşür. Və xüsusilə, xalq yazıçısı Mehdi Hüseynin atası, görkəmli ziyalı Əli Hüseynovun xeyirxahlığıyla üzləşir. Bu münasibət bir az da irəli gedir.

Ə.Seyidov Qazaxda çalışarkən danosçular, mənəvi quldurlar və sairlər bu dəfə gənc Əhməd müəllimi hədəfə alırlar. Əli Hüseynov

1. Eminov A. Əhməd Seyidov fenomeni. B., 2003.

bu vaxt məsləhət görür ki, Qazaxdan uzaqlaşsın, havalar bulanıqlaşır. Ağıllı məsləhət Əhməd müəllimin ağılına batır və bu yolu seçir. Maraqlı epizodu xatırlamaq yerinə düşür: Əli Hüseynov kasıb, heç nəyi olmayan Əhməd Seyidova kiçik yazı stolu da bağışlayır. Zamanın tərkində illər uçub gedirsə, həmən stol yadigar kimi Seyidovlar ailəsiylə Bakını evbə-ev kirayənişinli otaqların əbədi sakininə - əşyasına çevrilir. Fikrət Seyidov deyir ki, atam bu çəlimsiz stolda həm namizədlik, həm də doktorluq dissertasiyalarını yazdı: "Masa bizim ailəyə xoşbəxtlik gətirmişdi. Bu masada atam namizədlik və doktorluq dissertasiyasını yazdı. Masa sonra böyük qardaşım İsmayıla keçdi. Və o da onun üzərində namizədlik dissertasiyasını tamamladı, nəhayət masa mənə təhvil verildi. Mən də onun üzərində atamın və Əli Hüseynovun təhsil aldıqları Qori Seminariyasının tarixini, orta ümumtəhsil məktəbləri üçün dərsliklər və bir çox kitablar yazdım. Sonralar özünün görkəmini itirmiş masanı tullamağa heç kəsin əli gəlmədi. Atam ömrünün son aylarını kəndə keçirdi. O, həmən masanı özü ilə bərabər Aslanbəyliyə apardı. O stol indi də kənd evimizdə durur".

Bu detalın tərbiyəvi əhəmiyyəti var; adi cansız əşyaya da sədaqət olmalıdır. Çox-çox əvvəl Fikrət müəllim bu əhavalatı danışmışdı mənə. Memuarını oxuyanda o qədər sevindim ki... Və bu epizodu yazıma köçürəndə təxmini oxşarlıq yadıma düşdü: Ailəmiz İmişlinin Qaradonlu dəmir yolu stansiyasında işləyəndə açılma, qəhvəyi-qırmızıya çalan stol alır 1933-cü ildə və bu ili də böyük qardaşım Emin (Allah rəhmət eləsin) dünyaya gəlir. Sonra atam Masallı və Novoqolovka stansiyalarına dəyişilir. Oradan da Qırmızıkənd dəmir yolu stansiyasına. Stol da səyahətini davam eləyir. Birinci sinifdən ta onuncu sinfi bitirənəcən həmən stolda dərslərimizi (Bacım Xədicə, qardaşım Emin) hazırlaşmışıq. Aspiranturada ikən yay tətilinə qayıdanda materialları özümlə kəndə gətirirdim, yazı-pozumu aparırdım. Bu stolda hətta bizə qonaq gəlmiş (1956) İsmayıl Şıxlı, dilçi Azər Hüseynov (Pedaqoji İnstitutda sonralar müəllimim olmuşdur), unudulmaz müəllimim

Abuzər Ağayev, neçə-neçə uşaqlıq dostlarım əyləşmişlər. Sonuncu dəfə anamla üzbəüz oturmuşdum. Xəstəhaldı, ömrünün 90-nına qonaq gəlmişdi, elə də qonaq getdi. Xatirələrini çözələdi, ötən günlərinin heyfini çəkdi. Mənim də məktəb illərimdən, hətta dərs hazırlayanda yuxu aparmasından, başımı stoldan qaldırıb, qucağında yatağa aparmasından (8-ci sinfə qədər anamla yatmışam)... söz saldı. O, stol cüzi qəşəngliyini itirmişdir, amma möhkəmliyi qalmışdır, heyif ki, Bakıya gətirmək üçün otaq(lar) əl vermir. Əslində elə kənd yaxşıdı, yolumuz oradır, axı!

Əhməd Seyidov 1930-cu ildə Universitetin şərqşünaslıq fakültəsində oxuyarkən və dəmir yolu məktəbləri üzrə inspektor işləyərkən mərhum maarif naziri, akademik Mehdi Mehdizadəylə tanış olur.

Əhməd Seyidovu tanıyanlar, əlbəttə yaxından ünsiyyətdə olan yad adamları nəzərdə tuturam, az deyil. Bir də başları elmi və məişət işlərinə o qədər qarışıbdır - ötən günlərin gec-tez itəcək, əbədi sönəcək xatirələrini qələmə almaq istəmirlər. Hər halda arxadan boylanan ömrün anları pis olmur. Yadıma antik Epikurun (e.ə. 342-271) sözləri gəldi: "Kim keçmiş xoşbəxtliyi haqqında düşünmürsə, deməli, artıq qocadır". Təəssüf ki, belələri özləriylə xəzinəni də qəbrə aparıb orada gizlədirlər. Professor Əhməd Seyidovun insani cizgiləri hələlik diri adamların unutqanlığındadır. Onun özü isə Özü barədə bir kəlmə de deməzdi. Hərçənd, mən Əhməd müəllim haqqında yazanda bəzi pedaqoqları danışdırmışam, bir-iki kəlmə ilə kifayətləniblər, yalnız gözəl pedaqoq Bəxtiyar Abdullayev istisnadır. Oğlu Fikrət Seyidovun memuarını oxuyanda məhz böyük insanın xasiyyətinin mübhəm çalarları ilə tanış olursan. Bakıdakı bir-iki otaqlı mənzilinin qohum-əqrəbaların, tanışların gəldikləri yerə çevrildiyni görürük. Kimi xahiş üçün, kimi məsləhət almaq üçün, kimi də şəxsi qayğısı üçün pənah gətirirlər. Əhməd müəllimin həyat yoldaşı isə bütün naza dözür, əsla narazılığını bildirmir və sairə. Bu ürəyiaçıqlıq təbii ki, evin kişisindən gəlir. Gəlib-gedənlər tanınmış ziyalılardı. S.Vurğun, M.Hüseyn, O.Sarıvəlli, Ə.Dilbazi, M.Mehdizadə, Hacı Kərim Sanılı, Əhmədağa Mustafayev, Mikayıl Müşfiq. Bu sonuncu sima barədə az sonra

xatirəyə qayıdacam... Xüsusilə, 1930-1937-ci illərdə əhalinin maddi durumu ağır ikən Seyidovlar ailəsi, başda Ata və Ana olmaqla yay aylarında kənddə olur, qardaşlarına mal-qara aldırdırıb, qatıq-südlə təmin edilir, yeri gələndə qənaətçilikdən çəkinmir. Alman, dilənçi Anna Semyonovna adlı qadını evdə bir növ xidmətçi kimi bir qızıyla saxlamaq, ögey-doğmalığı hiss elətdirməmək, sonralar o qızı ərə vermək, kənddə yaxınların ona cehiz-filən bağışlamaq, hətta Seyidovun yardımıyla qonşuluqda bir ev də almaq - çox şeydən xəbər verir. Maraqlıdır, Fikrət müəllim Annadan elə şəfqətlə söz açır, heyran kəsilirsən, yəni evin o vaxt balaca uşaqları bu təmiz, xəyanətsiz qadını sevdiklərini unutmamışlar. F.Seyidov xatirələrində yazır ki, arvad evin bütün işlərini sahmana salandan sonra, axşamlar paltarları ütüləyər, pəncərələrə qıraxmallı pərdələr asardı. O zaman belə səliqəli, dəbdəbəli çox az ev görmək olardı. Atamın aspirant yoldaşı, sonralar Maarif Naziri olmuş Mehdi Mehdizadə bizə gələndə deyərdi: "Əhməd, deyəsən evinizdə bu gün təntənə var". Ev doğrudan da adamın üzünə gülərdi. Anna Semyonovna bizim dərslərimizə, çantalarımızın axşamdan qablaşdırılmasına nəzarət edər və qardaşım İsmayıla alman dilini öyrədərdi.

1937-ci ilin gəlişi və gedişi xalqımız üçün ağır faciyələrlə qurtardı. Neçə-neçə qeyrətli və istedadlı oğullarımızı apardı və qaytarmadı. Belələrindən biri də ölməz şairimiz Mikayıl Müşfiqdi. 1937-ci ildə onu tora salmaq üçün əsərlərinin təftişinə başlayırlar. Fikrət müəllim birinci sinfə getməzdən Müşfiqi gördüyünü xatırlayır. Əhməd müəllimlə görüşür evdə və Fikrətdən soruşur ki, şer bilirsənmi? Atası söhbətə müdaxilə eləyib: - Bu şair Mikayıl Müşfiqdir. Siz məktəbdə onun şerlərini oxuyacaqsız deyir.

Məlum olur ki, şairi izləyirlərmiş, onun şerlərinə "qulp" qoymağı planlaşdırırlarmış. Müşfiq də o vaxt çox məşhur pedaqoq Əhməd Seyidovdan rica eləyir ki, onun şerlərindəki tərbiyəvi fikirləri açsın, xırdalasın. Əhməd Seyidov 12 səhifəlik bir rəy yazır.

Haşiyə çıxaq ki, o zaman şairlərin əsərlərini tez-tez pedaqoqlara rəyə göndərirlərmiş. Heyif ki, şairlərimiz indi nə pedaqogika-

nı bəyənirlər, nə də pedaqoqları. Ona görə də 20-30 il uşaqların ünvanına şerlər yazırlar. Di gəl, "Uşaq və buz", "Keçi", "Dovşan", "Ay havada uçan durna", "Cücələrim" səviyyəsinə qibtə edirlər. O şairlər nə pedaqoji təhsil almışdılar, nə də dissertasiyalar qələmə almışdılar... Bu hadisəni Fikrət müəllim mənə çox-çox əvvəl söyləmişdi. Ondan xahiş eləmişdim ki, o əlyazmanı çap eləyək, ədəbi ictimaiyyət üçün maraqlı olardı. Fikrət Seyidov təəssüflü əhval aldı və itmiş (əslində oğurlanmış) əlyazmanın taleyini belə əlaqələndirir: "Atamın işləyib 12 səhifədən ibarət çox mararqlı, tarixi, elmi sənəd olan əlyazması şəklində olan bu rəy lap son dövrə qədər evimizdə qalmaqda idi. 1977-ci ildə atam rəhmətə gedəndə evimizdə dəstə-dəstə Azərbaycan ziyalıları gəlib başsağlığı verirdilər. Bir cümə axşamı evimizə gələn Mir Cəlal Paşayev, Abbas Zamanov, Mirzağa Quluzadə, Tələt Qayıbov, Osman Sarıvəlli, Ziyəddin Göyüşov və bir çox başqaları söhbət əsnasında Mikayıl Müşfiqdən söz açdılar. Mən dedim ki, Müşfiqi mən də görmüşəm. Hətta atam o zaman ona 12 səhifədən ibarət şerlərinin ideoloji baxımdan, əxlaq nöqteyi-nəzərindən gənc nəslin tərbiyəsi üçün yararlı olduğunu sübut edən rəy yazmışdı. Rəyi də gətirib onlara göstərdim. Oxumaq imkanı olmadı. Baxanlar atamın muncuq kimi əlyazmasına valeh olub, Qori Seminariyasını mədh etdilər. Bu söhbətdən 2 gün sonra Akademiyanm Ədəbiyyat İnstitutunun işçilərindən kimsə, indiyə qədər o şəxsi xatırlaya bilmirəm, gəlib məndən o rəyi heç olmazsa ikicə günlüyə verməyi xahiş etdi. Çox sözlər söylədi. Mən də sadəlövlük edib yeganə nüsxəni verdim. Kimə verdiyimi unutdum. Rəy qayıtmadı. İndi də özümü bağışlaya bilmirəm".

Hələ də o yadigar Əlyazma Sahibinə qayıtmamışdır. Mən professor Əhməd Seyidov haqqında yazsam da... sonrakı nəsil də susmayacaqdır. Amma mən fikrimi böyük pedaqoqun, insanın nəvəsi professor, millət vəkili Səməd İsmayıl oğlu Seyidovun kiçik xatirələriylə tamamlayım: "O mənim Ata babamdır. Bütün Məmləkətimizdə Orta Asiyada məşhurdur. Qürurlanıram ki, Əhməd Seyidovun ailəsində doğulmuşam və bu nəsildənəm".

## § 2. Sovetski - ramedilməz mühit

Burada təəccüb axtarmağa ehtiyac duymuram, amma çiyinləri-ni çəkən tapılacaq da! Fikrət Seyidovun, əslində Seyidovlar ailə-sinin Sovetskiylə əlaqəsinə toxunmağa ehtiyac varmı? - sualını verənlər də...

Bakı İnqilabdan qabaq çox məhəllərə bölünmüşdü və bu gün də ənənə yaşayır. Bilmirəm bu, nə dərəcədə məqbuldur, - deməkdə çətinlik çəkirəm. Bir həqiqətdi ki, kəndlərimizdə, rayon mərkəzlərimizdə məhəllələr adlaryıla qalır. O cümlədən, Sovetski də. Küçə belə adlandığından "Həmşəri palanı", "Yuxarı dağlıq" və sairi əhatə eləmişdir. Məni bir məsələ bu haqda danışmağa yönəltmişdi ki, bu Məhəllə hələ inqilabdan çox-çox əvvəl məskunlaşmış, xırda evlər göbələk sayağı bir-birinə sığınmışdır. Dar dalanlar, küçələr və bu sıralanan bir-iki mərtəbəli evlərin həyətindən çıxan sakinlər bir-birini çox yaxşı tanıyır, isti və soyuq baxışlarını gizlətməmişlər. Mehribanlıqla düşmənçilik heç vədə örtülü qalmamış, dərhal əsasən də dava-dalaşla məsələyə yekun vurulmuşdur. Məhəllə adamları yaşlarının fərqinə varmadan zabitəliydi, böyüyün yerini biləndi və namus-qeyrət yolunu tutanlardı. Təsadüfi deyil ki, Bakının tarixindən yazan etnoqraflar, yazıçılar məhəlliçiliyi qeyd etmişlər. Manaf Süleymanovun, Qılman İlkinin əsərlərində, C.Cabbarlının hekayələrində bunun izləriylə rastlaşırıq.

Mənim də Sovetski milli mühitindən xəbərim var; 60-cı illərdə Pedaqoji Universitetdə təhsil alarkən uşaqlıq və ədəbi dostum, mərhum Əkbər Cavadovla digər məktəbli yoldaşım Rəsul Kərimov Sovetskidəki Qameleya küçəsində kirayənişindilər. Mən "üçüncü sakin"dim. Biz kənddən gələnlər ürəyimizdə onları "qədeşlər" adlandırırdıq. Əslində o vaxt bizə elə gəlirdi bu söz, hansısa sərt məna daşıyır. Axı, onların geyimi də seçilirdi: Yeni dəb onlara təsir göstərmirdi, papaqları və şalvarları köhnə modda olurdu. Ayaqqabıları da zamanla "ayaqlaşmırdı". Adama elə görünürdü, "qədeşlər" ümumiyyətlə, Sovet hökumətinə tabe deyillər və heç yerdə işləmirlər. Bəs "nəylə dolanırlar?" sualına cavab axtarmır-

dıq. Qameleyadakı yarımzirzəmidəki kirayənişin evin sahibinin üç oğlu vardı, biri artıq işləyirdi, ortancılın adı yadımdadı, Bahadırdı ki, cavan "qədeş" titulunu qazanmışdı. Dayısıyla məcaralı günlərində "naqanla" davranmasından həvəslə danışırdı. Yay vaxtları bütün qonşular "loto" oynayırdı, bizi də sıralarına qatırdılar.

Bir dəfə axşam düşmüşdü. Mən APU-nun A.Bakıxanov küçəsindəki Tələbə yataqxanasında qalırdım. Xudafisləşib həyətə düşmüşdüm. Getdiyimi görüb dedi ki: - Qorxub eləmə. Çətinə düşəndə deynən Bahadırgildə qalıram. Heç kimin duxu çatmaz. İstəyirsən bağa qədər (Sevil Qazıyeva adına bağı nəzərdə tuturdu. Onda bu adı daşımırdı) ötürüm. Etiraz elədim, "sağ ol" dedim. Bəli, bu "qədeşlərdə" kişilik güclüdü, xarakterləri dözümlüdü və sairə. Bir növ qeyri-mədəniyyət sahibi saydığımız Sovetsiklər sözgötürən deyildilər və el adət-ənələrinə "sataşanların" dərsini verməkdə vaxt itirməyən, məhəllərə qız-gəlinlərin açıq-saçıq (yeni dəbdə) geyimmələriylə barışmaz olanlardı. Onlar üçün şəxsi səadəti "daxili qanunlara" tabe olmayanlara qurban vermək heç vaxt problem yaratmamışdır.

1962-ci ildi. Futbol azarkeşləri Dəmir yolu vağzalının indiki Cəfər Cabbarlı heykəlinin qarşısında (qəzetlərdən nümunələr sıralanan taxta lövhələrin) qarşısına toplaşırdı. Azarkeşlərin qaynar mərkəziydi bura. Dərslərimiz qurtaranda (ikinci növbədə oxuyurduq), "Neftçi" özgə meydanda oynayanda, yaxud öz yerində maçtı keçirən o günün səhərisi burada iynə atsan yerə düşmürdü. Kamal və Səlim (Allah rəhmət eləsin onlara) görünəndə elə bil "mətbuat konfransı" idi. Hava ertəydi, "Neftçi" növbəti əzabını yad stadionda azarkeşlərinə bağışlamışdı. Vağzala gəlirdim, üç erməni cavan dığası üç qızla haradansa peyda oldular. İki cavan "qədeş"lə üzləşdilər və nəsə sataşdılar bizimkilərə. Bunu gördüm, birisi atıldı irəli, erməni dığasının təzə qara paltosunun ətəyindən yapışdı, sürüyüb yerə yıxdı-təpiklədi. O biri cumdu ki, ikincinin aşını-duzunu versin, qızlar qoyub dərhal qaçdılar. Yıxılan ermənininin ağızburnu erməni formasına düşmüşdü... Bu epizod mənim üçün ona görə maraqlı görünür ki, erməni faktoru var, bu, öz yerində.

"Qədeşlər" üçün ədalətsizlik, tiripaşlıq, qeyri-müsəlmançılıq kimi hərəkətlər bağışlanmazdır.

Sovetskidə yaşamaq mənə aspirant illərində də qarşıma çıxdı: 1969-1971 və daha iki-üç il. Yenə o qurur, əda, fədakarlıq... yaşayırdı. Bu məhəllədə böyüyən uşaqları demirəm, yeniyetmələrdə və gənclərdə kişiliyə məxsus keyfiyyətlər vərdişə çevrilir, özünü qoruya bilir.

Fikrət Seyidovun uşaqlığı bizə tanış və doğma məhəllədə keçmişdir: "Biz "həmşəri palanı" deyilən, sonralar Sovet küçəsi adlanan yerdən bir az aşağı "Yuxarı dağlıq" küçəsinin tinində 53 saylı evdə yaşamışıq".

Otucunzu illərdə Dağlı məhəlləsində yaşayarkən, Əhməd müəllimə dərin hörmət bəsləyirlər dağlı qədeşlər. Unutmayaq ki, pis vaxtdı, baş kəsilən dövrdü, amma onlar ziyalının, xüsusən müəllimin hörmətini qorumağı bacarırdılar. Hətta çətinə düşəndə, məsləhət lazım gələndə ərklə Əhməd Seyidova müraciət edər, razılıqla tərk eləyərdilər.

Məhəllələr qoçusuz keçinməmişdir. Hər bir məhəllənin öz qoçusu olmuşdur, onun kəsdiyi başa zaval yoxuydu. Sovet milisinin özü qoçulardan ehtiyat eləyərdi. Amma onların qəlbi korlaşmırdı, mərhəmət hissini itirmirdi. Əvvəla, şərqliydilər, sonra Kişiydilər. Fikrət Seyidov bu mikromühiti müşahidə eləmişdi, hafizəsində yaşatmışdı: "Evimizin qarşısında 3 pilləkənli bir mərtəbəli ev var idi. Qoçular bu pilləkənin üstündə oturub uzunsov boğazlı 3 litrlik "çetvert" deyilən şüşələrdəki pivəni içə-içə saatlarla Füzulinin qəzəllərini əzbər deyərdilər. Bir-birinə həmin misraların düz deyilib deyilməməsi, hansı əlyazmasında hansı misraların təhrif olunduğunu tutub qızğın mübahisə edərdilər. Biz uşaq idik. Qoçuların deyişmələrinə qulaq asardıq. Mən onlardan öyrəndiyim Füzulinin bir çox qəzəllərini keçmişdən qalan yadigar kimi indi də yadımda saxlamışam". Və Füzulidən bir dərin mənalı qəzəli olduğu kimi xatırlayır.

Bu epizod son dərəcə ibrətlidir: Birincisi, zahirən bəyənilməyən "qədeşlər" daima savadsız, şeri-sənəti sevməyən təbəqə kimi qələmə verilmişdir. İkincisi, onların fikri-zikri qapalı həyat keçirməkdir, bu tin-o tin - Məhəllə. Üçüncüsü də istisnadır. Və ilaxır da ola bilər. Fakt isə danılmazdır. Daha bir fakt: Məhəllənin



*Fikrət müəllimin anadan olduğu ev*
*(Kameniskaya 53 - indiki Bəşir Səfəroğlu küçəsi)*

adamları içərisində cibgirlər də, evlərə girənlər də vardı. Lakin onlar baxırlarmış bu işi kimin üzərində aparmaq caizdir. Təsəvvür eləyək ki, Əhməd müəllim gecə işdən gələndə, yaxud bir yerə cəm olub "müştəri" həsrətiylə yollara göz tikənlər onu görəndə ehtiramla ayağa durar, salam-kalamları unutmazdılar...

Bir dəfə Fikrət müəllimin böyük qardaşı İsmayılın pencəyini evin pəncərəsini açıb götürürlər. Xəbəri eşidən Əhməd müəllim mütəəssir olur və bunu "sataşmaq" kimi qarşılayır. Oğlu İsmayılsa dilxorluğunu gizlədə bilmir. Qoçubaşçısı Əliabbas varmış məhəllədə. Əhməd müəllim əhvalatı ona söyləyir. - Narahatçılıq keçirməyin, - deyir və öz kəşfiyyatına başlayır.

Axşam birdən qapı döyülür. Əhməd müəllim Bakı adətiylə qapını özü açır. Və həyətdə dəhşətli qışqırtı, yalvarış səsi içəri dolur. Bəli, Əliabbas bir uşağı vəhşicəsinə döyür. Sən demə, pencəyi çırpışdıran o imiş: - Ayə, it oğlu it, heç müəllimin də qapısından oğurluq edərlər?

Əhməd müəllim irəli yeriyib uşağı güclə Qoçubaşının əlindən alır. Amma bu iz silinib getmir: Müəllimin evindən oğurluğun baş verməsi bütün məhəllənin boynunda bir ləkə təkin qalır.



*Fikrət Seyidovun təhsil aldığı 13 saylı məktəb*

Qəzəllər əsasən Füzulidən olardı. Bu deyişmə zamanı hansı beytin orijinal və hansı beytlərin təhrif olunduğu müəyyənləşərdi. Deyişənlərin qarşısında həmişə beş litrəlik uzun pivə dolu şüşə butulkası olardı. O zaman araq içmək dəbdə deyilmiş. Qəzəl deyən qoçulara uşaqlar qulluq edərdilər. Bu uşaqlar Əliabbasın qulluğunda durduqları üçün də fəxr edərmişlər. Məktəbdə, küçədə uşaqların söhbətlərinin qəhrəmanı Əliabbas olardı. Bu qoçu başkəsən Əliabbasın qəddarlığı qədər də onun qeyrəti var idi. Qoçularda adətən "qeyrət" sözü kişilik mənasında işlədilirdi. Hətta bir dəfə Əliabbas namusuzluq etmiş bir qadını doğramışdı ki, bizim məhəllənin adına ləkə gəlməsin.

Bir gün Əliabbas qoçuları ilə bərabər varlı bir evi qarət etməyə gedir. Qoçular evə girəndə var-dövlət görürlər. Əliabbas onlara deyir: "Geri qayıdırıq". "nə üçün" deyə qoçular təəccüblənir. "Evdə üstü açıq qadın yatır". Qoçular heç bir şeyə dəymədən çıxıb gedirlər.

Bakı qoçularını "xuliqan" adlandırmaq düzgün olmazdı. Onlar məhəllə qeyrəti çəkən və böyüklərə hüsnü-rəğbətlə yanaşan adamlar idilər. O zaman Bakıda ermənilər çox idi. Şəhərin indiki Nəsimi rayonu ərazisində və şəhərin mərkəzində ən yaxşı evlərdə onlar yaşayırdılar. Sovet hökuməti gələndə Azərbaycan milyonerlərinin evlərini də ermənilərə bəxşiş etmişdi. Vaxtaşırı ermənilərlə azər-

baycanlılar arasında münaqişə olardı. Ermənilər Əliabbasın qorxusundan "Sovetskaya" ayaq basa bilmirdilər. Gözü ilə erməni genosidini görən azərbaycanlılar Əliabbası özlərinə arxa hesab edirdilər.

F.Seyidov "həmşəri palanı" Sovetski küçəsindəki 13 saylı məktəbdə oxumuşdur. Təbii ki, 30-37-ci illər ağırdı, insan ovunun şahə qalxan zirvəsiydi. Pedaqoji mühitdə də ideoloji yaltaqlıq, əyilmək psixologiyası hökmlüydü. Çünki pedaqoqlar - müəllimlər də gedərgəlməzə məsləhət görülürdü. Bu məktəbdə Saleh adlı müəllim də canlı "vraq narod"u özüylə sinif-sinif gəzdirirmiş. Bu qorxulu kabusdan öyrətmə metodu kimi istifadə edirmiş. Partaarası addımladıqca dərsini öyrənməyən şagirdlərə: "Bala, vraq narod olmaq istəyirsən, yoxsa sənin atan vraq nareddur" deyəndə məqsədinə nail olurmuş! O illəri Fikrət Seyidov belə yada salır: "Bu vahiməli sözdən qorxan şagirdlərin hamısı çalışırdı ki, tapşırıq və şerləri vaxtında öyrənsin".

Həsən adlı İran Təbəli şagirdin ailəsi Cənubi Azərbaycandan Bakıya pənah gətirmişdi. Kasıbçılıq fəsadlarla Həsənin dilənməsində sonuclanırmış. Saleh müəllimin "vraq narod" xofundan qorxan Həsən bir şer də əzbərləyir. İşə bax, bu şer ona dilənçilikdə gərəyə çevrilir. Ona görə əzbərlənmişdi ki, Saleh ata-anasını tutdura bilərdi şer əzbərlənməsə.

Qışın sərt çağlarında küçələrdə gələn-gedənlərə əl açan məktəbli Həsən oxuyurmuş o "Əcəb ağ gündədir mənim Vətənim" şerini; titrək, əzgin və yalvarıcı avazla. Acından ölən Həsən Vətəninin ağ gündə olmasını tərənnüm edirmiş.

"Ancaq bu mənəviyyatsızlığı yarıb keçə bilən, küçənin-mühitin acı təsirindən uzaqlaşmağı bacaran tək-tək uşaqlar da vardı. Məsələn, elə mənim təhsil aldığım Sovet küçəsindəki 13 saylı məktəbdə oxumuş, sonralar Şəhər İcraiyyə Komitəsinin sədri olmuş N.Nəsrullayev, MK-nın katibi Ş.Qurbanov, elmlər namizədi Mirzə Kazımov, yazıçı Gülhüseyn Hüseynoğlu kimilər də var idi. Mən dəhşətli gerilik, avamlıq, savadsızlıq və cahilliyin hökm sürdüyü bir vaxtda yetişdim".[1]

---

1. Seyidov Fikrətin əlyazması məndədir, 03.2004

Mən Fikrət müəllimdən bu epizodu eşidəndə də, oxuyanda da xəyalən o illərin acısını duydum. Bu zavallı xalqımız hansı ağrını yaşamamışdır. Böyüklərimiz də, uşaqlarımız da. Bəs indi küçələrdə səpələnmiş müasir məktəbli həsənlərimizi nə vadar edir ki, xalqın cibinə işləyənlərin maşınlarını yuyurlar; nəsibləri heç nəyə yaramayan 2-3 "məmməddir". Heç nəyə gərəkli olmayan bu 2-3 "məmməd" sağlam uşaqları da gərəkləşdirir.

Sovetskidəki məktəblər mənə də tanışdır. 1963-cü ildə bizi 31 saylı məktəbə pedaqoji təcrübəyə aparmışdılar. Direktoru, əməkdar müəllim, görkəmli maarifçi Humay Həsənzadə (Allah rəhmət eləsin), dərs hissə müdiri Soltan müəllimdi. Metodist - müəllimimiz, görkəmli mühərrir, pedaqoq Mirabbas Aslanovdu. Çox ciddi intizam, qayda-qanun vardı. Uşaqlar cələqırandı, "qədeşlərin" balalarıydı. Amma mən 2-3 ayda bir "çepe"nin şahidinə çevrilmədim.

İlk müəllim. İlk təhsil aldığın məktəb. Bu məfhumları bir-birindən ayırmaq yaramaz və günahdır: hər ikisi tamamlanır. Birincisi, İnsandır, yaşayır və dünyadan köçür. İkincisi, ədəbi qalır, qoynunda dərs demiş o müəllimlərin səsini divarlarında əbədi qoruyur. Heyif ki, ömrü 30-50 yaşlı köhnə məktəbləri kənd yerlərində uçururlar, izi-tozu qalmır. İlk oxuduğum təhsil məbədim:



*Fikrət Seyidov Kəlbəcərdə müəllimlərlə müşavirədə*

Salyandakı Qırmızıkənd və Lənkərandakı Gərmətük kənd məktəblərinin başına bu oyunu gətirmişlər. Fikrət Seyidovun oxuduğu 13 saylı məktəb isə durur... amma indi nəşriyyatdır! Onun isti qucağında oxuyanlar necə? Mən elə bu günlərdə kitabın yazılması ilə bağlı görüşlərimizdə söhbət o illərdən düşəndə, fikrə gedir, 30-cu illərə qayıdır. Yaddaşında bir-bir o uşaqları çək-çevir eləyir; Həmşəri Həsənin başına gələnləri də. Birinci sinfə yaxınlıqdakı 13 saylı məktəbə gedir. Hər iki qardaş, yəni İsmayılla (İsmayıl müəllim görkəmli psixoloq-alimdir, Bakı Dövlət Universitetində uzun illər çalışmışdır). Həmən məktəbdə ondan bir neçə sinif yuxarıda xalqımızın yaddaşında əbədi yaşayan ziyalımız, filoloq-alim, dramaturq-yazıçı Şıxəli Qurbanov da vardı. Məqsədimiz Ş.Qurbanov barədə ətraflı danışmaq deyil və buna ehtiyac da duymuram. Məni, yəqin ki, oxucuları da maraqlandıran Şıxəli Qurbanovun professor Fikrət Seyidovun xatirəsində qalmasıdır. Onu nüfuzlu, üzdə görünən şagird kimi səciyyələndirir və çox sonralar da münasibətlərini itirmədiyini deyir: Adətən, vəzifədə adamlar başqalaşır, Şıxəli müəllim ən məsul dövlət postunu tutanda da dəyişmədi və atamın - Əhməd Seyidovun hörmətini saxladı. Heyif ki, tələsdi o Dünyaya...

Mən dəfələrlə İsmayıl Seyidovla görüşmüşəm və söhbətimdə üstüörtülü ondan bəzi faktları "qoparmaq" niyyətim də olmuşdur. Amma psixoloq situasiyanın məntiqini duyub istiqaməti dəyişdirmişdir. Səbəbini qardaşından soruşanda gülümsəmiş: - Allahverdi, - demişdi. - Xasiyyətidi, hətta söz salmışam ki, səndən geniş nəsə yazmaq həvəsi var. - Yox, - Fikrət, mən nə eləmişəm ki. - Cavablandırılmışdır.

İsmayıl müəllim arada möhkəmcə xəstələnmişdi. İradəsiylə və həkimlərin qayğısıyla yataqdan durdu, xəstəxana palatasından isə... yadigar qaldı (Bu haqda sonra. Gözünüzü məndən üzməyin). İsmayıl Seyidov psixoloqlar arasında xüsusi yerini saxlamış və həmişə elminə də, özünə də hörmətini qorumuşdur. Heç vədə bütün imkanlarına baxmayaraq, heç kəsin qapısını döyməmişdir. Bu keyfiyyət gendən gəlmədir və kiçik qardaşında da yox deyil...

İsmayıl Seyidov orta məktəbdə riyaziyyatı yüksək dərəcədə bilirmiş və bunu da Xanlar müəllim aşılamışdı. Onu Vətən müharibəsinə aparmış, oradan da əsir götürmüşlər. Qayıdanda həbsə almışlar (1943-1964). İdeoloji cəbhədə etibarsız sayılan bu gözəl müəllimə əhəmiyyət belə verilməmiş, santexnika dükanında çörək pulu qazanmışdır. Yaxşı müəllimi şagirdi, yaxşı şagirdi müəllimi heç vaxt yaddan çıxarmır. Vaxt yetişir. Fikrət müəllim bir təsadüfən Xanlarla qarşılaşır. 30 il keçməsinə baxmayaraq o, Fikrət Seyidovu hər halda İsmayıla oxşadır:

-Siz Seyidov Əhməd müəllimin oğlu İsmayıl deyilsiz ki? - Soruşur.

-Əhməd müəllimin oğluyam, ancaq İsmayıl deyiləm, mən onun qardaşıyam. - Cavabım alır.

O, piştaxtanın arxasından dərhal çıxır və Fikrət müəllimi qucaqlayır, öpüb deyir:

-Neçə illər sürgündə İsmayılı, o talantlı, qabiliyyətli cocuğu yadımdan çıxarmamışam. O, haradadır, nə ilə məşğul olur? - Sorğu-suala tutur...

Bu epizod çox məna daşıyır: Öncədən başıbəlalı, dövlət qayğısından unudulan Müəllim taleyinə acımamaq olmur. Xanlar Sovet hökümətinə nə qayırmışdı ki, onu sevimli peşəsindən ayırdılar, neçə-neçə sevimli İsmayıl şagirdlərinin səsinə həsrət qoydular. Nəsibi o idimi alver eləsin, satıcı işləsin. Yadıma mərhum şairimiz Şahmar Əkbərzadənin bir şerindən misralar düşdü və daş kimi ürəyimdən asıldı:

*Çiyələk satırdı qoca müəllim*
*Dəllal arvadlarla eyni cərgədə.*
*Səsindən tanıdım, tutuldu dilim*
*Dedim yanaşmaram ona bu yerdə.*
*Ancaq bacarmadım, gedib baş əydim,*
*Üstümə soyuqluq leysanı yağdı.*
*Elə zənn elədim qoca müəllim*
*Dünyanı geriyə qaytaracaqdı.*

*"Peşiman olmazsan, al" - deyib baxdı.*
*Baxdı, tanımadı o məni deyən,*
*Elə bil başımda ildırım çaxdı.*
*Nə deyim həyatın bazarına mən.*
*Bir vaxt şagirdlərə romantikadan*
*Odlana-odlana o dərs deyərdi.*
*Al - deyə yalvarır indi astadan.*
*Ay aman. Gözlərim nələr görürdü.*
*Şux boyu-buxunu gərili yaydı.*
*Yaman amansızsan, ay gidi dünya,*
*Satılan o vaxt ki, romantikaydı,*
*Əlimdə əsirdi bir dəmir manat.*

İsmayıl rəssamlığı da yaxşı bacarırmış, məktəbdə belə işləri o, yerinə yetirirmiş. Hətta atası onu rəssamlıq məktəbinə qoymaq istəyirmiş, lakin Müharibə araya düşür. Hətta az sonra yaşı düşür, boyu və çəkisi isə düşmür (İndi 180 sm. boyudur. Taledir). O, alman dilini uşaqlıqdan öyrənmişdi, Alman qadını Annadan. Orta məktəbdə ikən almancadan dilimizə əsərləri sərbəst tərcümə edirmiş. Azərbaycan dilində oxusa da, rus dilini mükəmməl mənimsəmişdir. Hətta Moskvada və Leninqradda rusca mühazirələr oxumuşdur. Müharibə zamanı kəndə köçürlər, İsmayıl da həmçinin. O, kolxozda hesabdar işləyir, təsərrüfatda can-başla çalışır. Ümumiyyətlə, bu gün ədalətsizliklə barışmayan, haqqı-haqsızın ayağına vermir İsmayıl müəllim. Görünür, hələ yeniyetmə və gənc ikən onda bu xüsusiyyətlər formalaşmışdır. Fikrət müəllim bu cəhəti hələ kənddə olarkən İsmayılın yazdığı həcvdə əksini tapdığını xatırlayır:

*Arabayla toxumu sağa-sola çəkirdin,*
*Taxıl yerinə çölə qumlu torpaq səpdirdin.*
*Doqquz erkək kəsdirdin, bir qoç idi hərəsi,*
*Kolxozçunun evində ağlayarkən körpəsi.*
*Evində sübhə tək kəsmədi zurna səsi,*
*Yoxdur sən tək alçağa aman a sədr,*
*Dayan gələr zaman, a sədr...*

İsmayıl Seyidov ali təhsilli cərrah kimi fəaliyyətə başladı, işlədi bir xeyli. Amma müəllimlik onu bu yoldan döndərdi. Əvvəlcə İdman İnstitutunda, sonra Dövlət Universitetində özünü diqtə elədi, ilk dəfə idman psixologiyasına aid kitablar nəşr etdirdi.

O, 25 yaşında kafedra müdiri kimi könüllü vəzifədən uzaqlaşmışdı. Son dərəcə istedadlı və işgüzar olan İsmayıl müəllim heç bir çətinlikdən çəkinməmişdir, iradəsinə tabe etdirmişdir. Daha bir maraqlı və ibrətli epizod: O, namizədlik dissertasiyasını yazır. Bir yerdə işləyən Balayan (bu familiya super oğraş xislətlidirlər) əlyazma ilə guya yaxşı mənada maraqlanır. Yeganə nüsxəni alıb biryolluq aradan çıxır və İrəvanda dissertasiya kimi müdafiyə edir o əlyazma əsəri. İsmayıl Seyidov ruhdan düşmür, özünə güvənclə Moskvaya ezam olunur, 5 ayın içərisində ikinci dissertasiyanı tamamlayır və müdafiyə edir. Bu əsər Moskvanın yüksək nüfuzlu psixoloqları tərəfindən layiqincə qiymətləndirilmişdir. Belə ki, akademik Boqoyevlinski İsmayıl Seyidovdan hətta iqtibas gətirmişdir.

İsmayıl mahir pianoçudur, mehriban atadır. Üç oğlundan (Yusif, Kamil və Səməd) Yusifini ermənilər orduda qətlə yetirmişlər. Aspirantmış "pedaqogika" ixtisası üzrə. Arzusu Babasının yolunu davam etdirməkmiş. Ondan atasına bir boxça qərib şerlər qalıb yadigar. Hətta əmisi Fikrətə bir şer də yazıbmış. Sonuncu bəndi belədi:

*Göy ömürdən keçir günlər,*
*Saralsa da yarpaq təki.*
*Bu dünyada yoxdur dərdim,*
*Sən yanımda varsan təki.*

Yuxarıda söz vermişdim, intizarda qoymuram. İsmayıl Seyidov şer də qələmə alır. Maraqhdır ki, ürək infarktı keçirəndə duyğulu, kövrək hisslərini yaşayır. Poetik ürək onda uşaqlıqdan idi, kolxozun sədrinə də şerini yazmışdı. Bu dəfə silsilə şerlər yarandı. 2003-cü ildə "Allahsızın aqibəti" toplusu işıq üzü gbrdü. "Qərani" təxəllüsü ilə: İsmayıl Seyid Qarani.

Sovetski icması (şərti mənada) qeyri-adi xarakterli adamlar tərbiyə edir, xüsusilə dindarlıq burada güclü olmuşdur həmişə. 13

saylı məktəbdə Əfəndi müəllim işləyirmiş, təzəcə gəlibmiş. Sünni-şiyə təriqətlərinin tuğyan vaxtında şagirdlər duyurlar ki, müəllimləri sünnidir, bu bəs eləyir onlara, Əfəndini hövsələdən çıxarırlar, küçədə söz atırlar. Və bir gün məktəbin astanasındaca keçinir. Bu kədərli olayı Fikrət müəllim kədərlə xatırlayır, hər halda Sovetskidə nadanlar, qabağından yeməyənlər yoxa çıxmamışdı. Xüsusilə, mikroqoçular (əsil qoçularda bir kübarlıq varmış) saatlarla əylənmək, vaxt ötürmək, yaşmaqlı, lal-dinməzliyə üstünlük verən, kişisindən nəvazişə həsrətli qadınları unudan bu cürlərin özgə çarəsi yoxuydu. Ona görə də Qoçular uşaqlara fitva verirlərmiş ki, dikdaban geyinmiş qadınların ayaqqabılarını ağacla vurub sındırsınlar. Yaxud çadrasızları. Müşahidələr əsas verir nəticə çıxarmağa ki, mühitin uşaqların müsibət və mənfi ruhda tərbiyəsində misilsiz rolu şəksizdir. Uşağın məktəbdən sonra ikinci yeri həyətdir, küçə-dalandır. Əlavə eləsək ki, radio, televiziya yox, evlər darısqal, səliqə-sahmansız. -Bədbəxt uşaqlar nəylə məşğuliyyət tapmalıdır? Ruslar ağıllı tərpəndilər: yetim, oğru, avara, dələduz uşaq və yeniyetmələri böyük pedaqoq Makarenkonun ixtiyarına buraxdılar; o da kaloniya və komunna yaratdı. Və tarixə "Pedaqoji poema"nı yadigar qoydu. Bu cür mühit bizdə mürəkkəbləşmişdi. Təkcə böyük ərazili Sovetski məhəllələri kifayətdi. Məgər Makarenko yolunu seçmək qeyri-adi işdi? Xeyr! Burada da ermənilər - düdəmələr - haqçıqları tavam saymaqla fəxr edənlər ruslarla dilə qoşuldular. Moskvada da Stalinin "mavi mələyi" (ifadəmçin bağışlayın məni) - Anastas Mikoyanı işə saldılar, o burnu əyri də hər şeyi düzüb qoşdu.

Professor Fikrət Seyidov gözləriylə gördüyü, ürəyilə ağrıdıcı bu məsələ haqqında çox sonralar belə yazacaqmış: "Sovet höküməti əsasən azərbaycanlıların yerləşdiyi bu ərazidə bircə "Həmşəri palanı"ndakı küçənin adını dəyişib "Sovet" etməkdən başqa heç nəyi dəyişmədi. Ona görə yox ki, hökümətin gücü, imkanı yox idi. Ona görə ki, planlaşma, şəhərsalma idarələrində oturanlar ermənilər, ruslar idi. Onlar da yeni tikintiləri: ən yaxşı məktəb,

mağaza, hamam, klubları ermәni vә rusların yığcam halda yaşadığı әrazilәrdә tikirdilәr".

Acınacaqlısı o idi, küçәlәrә, klublara, xәstәxanalara, hәtta ali tәhsil ocaqlarına Şaumyanın, Kirovun, Mikoyanın adı qoyulurdu. Bakını dairәyә alan küçәlәr isә başdan-başa ermәnilәr - 26 Bakı Komissarları "şapkası" altında Mirzәyanlar, Osipyanlar, Şaumyanlar, Avakyanlardı.

Sәhv elәmirәmsә, 1970-ci ildi, yaxud bir-iki il sonra, Baqramyan familiyalı bir ermәni (Marşal Baqramyanın qardaşıydı) "qırağını qatladı", sәn demә, Baksovetdә adqoyma mәsәlәsinә o, baxırmış; bir tәntәnәylә qәbristanlığa apardılar, gәl görәsәn. Haşiyә çıxım ki, Sovetski sökülmәkdәdir, artıq keçmişimiylә vidalaşır. Amma içәrilәri salamatlıqdı. Sahibkarlar hәlәlik şәhәrin mәrkәzini, ağaclı, gәzib-dolanmalı sahәlәri hәdәfә alıblar. Şәhәr meri, professor Hacıbala Abutalıbov da sәlәfi, eks mer Rәfael Allahverdiyevin "rekordunu" tәzәlәmәkdәdir. İnsaf naminә, o Sovet "qәdeşlәri"ndәn әsәr yoxdu, hәr halda xırda evlәr әvәzlәnmәmişdir.

Sovetskinin sosial-mәişәt ab-havası da özünәxas idi. Hәr şey qaynar qazan kimiydi: Satanlar vә alanlar. Çağırışlar vә tәriflәr. Tramvay xәttinin üst tәrәfindә "Zәrgәr palam" deyilәn bazar varmış. Bazar öz milli koloritiylә әsl Şәrq dünyasını xatırladırmış. Sovet küçәsinin arxasında böyük bazara әtraf vә uzaq bölgәlәrdәn hәtta dәvәlәrdә әrzaq, digәr mәhsullar gәtirilirmiş: "Adamların qışqırığı, heyvanların cürbәcür sәsi vә bağırtısı bazarda müştәri axtaran satıcıların sәsinә qarışıb maraqlı bir hay-haray yaradırdı. Bu sәs, bu gurultu qәti şәkildә insan әsәblәrini yerindәn oynatmır, әksinә, әsәblәri sakitlәşdirirdi", - deyәn Fikrәt Seyidov etnoqraf qәlәmiylә bizi keçmişimizә aparır. Diqqәt yetirәk: Maraqlı vә sakitlәşdirici alqı-satqı yeri: Bazar. Bizim üçün bir dә müasir maraq ondadır: Bazar bolluqdur, zәnginlik vә: "... yol uzunu çәnlәr qara, qırmızı kürü, növ-növ balıq vә digәr әrzaq malları ilә dolu olardı". Haşiyә çıxmamaq çәtindi ki, 70-ci illәrdә doğulan nәsildәn üzü bәri zavallılar kürünün dadını vә rәngini unutmuşlar. Hә yaxşı ki,

süfrələri daima qara-qırmızı kürünü telekanalların rəhbərləri reklam eləyirlər "Şadlıq evləri"nin, "Sarayların" hesabına. Dövlət səviyyəsində bu işlə maraqlananlar da o əksi qara-qırmızı kürülər təkin yoxa çıxmışlar! Bir Məmləkətin özünün min tonlarla kürüsü çıxa və valyutayla xaricilərə satıla! O xaricilər də öz uşaqlarına yedizdirib gözütox əsgər böyüdüb, sallaşdıracaqlar sısqa milli əsgərlərimizin üstünə: Kürü bir yana, balıqlarımız da suyun altında "yoxa" çıxıblar, bir başa səlahiyyətlilərin süfrəsinə diri-diri yol alırlar, hələm-hələm ölmürlar! Dənizi xüsusi, qeyri-qanuni balıq torları başına götürür, tilovla bir balıq tutan azəri-türk balasını dərhal tuturlar: Balıq cibə, onu tutansa türməyə yollanır... Əski Sovetski bazarında diqqəti bir cəhət də cəlb eləyir, əslində heyrətləndirir. Alverçi psixologiyasındakı düzlük, inam: "Bazarına" - küçəsinə düşəndə satıcılar: "qardaş, bacı, əmi, dayı, yalvarırdılar ki, gəlin nisyə aparın, pulu sonra verərsiz". Doğrudan da o qədər düzlük var idi ki, müştərilərini tanımayan satıcılar dəftərlərinə belə qeydlər edərdilər: Kəlağaylı arvad bir kilo kürü apardı. Bığlı kişi 2 balıq apardı. Eynəkli qoca 3 kilo qoz aldı və s. yazılarda əsas məqsəd adamların adı, kimliyi deyil, əsas məsələ nə qədər malın aparılması idi", - sağ olsun Fikrət müəllim ki, öz gözüylə gördüyünü, qulağıyla eşitdiyini gələcək nəslə çatdırıb. Və aşılamaq istəmişdir ki, keçmişimizi top atəşinə tutmayın, rəhmətliklərimizi savadsızlıqda suçlayıb günah atına mindirməyin, o vaxt bolluq da, düzlük də olmuşdur. İnamla yaşamışdılar, gözütox böyütmüşdülər balalarını. Bu gün acgöz alverçilərimiz baha satmaqla bərabər, çəkidə aldadırlar. Bazarlara sahib çıxanlar imkan vermirlər ki, kəndçi öz halal malını istədiyi şəkildə satsın. Bazarın ümumi nırxını öldürmək qadağandır. Həyasızlıq o vəziyyətə çatıb ki, hətta milli bayramlarımızda malların qiyməti fantastik durumda bahalaşır. Şəhər meri və onun ətrafındakı məmurlarınsa vecinə gəlmir, çünki hər şey onlar üçün havayıdır. Və bu "havayı yol" lap uzaqlara gedib çıxır...

Fikrət Seyidovun böyüyüb müstəqil xarakterə yiyələnməsində məhz əhatə olunduğu Mühitin rolu az olmamışdır. Biz belə

məsələlərə o qədər də diqqət yetirmirik. Əslində, ab-hava və ətraf adamlar öz işini görür. Sovetski, oradakı məktəb, şagird dostları necə işini görürsə uzun illər təsirini saxlayır.

Bir dəfə gənc Qarabağlı müğənniylə xalq artisti, böyük xanəndəmiz İslam Rzayev verilişdəydilər. Söz Qarabağdan başqa bölgələrə köçürülmüş cavan səsi olanlardan düşdü. Müxbirin: - İslam müəllim, həmən rayonlarda böyüyən uşaqların səsi olacaqmı, əsil qarabağlı fərdiliyndə, şirinliyində oxuya biləcəklərmi? - Sualına belə cavab verdi. - Xeyr. Səsi yönümünə salan havadı, torpaqdı, sudu.

Analoji paralellər aparanda Sovetski mühitinin spesifik sosial-psixoloji çalarları Fikrət müəllimin dünyagörüşündə, həyata münasibətində, həyatın qaranlıq və işıqlı üzünü anlamaqda... izini qoymuşdur. Mən onunla söhbətlərimdə həyatın müxtəlif rakurslarda müşahidə etməsini, mənimsəməsini, eyni zamanda atasına və Seyidovlara yaxın-uzaq adamların münasibətlərini etiraf etmişdir. Zəngin ibrətli mühakimələr, kəlamlar da Fikrət müəllimə xas keyfiyyətdir. Yuxarıda ötəri toxunmuşam: bu cür detalları və memuarı da elə-belə hasilə gəlməmişdir. Bəlkə də səhvdəyəm: O, Sovestki mühitində deyil, əhatədə olan ziyalılarla təmasda deyil - başqa ab-havada uşaqlıqdan böyüsəydi, tanıdığımız Fikrət Seyidov olardımı?

Atası, professor Əhməd Seyidovun ailə tərbiyəsinin özü tarixi məktəbdir, tərbiyə mənbəyidir. Əlinin və intellektinin birliyində həyatda öz halal yolunu tapan Ata övladlarına da bu hissi aşılamışdı. Zamanın səsinə qulaq asmağı yerində bacaran, çətin situasiyaları operativ qiymətləndirən, ailəni gözütox böyüdən və təminatına cavabdehlik daşıyan Əhməd Seyidov dövrünün böyük adamlarıyla da qabaq-qənşər gəlmişdir. Pisi də, yaxşını da o adamlardan görmüşdür, nəticə çıxara bilmişdir. Böyük rus pedaqoqları, akademiklər Medinski və Qonçarov kimi şəxsiyyətlərlə elmi əməkdaşlıq çox şeydən xəbər verir. Eləcə də soydaşlarından M.Cəfər Bağırov, Mirzə İbrahimov, Heydər Hüseynov, Mikayıl

Rəfili, Zülfəli İbrahimov və digərləri. Ə.Seyidov A.A.Bakıxanovun pedaqoji görüşləri haqqında dissertasiya yazanda "qəmişi" ruslar yox, azərbaycanlılar uzatmışlar. Faciyəmiz deyilmi? Məqsəd Əhməd Seyidovu "xalq düşməni" adında sıradan çıxarmaqdı. F.Seyidov yazır: "Hələ "xalq düşməni" səngiməmişdi. Məktubda yazmışdılar ki, guya atam çar generalını diriltmək istəyir. Bu, ağır ittiham idi. Atamın taleyi qorxu altına düşdü. Bu anonim məktubun nə dərəcədə doğru olduğunu yoxlamaq üçün M.C.Bağırovun xüsusi göstərişiylə Mikayıl Rəfili, Heydər Hüseynov, Mirzə İbrahimov və Zülfəli İbrahimovdan ibarət komissiya düzəltdilər. Onlar əsəri oxuduqdan sonra, gecə saat 12-də atamı Mərkəzi Komitəyə apardılar. Allah bu həqiqi, obyektiv alimlərə min rəhmət eləsin. Onlar Bağırova sübut etdilər ki, əsər yüksək elmi səviyyədə yazılmış və atam ideoloji cəhətdən heç bir nöqsana yol verməyib. Onlar Seyidovun doğru yolda olduğunu, əsərin isə təqdir və tərifə layiq olduğunu bildirdilər".

Bu xatirə insanda nikbin duyğu oyadır ki, bütün Zamanlarda, ən kritik vəziyyətlərdə yaxşılıq, obyektivlik özünü çatdırır... Vaxtilə klassiklərimizin tədqiqinin vacibliyini irəli sürən Əhməd Seyidovu mətbuat üzrə məsul bir məmur kəskin tənqid edir: M.F.Axundovu, H.B.Zərdabini işləməyi yasaq edir, Seyidovsa əksinə. Stalin epoxasının qulu olan bu adamı "sürümək" məqamı gəlir. Vəziyyət Seyidovun xeyrinə dəyişir. Lakin qəfil onlara Abasqulu Abaszadə, Mehdixan Vəkilov, Mirzə Məmmədov "qonaq" gəlir, amma qonaq nüfuzunda qarşılanır. Ə.Seyidovdan xahiş edirlər ki, filənkəsi bağışla, onun taleyi sənin sabahkı çıxışından asılıdır. Professor hələm-hələm yola gəlmir, axır, insanpərvərlik üstün gəlir və bir söz demir: Kişiliyinə sığışdırmır ki... Vaxt ötür. Fikrət Seyidov dissertasiya müdafiyəsi ərəfəsində bir problem yaranır: Bir məqalə heç olmazsa jurnalda çıxmalıdır. Lakin jurnalın növbəti sayı istehsalata göndərilmişdi. Ümidsiz, redaksiyaya gələn Fikrət müəllimi o adam qeyri-adi ruhla qarşılayır, dalbadal 3-nü çap edir. Və bu hərəkətiylə Əhməd Seyidovun

yaxşılığının əvəzini oğlu Fikrət Seyidovda çıxır. Bunlar tarixdir, ibrətdir.

F.Seyidov obyektivlik əhatəsində görüb-götürür, hər şeydə yaxşılıq, xeyirxahlıq axtarır və tapır. Onun əsərlərində də belə xislətli şəxsiyyətlərin həyatı, elmi əksini tapır. "Türk xalqlarının tərbiyə və məktəb tarixi", "Dədə Qorquddan Şəhriya qədər", "Qori Müəllimlər Seminariyasının məzunları" monoqrafiyalarından bu, qırmızı xəttlə keçir.

Müharibə illərində, insanların çörəklə sınağa çəkildiyi dövrdə müsbət, layiqli hisslərin baş qaldırdığını xatırlayır: "Müharibənin ağır illərində belə adamlar öz mənliyni itirmədi. Hökumət ölkədə nizam-intizam, qayda-qanun yaratmaq məqsədilə yalan, oğurluq, qarət üstündə adamları divara söykəyib güllələyirdi. Vəzifə sahiblərinin özləri nə yalan danışar, nə də israfa yol verərdilər. İqtisadi vəziyyət getdikcə çətinləşdi. Bir parça çörək üçün adamlar müxtəlif gərəkli və gərəksiz, ləyaqətli və ləyaqətsiz işlərdən yapışdılar. Ancaq heç kəs namusunu, qeyrətini, məğrurluğunu itirmədi" - deyən professor F.Seyidov pedaqoq müdrikliyini əyaniləşdirmiş oldu. Xaraktercə də müdrik Fikrət müəllim bu sözləriylə çağdaş dövrümüzə üzünü tutur. Məgər indinin bir para vəzifəli-vəzifəsiz kişilərinin (?) özləri, yaxud övladları 30-40-cı illərdə doğulmamışlarmı? Bəs nədir səbəbləri ki, şəxsi mənafelərini xalqın, dövlətin intereslərindən üstün tuturlar. Xalqın qan-təri hesabına, dövlətin işləməyən qanunlarını əllərində dəstəvüz eləməklə milyonlarla dollar qazanırlar. Bir otaqlıda balaları ilə çürüyən soydaşlarımıza etina etmədən qapılarını bir kərə açmadıqları villaları tikdirirlər. Ən qiymətli və yaşlı ağacları yandırıb yaşayış evləri saldırırlar. Üstəgəl, ağır durumu milyonlarla xalqdan gizlədir, yaxud gözünün içinə yalan danışıb riyakarlıq edirlər. Müharibə davam edən ölkənin klanları millətin acığına talançılığa, əclaflığa, namussuzluğa rəvac verirlər. Bəs kimi gözləyirlər? Belə xislətlilər heyif ki, özlərini var-dövlət içərisində xoşbəxt hesab edirlər. Əslində belədirmi? Hər şey var: Vəzifə.

Mülk. Dollar. Maşın. Nə qalır? Alman filosofu Artur Şopenhauerin sözlərini eşitməkmi? "Xoşbəxtlik həzz və məzmunluq hissi olmayıb, həmişə hər hansı iztirab və məhrumiyyətlərdən yaxa qurtarmaqdır". Bu sözləri yazandan sonra bir də oxudum, daxilən özümə güldüm də, nifrət də etdim: heyf Sovet hökumətinin dövründən (?)... müdrikcəsinə deyilmiş sözlərdən təsəlli alırdıq ki, hər şeyin sonu olacaq. Oldu, İmperiya dağıldı. Müstəqilliyimizi qurduq. Bu dəfə ümidimiz dağıldı. Yeni klanlar, hətta "millət vəkili" əbasını (dövlət tərəfindən bağışlanmış) geyinənlər millətini talan eləməyə başladılar. Xalqa yalnız romantik olmaq qalır? Rejissor Andrey Tarkovskinin yoxsa sözləri? "Romantiklər həmişə həyatı olmadığı kimi görməyə can atan adamlardır" (Bəlkə kişi sonda "?" yazıb?).

Məni o cür də anlamayın ki, əlimə girəvə düşdü və məmləkətimizi taun xəstiliyi kimi sarıyan naqisləri atəşə tutmaq imkanı qazandım. Lap belə olsun, amma Tarix daima öz qanunlarının keşiyində dayanıb, ən varlı və yüksək Tiranların, varlıların aşını-duzunu verməkdən əsirgəməyib. Keyxosrov məzar daşlarına o söz-



*Fikrət Seyidov tələbələrə məsləhət verərkən*

ləri yazmağı rica edib ki, oxucuların nəzərinə çatdırıram: "Ey insan oğlu! Kim olursansa ol, haradan gəlirsənsə gəl, bu məzara nəzər yetir. Burada İran imperiyasının yaradıcısı şah Keyxosrov yatır. Yığdığı sərvətdən ona cəsədini örtmək üçün bu kiçik torpaq parçasmdan başqa bir şey qalmamışdır".

Şənbə günü Sovetski məhəllərinə baş çəkdim. Əvvəlcə Qameleya küçəsinə gəldim. M.Müşfiqin heykəlindən üzü sola düşürəm. 60-cı illərdə bu abidə yoxuydu, arxasındakı yaraşıqlı binanın birinci mərtəbəsində Cabbarlının adını daşıyan kitaöxana vardı. Səhv eləmirəmsə, müdiri 30-40 yaşlarında Qasımov soyadlı biriydi. Zabitəli kişiydi, maraqlı müzakirələr keçirilirdi. Cavan şairlərlə də həmçinin. Əkbər dərslərinə burada hazırlaşırdı. İngilis dilinə böyük həvəsliydi. Yanından keçib Nərimanovun heykədinə doğru gedirdim. O illərdə bu abidə də də yoxuydu. Tramvay isə lap çoxdan əbədi qarajında - qəbristanlığında dəfn olunubdur. Heyif ki, merin gəlməyilə Bakıda qədimi tramvayların da ömrünə xitam verildi. İndi bir nümunə də gələcək nəslə qalmadı. Yalnız ekranlardan tanıyacaqlar tramvayı... Sovetski tarixin şanlı səhifəsidir. Onu silmək, üstündən xətt çəkmək olmaz. Bu gün birmərtəbəli evlərdən uşaqlar çıxır, səliqəli geyimdə, anaları, ataları əllərindən tutub məktəbə aparır və gətirirlər. O illərin körpələri kişiləşiblər. Daha bilmirəm, ataları və babaları barədə bir şey bilirlərmi, soruşurlarmı nəsə? Olmaya onların da keçmişi barədə xatirələri tramvay kimi arxivə yola salınıbdır? O bəllidir ki, Sovestki məhəlləsi yerindədir və onu silib süpürmək qeyri mümkündür.

Fikrət Seyidovun son qeydləri: "Mən 1930-cu ildə Bakıda anadan olmuşam. Ancaq əslən Qazaxlıyam. Mənim anadan olduğum illər yeni Sovet cəmiyyətinin yarandığı, təlatümlü illər idi. Bu illərdə Sovet hökuməti yeni nəsl yaratmaq məqsədilə "operasiya" adı altında çox məzmunlu, mənalı, dərin bilikli ülamalarımızı divara söykəyib güllələdi.

Varlıların isə əlindən dövlətini alıb bir hissəsini zindanlara saldı. Qalanlarını ailələri ilə bərabər Qazaxıstanm ilan mələyən çöl-

lərə sürgün etdi. Mənim ana babam çox zəhmətkeş olub və bu zəhmətinin nəticəsində varlanıb. O da minlərlə varlılar kimi ağır bəlalara düçar oldu. Onu həbs etdilər. Əvvəlcə Gəncə, sonra Bakı qalasına yolladılar. 6 ay babamın qızları Cəvahir, Pəri və Anam Bakı qalasının qapılarında əsir-yesir oldular. Nəhayət, babamın günahı olmadığını deyib, onu 6 aydan sonra azad etdilər. Türmədən çıxan babam o zaman Sovet küçəsi ilə aşağı Naqornıy küçəsi arasında yaşadığımız Kommunistiya 53 saylı evə gəlir. Babamın türmədən çıxması ilə mənim anadan olduğum eyni günə təsadüf edir. Bütün ömrünü qoyun-quzu, mla-qara ilə keçirmiş babam tələsik evimizdən bir az aralı "həmşəri palan" deyilən yerdəki bazara yollanır və böyük bir qoç qurbanlıq kəsir. Siyasi hadisələrin gedişini doğru qiymətləndirən atam babama məsləhət görür ki, kənddən çıxıb şəhərə gəlsin ki, ölkədə gedən tufana düşməsin. Babam isə "kimə nə pislik etmişəm ki, məni yenidən tutsunlar" deyib atamla razılaşmır. Yenidən kəndə qayıdır. Xeyli müddətdən sonra onu yenidən ittihamlayıb 1937-ci ildə güllələmək istəyirlər. Ancaq Daşsalahlı kəndinin bütün adamları ayağa qalxır ki, Mustafa ağa kəndə, kənd camaatına yaxşılıqdan başqa heç bir zərəl vurmayıb. Xalqın bu narazılığım nəzərə alıb babam, nənəm və kiçik dayımı Qazaxıstana sürgün edirlər. Bu sürgün faciə ilə qurtarır. Babam orada vəfat edir. Dayam suda boğulub həlak olur. Tək qalan nənəmi hökümətdən gizli qaytardıq və ömrünün sonuna kimi yaşayış yerini tez-tez dəyişə-dəyişə bizim evdə, xalalarım gildə pasportsuz yaşadı. Qapı döyülən kimi arvad qaçıb gizlənirdi. İnsanların nahaq sürgünləri, ziyalıların, alimlərin kütləvi həbs edilməsi kiçik yaşlı uşaqları da kişiləşdirdi. Sürgün olunanlara ancaq bir bağlama götürmək imkanı verilirdi. Orada geyim şeylərindən başqa heç nə olmamalı idi. Kim bağlamanı götürməyə geciksə idi, bağlamadan da məhrum olub əynindəki paltarlarla qışın şaxtasına düşməli idi. Bu bağlamadan biri də bizim qapının ağzında hazır vəziyyətdə qoyulmuşdu. Bu bağlama 1943-cü ilə kimi, atam rektor olana qədər qorxulu bir şey kimi qalmışdı. Bu illərdə vali-

deynlərimiz bizə, sürgün olunan vaxtı, özümüzü necə aparmaq dərsi verirdilər. Ana və atalarımızın təlimatına görə biz yolda, qatarda anamızdan ayrılmamalı, nə versələr, nə tapsaq onu yeməli idik. Bax, mən belə bir dəhşətli zamanda həyata gəldim və tərbiyə olundum. Bizim ailənin 1937-ci illərin dəhşətlərindən sovuşmasının əsas səbəbi atamın çox ehtiyatlı olması idi. O, heç kəsin evinə qonaq getməz, artıq söz danışmazdı. Getdiyi yer iş, gəldiyi ev olardı. Bu dəhşətli keçmişi xatırlamaqla hansı dəhşətli şəraitdə böyüdüyümüz haqqında qısaca olsa da məlumat vermək istədim. Qayıdıram doğulduğum yerə - məhəllə və küçəyə. Yuxarıda qeyd etdiyim kimi, evimiz Sovet Küçəsinin yanında yerləşirdi.

Bu illərin təsvirini vermək üçün yazıçı olmaq lazımdır. Mən imkanım dairəsində yaşadığım illərin təsvirini verməyə çalışaram.

Sovet küçəsindən tramvay xətti keçirdi. Tramvay bu xətlə hərəkət etdikcə başqa əyləncə tapmayan, onun arxasından sallanan, tramvay gedə-gedə oradan hoppanıb düşən və minən uşaqları görmək olardı.

Bizim düşdüyümüz Sovetski mühitindən sağlam çıxmağımızın bir səbəbi də ailədə ata ilə anamın mehriban münasibəti, atamın qaynatasına, qaynənəsinə, qayınlarına olan təmənnasız duyğu və kişilik nümunəsi olmuşdur. Anamın qardışları Türkiyədə idilər. Bir qardaşı isə müsavat ordusunda xidmət etdiyi üçün 10 il həbs cəzasına məruz qalmışdı. Atamı bu qohumlardan ötəri neçə illər arası kəsilmədən təhlükəsizlik komitəsinə aparıb gətirmişdilər. Ancaq atam bir dəfə də olsun bu mənəvi əziyyətlərini anamın üzünə vurmamış, əksinə, onun sınıq könlünü almağa çalışmış və hətta sürgündən qaçmış dindar nənəmə də hər ay yüz manat halal maaşından vermişdi. Atamın kənd camaatına hörmətlə yanaşması, anamın qohum qonşularla mehriban dolanması da bizim Sovetski mühitinədki təsirdən kənarda qalmağımızı şərtləndirən cəhətlər idi. Atam həmişə bizi Sovetkinin ağır mühitindən qorumaq üçün elə yol, elə vasitə tapmaq istəyirdi ki, o zamankı mühitin pozucu təsiri bizi öz ağuşuna ala bilməsin. Atam bu yollardan birini də

kəndlə əlaqəni qırmamaqda, xalqa daha yaxından olmaqda görürdü. O, xalqda olan riyasız, yalansız, kələksiz sifətlərin bizə aşılanması üçün hər il yayda kəndə, oradan da dağlara istirahət etməyə aparırdı. Biz orada saf, təmiz, insanlarla qaynayıb qarışardıq. Onlardan ən mənalı, məzmunlu həyat nümunələrini götürərdik. Elə indi də düşünürəm ki, məndə olan vətənpərvərlik, Vətən təəssübü arasında yaşamış olduğum kənd camaatı və dağların yetirdiyi gül-çiçək və heyrətamiz gözəllik olmuşdur".

## II FƏSİL

# MÜHARİBƏ: SABAHA SƏSLƏYƏN İLLƏR

### § 1. Tələbəlik - gələcəyə körpü

Uşaqlığın yaşı Qazaxa, doğma Aslanbəyliyə də, Bakıya, Sovetskiyə də düşür. Maraqlıdır, ona görə ki, Fikrət müəllimdə kəndi, təbiəti sevmək psixologiyası ilə quru, sosial prosesləri mənimsəmək dilemmaları birləşmiş olur. Bu barədə yuxarıda yazmışam. Amma həqiqətdir, orta məktəbdən sonra yeniyetmə, cavan daha da romantikləşir, min bir arzuyla yaşaysr. Hətta gələcək sənəti, peşə taleyini də müəyyənləşdirir. Fikrət Seyidov baxmayaraq pedaqoq-müəllim əhatəsindəydi, gözləmək olardı ki, bunun ardınca gedəcək, əslində onun daxilində özünün seçimi varmış: "Mənim arzum meşə təsərrüfatı institutuna getmək idi. Birdə ki, meşə təsərrüfatı mütəxəssisləri hazırlayan institut da Leninqradda yerləşirdi. Atam məni xarici dil fakültəsinə qoyanda bunu da nəzərə almışdı. Ancaq xarici dil fakültəsində oxumağıma qəti peşiman deyiləm" - keçmişə qayıtma Fikrət müəllimindi. Təbiəti çox sevəndi, gəzməyi xoşlayandı və təəssüf ki, onunla vur-tut bir dəfə səfərə çıxmışam. 1984-cü ildə professor Fəxrəddin Veysəlov, Raqib Rəhimov - və mən Oğuz rayonuna məktəb xəttiylə. Yolboyu Fikrət müəllimin sadəliyi, gözəlliyə biganə qalmaması mənə qeyri-adi görünürdü. Və ilk dəfəydi müəllimimlə "açılışırdım".

Məni bir məsələ maraqlandırdı: F.Seyidov xarici dili seçməsiylə peşimançılıq çəkmədi. Lakin onun APİ-nın nəzdindəki xarici dil fakültəsinə qəbulu bəzi siyasi ab-havaya aydınlıq gətirdi: 1945-ci ildə möhkəmlənən xarici dil fakültəsinə 2 qrupun artırılmasında M.C.Bağırov göstərişi əsas götürülmüşdü. Və professor, rektor Əhməd Seyidov vətənpərvərlik strategiyası ilə bu məqamı itirməmişdi. Sovet ideologiya maşını öz yolundan çıxmırdı, qırıb-tökürdü,



*1951-ci ildə Lvov şəhərində əskərlikdə serjant rütbəsi alanlar içərisində*

kimin ağzından kapitalist ölkəsi, onun adamları, mədəniyyəti və s. çıxırdısa tapdalayırdı. Belə vaxtlarda fakültəni nüfuzdan salmaq da problemə çevrilməzdi: "Bu səbəbdən də xarici dillərin öyrənilməsinə cəhd edən çox az adam tapmaq olardı. Xarici dili Bilən adamlar Dövlət Təhlükəsizlik İdarəsinin nəzərində olardı. Xarici dillərə belə münasibətin nəticəsində bu fakültədə qəbul işi pozulmaq təhlükəsi qarşısında idi. Belə bir vaxtda atam orta məktəbi əla qiymətlə qurtaran bacım Səyyarəni və həmən il APİ-nın hazırlıq şöbəsini qurtaran məni xarici dil fakültəsinin ingilis dili şöbəsinə qoydu. Bizə baxıb xalam Pəri də qızı Müzahirəni bu fakültəyə gətirdi." - Fikrət müəllim tarixi əyaniləşdirir. Belə bir psixologiya yaranır ki, əgər institutun direktoru Əhməd Seyidov bu addımı atırsa... Az keçmir, ingilis dili fakültəsinə müsabiqə ayaq açır...

Fikrət müəllimin tələbəliyi də ağıllı-ziyalı mühitində keçmişdir. Önəmlisi, müharibədən sonra vəziyyət ürəkaçan olmamışdı, ölkə

(SSRİ) özünü düzəltməyə cəhddəydi. Belə durum tələblərin mənəvi-maddi vəziyyətinə təsir göstərməyə bilməzdi: Romantik sevgi macəraları, bədxərclik, valideynin çiyinlərində əl-qol atmaq kimi hallar yoxuydu. Təəssüf ki, bu əndazələr aradan qəti şəkildə götürülmüşdür. Ona görə də vəzifəli-pullu məmurların ya maşınlarında, ya da olmayan ciblərində silah "narahatdı" alışmağa. Halbuki Fikrət belə imkanlı (özü də halalca) ailədə böyüməsinə baxmayaraq, təhsili barədə düşünmüşdü. Oxuduğu təhsil ocağında isə tanınan alimlər - pedaqoqlar dərs demişlər: R.Qayıbova, L.Midivani, R.Sokolova, R.Barsuk, D.Abbasova və digərləri. Bir haşiyə çıxım və yuxarıdakı fikrimin davamı kimi, günümüzlə müqayisələr aparmaq istərdim: hər bir insanın keçmişi və bu günü ətrafı üçün, xüsusilə gənclər üçün örnək olmalıdır. Artıq həqiqətə çevrilmişdir ki, müasirlərimiz istər nazir, istərsə rektor, nüfuzlu qurum rəhbəri olsun - övladlarını başlı-başına buraxmışlar. Ən yüksək universitetin ali dərəcəli fakültələrinə qəbul edilir, dərslərinə kefi çəkəndə davam edir, müəllimlərini təngə gətirirlər. İş elə olur, o müəssisənin birinci şəxsi əziz-xələfinin xətrinə toxunmağa cəsarət göstərmir. Və diplomla "mükafatlandırılır". Nəticədə öz ixtisasını bilmir; vura həkim sənətinə "yiyələnə!" Mətbuata sızan məlumatlara əsaslansaq, ən qiymətli minik maşınlarında küçə qayda - qanunlarını pozan, dəfələrlə piyadaları vuran, qarşıdakı maşına toqquşanlar məhz həmən kübar uşaqlarıdır. Yaxşı xatırlayıram: Sosialist Əməyi Qəhrəmanı, adlı-sanlı ədəbiyyat müəllimi, yaşı yetmişi haqlamış Zərbəli Səmədov vardı. Onu 80-ın ilk illərində keçmiş Xalq Təsərrüfatı İnstitutunun qarşısında bir tələbə maşını ilə vurdu. Az sonra xəstəxanada Zərbəli müəllim keçindi. Günahkarın dişi də ağrımadı, başı da! Cəmiyyətdə tarazlıq qorunmalıdır, gənc tələbələr başlı-başına buraxılmamalıdır. Pedant ruhlu vətəndaşlar yetişdirilməməlidir...

Fikrət Seyidov Pedaqoji İnstitutda oxuyarkən atası Əhməd Seyidov oranın direktoru vəzifəsində çalışırmış. Bu, onun məsuliyyət hissini daha da artırır. Az sonra xarici dillər fakültəsinin nüfuzunu yüksəldən Ə.Seyidovun əməyi bəhrəsini verir. Fakültə

instituta çevrilir və ilk direktoru, dosent Əfşan xanım Qədimbəyova seçilir. Onun tələbəsi Fikrət Seyidov direktoru haqqında xoş sözlər demişdir: "Bu qadın tamahsız, səliqəli, intizamı sevən bir şəxs idi. O, tələbələrdən ciddi intizamla bərabər, onlara ana nəvazişi də göstərirdi. M.C.Bağırovun hakimiyyətdən getməsi nəticəsində onu da rektorluqdan uzaqlaşdırdılar."

Fikrət müəllimin memuar - əsərindən götürdüyüm bu qənaəti məncə bəzi təhsil adamları oxumalı və nəticə çıxarmalıdılar. Heyif ki, təhsil müəssisələrinə şəxsi əmlakı iştahı ilə baxanların sayı artmaqdadı. Keçmiş tələbə, indi adlı-sanlı pedaqoq, professor Fikrət Əhməd oğlu Seyidov instituta rəhbərlik edən rektorların həm şəxsiyyətlərini, həm iş keyfiyyətlərini, həm də təmizlilərini obyektiv səciyyələndirir. Az müddətdə neçəsi dəyişdirilir: Ə.Qədimbəyovadan sonra R.Qayıbova (cəmi 3 ay), N.Paşayev (cəmi bir il), nəhayət Rəfiqə Hüseynova: "O, (R. Hüseynova - A.E.) müharibədən qayıtmışdı. Mənimlə bir qrupda oxuyurdu. Çox dilavər danışıqlı qadın idi. Onu yüksək təşkilatçılığına görə əvvəlcə institut, sonra rayon, daha sonra MK-nın komsomol katibi vəzifəsinə irəli çəkdilər. Oradan da bizim instituta rektor göndərdilər".

Həssas oxucuya aydın olur ki, 40-50-ci illərdə vəzifəyə hansısa neqativ yollarla yox, qabiliyyətə, bacarığa, təmizliyə, təşkilatçılığa görə irəli çəkilmişlər. Yerlibazlıq, qohumbazlıq, rüşvətbazlıq və sair iyrənc xüsusiyyətlər olmamışdır. Özünü doğrultmayan dərhal vəzifədən kənarlaşdırılmışlar. Gəlin bu günümüzə: Səriştəsiz, amma... o adam təhsil kimi mürəkkəb, çətin quruma rəhbər (nazir, rektor, prorektor, nazir müavini, təhsil şöbəsi müdiri və ilaxır) qoyulur, ilbəil oranı batırır, özünü kasıbçılıqdan çıxarır, nəhayət, ayılanda sakitcə işindən azad edirlər. Bu yolla kim işləməz, axı? Özünçün əlləş-vuruş, sonra gedib rahat topladığın sərvəti rahat da ye-iç! Məsələn. Mən Rəfiqə Hüseynovanı tanıyıram. M.Mehdizadə təhsil naziri olanda onun müaviniydi. Zabitəli, sözübütöv, əli-ayağı təmiz qadındı. Haqsızlıqla barışmazdı. Ondan çəkinirdilər, ehtiyatlanırdılar. Vaxt yetişdi, M.Mehdizadə təqaüdə yola salınanda, onu komsomol və



*1950: İnstitutun buraxılış ili*

partiya işçisi, mərhum Elmira Qafarova əvəzlədi (Allah rəhmət eləsin). Təhsildən xəbərsiz bir xanımdı və o da nazirliyin istiqamətini hara istədi dəyişdi, kadrların axırına çıxdı. Və nazirlikdə yeganə rəqibi, həmcinsi Rəfiqə xanımdı. Qısqandı və dərhal onu vəzifədən uzaqlaşdırdı. Və o illərdən Təhsil sistemimiz axsamağa başladı və təsadüfi şəxslər nazir postuna sahib kəsildilər...

Fikrət müəllim müəllimlərini də, tələbə yoldaşlarını da aydınlığı ilə xatırlayır. Bir məsələni göstərir ki, onunla yaxşı oxuyanlardan M.Omarova, S.Seyidova, M.Paşayeva, Ə.Cabarova, S.Quliyeva institutda müəllim saxlanılır. Qeyd edim ki, bu ənənə 80-90-cı illərə qədər yaşadı, istedadlı, əla oxuyan tələbələr ya assistent, ya da aspirant yolu ilə institutda qalırdı. Sonralar bu yol da məğlubiyyətə uğradı; dayılar, əmilər... keçdi irəliyə və qabiliyyətsiz qohum-əqrəbələrini verdilər qabağa. Fikrət müəllim yuxarıdakı fikrimə də aydınlıq gətirir və bu xatırlama təsadüfi deyil, ibrətlidi, lazımlıdı: "Tələbəlik illərimiz çox dolğun və mənalı keçdi. Çox ciddi oxuyurduq. Tapşırmaq, himayəçilik etmək deyilən bir şey qətiyyən yox idi. Təmizlik, yüksək mənəviyyat var idi. Əkbər Ağayev, Mirzağa Quluzadə, Qasım Qasımzadə, Əhməd Seyidov, Boris Ayolla, M.Həyatzadə, Əli Sultanlı, Ə.Həşimov,

Rüsxara Qayıbova, Cəfər Cəfərov, R.Barsuk kimi müəllimlərin əhatəsində başqa cür də ola bilməzdi. Bizi ancaq-ancaq kitabxanalarda tapmaq olardı. Biz bir-birimizə və müəllimlərimizə hədsiz hörmət və məhəbbət bəsləyər, onlarla nəzakətlə dolanardıq."

Müqayisə aparmamaq bu günlə, qeyri-mümkündü. Ali məktəbləri çirkab başına götürmüşdür. Və bu rektorların sifarişiylə aşağılara ötürülür. Və o rektor, yaxud prorektor, dekan, kafedra müdiri, müəllim tələbələrinin qarşısında təmizlikdən dəm vurur. Bu məsələdə subyektivliklə obyektivliyin mübarizəsi var, axı! Ali məktəbin müəllimləri: ən yüksək elmi titullarla 50 dollar belə maaş almırlar. Nimdaş geyimdə üzgün, halsız auditoriyaya girirsə, özünü o yerə qoymur, bütün enerjisiylə dərsini keçir. Mükafatı əzab olur. Deməli, ehtiyac onu alçaldır, sındırır. Rüşvətverənsə eyş-işrət əhatəsində maşınıyla instituta gələn tələbədir. İmkansız tələbə halını yaxşı bilir və oxuyur... O keçmiş, ibrətli təhsil mühitiydi ki, bu gün də Fikrət Seyidovu sındırmaqda acizdir və mümkünsüzdür!

Fikrət Seyidov 1950-ci ildə institutu bitirir: Şamxor (Şəmkir) rayonuna təyinat verirlər. Lakin hərbi çağırışçı olduğundan və Bakıda qeydiyyata düşdüyündən geri qayıtmaq məcburiyyətində qalır, Bakıdakı 193 saylı məktəbdə işləyir. Fikrət müəllim xatırlayır ki, atamın "siyasi-sosial" durumu yaxşı deyildi, yuxarılar tərəfindən sıxışdırılırdı, anonim məktubların qəhrəmanına çevrilmişdi. Buna baxmayaraq o, ilk dərs günüm üçün həyəcan keçirirdi, təsəlli verirdi, amma əsas sözü o idi, düz və məhəbbətlə çalış, düz yolun yolçusu azmaz. Bu düzlük təkidiydi, məni həqiqi müəllim etdi.

Baxt yetişdi, az sonra Fikrəti hərbiyə çağırırlar. Bu məqamda da ibrətli detalı oxucuların nəzərinə çatdırmağı vacib hesab etdim: "O zaman Azərbaycan hərbi komissarı İzmayılov adında bir polkovnik idi. Onun atamla çox yaxın münasibəti var idi. O, atama dedi ki, bəlkə uşağı Bakıda saxlayaq. Atam razılaşmadı. - Fikrət kişi olub ailə quracaq, o, indidən həyatın bərkinə-boşuna düşməlidir, - dedi".

Əsgərliklə bağlı Əhməd Seyidovun oğlu Fikrətə yazdığı məktubu verməmişdən qabağ, istər-istəməz bu günümüzü xatırlamalı

oldum: Müharibə 10 ildən artıqdı davamlıdır, Qarabağ tamam əlimizdən gedibdir. Sual çıxır: Bəs ordumuzdan kimlər və kimlərin balaları (!) yayınır? Cavabı ağırdır mənimçin. Vəzifəli, yuxarıda əbədi məskən salan məmurların əsgər yaşlı uşaqları ya xaricə yola salınır (Biləcəri stansiyasından yox!), ya Bakıda saxlanılır, ya da adı ordu qurumlarında gedir. Gedənlərdən kiminsə pulu var, günlərlə hər sutkasını pulla ödəyib evlərə buraxılır. Bu, artıq təkzibolunmaz acı faktdır! Qəribədir, bu ağır adətin qarşısını almaq barədə düşünülmür. Vaxt yetişəcək, Müharibə qələbəmizlə başa çatacaqdır. O, fərarilər və gizlənənlər, anasının ləziz yeməyini hər gündə yeyən əsgərlər iqtidar sahibinə çevriləcəklər, o kimsəsiz kişilərə imkanlı nakişilər rəhbərlik edəcəklər..

Professor Əhməd Seyidov ali təhsilli oğlunu yola salır, qürurlanır ki, kişilik məktəbi keçirəcək, bu yol gedilməlidir, baş da tutur. Atanın bir məktubundan: "Əzizim Fikrət! Sən təsəvvürə gətirə bilməzsən ki, mən və biz hamımız sən gələn günə nə qədər ehtiyac hiss edirik, biz o xoşbəxt günün xəyalı ilə qidalanırıq, onunla yaşayırıq... Əziz Fikrət! Səninlə söhbətə indi dərin mənəvi ehtiyac duyuram. Mən bu söhbəti saatlarla, günlərlə deyil, həftələrlə, aylar, illərlə olsa belə, doyacağımı zənn etmirəm. Bu ehtiyac özünü məndə hər dəqiqə, hər saniyə hiss etdirir. Bunu mən hava qədər zəruri hesab edirəm. İşimdə, istirahətdə, yeməyimdə, yuxumda çatmayan, tamamlayan bir şey görürəm və bu yarımçılığı heç şeylə doldurmaq mümkün deyil. Bu da sənin ilə söhbətdir. İntizarla səndən gözlədiyimiz məktublarda sən çox məhdud yazırsan, sözlərə xəsislik edirsən, ona bizim, şəxsən mənim nə qədər ehtiyacım olduğunu bilsə idin, bəlkə də belə etməzdin. Yaz, hərtərəfli yaz, mümkünsə şəklini göndər... Səni bərk-bərk öpüb ayrılıram. Səni "canından" artıq sevən atan Əhməd Seyidov... "

Məktuba qayıtmaqda məqsədim ata məhəbbətinin heç də ana sevgisindən az olmamasıdır. Əhməd müəllim mənim namizədlik dissertasiyamın elmi rəhbər idi və hər həftə görüşürdük. Məsləhət verirdi, nə oxuduğumu soruşurdu, qayğılarımı: kirayə qaldığımı, insti-

tutda mənə münasibəti xəbər alırdı. Onu bir dəfə də gülən görmədim, yersiz hərəkətini sezmədim. Amma nəsə başa salmaq, yaxud nəticə çıxarmaq lazım gələndə "Bizim kənddə bir kişi vardı"yla ibrətli əhvalatı söyləyirdi. Bu, bəs eləyirdi. Ailədə də ciddiydi. Zahirən adama elə gəlirdi professor daş ürəklidi. Amma. Onu tanıyanlar da, övladları da əslində atalarının, professor Əhməd müəllimin ürəyi-yumşaq, qayğıkeş, saf ürəkli insan olduğunu deyirlər. Fikrət müəllimi orduya yola salanda bütün ailə üzvləri kövrək kədər hissi keçirir, ağlayanlar da olur. Ata Seyidov isə soyuqqanlılıqla oğluna xeyir-dua verir. Sonra otağına çəkilib göz yaşı tökür, deməli, içərisində yaşayırmış oğul ayrılığını. Bu anlarımda atam İskəndəri andım.

...1947-ci ildi. Məktəbə də getmirdim. Ata nənəm Zülü nənəm Qazaxın I Şıxlı kəndindən həmişəlik oğul evində qalmaq niyyətiylə gəlmişdi. Muğan kəndi Qırmızıkənd cəhənnəm istisindən boğulurdu. Mığmığalar da bir yandan. Cavanlığı və ahıllığı dağ havalarında keçən nənəm çətinlik çəkirdi, hey deyirdi ki, İnnə (atamı belə çağırırdı), məni apar, nəfəs alammıram. İş elə gətirdi, böyük qızı Cahan mamamı çağırdılar Qazaxdan. Hiss eləyirdim öyrəşdiyim, namaz qılanda belinə atılıb mindiyim, o da bir söz deməyən Zülü nənəmi itirirəm. Uşaq düyümü bunu mənə təlqin eləyirdi. Vaxt yetişdi. Astara-Bakı sərnişin qatarı axşamçağı Qırmızıkənd dəmir yolu stansiyasında dayanırdı. Atam stansiyanın rəisiydi (1946-cı ildən), perrona camaat toplanmışdı. Sərnişinlər də vardı, nənəmi ötürmək üçün gələnlər də. Bircə atam yoxuydu. O, evdən gəlməmişdi. Buna təəccüblənənlər yəqin ki, varmış; axı, Eminov anasını yola salmaq üçün görünmür stansiyada. Güman ki, bu cür düşünənlər haqlıymış. Qatar aşağı perronu haqlayırdı. Hamı, anam da nənəmlə öpüşürdü. Mən qopmurdum ondan, elə bil Allah mənə güc vermişdi, qopara bilmirdilər. Nənəm təsəlli verirdi ki, dəyib Qazaxa gələcəyəm yanına. Ağlama, Alı, nənənin də ürəyinə toxunur. Faydası vardımı? Axır ki, anama tabe oldum. Amma atamın yoxluğunu hiss eləmişdim və həqiqətən beləydi. Sən demə, ürəyimə dammışmış nənəm biryolluq bizi tərk eləyir (Çox keçmədi rəhmətə getdi. Ruhu şad olsun nənəmin). Evə gəldik, 30-40

metr idi evimizlə stansiyamn arası. Anam çağırdı atamı, səs çıxmadı. Məni də uşaq marağı götürdü. Anamla otaqların birinə getdik. Nə görsəm yaxşıdı? Atam üzüquylu çarpayıya uzanıb ağlayırdı. Anam da dözəmmədi: - İnnə, - pıçıldadı. - Zülü nənəni yola saldıq, dedi ki, İnnə bir aydan sonra gəlib məni gətirər, Alı üçün gələcəyəm. Və illər ötdü, dolandı. Ağılım kəsdi. Nadir hallarda atam məni yola salanda, yaxud qayıdanda öpərdi. Yola salmaq isə yoxuydu. Amma onun necə də kövrək, isti qəlbi varıydı. Hətta can verəndə (1986) deyirlər ki, təcili Alını çağıraq, gəlsin. O isə güclə deyir ki, əziyyət verməyin. Və gözünü bir neçə saatdan sonra yumur (ruhun şad olsun, Ata).

Əsgərlik həyatı insanın ömrünün romantik və realist çağlarıdır: Romantikdir - xəyalında sonra başlanacaq həyatını düzür - qoşur. Realistdir - hər an ölümə hazırsan. Fikrət müəllim Qərbi Ukraynada Bender Qaraqühunun mübarizə apardığı bir yerdə qulluq edir, dəfələrlə çətin vəziyyətlərlə üzləşməli olur. Hətta bir kərə ölüm onun yanından ötür. Kişi kimi xidmət göstərir. Bu barədə söhbət salmağımda da təsadüflik axtarmayın. Əsgərlik - mətinlik məktəbi hətta dövlət səviyyəsində diqqətdə dayanır, bir ailənin taleyində müsbət rol oynayır. Yenə bəzi paralellər aparacağam: 1951-ci ildə F.Seyidov orduda ikən ciddi rejimə baxmayaraq "bakılı oğlan"dı, çətinliklərə əyilmir, komandirliyin təşəkkürünü alır, serjant rütbəsinə layiq görülür. Bu o zaman imiş ki... Professor Əhməd Seyidova qarşı müsəlman psixologiyasına məxsus paxıllıq, gözügötürməzlik və s. insana yaraşmayan xislət baş qaldırır, onu partiyadan çıxarırlar. Məcburiyyət qarşısında qalıb, Moskvaya şikayətə gedir. "Şikayət" anlamana heç vaxt müsbət hiss oyanmır, çünki əsasən ona görə ki, insan əzilir, tənhalaşır ki, niyə mən şikayətçi olmalıyam?! Neyləyəsən ki, dövrün tərbiyə elədiyi vəzifə sahibləri bu vəziyyəti reallaşdırır. Moskvaya şikayətçi ruhuyla gələn Ə.Seyidov təyyarədən düşəndə mühit sıxır onu və: "Elə zənn etdim ki, Moskvada da Azərbaycandakı bürokratlarla qarşılaşacağam. Mənə elə gəlirdi ki, ətrafımda olan adamların hamısı mənim partiyadan çıxarılmağımı bilir, DTK məni izləyir". Yanaşma təsadüfi deyildi, həqiqətdi ki, o bürokrat



*Fikrət Seyidov orta məktəb müəllimləri ilə müşavirədə*

azərbaycanlılar bu gün də törəmələrini məmləkətin canına calaşdırmışlar. Haqqının bərpasına illərlə ömür xərclənir, qapılar üzünə bağlanır, məktublar gedər-gəlməzə düşür... daş dillənir, o iqtidar sahibindən səs çıxmır. Fransız filosofu Nikol Şamforun sözü yadıma düşdü: "Həyatın dözülməz olmaması üçün 2 şeyə alışmaq lazımdır: Zamanın verdiyi yaralara və adamların ədalətsizliyinə". Bu iki amil görünür, xalqımızın taleyinə əbədi düşmüşdür ki, hələ də bu zolaqdan qurtulmamışıq, baxmayaraq azadlığımız öz əlimizdədi.

Ə.Seyidov Moskvada yüksək səviyyədə qarşılanır və dinlənilir. Fikir verin, ruslardı bunu edən. Bizlərsə bunu etməyənlər! Yaxşı xatırlayıram 70-90-ci illəri. Haqlı soydaşlarımızın əli hər şeydən üzüləndə Lenin Movzeleyinə şikayət göndərirdilər və az sonra o şikayətçini MK səviyyəsində bizim bürokratlar cani-başdan qəbul edirdilər... Əhməd Seyidov razı halda Bakıya qayıdır. Yenə də qalmaqal, yalan faktlar öz işini görür. Bu müddətdə sən demə, o Moskva gizli araşdırmalarını aparırmış. İkinci Moskva səfərində professor eşidir: "Belə oğulun da atası partiyadan kənar ola bilərmi?" deyib işin üstünə yazır: "Əhməd Yusif oğlu Seyidovun partiyadan çıxarılması barədə olan dəlillər əsassız, böhtan xarakterli olduğu üçün o, yenidən partiya sıralarına qaytarılsın". Bu arayış onda israrlı deyil ki, məhz Əhməd Seyidovu oğlunun nümunəvi əsgəri xidmətinə görə partiyaya bərpa

edilmişdir; sadəcə əsgərliyə, əsgərə olan sayğının siyasi-mənəvi əhəmiyyət daşımasıydı ki, ata tərbiyəsi təqdir olunur. Əhməd müəllim də həssas idi, oğluna ümidlə, onun, ailənin etimadını şərəflə doğrultduğuna sevinir, qururlanır. Bir də vaxt tapıb məktublar yazır. Maraqlıdır ki, ayda iki dəfə ayın 15 və 30-da. Fikrət Seyidovun etimadı münasibətiylə professor Seyidov məktubunda yazır: "Əziz oğlum, mən hələ doktorluq dissertasiyası müdafiyə edəndə də çəkdiyin əziyyət, məni mənəvi ölümdən xilas etmək üçün çox-çox uzaqlarda şərəfli, namuslu xidmətin birdə ki, o biri uşaqlarımın həyatda tutduğu mövqe və davranışlardan bir daha məndə inam doğurdu ki, mən uşaqlarımdan namuslu insan, ləyaqətli vətəndaş tərbiyə edə bilmişəm".

Fikrət Seyidov gəncliyində dilləri öyrənmək üçün atasının məsləhətlərinə əməl edir. Əhməd müəllim ağıllı, strateg, həssas idi və irəlini görürdü. Hamımıza bəlliydi ki, rus dili daima Azərbaycanın dövlət səviyyəsində əslində I dili olmuşdur. M.C.Bağırovdan 90-cı illərədək - müstəqilliyimizədək. Mən şahidiyəm ki, mötəbər iclaslarda, yığıncaqlarda azərbaycanlıların iştirak etdiyinə baxmayaraq tribunadan rus dili səslənmişdir. Bu proseslərin birbaşa iştirakçısı olan Əhməd müəllim bütün övladlarına rus dilini bilməsinə nail olmuşdur. Lakin hansı yolla? Bizim vəzifəlilər xüsusilə, uşaqlarına rus dilində oxutmağa üstünlük vermişlər. Bu, o deməkdi ki, kiçik yaşlardan milli soy-kökündən ayrılır, şərqliyə məxsus adət-ənənələrini itirir, sümüyünü rusların qanına calayır. Bu hələ harasıdı?

Beləléklə, fəsadlara yol verilir, necə ki, məlum oldu ən nüfuzlu şəxsiyyətlərimizin arvadları erməni və rus millətlərindəndir. Faciə deyilmi? Lakin Ə.Seyidov bütün övladlarını azərbaycanca oxutmuş, digər dilləri öyrənməyə nail olmuşdur. Ata uzaqgörənliyi budur, yoxsa kı... F.Seyidovun şəhadəti maraq doğurur: "...çoxları uşaqlarını rus məktəblərinə qoyurdular. Atam isə bizi Azərbaycan məktəbində oxudub, rus dilini əlavə öyrənməyi daha əlverişli sayırdı. Ona görə də mənə əsgərlikdən məktubları rus dilində yazmağı məsləhət görürdü və yazdığım məktublarda buraxdığım qrammatik və orfoqrafik səhvləri göstərib nələrə diqqət yetirmə-

yimi yazırdı. Özü də mənə rus dilinin qrammatikası kitabını göndərmişdi. Atamın bu səyi nəticəsində sonralar qardaşım İsmayıl, bacım Səyyarə, mən və bacım Nigar rus dilində yazıb oxuduq".

Fikir versək, müdrik ata-pedaqoq nə qədər öz millətinə, dilinə sadiq imiş və övladlarını da bu ruhda tərbiyə etmişdir. Bu gün həmən ailə üzvlərini tanıyanlar bu hissin yaşadılmasının şahididilər...

Fikrət Seyidov təmiz şəxsdir, daimi əli-ayağı da bu əqidəyə xidmət göstərmişdir. Əgər gəncliyindən gözütox, ürəkli, müdrik tərbiyə alıbdırsa, sonra onu cızığından çıxarmaq çox-çox çətinləşir. Mən şəxsən Fikrət müəllimi bu inamla sevmişəm və özümə nümunə gətirmişəm. Onun bir üzü var, amma adamlar var düzlüyünü, rüşvətlə arası olmadığını gözə soxur, di gəl, opponentliyini də pulla yerinə yetirir, hətta dissertasiyaya da pulla rəy yazır. Belə halda Fikrət Seyidov kimi nadir şəxsləri qorumaq lazımdır...

Vaxt yetişdi, ali məktəblər başdan-ayağa rüşvət yuvasına çevrildi. Kimlərdən başladı? Aşağıdan, yoxsa yuxarıdan? Əlbəttə, yuxarıdan: rektor - prorektor - dekan - kafedra müdiri - müəllim. Qeyd edək ki, hətta əqidəli, gözütox, ehtiyatlı müəllimlər rüşvət dəryasına özlərini atdılar. Bu xoşrəngli və ılıq dəryadan yan keçənlər vardı və qaldılar da. APİ-yə 1960-ci ildən bələdəm bu günlərədək. Böyük pedaqoqlar, alimlər biz nəslə dərs deyiblər. O vaxt qulağımıza dəyməmişdi ki, Əhməd Seyidov, Ə.Dəmirçizadə, Məmməd Şıxlı, İsmayıl Şaxlı, Cəfər İbrahimov tələbələrdən pul alır, yaxud tələbə qəbulunda "uşaq düzəldirlər". Adamın dili quruyar. Amma bunlar azdı, barmaqla sayılandı. N.S.Xruşşov hakimiyyətə gəlməyilə SSRİ məkanında rüşvətə yaşıl işıq açıldı, o cümlədən Azərbaycan geridə qalmadı. Belə-belə şeylərdə (!) irəli getməyi xoşlayırıq.

Pedaqoji Universitetdə rüşvət qəbul kompaniyasından başladı. Fikrət Seyidov o illərdə APİ-də dərs verirdi, mühitin içərisindəydi, amma rüşvətin kənarındaydı. O, yazır: "Ali məktəb kimi müqəddəs bir yerdə rüşvət geniş vüsət aldı. Təmiz adamlar zamanın bu çirkin əməlləriylə ayaqlaşa bilmədilər. Əvvəlcə rüşvəti tək-tək adamlar aldı... Yavaş-yavaş rüşvət alanların sayı çoxaldı. Onlar

qruplaşmağa başladılar. Əvvəlcə fənn müəllimləri birləşdi. Sonra bu işə dekanları da cəlb etdilər. Dekanlar da öz növbəsində rektorları bu işə qoşdular". Belə bir ləkəli mühitdə gəncliyi və yetkinliyi keçən, hətta rektorluğun bir addımlığında vəzifə daşıyan Fikrət Seyidov ata paklığım, ata öyüdünü iştahından qorumağı bacardı. Zalımlıqla qazanılan bu pulda fəlakət var, fəsadlara yol gedir və haraya getsə də yenə qayıdıb sahibinə bəla gətirir. F.Talma deyir ki, zalımlıqla qazanılan pul onun öz başında çatlayır.

Fikrət müəllimin indi yaşadığı evə-ata ocağına haram tikə dəyməmişdir. Bu ailəyə qanqaralıq, laqeydlik, deyingənlik kimi halsız vərdişlər ayaq açmamışdır. Mən onlara arabir gedəndə Fikrət müəllimin ömür-gün yoldaşı, ziyalı qadın Xalidə bacının narahatçılığının şahidi oluram. Heç "sifariş" almadan əl-ayağa düşər, söhbətə müdaxilə eləməz, fikri dağıtmaz. Bu təbii ki, onun qayınatası Əhməd müəllimdən, qayınanası Abıhəyat anadan gəlmədir. Gəlin yaxşı, pis nəylə qarşılaşırsa onu da mənimsəyir. Ərin qulluğunda dayanmaq hər qadının işi deyil, xüsusilə müasir zamanəmizdə.

Bir-iki xarakterik cizgilər: Fikrət müəllimin atası. Əhməd müəllim-qaynatası rəhmətə gedəndə evə dayaq olur. Və onu (Ə.Seyidovu) şöhrətləndirmək üçün evə təkbaşına, təcili ustaları gətizdirir və bir gecədə təmiri başa vurur.

Hər il qayinatasına və qayınanasına ehsan verdirir. Nəvələrinin mütaliyəsi, bədii ədəbiyyatla maraqlanması naminə yay istirahətinin nə olduğunu bilmir. Vaxtını sərf edir, bundan ləzzət alır.

Fikrət müəllim üçün kabinetində səliqə-səhman yaradır, tam sakitliyi təmin edir. Və sair.

Fikrət müəllimin qızları da anaları kimi mehriban, işgüzar və elmli təşkilatçılardır.

Fikrət müəllimin böyük qızı Rəna Kosmik Tədqiqatlar İnstitutunda, inkişaf bankında işlər müdiri, Azərbaycan-İtaliya birgə müəssisəsinin rəhbəri vəzifələrində çalışmışdır. Qızı Aytən isə Babasının yolu ilə gedərək Azərbaycan respublikasının ilk pedaqoji elmlər üzrə şurasında "ADP-də maarif məsələləri" mövzusunda dissertasiya müdafiə etdi.

Daha sonralar isə baza təhsili ingilis dili olduğu üçün xarici şirkətdə işlər müdiri vəzifəsində çalışmışdır.

Fikrət müəllimin qızlarının hər ikisi ingilis, alman, rus, türk dillərini mükəmməl bilən mütəxəssislərdir.

Fikrət müəllim belə səmimi, qeyri-adi münasibətlə anası ilə bağlı bir epizodu misal gətirir: "Atamın yaşlı vaxtıydı. Bir axşam saat 12-yə qədər oturub söhbət edib yatmağa getdik. Gecə saat 4-də hiss etdim ki, evi tüstü basır. Mətbəxə yüyürdüm. Yerimdəcə donub qaldım. Anam balaca manqalın üstündə kabab bişirirdi:

- Ana, bu nədir? -deyə təəccüblə soruşdum.

Anam gülümsəyib dedi:

- Bilirsənmi, atan yuxudan ayılıb mənə dedi ki, Abihəyat, yadındamı yaylaqda kabab bişirdiyimiz vaxtlar. Mən hiss etdim ki, deyəsən kişinin könlünə kabab düşüb. Dedim iki tikə də olsa yesin ki, mən də rahat olum.

Bu epizodu Fikrət müəllimdən eşitmişdim. Bu dəfə oxuyanda kitabından qəhərləndim, anam yadıma düşdü. Gecələr görərdim ki, anam atama yemək hazırlayır, fərqinə varmazdım. Yuxu mənimçin hər şeydən əzizdi. Sonralar anamdan xəbər aldım bu nədi, ay Ütvə (əsil adı Lümviyəydi, rəhmətə gedənədək bu adla çağırırdım. Bütün dünyasını dəyişmiş anaların ruhu cənnətdi), - Ali. - dedi - Yastılıqdı (Qazax ləhcəsində), atan gecələr yemək istəyir...

Bu detalların çox böyük tərbiyəvi əhəmiyyəti var, heyif ki, indiki cavanların əgər, ürəyindən "yastılıq" yemək keçərsə elə şivən-haray qopar ki... Fikrət Seyidov elə kiçik ailədə də böyüməmişdir, yeddi olmuşlar, özü də bir evdə. Amma böyüyün, kiçiyin, öncə atanın öz yeri olmuşdur. Səmimiliyə, başa düşənliyə baxın ki, Əhməd Seyidov yazı-pozu adamı, vəzifəli şəxs, mütaliyəçi, uşaqlar tələbə, üstəgəl qonaq-qaralı. Lakin bu çətinlik heç vədə problem yaratmamışdır. Bəli, gənclik yaşlarından sanki hər şey Fikrət müəllimə, onun qardaş-bacılarına tərbiyəvi təsir üçün yaranmışdı. Həqiqətən də bu qənaətim düzgündür.

F.Seyidovda bu işgüzarlıq ki var, elə-belə başa gəlməmişdir. Hələ cavankən, subaykən evin darısqallığı ilə bağlı o vaxtkı Vo-

rovski qəsəbəsində öz əliylə otaq tikir. Min bir əziyyətlə, bir-iki fəhləylə özü də işdən qayıdıb əlləşir, axşam yorğun yatır. Bu əziyyəti ailəyə də bildirmir, hər şeyin qaydasında olduğunu deyir. İş o yerə çatır ki, o zamanki Metropolitenin rəisi Ə.Əbdülrəhimov qonşusu cavan oğlanın halına acıyır. Maraqlanır, Əhməd Seyidovun oğlu olduğuna təəccüblənir ki, bu professor nə əcəb oğlunu oxutdurmayıb, fəhlə işlədir. Məsələdən agah olur, tikinti materiallarını ucuz qiymətə gətizdirir. Tərbiyəyə, əməksevərliyə, sadəliyə baxın ki, gənclikdən hər şeyi özü qazanmaq inadını qoruyur.

Oxucuya elə görünməsin ki, bu keyfiyyət yalnız Fikrətdə var, xeyr, qardaşı İsmayılda da həmçinin. Oxuyuruq: "İsmayıl iki yerdə işləyib pul qazanırdı. Bazarlıq etmək, həyat-baca (o evi Fikrət qardaşına vermişdi, artıq ikinci uşağı dünyaya gəlmişdi. -A.E.) ilə məşğul olmaq da onun üzərinə düşmüşdü. O, heç kəsin minnətini götürməmək üçün bütün işləri özü görürdü. Ata-ana himayəsində heç bir təsərrüfat işindən xəbəri olmayan İsmayıl indi həyatla, özü də sərt həyatla, hiyləli - məkirli adamlarla, bəzi ikiüzlü qoşunlarla üzləşməli olmuşdu."

## İsmayıl Seyidov kimdir?

Mən dəfələrlə bu şəxs barədə - Əhməd Seyidovun böyük oğlundan bəhs eləmişəm, əlbəttə, bəzi epizodlarla. Məqsədim də əhatəli olmamışdır, çünki onun özü bir psixoloq-alim, həkim, müəllim, insan və Ata kimi yazılmağa layiq şəxsiyyətdir. İş elə gətirib, tanışlığımızın tarixi də elə yaxın deyil. Amma öz aləminə çəkilməyi xoşlayan, ailəsinin təmiz dolanması üçün rahatlıq bilməyən, zehnini səpələyən bu insan heç kəsin minnətini götürməmişdir. Möhtərəm oxucularım xatırlayar ki, Seyidovlar tərbiyəsi görmüş, uşaqlığından zəhmətin izlərini ovcunda axtarmış, öz xarakterinə xas davranışıyla öz işinin yolunu müəyyənləşdirmiş, maraqlı həyat yolu keçmişdir.

Bir-iki dəfə Fikrət müəllimə demişəm ki, İsmayıl müəllimlə görüşmək istəyirəm, maraqlı adamdı, zəngin psixoloqdu, bədiiyatlı müsahibdi, gülümsünüb: - Lap yaxşı, sağ ol. Ancaq ki, onu bu görüşə razılaşdırmaq mümkündür. Görüşərik, yazmamaq şərtiylə. - Epikürün sö-



*Fikrət Seyidovun qardaşı məşhur psixoloq İsmayıl Seyidov və qardaşı oğlu Səməd Seyidov*

zü var: "Sakit adam heç kimi darıxdırmaz". Bu kəlam xəyalımda dolandı və hansı ki o vaxt "Aslanbəylidən başlanan xatirələr" memuarı yoxuydu. İşığa çıxandan sonra Fikrət müəllimin öz istəkli qardaşı haqqında açıq ürəklə həqiqətləri söyləməsi məndə şəkki-şübhə yaratmadı. Onun bu ifrat təvazökarlıq, öz dünyasında həqiqət axtarışı İsmayıl müəllimin xeyirxah, canıyananlıq hisslərini - yaxşı xasiyyətini kölgələmişdir. İngilis G.Edurad deyirdi ki, yaxşı xasiyyət böyük sərvətdir.

İsmayıl Seyidov ömrünün 50 ilini Bakı Dövlət Universitetində keçmiş, psixologiyanı tədris etmişdir. Məşhur psixoloq, əməkdar elm xadimi, professor Əkbər Bayramovun rəhbərlik etdiyi kafedrada. Təkcə Əkbər müəllimlə yox, Məmmədəli Məhərrəmov, Şövqi Ağayev, Əbdül Əlizadə və qeyrilərilə çalışmışdır.

İsmayıl istedadlı şəxsdir, cərrahlıqdan o, psixologiyaya, peda qoji sahəyə düşmüşdür, dahi rus yazıçısı Anton Çexovsayağı. Mən ötən ili onun şerlər kitabını görəndə bu qərara gəldim. Qəribədir o, qardaşının dediyi kimi: Bu qədər böyük istedad sahibi olan İsmayıl üzə çıxmaq, qabiliyyətilə fəxr etmək, yazdıqlarını adam-

ların gözünə soxmaq, vəzifə tutmaq meylindən tamam uzaqdı. Onunla təmasda olanlar biliyinin dərinliyinə, hadisələrə münasibətinə, fikirlərinin təzəliyinə, elmin bütün sahələrinə nüfuz etməsinə heyran olurlar. - Tamamilə həqiqətdir bu.

O, heç zaman diplom dalısınca qaçmamışdır, əsil professordur, məhkəmə ekpertiziyası üzrə nadir psixoloq mütəxəssisdir.

Kim İsmayıl müəllimlə dostluq edir, ünsiyyət saxlayırsa mənəvi ləzzət alır, daxilən yüngülləşir. Evi daima qonaq - qaralı olmuşdur. Bu istilikdə rəhmətlik həyat yoldaşı Rəhilənin rolu danılmazdır. Oğlanları Yusif (Allah rəhmət eləsin), Kamil və Səməddir. Onlara yüksək elitar tərbiyə vermişlər, halallığa alışdırmışlar.

Bu iki qardaş bir-birinə mehribandılar bugün də. Böyük - kiçik yeri başda olub, hörmət-izzət saxlanılıb. Xüsusilə, bir neçə il əvvəl İsmayıl müəllim qəfil infarktdan xəstəxanaya düşdü. Hər gün qardaşından xəbər tutur, onu yoluxurdu. Bir gün halını soruşanda gördüm nikbindir, səsi tərtəmizdi - Allahverdi, - dedi - Şükürlər ağır vəziyyət sovuşubdur. Həkimlər də qulluğunda dururlar...

İsmayıl Seyidov vaxt azadlığına çıxanda bədiyyatla məşğul olmağa başladı. Oxucunun yadındadı, yuxarıda onun hələ kənddə yeniyetmə ikən bir ədalətsizliyə dözməyib kolxoz sədrinə yumorlu şer həsr elədiyini demişdim. Deməli, poetik hiss onun vücudunda ətəqana dolub və nəhayət yaşın bu çağında özünü büruzə vermişdir.

Düzü, İsmayıl müəllim haqqında nə vaxtsa yazacağıma özümü inandıranda, ağlıma gəlməzdi onun şairliyinə toxunacağam. Hərçənd, Fikrət Seyidovda buna işarə vardı, bəzi misralarını da memuarında vermişdi. Lakin İsmayıl Seyid Qərani təxəllüsüylə "Allahsızın aqibəti" şerlər kitabını oxuyanda həqiqətə inandım. 215 səhifəlik məcmuədə poeziyanın müxtəlif janrlarında qələmə aldığı lirik, epik, satirik duyğuların şahidinə çevrildim. Mən müəllifin oxuculara "Ön söz"ündən bəzi detalları xatırlatmağı məqsədəuyğun sandım, - həm də yaradıcılıq psixologiyası baxımından: "... İlk iki şerini 1945-ci ildə, yəni 58 il bundan qabaq doğma kəndim olan Qazax rayonunun Aslanbəylidə yayda istirahətdə olduğum vaxt yazmışam... 2001-ci

ilin avqust ayında qəflətən ağır xəstələnmiş (birtərəfi iflic olmuşam) və uzun müddət xəstəxanaya düşmüşəm. Yalnız 7 aylıq müalicədən sonra ayağa qalxa bilmişəm. Yerimək və yazmaq qabiliyyətim bir qədər bərpa olduqdan, qələmi əlimdə tuta bildikdən sonra yenidən yazmağa və xüsusən də şer yazmağa başlamışam.

Şerlərin mövzusunu öz hekayələrindən alan İsmayıl Seyid Qərani müşahidələrini yaşayır, hisslərində əridir. Maraqlıdır, İsmayıl müəllim məhkəmə - psixoloji ekspertizası ilə məşğulkən maraqlı hadisələrlə, faktlarla qarşılaşır. Sən demə, bu cür kantras informasiyalar poetik faktlara çevrilirmiş. Oxuyuruq: "Mən uzun müddət (20 il) məhkəmə-psixoloji ekspertizası ilə məşğul olmuşam. Ekspertiza zamanı müxtəlif çətin taleli insanlarla rastlaşmışam, nadir hadisələrin şahidi olmuşam və gördüyüm, eşitdiyim, şahidi olduğum, bəzən məzəli, komik, bəzən ağır, faciyəli, bəzən dəhşətli hadisələrin çoxu şerlərimdə öz əksini tapmışdır".

İsmayıl Qərani alimdir, psixoloqdur; hadisənin mahiyyəti onu daha çox düşündürür. Bu şerlərində poetik ovqat yerini intellektə verir və bu hissi ritorik dona bükür. "Könül", "Vallah, zaman dəyişmişdir", "Həyat nədir?" "Düşüncələr" və s. şerlər fikrimizi əyaniləşdirir. Şair Könül adlı bir qızın təsvirini verir, bəlli olur ki, o, diplom həvəskarıdır. Lakin müəllif üçün əsas Könülün hər bir kəsi məftun etməsidir, xüsusilə qaşı onun öz bəlasına çevriləcəkdir.

*Diplom işin öz vaxtında bitəcək*
*Yoxlamadan şappıltıyla kecəcək.*
*Səni qurtaran da qaşın olacaq,*
*Bəlaya salan da qaşın olacaq!*

"Həyat nədir?" şerində həyatın mənası, dolambacı və s. məsələlər təsvirini tapmışdır. Həyat insana çox şeyi verir: ləzzət, zövq, hay-küy, nəhayət gənclik. Amma getdikcə bu, əlçatmaz varlığa dönür və insana son qərarını oxuyur:

*Əvvəl dünyanın ləzzəti,*
*Sonra ağrısı, zilləti!*
*Əvvəl yerin üstü, gülzar,*
*Sonra yerin altı, məzar!*

İsmayıl müəllim ağır zərbədən sarsılmadı, bəlkə də başqa birisi 78 yaşında bu ürək ağrısına tab gətirməzdi. O, bir psixoloq, ürəyi kin-küdurətdən uzaq, halal adam təbiətində xəstəliyə təslim olmadı. Elə olub, Fikrət müəllim qardaşından əlini də üzüb, insaf naminə, özünə təsəlli verirdi ki, İsmayıl dözümlüdür, işdən qorxmayandır, bədəncə sağlamdır və bu keyfiyyətlər onu yataqdan qaldıracaqdır. Həqiqətən, belə krizis-stress halı müharibəyə bənzədənlər nə qədər haqlıdılar. Məşhur psixoloq, professor B.Q.Ananyev güman ki, "müharibə" deyəndə bu nüansı nəzərdə tuturmuş. "Müharibə sizə nə verdi?" sualına cavab olaraq yazmışdır: "Mənə aydın oldu ki, insan maksimumda, yəni çox ciddi gərginlik şəraitində yaşaya bilər. Mən gizli imkanları gördüm, halbuki, adətən onları hiss etmirik. Mən başa düşdüm ki, insanın qadirliyi məsələsindən vacib problem yoxdur. Mən başa düşdüm: insan hər şeyi bacarır". Güman ki, İsmayıl Seyid Qərani qələmi yerə qoymayacaqdır. Bəlkə də yaradıcılıq psixologiyasının psixoloqa poetik misraları bu "yolla" diqtə eləyir.

"Allahsızın aqibəti" kitabında xoşa gələn şerlər istənilən qədərdir. Məni birisi yamanca tutur: "İndi hamı müəllimdir". Yerində səsini çıxarmışdır. Cəmiyyətimizdə müəllimin ucuz tutulması, hər yerinnən qalxanı "müəllim" deyə çağrılması əzabı. Budur, müəllim peşəsinə şərik çıxanlar:

*Qaynaqçı da, çaxırçı da,*
*Qapıçı da, açarçı da,*
*Papaqçı da, çörəkçi də,*
*Yamaqçı da, çəkməçi də*
*Qumarbaz da, arvadbaz da,*
*Uşaqbaz da, lap aşpaz da*
*Hoqqabaz da, oyunbaz da,*
*Baz da, baz da, baz da, bazda.*

Poetik parodiya deyilmi? İsmayıl Seyidovun 2005-ci ildə 80 yaşı tamamdı. Zəkası, intellekti saat kimi işləyir, qələmidir ona təsəlli verən.

Deyirəm, nə yaxşı o, ömrünü yaşayır!

## § 2. Addımlar - auditoriyaya yol

Fikrət Seyidov ali məktəbi 20 yaşında bitirməli oldu. İki il əvvəl, bu da dövrlə bağlıydı: müharibədən sonra. Vəziyyət düzəlməmişdi, oxuyan yoxdu. İmkan düşdü və Fikrət müəllim institutun nəzdində birillik hazırlığı qurtardığı üçün bu, baş tutmuşdu.

Onun ilk pedaqoji fəaliyyəti Bakıdakı 193 saylı orta ümumtəhsil məktəbiylə başlamışdı. Maraqlıdır, bu gün üçün ibrətlidir: Pedaqoji kollektivə rəhbərlik məhz erməni Qarnik Samsonoviçə tapşırılmışdı. Fikrət müəllim daşnakdan törəmənin əclaf, xəbis erməni olduğunu acı hisslə yada salır: "Bu erməni məktəbdə elə şərait yaratmışdı ki, biz azərbaycanlılar Vətənimizdə özümüzü qəribəlikdə hiss edirdik".

Az vaxtda - iki ayda-orduya çağırılanadək şagirdlər arasında hörmət qazanır. Yəqin ki, bunun səbəbləri varmış və ən başlıcası onun Sovetski mühitində böyüməsi, orada bərkdən - boşdan çıxmasıydı. Real faktsa "birinci şagirdlərindən" filoloq-alim Faiq Mürsəlovdu keçmiş müəllimiylə indi birgə çalışır:

Fikrət Seyidov tələbkardı, mehribandı. Diqqət yetirsək, ümumi qəbul olunmuş tanıma - rəyin yaşı yoxdu və təhsilin ideoloji qanunlarına tabe olmur. Bəli, bizim uşaqlarımız müəllimlərin iki cəhətinə göz dikirlər: Tələbkarlıqla Mehribanlıq. Birincisi Atada, ikincisi Anada olur.

Mən Samsonoviçin xisləti barədə cizgiləri mənbələrlə dedim. F.Seyidov yazır: "Mən bu məktəbdə ermənilərin ən alçaq, ən rəzil sifətlərilə tanış oldum. Mənim onlardan aldığım birinci həyat tərzim, həmişə məni ermənilərdən ehtiyatlı olmağa təhrik etdi."

Fikrət Seyidovun ilk pedaqoji illəri barədə danışmaq həm də pedaqoji fikir tariximizin 50-70 ilinə aparıb çıxarır. Bu gün bəzilərinə gülünc, bəzilərinə ciddi görünəcək məqamlar üzərində düşünmək ehtiyacı doğurur: Birincisi, ən böyük milli faciyəmiz o oldu. Montin (bu günədək bu əclafın adını o qəsəbə utana-utana gəzdirirdi) qəsəbəsində böyük təhsil ocağına başçılığa erməni irəli çəkilmişdi. İkincisi, hər bir müəllim hansısa zərurətdən özü-

nə xas üsullar tətbiq edir, ilk növbədə uşaqları tərbiyə etmək üsullarını tətbiq edirmişlər. Radio-televizor yox, qəzet-jurnal çıxmır, metodik ədəbiyyat da həmçinin. Bəs müəllimlər hansı metodları seçsinlər? Bunlar azmış kimi, azərbaycanlıların gözü qabağında erməni direktor qoyulur!

Montin müharibədən sonra müxtəlif millətlərdən ibarət qəsəbə imiş: Əhali yaxşı yaşamırmış, kişilər müharibədən qayıtmamışlar, gələnlər də fiziki cəhətdən şikəst, qadınlar 2-3 növbədə işləyirmiş. Deməli, uşaqların tərbiyəsi istənilən səviyyədə qurula bilməzdi. Üstəgəl, 90 faizi erməni, 10 faizi azərbaycanlılardan ibarət bir məktəbə Qarnik Samsonoviçdir direktor. Bu oğraş erməni dəhlizdə əlində çubuq (əlbəttə, torpağımızda bitmiş ağacdan qayırılmış) döyməyə azərbaycanlı şuluq uşaq axtarır. Erməni dığası üçün bu "şkalaya" düşən azəri uşağını danlamaq kifayətmiş. F.Seyidov yazır: "O zaman Maarif Nazirliyinin kollegiyasında yeganə intizam məsləsi durardı". Oxucuları "yeganə" sözü çaşdırmasın haradasa bilərəkdən vurğulanıbdır, amma həqiqətdir ki, pozul-



*193 saylı məktəbdə xalq yazıçısı M.İbrahimovla görüş (sağdan 6-cı F.Seyidov)*

muş uşaqların cəmiyyətdə baş alıb getdiyi Zamanda Naziri özgə nə düşündürməyə cəsarət göstərərdi? Məgər bu gün buna ehtiyac yoxmudur? Baş alıb gedən tərbiyəsizlik sindromunu lazımsız məsələlər əvəzləyir. Bu "Sos" çox mətləbləri yada salır ki. Məktəbdə Savva Alekseyeviç soyadlı bir müəllimin haradasa bəsit təsiri bağışlayan üsulu çox-çox sonralar professor Fikrət Seyidovun diqqətini cəlb edibdir: Erməni direktor çalışır ki, Savva Alekseyeviçə böhtan yaxıb çıxarsın və yerinə bir erməni gətirsin. Belə psixoloji təsir "çıraqla axtarılan müəllimə" tuşlanır. Savva Alekseyeviçsə sinfə iri güzgü gətirir və divardan asır: "-Mən gülüb dedim. -Savva Alekseyeviç, uşaqlar bu güzgüyə tüpürəcəklər. Nə üçün siz belə zəhmət çəkirsiniz?

O, cavabında deyir: -Elə mən də onu istəyirəm. Qoy onlar hər dəfə bu güzgüyə tüpürəndə özlərinin iyrənc, yuyulmamış, çirkin sifətlərini görüb yavaş-yavaş qaydaya düşsünlər. Oğul, tərbiyə məktəbin direktoru kimi təkcə döymək deyil, onun üçün gərək müxtəlif yollar axtarmaq lazımdır".

Bu dialoqun özü tərbiyəvidir, bir erməni torpağımızda tikilən məktəbdə at oynadır, heç kəs maraqlanmır, lakin Savva Alekseyeviç onun murdar simasını öz üsulu ilə "mükafatlandırır!"

Fikrət Seyidov əsgərlikdən tərxis olunduqdan sonra da həmin məktəbə qayıdırsa bu, bir-iki ay çəkir və 199 saylı məktəbə köçürülür. Bu, o məktəbdi: Fikrət müəllim bu məhəllədə - Sovetskidə, dağlıların ramedilməz psixologiyasında doğulmuşdu, oxumuşdu, deməli, "qorxulu" heç nə yoxuydu. Və həm də ona görə ki: "Buradakı əsil bakılılardı və onların psixologiyası ilə yaxından tanış idim. Əsil bakılıların, dağlıların aşağı savad səviyyələri olmalarına baxmayaraq, onlarda elə yüksək insani kişilik səviyyələri var idi ki, ona ancaq həsəd aparmaq olardı."

F.Seyidovun bəxti bir də onda gətirmişdi ki. adlı-sanlı müəllimlərlə çiyin-çiyinə düşmüşdü. Öz peşələrinin əsil ustadlarıydı, sonralar onlardan Kəriş Köçərlini - fizika üzrə tanışmış metodist, Əhliman Lütvəliyevi coğrafiya müəllimi kimi tanıdım. Qəzənfər

Məmmədov, Əliabbas Quliyev də yaxşı pedaqoq olmuşlar. Məktəb direktoru Mehdi Aslanov barədə 70-ci illərdə eşitmişdim. Zənnimcə, bu yaxınlaracan Mehdi Aslanovun səsi eşidilirdi... hər halda onunla işləyən Fikrət müəllimin təsəvvürü səmimidir, aldadıcılıqdan uzaqdır. "... arıq, uzun, alnının ortasında böyük bir şiş olan kişi idi. İlk dəfə onunla görüşəndə o, mənə çox quru, hissiyyatsız adam təsəvvürü yaratdı. Sən demə, təsəvvürüm aldadıcı olub. Bu kişidə o qədər təmizlik, doğruluq, düzlük, namus, qeyrət və işinə sədaqət var idi ki, istər-istəməz onu sevməmək olmazdı." Həssas oxucu unutmaz ki, bizim keçmiş şagirdlərimiz iki müxtəlif millətin məktəb direktoruyla qarşılaşmışlar. Erməni və Azərbaycanlı iki əks xarakterlə: əclaf, çörəyini yediyi adamlara nifrətli və yuxarıdan sayğısızlığına baxmayaraq vicdanına hörmət hissiylə yanan insan.

M.Aslanov pedaqoji kollektivdə mühit yaradır, təlim - tərbiyə prosesinə ciddi rəhbərlik edir, şagirdlərə eyni gözlə baxır (yəqin erməni dığacıqlarına da). Fikrət müəllim bu kollektivdə özünü sənətə alışdırır, kollektivlə qaynayıb qarışır, ingilis dilini öyrədir, müəllimlik məsuliyyətini başa düşür: "Bu məktəbdə mən ...həm də müəllim - tərbiyəçi kimi püxtələşdim, formalaşdım. Pedaqoji prosesin incəliyinə daxil ola bildim. Bu məktəbdə mən işə məsuliyyət, intizam, səliqə və tələbkarlığı öyrəndim. Bütün varlığımla elə çalışdım ki, şəhərdə bu məktəbin ingilis dilinin öyrənilməsi şöhrəti hər yana yayılsın. Elə belə də oldu."

Qısa müddətdə Fikrət müəllim dərs dediyi siniflərdə intizamla yanaşı, uşaqların ingilis dilini mənimsəməsi üçün praktik məsələlərə daha geniş yer verir: hər dərsin ortasında gərginliyi aradan qaldırmaq məqsədiylə 3 dəqiqəlik Q.Hüseynlinin məşhur "Cücələrim" mahnısını xorla oxutdurur (ingiliscə), dərsin sonu da həmçinin. Sinfin təchizatı prosesində də ingiliscə müəllimlərinə "raport" verilir. Məktəbdə gənc Fikrət Seyidovun şöhrəti səs-küyə çevrilir. Bunu hiss edən direktor ilk dəfə ingilis dili dərsini dinləyir, dərs hissə müdiriylə. İngiliscə bilmədiyinə Fikrət müəllim

təəccüblənir. Lakin təcrübəli Mehdi Aslanovu şagirdlərin sual-cavabları, yüksək əhval-ruhiyyəsi, müəlliminsə dərsinin "ağası" olması maraqlandırır. Zəngdən sonra gənc müəllimi kabinetinə çağırır, məmnun qaldıqlarını bildirir və "Afərin Fikrət müəllim, atana layiq oğulsan" deyir.

Maraqlı bir də onda idi, təcrübəçi tələbələrin istiqaməti F. Seyidovun siniflərinə yönəlir. 50-60-cı illərdə bütün sahələrdə olduğu kimi, ingilis dili sahəsində məktəb təcrübəsinə xüsusi diqqət yaranmışdı. Mütəxəssislər ali məktəblərdə mühazirə kurslarını birbaşa məktəb təcrübəsiylə əlaqələndirirdilər. Bu, o deməkdi, nəzəri müddəalar məktəbdə əsil eksperimentdən keçmiş olurdu. O cümlədən, məşhur ingilis dili mütəxəssisi Reçitskaya idi. Fikrət müəllim xatırlayır ki, Reçitskaya məktəbə gəlmişdi, görüşdüm, institutda mənə dərs demişdi. Eşidəndə ki, məhz mənim sinfimdə oturmağı qərara almışdır, əsəbiləşdim; onun rəyi müsbət və mənfiliyindən asılı olaraq mənə ciddi təsir göstərəcəkdi. Bu isə bir müəllim kimi mənim sonrakı fəaliyyətimin bəlkə də taleyini həll edəcəkdi. Digər tərəfdən, müəllim-tələbə münasibətlərimiz də çox şeyi deyir. O, səbrlə qırx beş dəqiqəni dinləyir, qeydlər aparırdı. Mənsə öz işimdəydim, əslində onu görmürdüm, özümü yaxşı mənada unutmuşdum. Nəhayət, bütün respublikanın hesablaşdığı Reçitskaya uşaqların fəallığına heyran kəsilir və "heç gözləmirdim, afərin, xarici dili belə, uşaqları yormadan, müxtəlif üsullardan istifadə etməklə öyrətmək lazımdır. Raport lap xoşuma gəldi". -Fikrini ifadə etmiş olur.

F.Seyidov dərs zamanı şagirdlərin tədris əməyini stimullaşdırmaq məqsədiylə müxtəlif üsullar (oxu, oyun, mahnı, danışıq, yazı və s.) tətbiq edir, nəticələr alır. Fəndaxili və fənlərarası əlaqələrə yer verir. Zəhmət hədər getmir, respublikada milli dərsliklər hazırlamaq üçün müəlliflər kollektivinə Fikrət Seyidov da daxil edilir. R.Barsuk, R.Qayıbova, O.Musayev və F.Seyidov yeni dərsliklər üzərində işə başlayır və sona çatdırırlar.

Biz yuxarıda bu haqda danışmışdıq və ilk dərslik yazanlar sırasında F.Seyidovun rolunu göstərmişdik. Bu ənənə bu gün də

yaşayır. F.Seyidovun üstünlüyü nədə idi? Sual təsadüfi deyil. Digər orta məktəb müəllimləri də seçilmişdi: Bəhicə Xocayeva və Solmaz Rəhimova. Ali məktəbdəkilər orta məktəbi-praktikanı, orta məktəbdəkilər nəzəriyyəni əlaqələndirməkdə çətinlik çəkirdilər və birincilər nəticədə sıradan çıxdılar.

Dərslik yazılışı daimi problem olaraq qalmaqdadır. Belə ki, müəllif seçimi daima bu işin axarını pozmuşdur. Yalnız ingilis dili deyil, ədəbiyyat, Azərbaycan dili fənlərindən müəlliflərin seçilməsində həm də qüsurlardan xilas olunmamışdır. Bir vaxtlar Təhsil Nazirliyində qərara alınmışdı ki, mütləq orta məktəbin müəllimi alim yoldaşlara - müəlliflərə qoşulmalıdır. Yaxud, xalis professorlara, akademiklərə tapşırılmalıdır. Hər iki "yenilik " dərsliklərin zəif hazırlanması ilə nəticələndi. Məsələ ondadı, dərslik o müəllif (lər) tərəfindən hasilə gəlməlidir - nəzəri və praktik cəhətlər vahid metodikada birləşməli, dili anlaşıqlı olmalı, millilik hər vasitə ilə gözlənilməlidir. F.Seyidovda bu keyfiyyətlər vardır ki, həm də o dərsliklər yaşayır... Bir neçə səbəbdən biri də: "Mən dərslik müəllifi olarkən bir çox ölkələrin dərsliklərini əldə edib, onların sistemilə tanış oldum. "Dərsliklərin tərtibi prinsipləri" ilə bağlı ümumi dünya seminarının iştirakçısı oldum və məruzə ilə çıxış etdim. İngiltərənin London, Birminqam şəhər və kənd məktəblərinin xarici dil dərslərində iştirak edib, onların dərslikləriylə tanış oldum. Bütün bunların hamısı mənim bu günə kimi müəllif olmağımı şərtləndirən səbəblər idi."

Fikrət Seyidov 25 il orta məktəbdə çalışdı. Təxminən 70-ci illərədək. Əvəzçiliklə işləmək qadağan olduqda pulsuz işlədi. Maraqlıdır ki, V sinfi götürüb sonadək aparır, özü də pulsuz. Və onun şagirdlərinin əksəri Xarici Dillər İnstitutunun ingilis dili fakültəsinə girirlər.

Elmar Əbdülrəhimov, Xanım Tağıyeva, Solmaz Bünyadova və başqaları onunla bu gün də çiyin-çiyinə fəaliyyət göstərirlər. Müəllim üçün bu, fəxarət deyilmi?!

Orta məktəbdə yaxşı müəllim olmaq hər kəsə nəsib olmur; bunun çox səbəbləri var; Əvvala, gənc ikən seçilmək, nüfuz qazanmaq

çətindir, uzun illəri itirmək lazım gəlir. İkincisi, tədris etdiyin fənnin nəzəri-praktik aspektlərini yüksək səviyyədə bilmək gərəkdir. Üçüncü, şagirdlərinlə ünsiyyət saxlamaq, sanki yol yoldaşı olmaq. Dördüncü, beşinci şərtlər də istisna deyil. Və sonra o müəlimə bircə o şey qalır: Səni axtarıb tapacaqlar. Mən bunun canlı şahidiyəm. 40 il ötübsə, şagirdlərimdən bir qisminə ali məktəbdə təkrar dərs demişəm, digər qisminə məsləhət vermişəm, üçüncü qismiylə "yol yoldaşına" çevrilmişəm. Dördüncü, beşinci amillər də istisna deyil. Fikrət müəllimin ilk məktəb sinfinə - auditoriyaya qədəm basması bir tarixdir, pedaqoji səlnamənin parlaq səhifələridir. O şagirdlər ki, 50-ci illərdə oxumuşlar, ən çətin, çörəklə sınağa çəkilən zəmanəydi, bəlkə də sevincli günlərin yox dərəcəsiymiş. Amma bu müharibədən çıxmış şagirdlər öz ingilis dili müəllimlərini dərinliklə sevirmişlər. Artıq Fikrət müəllimin yaddaşından çıxmış, unudulmuş o yeniyetmələr onu görcək dərhal tanımışlar, salamlaşmışlar. Bunlar 199 saylı məktəbin məzunlarıdı, özlərini yığışdırır, səliqə-sahmana salır.

"Bir qadın təsadüfən Fikrət Seyidov soyadını oxuyur vərəqlədiyi sənəddə, deyir ki siz 199 saylı məktəbdə ingilis dili müəllimi işləməmisiz ki? "Bəli" cavabından sonra qadın bildirir ki, siz mənim ərimə dərs demisiz, o, kefinin yaxşı vaxtında ingiliscə "Cücələrimi" oxuyur. İndi ingiliscə biliyini dərinləşdirib, xarici kompaniyada çalışır.

1997-ci ildə Fikrət Seyidov ölümlə-dirim arasında çarpışır. Buna həyat uğrunda iradə mübarizəsi də deyilir. İlk xəbər tutanlar Elmarla Cəvahir tələbələri olur. Mənzərəni təsəvvürə gətirmək ağırdı, göz yaşımı saxlaya bilmədim xatirəni oxuyanda: "Halım yox idi. O (Cəvahiri nəzərdə tutur. - A.E.), vəziyyəti görüb, elə göz yaşı tökdü ki, məni də kövrəltdi. Belə göz yaşlarını mən cərahiyyə əməliyyatı keçirərkən qızlarımın gözlərində görmüşdüm... Bir gün dedilər Cəvahir məni axtarır. İnstitutun koridorunda rastlaşdıq. Əlində bir bağlama var idi. - Bu sənin Novruz payındır. Mən Novruza hazırlıq görürdüm. Düşündüm ki, ata qızının hazırladığı ləziz şirniyyatdan yeməsə, qızının yediyi ona haram olar."

Fikrət müəllim bütün keçmişdə - xatirələrində yaşayanları, ölənləri və qalanları həyatın adiləşmiş bir qanunu kimi qiymətləndirir. Əlbəttə, bu qanunda kövrək həsrət, niskil, tənhalıq hissləri bol-boldur və belə bir sözü də işlətməli olmuşdur: "həyat belədir: bir yandan boşalır, bir yandan dolur."

Auditoriya geniş mənada İnstitutla bağlı fiziki məkandır və bu təkcə mühazirə oxumaqla sonuclanmır: Pedaqoji təmayüllü müəssisələrdə müəllim kadrları, yaxud tərcüməçilər yetişdirirsənsə pedaqogika elminə yiyələnməlisən. Bunun qeyri-ixtiyari və şüurlu, düşünülmüş yolları mümkündür. Professor Əhməd Seyidov II yolu seçmişdir: "Oğul, sən mənim köməkçimsən. Mənə elmi işlərim üçün bir neçə əsərin tərcüməsi lazımdır". Və Fikrət Seyidov ardbaard Pestalotsini, Russonu, Uşinskini, Makarenkonu dilimizə çevirir. Və ona elə gəlir ki, bu işiylə atasının elmi araşdırmalarına köməklik göstərmişdir. Sən demə, buna hacət yoxuymuş: Əhməd Seyidov rus dilinə mükəmməl yiyələnib və klassikləri rus dilində oxuyur. Amma bu incəlikdə böyük məna, uzaqgörənlik gizlənilibmiş. Həqiqətən də bu çevirmələr Fikrət müəllimin pedaqoji aləmə gəlməsində rasional rol oynamışdır.

Ali məktəbdə ilk aldığı tapşırıq pioner praktikasından bir neçə mühazirə oxumaq olur və bu razılaşdığı təklifi atasına deyəndə professor sevinir ki, Fikrət öz istəyilə pedaqoji aləmə gəlir, hətta pioner məsələsindən dissertasiya mövzusu üzərində işləmək arzusunu da gizlətmir. Lakin tələsməmək tövsiyə edilir. Bu o vaxtdı, Əhməd Seyidov Qori Müəllimlər Seminariyası ilə yaxından maraqlanır, F.B.Köçərli, Rəşid Əfəndiyev və b. həyatından maraqlı epizodlar danışır. Uzaqgörən pedaqoqun prinsipial rəyindən: "Düzdür, pioner üçün tədqiqatın dəyəri çox azdır. Bir də ki, gündə bir qərar çıxır. Bu qərarlar səni yarı yolda qoya bilər. Bu mövzu bu günlə yaşayan və bu günün havasına oynayan adamlar üçün lazımdır". Həqiqətən, professor yanılmadı, pioner və komsomoldan saysız əsərlər, məqalələr, dissertasiyalar yazan dosentlərin, professorların arxivinə əl gəzdirəndə sanki "süpürgə çəkilib".

Məsləhətə qulaq asan oğul Seyidov yanılmadı. Pedaqoji elmimizə qiymətli monoqrafiyalar verdi və sübut elədi ki, bu Seminariya Universitetlərin gördüyü işindən qat-qat artıq Zaqafqaziyaya fayda gətirmişdir.

Namizədlik dissertasiyasının mövzusunun təsdiqindən başlamış AAK-da təsdiqinə qədər Fikrət Seyidovun başı ağrımışdır. Yerdə qəmiş qoyanlar, Moskvada şovinistlər kəskin etirazlarını gizlətmədilər. Nəhayət, dissertantı Moskvaya çağırırlar. 150 "çağrılmış qonaqların mühakiməsində" Fikrət Seyidov yüksək intellekti və mühakiməsiylə hər şeyi sübuta yetirir və bir səslə elmi qələbəsini bərpa edir. Hətta mənfi rəy vermiş professor Oqorodnikov yanıldığını açıqca bildirir.

"İmtahandan" sonra bir nəfər gənc azərbaycanlı pedaqoqu təbrik edir layiqli cavabı ilə. Bu şəxs, məşhur akademik Murtuza Nağıyevdi...

Və Fikrət Seyidovun ali məktəb auditoriyası bundan sonra başladı əslində. Xarici Dillər İnstitutuna müsabiqə yolu ilə keçdi. Alınanda hər şey yoluna düşür. Heç vaxt nüfuzundan istifadə etməyən məşhur Əhməd Seyidov daha xarakterini dəyişə bilərdimi? Çıxış yolu Fikrət müəllimin özünə qalırdı. Amma insaf naminə Allah özü yaxşı insanları verir irəli və deyir: Layiqlərə mane olma, irəli çək. Bu şəxs məşhur təşkilatçı insan, pedaqoq Qulam Məmmədovdu. O, o vaxt İnstitutun rektoru işləyirdi. Nüfuzu vardı. F.Seyidov işinə vicdanla başlayır, tanınmağa qədəmlərini atır. Və Fikrət müəllimi çağırır, bir səhifə kağız verib deyir - "Moskvadan nazirliyə kağız gəlib ki, xarici dillər kursu açmaq səlahiyyəti verilib, pulludur, iki illikdir. Oxu və təşkil et. O əmrlə də kursun direktoru təyin olunursan". Və ilk rəhbər vəzifəsi idi F.Seyidovun. Qısa müddətdə ilk direktor kursun strukturunu yeni elmi-pedaqoji əsaslarla təşkil edir. Yeni kadrları gətirir. Müdavimlərin biliyi obyektiv qiymətləndirilir və sairə. Aralarında dil öyrənmək üçün kursa gələnlər müxtəlif peşə sahibləriydi. Çox qısa vaxtda nizam-intizam hər şeyi yoluna qoyur. Bir gün institutun rektoru Qulam Kərimoğlu Məmmədov va-

rid olur və içəri girmək istəyir. Qapıçı buraxmır. Özünü təqdim də faydasız olur. Kənardan rektorlarını tamyan bir tələbə utancaq halda deyir ki, müəllim, xeyri yoxdu, Fikrət Seyidov bilməlidir. Zəngə qədər gözləməlisiz.

Axır ki, rektor yuxarı qalxır, hər şeyi öz gözləriylə görür, "Şura"da iştirak edir. İş o məqama yetişir, Fikrət Seyidova "prorektor" vəzifəsini təklif edirsə faydası olmur. Nəhayət, Q.Kərimoğlu yeni "Xarici dillər" kafedrası yarandığını bildirir və F.Seyidovun razılığını alır. Beləliklə, Fikrət Seyidov II Müstəqil vəzifəsini daşıyır. Burada da o, işgüzarlığını, təmizkarlığını, savadını büruzə verir. Axırda (qısa vaxtda) kafedra genişlənir, rus dili fakültəsində işləyən müəllimlərə nəzarəti gücləndirmək məqsədiylə, həmən fakültədə ayrıca "Xarici dillər" kafedrası yaradılır və rəhbərlik Fikrət Seyidova tapşırılır.

Qulam Kərimoğlu barədə tələbə ikən eşitmişdim və görmüşdüm də. Dostum, uşaqlıq və gənclik sirdaşım Əkbər Cavadovla (Allah rəhmət eləsin) eyni ildə instituta girmişdik. O, Xarici Dillərə. Bir tədbir olcaq məni çağırırdı. Rektor Qulam müəllimin danışığını, hərəkətini müşahidə edirdim. Pedaqoqlar arasında nüfuzlu idi. Səhv eləmirəmsə, mərhum yazıçımız Süleyman Vəliyevin ədəbi jurnalda Qulam Məmmədov haqqında sənədli povesti də çıxmışdır. Nə isə. F.Seyidov bu sima haqqında obyektiv fikir yaratmaqda nə qədər haqlıdır: "Onun pedaqoji ictimaiyyət arasında böyük nüfuzu vardı. Rektor kimi, onda olan indiki rektorlarda çox az təsadüf edilən məziyyətlərdən ən qiymətlisi işə qəbul etdiyi və vəzifəyə qoyduğu adamlar haqqında özgələrinin rəyini nəzərə almayıb, özünün qənaətə gəlməsi idi. Qulam müəllim adamları bir psixoloq kimi müşahidə etdikdən sonra o adam barədə onda fikir formalaşardı. Bu fikir heç bir xəyanətkar, ikiüzlü, paxıl adamların sözarası, yeri düşəndə hörmətdən salmaq, böhtan deməsi dəyişə bilməzdi".

Və daha maraqlı xarakterik cizgiləri qiymətləndirir. Və o, vəzifədən çıxarılandan sonra daha çox hörməti Fikrət Seyidovdan görür...

Fikrət Seyidov ali məktəbdə çalışdığı illərdə daha bir neçə rektorla ünsiyyətdə olmuşdur. Ağamməd Abdullayev, Məmməd Tağı-

yev, Zenfira Verdiyeva barədə obyektiv söz demişdir. Onları zəngin müşahidə süzgəcindən keçirmiş, üstün və zəif xarakterlərini səciyyələndirməkdə yanılmamışdır. Məsələ ondadır, onlardan bəzisini tanımışam; ya elmi-pedaqoji əlaqələrimizlə, ya da kənardan müşahidələrimlə. Professor Ağamməd Abdullayev görkəmli dilçi-metodist idi. Müəllim olmuşdu Pedaqoji İnstitutda. Sonralar mən "Azərbaycan məktəbi" jürnalında məsul katib işlərkən, jurnalın əlavəsi "Azərbaycan dili və ədəbiyyatının tədrisi" məcmuəsinin redaktoru idi. İş elə gətirdi biz əməkdaşlıq da elədik və keçmiş müəllimimi yaxından tanıdım yaxşı mənada. Və öz borcumu bir oçerkimlə az da olsa ödədim. Azərbaycan MEA-nın müxbir üzvü, professor Zenfira Verdiyeva haqqında da obyektiv fikir söyləyir Fikrət Seyidov.

Bu barədə sonra.

F.Seyidovun müdiri olduğu kafedraya Anya adlı bir erməni pozğun qadınını pərçimləyirlər. O vaxtki MK-da, AN-də "rektora təsir göstərib bu işə nail olmuşdular. Bu fərsiz ixtisasla Anyaya tələbi irəli sürəndə anonim informasiyalara və sairə alışmağı bacarmayan Fikrət müəllimin çıxmaqdan savayı əlacı qalmamışdı: "Kafedra müdirliyindən iftiranın qurbanı olub getdiyim məni hədsiz sıxırdı. Məni sıxan, incidən kafedra müdirliyindən getməyim deyil, erməni mənşəli bir pozğun qadının özü də Mərkəzi Komitə, Nazirlər Kabineti, ali təhsil nazirliyi kimi yüksək idarələrin rəislərini əlində müqəvva kimi fırladıb qılınc çalması idi. Mən özümə yer tapa bilmirdim... Yeni rektor Zemfira Verdiyeva haqsızlığa çarə tapdı. Xeyli təkiddən sonra Fikrət Seyidovu ingilis dili fakültəsinə, İsmixan Rəhimovun yerinə dekan vəzifəsinə təyin edir. Əlbəttə, elə belə də razılaşmır, özünəməxsus xarakter cəhətlərinin "Cizgilərini" xatırladır: donosluq, əyilmək, sıxılmaq və sair mənfi keyfiyyətləri rektor üçün daşımamaq şərtiylə və bu cür də olur. Və 7 il birgə işləyir: "Bu illərdə o, bir dəfə də olsun qeyri-qanuni hərəkətə yol vermədi və ətrafındakı adamları da bu hərəkətdən qorudu. O, işçiləri işlətməyi bacarırdı. O, tapşırdığı işi yoxlamağı bacarırdı və ciddi bir səhvə görə möhkəm tənbeh edə bilirdi. Yaxşı işi də nəzərdən qaçırmırdı".

Zenfira Verdiyeva haqqında Fikrət Seyidovun fikirləri səmimidir, obyektivdir, bu gün o, vəzifədən uzaqlaşsa da, əvvəlki əqidəsini saxlamışdır. Mənim bu ziyalı qadına hörmətim boldur; əsil kişilərə xas keyfiyyətlərə malikdir. Mən onun barəsində hələ 1975-ci ildə "Zirvədə mahnı" oçerkimi "Azərbaycan məktəbi" jurnalında çap etdirmişəm. 1992-ci ildə Xalq Cəbhəsinin hakimiyyətinin yenicə vaxtında komitə sədri Sabir Rüstəmxanlı haqsız olaraq məni "Maarif" nəşriyyatının direktoru və baş redaktoru (eyni aparırdım) vəzifəsindən uzaqlaşdırdı, iş də təklif etmədi. Xeyli işsiz qaldım. Sentyabr ayında (1992) rektor Zenfira xanımın qəbululna gəldim. Vəzifədən çıxmağıma baxmayaraq yenə səmimi qarşıladı, belə işlərin mümkünlüyünü qeyd elədi və: - Mən sənə nə kömək edə bilərəm? - Soruşdu. - İmkan olsa institutda pedaqogika kafedrasında müəllim yeri varsa. - Susdum.

Həssas Zenfira xanım dərhal daxili telefonla tədris hissə müdiri Afat müəllimi çağırdı. Təzəcə rəhmətə getmiş Ənvər Məmmədovun yerinin boş olduğunu xatırlatdı. Təcili bu boş vəzifəyə elan verilməsini bildirdi.

Səhərisi elan götürüb "Bakı" qəzetinə verdim, çıxdı. Sonra sənədlərimi qaydaya müvafiq təqdim elədim. Lakin uzandı. Çünki kafedra müdiri qəsdən işi ləngidirdi, müzakirədən yayınırdı. Birdən məsələdən xəbər tutan rektor məni çağırtdırdı:

- Allahverdi, - dedi. - Fikrindən daşınmısan? - Xeyr, Zenfira xanım - cavab verdim. - Kafedra sənədlərimi müzakirə etmək istəmir. Belə halda eyni kafedrada işləmək istəməzdim.

O, qəti və əsəbi halda dilləndi:

- Elanı mən vermişəm, müsabiqəyə buraxılmalısan. İstəmizsənsə öz işindir. Mənim verdiyim elan havadan asılı qalmamalıdır.

Və Afata tapşırıq verdi ki, təcili müzakirə edib rektorluğa sənəd çatdırılsın.

Az sonra Z.Verdiyevanı qanunsuz şəkildə rektorluqdan çıxardılar. Onu tələbə dostum, görkəmli alman dili mütəxəssisi, professor Fəxrəddin Veysəlov əvəzlədi. O da məni çağırtdırdı, təkidlə müsabiqədə iştirakımı dedi. Və bu, baş tutdu. Pedaqogika ka-

fedrasına dosent vəzifəsinə seçildim. Müəllimim Fikrət Seyidovla birgə çalışmaq səadəti mənim qismətimə düşdü.

Z.Verdiyeva məhkəmə yolu ilə II dəfə öz halal vəzifəsinə qaytarıldı. Lakin haqsızlıq qapısını yenə döydü və içəri keçdi...

Oxucu, şahid kəsildiniz ki, hər cür şəraitlə, valideyn nüfuzu ilə əhatə olunmuş gənc, müstəqil, dosent və professor Fikrət Əhməd oğlu tanınmış pedaqoq professor Əhməd Yusif oğlu Seyidovun oğlu idi. Hər şey onun həyat yollarında müntəzir dayana bilərdi və bu rahatlıqdan imtina eləməyə də dəyməzdi. Amma o, bütün mərhələlərdə bu "yaşıl" işığı yaxına buraxmamışdır, daha doğrusu heç kəsin qarşısında borclu qalmamaq üçün, azadlığını qorumaq naminə. A.Vellinqtonun dediyi kimi: "Borclu insanın quldan fərqi yoxdur".

O, bütün insanlığım içərisində yaşatmaqla, heç vədə böyüklük iddiasına düşməmişdir. Böyük insanın oğlu olmaq elə böyüklükdür. İşində, gücündə, vəzifələrində, münasibətlərində böyüklük büruzə vermişdir. Amma heç vədə deməmişdir ki, məni böyük alim, böyük insan kimi sayın-seçin. Əsla, axı, bir halda Fikrət Seyidov özünü güclü hesab edir, bu kifayət deyilmi?

Mənimçün və onu yaxından tanıyanlarçün professor Fikrət Seyidov əsil böyük İnsandır, çünki Müdrikdir, fəzilətdir. Bu keyfiyyətlərdi onun ömür yolu: müəllimlikdən-pedaqoqluqdan elmə bağlandı və görkəmli alim olduğunu sübuta yetirdi. Və elmin qapısını açdı, istedadı ilə, işgüzarlığı ilə, ailə səadətinin gücüylə.

Mən xeyli tərəddüddən sonra fikrimi ümumiləşdirmək haqqında götür-qoy etdim. Hansı nüansı daha qabarıq verim: bir şəxsiyyəti cüzi olsa da açsın, başqa söz tapammadım. Hobe Tomasın kəlamlarına itaət elədim:

- Şəxsi xoşbəxtliyi yalnız hamının səadətində tapmaq olar.

## III FƏSİL

# PEDAQOGİKA: ELMİ OVQATIN MƏRHƏLƏLƏRİ

### § 1. Vəzifələr - yaradıcılıq təkamülü

Səhərin yaz vaxtıydı, havalar insan sinirlərinə kövrək ovqat aşılayır. Dünəndən yağan, əslində səpələnən yağış damcıları da az rol oynamamışdı. Mən İnstitutun ikinci mərtəbəsindən ötən günü müşahidə edərkən, auditoriyada ani imkan tapdım, tələbələrin vaxtını "oğurladım". Şərq mütəfəkkirlərindən, pedaqoqlarından ürəklə, idrakla yazan professor Fikrət Seyidovun məşhur monoqrafiyası əlimin altında idi və kənardan içərisi zər-zibalı, daş-qaşlı sandığı xatırladırdı. Daxilimdə bir istilik oyandı. Deməli, növbəti fəsli yazmağa içərimdə hazıram. Uşaq kimi sevinirdim. Və bu elə də tez baş tutmadı. Deməli, səhəri gözləməliymişəm. Və cığırı açmaqda məşhur alim və elm təbliğatçısı A.B.Miqdalın sözlərini xatırladım qəfildən: "Elmi yaradıcılıqla əlaqədar əsas psixoloji nailiyyətlər özünü təsdiq, maraq, özünüifadə kimi amillərdir". Həqiqətdir bu: **Psixoloji hazırlıq. Özünə inam. Özünü fəda.** Əlbəttə, bu daxili yaradıcılıq prosesləridir, lakin kənar təsirləri də inkar etməməliyik: **Ətraf mühit. Məişət qayğıları. Təlimin və müəllimin təsiri.** Və çalışacağam, alim-pedaqoqun yaradıcılıq potensialının bu kontekstdə şərhi məsuliyyətini ödəyim.

**Psixoloji hazırlıq** nəhayətsiz qüvvədir. Bu şərtlə, yaradıcı şəxs qarşısındakı işi - mövzunu (temanı) son dərəcə güclü saysın, amma özünü ən istedadlı, işgüzar, bacarıqlı yazar yerində qoysun. Yazmaq meydandır: necə və nədən yazmaq isə əsgərlərdir. Akademik Y.E.Tarle Napaleonun əhatəli tədqiqatçı idi və çox nadir nəticələrə gəlmişdi. O, Avstriyanın baş komandanı Melasla Fransanın elə baş komandanı deyək, Napaleonu müqayisə edir və

belə bir analoq gətirir: Güman, bu məğlubiyyətin (Melası nəzərdə tuturdu-A.E.) səbəbi Melasın düşüncə tərzində imiş. Çox uzaqgörən olmayan Melasın faciyəsi onda idi, növbəti döyüşə hazırlaşanda zənn edirdi ki, özünə qarşı özü kimi Melasdır vuruşan. Əksinə, Napaleon Melasla görüş qabağı özünü elə aparırdı, sanki özü kimi Napaleon döyüşəcək... Tarle hər iki generalın döyüşdə hansı taktı, mövqeyi seçəcəyindən daha önəmli, hər iki rəqibin psixoloji durumunu qiymətləndirir.

Professor Fikrət Seyidov ixtisasça ingilis dili fakultəsini qurtarmışdır. İngilis dili filologiyası üzrə mütəxəssisdir. Söhbət 60-cı illərdən gedir: Yaxşı xatırlayıram. O, biz apiçilərin tarix-filologiya fakültəsinin tələbələrinə ingilis dilindən dərs deyirdi. Dərsliksə problemdi. Səhv etmirəmsə, Bonk adlı müəllifin qalın və mürəkkəb yazılışlı dərsliyi məsləhət bilinirdi. Xarici Dillər İnstitutunda (Rus dili və Ədəbiyyat İnstitutunun tərkibində) bir-iki yəhudi və rus müəllimləri hegemonluq iddiasında idi. O cümlədən, Barsuk, Reçitskaya və b. Milli ruhlu pedaqoq-alimlərə ehtiyac vardı.

O.Musayev, F.Seyidov, R.Qayıbova və qeyriləri bu işə orta ümumtəhsil məktəblərindən başladılar. F.Seyidov 60-cı illərdən V-VI-VII-VIII siniflər üçün, konkret VI sinif "İngilis dili" dərsliyini yazdı. Qırx ildən artıq bu silsilə dərsliklər şagirdlərimizin məktəb rəfiqidir. Mən dərslik probleminə toxunmuram, onun yazılışı mürəkkəbliyi ixtisasçılara məlumdur. Gənc Fikrət müəllim psixoloji imkanlarına güvəndi, özünün potensial imkanlarından çəkinmədi, "xərclədi".

F.Seyidovun dərslik yaradıcılığı ayrıca araşdırma mövzusu olmağa layiqdir. Onunla dəfələrlə söhbətində vurğulamışdı ki, psixoloji təmkinimi, yaradıcılıq psixologiyası barədə oxuduqlarımı götür-qoy edirdim. Yeri gələndə məsləhətləşirdim. Bir də axı, orta məktəblə sıx bağlıydım. - Bunlar sözgəlişi qənaətlərə oxşamır. Mən elmin populyarlaşdırılmasını yüksək qiymətləndirirəm. Bir qeydimi tapdım, kitabın adını unutmuşam. Böyük fizik Uilerin sözləri var, maraqlıdır, pedaqoqlar da, filoloqlar da faydalana

bilərlər: "Cavabını bilmirsənsə, əsla hesablaşmağa girişmə. Hər bir hesablamadan qabaq təqribi götür-qoy etmək lazım gəlir; qərara gəlməzdən əvvəl sadə fiziki anlayışlara (simmetriya, dəyişməzlik, itməzlik) əl atmalı, hər bir anlaşılmazlığa mümkün cavabları fikirləşməli. Cəsarətli olmalı, axı, sənin nələri fərz etdiyindən heç kəsin xəbəri yoxdur. Ona görə şəxsi fərasətini işə sal, fərziyyələrə giriş. Uğurlu fərziyyələr necə deyərlər, fərasətinə inamını artırır, səhv fərziyyələr səmərəsiz iztirab gətirir". Bu fikirlər uzun müddətin nəticələridir və heyifslənirəm ki, pedaqoqlar yaradıcılıq psixologiyasının tədqiqindən odla su kimi ehtiyatlanır. Halbuki, bu əmək əsl yaradıcılıq işidir, iztiraba düçar olmadır. Beləliklə, F.Seyidov ali məktəb auditoriyasında topladığı təcrübəni özününküləşdirdi. Amma bu, hələ tədqiqata başlamağa zəmanətli deyil, hər şeyi ya qafaya, ya da qovluğlara toplamaq mümkündür; məsələ hər ikisindəkiləri sistemə və sahmana salmaqdır, məntiqi və fəlsəfi mühakimələrdə "çimizdirməkdir". Bu məqamlarda özünüifadə refleksi yaranmalıdır. Tədqiqatçı güclü, yenilməz niyyətiylə və aydınlığıyla tədqiqatını başa çatdırmaq səyini mərkəzləşdirməyi bacarmalıdır. Bu işdə maneələri dəf etməli, real faktla fərziyyəsini birləşdirməlidir. Professor Fikrət Seyidov 1964-cü ildə "İngilis dili dərslikləri üçün metodik rəhbərlik" və "Şifahi nitq vərdişlərinin inkişafına dair" iki samballı kitabını ortaya qoydu. Adından da bəllidir ki, bu əsərlər 34 yaşlı alimin qələmindən çıxmışdır. Hansı ki, o illərdə kənar millətlərin "əjdahaları", Rusiyada ali təhsil alanlar, elmi dərəcə alanlar göz-gözə dayanmışdılar. O isə bu görünməz maneyələrə əhəmiyyət vermədi. Və "Nitq inkişafına dair metodik izahat" (1965) ortaya gəldi. Diqqət yetirsək, hər üç əsər ingilis dilinin tədrisi istiqamətinin müxtəlif sahələrindən bəhs edir. "Xarici dil dərslərində diafilm" (1966) və "İngilis dilində şifahi nitq çalışmaları" (1966) pedaqoji monoqrafiyaları işıq üzü gördü.

Mən bu kitabları kitabxanalarda alıb vərəqlədim. Yaşları qırxı keçib onların. Kataloqda daha iki əsərinə rast gəldim: "Səkkizillik

məktəblərdə xarici dillərin metodikası (1967) və "Xarici dil dərslərində diafilm" (1968). Alimin bu sahədəki yaradıcılığı barədə dosent Məcid Əliyevin fərəhli sözünü xatırlayıram: "Fikrət Seyidovun gərgin, məhsuldar əməyinin məhsulu olan ingilis dili dərsliklərinin vasitəsilə dünya incəliklərinə yiyələnmişlər".[1]

F.Seyidovun ingilis dilinin tədrisi və təbliğinə dair onlarla qəzet və jurnal məqaləsi çap olunmuşdur. Vaxt olubdur o, xarici dillərin tədrisində texniki vasitələrin tətbiqindən xeyli yazmış, araşdırmalar aparmışdır. 60-cı illərə təsadüf edən bu əsərlər dərin və uzunmüddətli müşahidələrin nəticələriydi. Orta məktəblərdə dərs demək, qabaqcıl təcrübələri öyrənib sinfə gətirmək lazım idi və bunların da öhdəsindən gəldi.

Bir dəfə kitabı yazmağa hazırlıq hissini keçirirdim, əsər tamlığı ilə beynimdə formalaşmamışdı, strukturunu təsəvvürümdə sahmanlayırdım, soruşdum ki, necə oldu pedaqoji fikir tarixinin dərin qatlarına keçdiz. Xeyli düşünəndən sonra dedi ki, mən bilmirdim 5-10 ildən sonra bu mövzuya hazıram, yoxsa yox. Namizədlik dissertasiyamı sona çatdırmışdım. Amma bilavasitə çalışdığım sahəyə aid materiallarım əlimin altındaydı, informasiyalar toplanmışdı. Özü də o vaxt, bütün SSRİ məkanında müasir texniki vasitələrin tətbiqinə pedaqoji hücum vardı. Mənim "Xarici dil dərslərində maqnitafon", "Xarici dil dərslərində diafilm", "Xarici dillərin tədrisində müasir texniki vasitələrdən istifadə edilməsi" əsərləri məhz bu mövzuda idi.

Professorun bu şərhi sırf yaradıcılıq məsələsidir və yadıma Ç.Darvinin elmi işçi üçün irəli sürdüyü bölgü düşdü. Məşhur genetikə görə bu: 1) Elmə məhəbbət; 2) Böyük səbr; 3) Müşahidə və fakt toplamağa cəhd; 4) Müəyyən qədər sağlam mühakimə.

Mən adını çəkdiyim bu əsərləri qeyri-peşəkar gözüylə vərəqlədim. Təbii ki, pedaqoji faktlarla, dərslərin müşahidələriylə, müasir didaktik yanaşma ilə yaxından maraqlandım. Və belə bir qənaətə gəldim:

-Müasir səsli texniki kitab mətnlərinin yaxşı tələffüzlə oxunu eşitməyə şərait yaradır. Şagird hər bir spesifik xüsusiyyətini, onun

1. Əliyev Məcid. Zirvələrə gedən yol. "Təhsil", q. 23.12.04.

deyilmiş incəliyini eşidir, dinlənilmiş səslərin əsasında sözləri tələffüz etməklə öz səsini dinləyir, orijinalla müqayisə aparır.

-Texniki vasitələr dərslərin səmərəliliyinin yüksəltməklə, şagirdlərin xarici dildə danışmaq imkanlarını əsaslı artırır, intonasiyanı yaxşılaşdırır.

-Başqasının nitqini başa düşməyə və danışmağa şərait yaradır; şagirdlərin nitq modelini və konstruksiyalarını avtomalaşdırmağa köməklik göstərir.

-Texniki vasitələr fənni həyatla əlaqələndirməyə, sinifdənxaric tədbirləri maraqlı edir.

-Texniki vasitələr müəllimin biliyini artırmaqda yardımçı olur.

Xarici dil təliminin ilk pilləsində maqnitafondan istifadə məsələsinə də o vaxt aydınlıq gətirmişdir. Çünki bəzi müəllimlər ünsiyyətlə bu işin mümkünsüzlüyünü vurğulayırdılar. Və müşahidələrini V sinif üzərində ümumiləşdirmişdir; imla üzərində işin nəticəsi belədir: "İmlanı əvvəl iki intervalda aparmaq lazımdır. Şagirdlər mikrafonda işləməyə alışdıqca onu bir intervalla, daha sonralar isə intervalsız aparmaq məqsədə müvafiqdir. Çalışmaq lazımdır ki, təlimin I pilləsində şagird düzgün olmayan tələffüzü eşitməsin. Tələffüzü maqnitafona yazmağa tələsmək lazım deyil. Bu prinsipi maqnitafonla aparılan bütün işlərdə gözləmək vacibdir".

F.Seyidov dərslik və dərs vəsaitlərində çalışmışdır ki, nəzəriyyə ilə praktikanın üzvü əlaqəsini dərsə gətirsin. İfadəli oxu məsələsinə toxunan F.Seyidov aşağıdakı işləri məqsədəuyğun sayır:

*1. Mətnlərin interval və intervalsız çox oxunması.*

*2. Çətin tələffüz edilən sözlərə maqnitofon vasitəsilə aparılan müxtəlif çalışmalarda qulaq asılması.*

*3. Vurğulu sözlərin tələffüzünün məktəbdə və ayrılıqda dinlənilməsi.*

*4. İntonasiyanı (qalxıb, düşən) dəfələrlə dinləmək və s.*

Texniki vasitələrin tətbiqində F.Seyidov diafilm - dərslər üzərində də xeyli müşahidələr aparmış, ən super təcrübələri ümumiləşdirmişdir. Şagirdlərin söz ehtiyatının azlığını nəzərə almaq-

la, bu gün də öz əhəmiyyətini itirməyən elmi-pedaqoji nəticələrə gəlmişdir. Biz bu qənaətlərin yararlığını nəzərə alıb, oxucuların diqqətinə çatdırırıq:

Müəllim diafilm dərslərini planlaşdırarkən onun tam, yaxud hissələrlə baxılmasını da müəyyənləşdirməlidir. Qabaqcıl müəllimlərin təcrübəsi göstərir ki, filmə qırıq-qırıq baxan şagirdlər ardıcıllığı itirir və filmin ayrı-ayrı hissələri arasında tam əlaqə yarada bilmir-



*Fikrət Seyidov texniki təlim otağında*

lər. Daha doğrusu, belə baxışda şagird filmin məzmunu haqqında tam təsəvvürə malik ola bilmir. Bu isə filmin təsirini azaldır. Şagirdlərdə sistemsiz və məntiqsiz nitqin yaranmasına səbəb olur. Buna yol verməmək məqsədi ilə qısa diafilmlər götürmək lazımdır.

Müəllim diafilm dərslərinə hazırlaşarkən əsas məqsədi olan şifahi nitqin inkişafı məsələsini təfərrüatı ilə düşünməli, səmərəli yollar tapmalı və yeni üsullar tətbiq etməlidir. Diafilm dərslərinə hazırlaşan müəllim texniki vasitələr sahəsində olan dövri ədəbiyyatı da izləməli və ondan öz işində yaradıcı istifadə etməlidir.

Bununla yanaşı müəllim aşağıdakı pedaqoji tələbləri də nəzərə almalıdır:

*1. Müəllimin seçdiyi diafilm ideya-siyasi cəhətdən sağlam olmalı, şagirddə materialist dünyabaxışı yaratmalı və tərbiyəvi xarakter daşımalıdır.*

*2. Elmi məzmun kəsb edən diafilmlər seçməli, diafilmlə işləyərkən oradakı hadisələri, faktları və rəqəmləri təhrif etməməlidir.*

*3. Diafilmlərin məzmununu danışarkən həddən artıq sadələşdirməyə yol verməməlidir.*

*4. Diafilmlərdə verilən materialın məzmununu elə qurmalıdır ki, onun həqiqiliyinə şagirddə heç bir şübhə oyanmasın.*

*5. Diafilmlər proqramın tələbinə müvafiq seçilməlidir.*

*6. Diafilmlər vasitəsilə şagirdlərə verilən material onların yaşına, biliyinə və ümumi inkişafına uyğun olmalıdır.*

Diafilm dərsi keçən müəllim həmçinin aşağıdakı tələbləri də nəzərdən qaçırmamalıdır:

*1. Diafilm məşğələlərində şagirdləri yormamalı və həddən artıq gərginliyin yaranmasına yol verməməlidir.*

*2. Diafilm göstərilən otaqda şagirdlərin skamyaları ilə ekran arasındakı məsafə 2-3 metrdən az olmamalıdır. Əks halda ekranda cərəyan edən hadisələr şagirdlər tərəfindən düzgün anlaşılmaz və onların gözlərinə pis təsir göstərə bilər.*

*3. Ekranın yerdən 1,5 m. hündürlüyündə olmasına diqqət yetirmək lazımdır. Bu isə ekranın şagirdlər tərəfindən yaxşı görünməsinə imkan yaradır. A.S.Puşkinin "Balıqçı və balıq", Mamin Sibiryakın "Akula", A.Qaydarın "Yanar daş", S.Marşakın "Çuk və Gek", İ.Turgenevin "Mumu" hekayələri üzrə çəkilmiş diafilmlərin orta məktəbdə göstərilməsi məsləhət görülür.*

Diafilm üzrə keçirilən dərs haqqında şagirdlərdə müəyyən təsəvvür yaratmaq üçün təcrübəyə əsasən bir dərsin planını vermişdir:

Mövzu: "İsti daş" diafilmi.

Dərsin məqsədi: Başqasının nitqini başa düşmək və şagirdlərin əlaqəli nitqini inkişaf etdirmək.

Dərsin planı:

*1. Aparılacaq işin xarakteri haqqında müəllimin giriş söhbəti.*

*2. Diafilmin məzmunu haqqında müəllimin danışması və filmin məzmununun başa düşülməsini yoxlamaq (bir neçə sual vermək).*

*3. Tanış olmayan sözlərin izahı.*

*4. Kadrlara dair müəllimin sualı və şagirdlərin cavabı.*

*5. Diafilmin məzmununun şagirdlər tərəfindən danışılması.*

*6. Evə tapşırıq.*

Diafilmin məzmununun mənimsənilməsində sual-cavaba da yer ayrılmalıdır. Nəhayət, sual-cavab qurtardıqdan sonra müəllim şagirdlərin yaşına uyğun olaraq diafilmi dərin təhlil etməli və şagirdlərə başa salmalıdır ki, hər bir bədii əsər həyatı əks etdirməklə onun müəyyən bir ideyası vardır. Məsələn: "İsti daş" filmində müəllifin məqsədi bunu göstərməkdir ki, oğurluq pis işdir, insan ləyaqətini aşağı salır, adamı başqalarının gözündə alçaldır, yaxşılıq isə nəcib işdir. Yaxşılıq insanlarda gözəl hisslər doğurur. Müəllif eləcə də göstərmək istəyir ki, yüngül yola qaçamaq lazım deyil. Zəhmət insan həyatınm cövhəridir.

Bəzən müəllimlər diafilmə baxmış şagirdlərdən soruşurlar: "Diafilmdə nə xoşunuza gəlmişdir?" Əlbəttə, təkcə bu sualla kifayətlənmək olmaz. Burada əsas məqsəd filmin şagirdi hansı məsələ üzərində düşünməyə vadar etdiyini öyrənməkdir. Bu cəhətdən "İsti daş" filmi daha xarakterikdir. Film üzərində aparılan təhlildən sonra şagirdlərə nəticə aydınlaşır. Diafilmin məzmununu dərindən dərk edən şagirdə onu xarici dildə danışmaq asan olur.

Diafilm üzrə sual-cavabdan sonra şagirdin müstəqil danışığı başlayır. Diafilm üzrə danışıq mərhələsinə keçməmişdən əvvəl müəllim bir neçə dəqiqə şagirdlərin müstəqil düşünməsinə və diafilmin ardıcıllığını öz hafizəsində canlandırmağa imkan yaradır. Bu müddətdə şagirdlər filmin təsviri üçün lazım olan söz və ifadələri də müəyyənləşdirib dəftərlərinə qeyd edirlər. Danışıq zamanı qeydlərindən şagirdlərin istifadə etməsinə imkan vermək lazımdır. Çünki qeydlərə baxan şagird lazımi söz və ifadələri

axtarmır, eləcə də onun danışığı planlı xarakter alır. Belə qeydlər həm də şagirddə əsas məqsəd ətrafında düşünmək, əsas fikri tutmaq bacarığı aşılayır.

Diafilm üzrə şagirdlərə tapşırıqlar da vermək olar. Məsələn, diafilmi şifahi və yaxud yazılı təsvir etmək; diafilmə aid plan düzəltmək; diafilm üzrə müəllimin suallarına cavab vermək və s.

Diafilmdə göstərilən hadisəni şagirdin öz adından danışması da maraqlı iş növlərindən biridir. Məsələn, şagird "Oğul ilə söhbət" diafilmini "Atamın mənimlə söhbəti" adından danışa bilər və s.

Şagird danışıq zamanı filmdəki hadisələri dəyişərək məzmuna öz həyatından bir sıra məsələləri də əlavə edir. Bu növ iş şagirdi müstəqil damşığa öyrətməklə bərabər, müəllimə də şagirdin hansı məsələləri yaxşı bilmədiyini, hansı qrammatik materialı bir daha təkrar etməyin zəruri olduğunu aydınlaşdırır ki, bu da şagirdin şifahi damşığım düzgün istiqamətləndirmək üçün hansı dil hadisələrinə daha çox diqqət yetirməyi müəyyənləşdirir. Bütün bunlar xarici dillərin öyrənilməsinə müsbət təsir göstərərək, xarici dil dərslərində müxtəliflik yaradır, şagirdlərin fənnə olan marağını artırır və onları fəallaşdırır.

Pedaqoq, xüsusilə məktəbdən, dərsdən danışırsa praktik təsəvvürü yetərincə olmalıdır; əlbəttə, bu vəziyyətdə pedaqoqu (metodisti) müəllimlə bərabər tutmaq səhvdir. Sinfin Kralı Müəllimdir, kənardan bu obyektə "şərik" çıxan olsa-olsa Vəzir rolunu oynaya bilər. Bu, mənim fikrimdir və israrlıyam. Hərçənd, ən yaxşı müəllim belə öz işini mütəxəssisə başa salmaqda çətinlik çəkir, bəzisi hətta bunu heç bacarmır da. Müqabilində bəzisi o nəticəni müəllimin üzünə vurur ki, əgər öz təcrübəni izah etməkdə çətinlik çəkirsənsə, deməli, işini anlamırsan. Bu da tamamilə səhvdir. Mən professor Fikrət müəllimin daha digər tədris kitablarından anladım ki, "Şifahi nitq vərdişlərinin inkişafına dair" (1964), "Nitq inkişafına dair metodik izahat" (1965), "Səkkizillik məktəblərdə xarici dillərin metodikası" (1967) kitablarında tədris konsepsiyasını qoruya bilmişdir. Və "müəllim mütiliyini" təsdiq edən nəzəriyyəçilərə cavabını vermişdir.

Bu barədə fikirləşəndə dahi A.Eynşteynlə bağlı epizod yadıma düşdü. Kimdənsə oxumuşdum: A.Eynşteyndən işıq sürətinin qiymətini soruşanda o, bilmədiyini səmimi etiraf edir: - Mən istənilən sorğu kitabında asanlıqla tapıla bilən şeyləri heç vədə yadımda saxlamıram.

Ağıllı və məntiqli cavabdır...

Fikrət müəllim metodik-nəzəri vəsaitlərində çalışmışdır ki, mexaniki mənimsəmə deyil, şüurlu qavrama əsas yer tutmalıdır, yoxsa nə varsa eləcə də müəllminə qaytar - iddiası kimi!

F.Seyidovun tədris prosesinə aid əsərlərinin poetikasında mən bir səciyyəni dəqiqləşdirdim; bəlkə də səhvimdir bu, amma mən də sözümün ölməsinə imkan verən deyiləm: Praktika nəzəriyyənin ağuşunda xumarlanmamalıdır, hissiyyata qapılmadan ondan uzaq gəzərsə ən böyük Mükafat onun yolunu gözləyir.

Hə, çox danışdım, qayıdaq yazımın axarına. "Özünü fəda" anlamı bir qədər bizə qəribə görünür, ona görə ki, ənənə elədir, alimlər keçmiş zamanda yaşayıblar, kəşflər ediblər. Əlbəttə, klassik alimləri: Tusini, Nyutonu, Faradeyi, Eynşteyni, Boru və s. tanıyırıq, orta məktəbdən adlarını eşitmişik, nəzəriyyələrini müəllimlərimiz şərh ediblər. Bəs humanitar - ictimai elmlərdə kəşf yoxdur? Maddi baxımdan xeyr, amma bu tip alimlərin ortaya qoyduqları əsərlər, irəli sürdüyü fərziyyələr kəşf deyilmi? Gizlətmirik, özünü fəda dəqiq elmlərdə daha barizdir, əyanidir. Hətta onlar laboratoriyalarında sağlamlıqları ilə də vidalaşmışlar. Təbii ki, onların təfəkkürü fərqlidir, spesifik proseslər toplusudur. Hətta filosoflar, təbiətşünaslar, riyaziyyatçılar öz fəaliyyətlərinin əsasında dayanan məsələlərə ayrı-ayrı prizmalardan yanaşmışlar. Məşhur rus psixoloqu V.Puşkin yazır ki, ola bilsin, yaradıcı təfəkkür problemi əvvəllər heç bir zaman bizim əsrimizdə olduğu qədər intensiv və geniş surətdə öyrənilməmişdir.[1] Lakin pedaqoq yaradıcı şəxs timsalında daha fədakardır: gənc nəslin təlim-tərbiyəsi işini müşahidə edir, kontaktda olur və bu sahədəki mənəvi

1. Puşkin V. İnsan şəxsiyyətinin xüsusiyyətləri (rusca). "Semya i şkola". M., 1970,№4.

dəyərləri toplayır, ümumiləşdirir, nəzəri mühakimələri sistemləşdirir. Bu prosesdə həm məntiqi idrak, həm də emosional ovqat bir-birini tamamlayır. Özünü fəda - vətəndaş yanğısı adi bir məqalədə də özünü göstərə bilir, daha doğrusu, ümumi intellektin tutumunu şərtləndirir. Akademik A.Mirzəcanzadənin fikri maraqlıdır: "İntellekt - onlarca fərziyyə deməkdir. İntellekt xassələrin ierarxiyasıdır. İntellekt - əqli keyfiyyətin "müsbət silsiləsi" toplusudur. İntellektual adamın belə bir tərifi də vardır: o, "eyni" şeylərdəki fərqi və müxtəlif şeylərdənki ümumiliyi görür".[1]

"Türk xalqlarının tərbiyə və məktəb tarixinə dair" kitabı (1997) üzərində fikrimi əsaslandırmaq istərdim. Azərbaycan pedaqoji fikir tarixi əslində mərhum professor Əhməd Seyidov tərəfindən araşdırılmış, sistemə salınmışdır. Və o sağlığında bu istiqamətdə bir məktəbin bünövrəsini qoymuşdur. Professor Fikrət Seyidov Qori Müəllimlər Seminariyası haqqında monoqrafiyasını çap etdirmişdir. Müəyyən vaxt ayrılığında (10 il) Fikrət Seyidov boş dayanmamışdır, universitetlərdə mühazirələr oxumuş, müəyyən təşkilatı işlər aparmışdır. O, pedaqoq həmkarlarından fərqli şəkildə yeni, bizə naməlum tematikanı seçməli olmuşdur. Bir əsrə qədər türk xalqlarını, konkret bizimlə qardaş türklərin həm genetik yaxınlığının danılması hərakatı ideoloji status almış, həm də mədəni-ədəbi və təlim-tərbiyə bağlılığı kəsilmişdir. Bunlar bilərəkdən ardıcıl surətdə həyata keçirilmişdir. Fikrət müəllim üçün bu məsələlər aydın idi. Hələ atasının sağlığında, Azərbaycan Pedaqoji İnstitutunda direktor vəzifəsində çalışarkən (1944-1949) rus və erməni şovinistləriylə mübarizəsinin şahidinə çevrilmişdi. Proseslər onun gözü önündə baş vermişdi: Müharibə illərində APİ-ni ermənilər zəbt etmişdilər. Ə.Seyidov direktor təyin olunduqdan sonra erməniləri sıxışdırmaq məqsədini qarşısına qoyur: "Nazirlər Sovetinin təsdiq etdiyi bölgü əsasında Maarif Nazirliyindən İnstituta qəbul haqda bölgü alır. Bu bölgünü oxuyanda atam dəhşətə gəlir. Orada yazılmışdı ki, növbəti

---

1. Mirzəcanzadə A. Yaradıcılıq haqqında düşüncələr. B., 1984, səh. 64.

tədris ilində APİ-yə 30% azərbaycanlı, 60% erməni və 10% rus qəbul olunmalıdır. Belə bölgüdən hiddətlənən atam qəbul kağızının üstündən qələm çəkib yazır ki, instituta 70% azərbaycanlı, 15% erməni və 15% rus qəbul olunsun. Ermənilər özlərinin tarixi ənənələri olan "Qara yaxmaq, böhtan atmaq, qara qışqırıq" kimi əməllərini işə salır: "Ay aman, qoymayın, Seyidov millətçilik edir". Mirzə İbrahimov (maarif naziri - A.E.) təlaş içərisində axşamçağı evimizə zəng edib, "Əhməd sən nə etmisən? Nazirlər Sovetindən gələn kağızı nə cürətlə pozub-düzəliş aparmısan?"[1] deyir. Məsələ MK-nin bürosuna çıxır. Erməni mafiyası isə çox güclüymüş. Lakin Ə.Seyidov M.C.Bağırovun ədalətli qərarı ilə öz vəzifəsində qalır və direktora ermənilər barədə radikal addımlar atmağı eyhamla bildirir. Bəli, direktor da, birinci katib də erməni mafiyasına ilk zərbələri endirirlər.

Bu epizod sadəcə xatirə deyil, rusların təəbəliyini arvadsayağı eşqlə qəbul edən ermənilərin xarakterini açmaqla bərabər, bir nəslə xəbərdarlıqdır ki, türk xalqları ortaq dilə və mədəniyyətə sahib kəsilməlidir. Məhz professor Fikrət Seyidov özünüfəda ilə probleme girişməli oldu. Belə ki, o Türkiyəyə öz tətil günlərini sərf etdi. Vaxtilə ayrılmış şəcərəsinin izinə düşərək qardaş Məmləkətdə oldu. Səfərdən əvvəl bu haqda danışarkən çox arzulu, intizarlı hisslər keçirdiyini söyləmişdi. Və belə bir fikrinin olduğunu açıqlamışdı. O, sözünün üstündə dayandı, ortaya misilsiz əsər qoydu!

Ətraf mühit ən adil hakimdir: İnsanı müdrik və cahil, fəzilətli və qəbahətli, alicənab və rəzil... edir. Və qəribədir, bütün ikinci tərəflərin mübarizəsində basılmır, fərdi yaşadığı mühitin ixtiyarına buraxır. Mühit barədə ən çox düşünən, tərbiyəvi nəticələr çıxaran məhz pedaqoqlardır. Ona görə ki, şəxsiyyətin inkişafı və formalaşmasında mühitin optimal imkanlarını araşdırmaq, konkret yollara sahib çıxmaq pedaqoqlara məxsusdur. Fikrət Seyidovun həyat yoluna düşəndə bir isti etirafın şahidinə çevrilirsən: Bütün uğurlarında sosial-mənəvi mühitə, təlimin və müəllimin təsirinə

1. Seyidov F. Aslanbəylidən başlanan xatirələr. B., 2000, səh. 150.



*Professor F. Seyidov qələm dostları ilə (soldan Fikrət Seyidov, Pirxanım Qasımova, Hüseyn Əhmədov, Həmzə Əliyev)*

borclu olduğunu etiraf edir. Çünki Fikrət müəllim, ümumiyyətlə Seyidovlar şöhrətpərəst deyil və deyillər. Vaxtında, hələ cavankən müxtəlif vəzifələr daşıyarkən (hazırda kafedra müdiridir) belə, bu hissi yaxına buraxmamışdır. Onu tanıyanlar da fikrimi təsdiqləyərlər. Yeri gəlmişkən, F.Seyidovun yazdığı dalbadal 5 monoqrafik əsəri hansısa onun həmkarlarından biri qələmə alsaydı... O adam şəksiz göylərdə uçardı. Şöhrətpərəstlik fərdin mühitdə formalaşmasına daima mənfi təsir göstərmişdir; yaradıcılıqda özünə aludəçilik yaratmışdır. Marks bir məktubunda yazır ki, şöhrətpərəst adamlar qısa müddətli uğurlar xatirinə bu günün şöhrəti üçün nigarançılıq çəkən, çalışan adamlardır. - Haqlı qənaətdir.

Professor F.Seyidovun böyüdüyü və çalışdığı elmi-mənəvi mühit daima ona diqtə etmişdir ki, o, hər şeyi bacara bilər: Çöldə də, evdə də, kitabxanada da işləməyə qadirdir, daha doğrusu, insan hər şeyə meyilli və qadirdir. Məşhur rus psixoloqu B.Q.Ananyev demişdir: "Mənə aydın oldu ki, insan maksimumda, yəni çox ciddi gərginlik şəraitində yaşaya bilər. Mən gizli imkanları gördüm,

halbuki, adətən onları hiss etmirik. Mən başa düşdüm ki, insanın qadirliyi məsələsindən vacib problem yoxdur. Mən başa düşdüm ki, insan hər şeyi bacırır".

F.Seyidov gözünü açanda atasını və qardaşı İsmayılı yazı masası arxasında görmüşdür. Saatlarla işləmək, sonra istirahət. Cavanlığından "artıq adamlar"dan qaçmışdır: İş-Ev. Sonralar: İş-Ailə. Bunları onun üçün xatırladıram ki, o, təmin olunmuş ailədə doğulmuş və böyümüşdür. Deyir ki, vaxtilə babamın (atasına müraciətdi) bir aylıq maaşına 2 "Moskviç" maşını almaq olardı. Bu təminat cavan oğulu pozmadı. Müqayisə aparıram indiylə - dəhşətə gəlirsən. Ətraf mühitimizdəki imkanlı, vəzifəli ailələrin uşaqları Məmləkətdə hansı oyundan çıxmırlar! Hətta qətl hadisələri də törətməkdən çəkinmirlər! Bu, Məmləkətimizin faciyəsidir, onlardan törəyənlər heyif ki, vəzifədə otuzdurulur və özləri biçimində övlad yetişdirib bu xalqın canına calaşdırırlar. Orta, ali məktəblərdə və fəaliyyətində Fikrət müəllimin maraqlı rejimi olmuşdur: öz sağlamlığının qayğısı, günün iş rejimi, ailə probleminin məişət səviyyəsində həlli, nəhayət, yazı-pozu. Bu gün də bunların müşahidəçisiyəm. Maraqlıdı, bizim pedaqoqlar uşaqların rejimindən onlarla məqalə yazırlar, amma tələbələrin, aspirantların yaradıcılıq məsələlərinə əməliköməklik göstərəcək fəaliyyət rejiminə aid bir məqalə də qələmə almamışlar. Halbuki, belə addım faydalı olardı. Yersiz gərgin elmi iş (yaradıcılıq) səhhəti qılınclayır. Hamımız şahidik ki, təbii yaradıcılıq potensialı olmayan, zorla namizədlik dissertasiyasını yazıb, təcili doktorluq işinin tamamına nail olmuş şöhrətpərəstlərin vaxtsız qocalmasının və dünyasını dəyişməsinin (Allah onlara rəhmət eləsin) şahidiyik. Mənim tanıdıqlarım da vardı və onların ölümünə göz yaşı tökürəm. Bir axı, oldun elmlər doktoru, professor - yazdıqlarının içərisində bir şey yoxdursa, a zalım, yaşa ailəndə. F.Seyidov pedaqoji elmlər doktoru deyil, professordur, halbuki, monoqrafiyalarından hər biri bir doktorluq tədqiqatıdır. Dostları da ona bu iradı tutur və haqlıdılar. O isə hər şeyi təmkinlə qarşılayır: Sakitcə əsərlərini nəşr

etdirir, yeni araşdırmalara başlayır. Çox akademikləri, professorları, xalq şairləri, xalq rəssamları və s. titullulları görmüşəm,... dəftərində də adları yoxdu. Bu, hiss-özünüanlama, özünüifadə, təvazökarlıq, elmi ədalətlilik və qeyri keyfiyyətləri ona doğulduğu, böyüdüyü, çalışdığı mühit aşılamışdır. "Aslanbəylidən başlanan xatirələr" fundamental əsərini bu günlərdə bir də oxudum (bəlkə haçansa yenə də vərəqləyəcəyəm) - dəhşətə gəldim. Olmuşları bir-bir xatırlamaq, əqli və əxlaqi nəticələr çıxarmaq, ayrı-ayrı şəxsiyyətlərin fəaliyyətini və qiymətini vermək, təxmini 100 illik şəcərənin yaşadığı fonunda gərəkli və yeri gələndə qorxulu mühitin ponoramasını yaratmaq hər pedaqoqa hələlik nəsib olmayan etirafdır! Bu, insanın möcüzəli sıçrayıcıdır. Az müddətdə (şahidiyəm) minlərlə faktları sıralamaq, məntiqi yanaşmaq, heç bir ədalətsizliyə yol verməmək - o deməkdi onun müəllifi bədəncə və ruhca sağlamdı, qəlbən müdrik və cavandı, həqiqətpərəst və ədalətlidi, sözlü və yazmaq qabiliyyətlidi. Sadaladıqlarımı ümumiləşdirmək istərkən bu dəfə də akademik A.Mirzəcanzadənin gətirdiyi sitatı verməli oldum. Akademik professor B.A.Petrovun tələbələr qarşısında mühazirəsindən misal gətirir (Bizim pedaqoqların mühazirələrinin aqibəti hələlik məlum deyil).

*1. Həkim məqsədə çatmaq üçün möhkəm iradəli olmalıdır (bu, digər sənət-peşə sahiblərinə də malikdir. - A.E.). Ən başlıcası istəkdir və arzuya çatmaqdır, inadla çalışmaqdır...*

*2. Şəxsi təkmilləşmə! Həmişə irəliyə can atmaq! Nail olduğunla heç vaxt kifayətlənməmək! Bununla da ömrünüzün axırında deyəcəksiz: həyatım boş keməmişdir!*

*3. Sizi həm sevinc, həm də məsuliyyət gözləyir, həm nifrət, həm də minnətdarlıq. Sizi soyuqqanlılıq və cəsarət gözləyir.*

*4. Təkcə bilməyi yox, bacarmağı da öyrənin. Unutmayın ki, bacarıqlar biliklərdən qat-qat daha çox iş görə bilir. Bunu da unutmayın ki, elmsiz və təlimsiz, təkcə əməli fəaliyyət kor-koranə təcrübəyə gətirib çıxarır.*

*5. Həqiqəti sevin və düz olmağı çalışın. Doğruluq həyatda olduğu kimi, təbabətdə də, cərrahiyyədə də vardır. Həqiqəti söyləmək üçün irəliyə can atın!*

*6. Həmişə qəlbən cavan olmağa çalışın.*

*7. Ümumi mənafeyi şəxsi mənafedən üstün tutun.*

Əhməd Seyidov Zaqafqaziya Müəllimlər Seminariyasımn məzunu olmuşdu. Keçdiyi ömür yolu barədə ötəri danışmışam. Bütün həyatında oxuduğu təhsil ocağını unutmamışdı. Yeri gələndə keçmiş tələbə dostlarıyla həvəslə görüşmüş, xahişlərini yerinə yetirmişdi. O, bununla fəxr eləyirdi. Vəzifə onu heç vədə bürokratlaşdıra bilməmişdi, kübarlığına üstün gəlməyi bacarmamışdı. Belə bir sədaqətlilik idi, Fikrət Seyidov namizədlik dissertasiyası mövzusu üzərində düşünərkən demişdi ki, Fikrət, oğul, Qori Seminariyası barədə fikirləş, zəngin xəzinə arxivlərdə yığılıb qalmasın. Qoy kənarlar başa düşsün ki, belə bir məbəd olub və Azərbaycan üçün milli kadrlar yetişdirmişdir.

Mən Əhməd müəllim haqqında elmi-publisist məqalələrimi yazanda onunla ya kafedrada, ya da iş otağında söhbət eləyəndə Seminariyaya toxunur, həm müəllimlərinin, həm də tələbə yoldaşlarının adını çəkirdi...

Fikrət müəllim məsləhəti ilk əvvəl soyuq qarşılayır. Az sonra Fikrət müəllim deyir ki, babamın danışıqlarından sonra elə onun arxivində qoruduğu bəzi sənədlərə göz gəzdirdim və qəti qərarlaşdırdım ki, bu mövzu maraqlırdır, gərgin işləmək lazım gələcəkdir.

Bu xatırlama ona görə əhəmiyyətlidir ki, məşhur pedaqoq tədqiqat mövzusunun işlənməsi mühitini yaratmışdı. Bir növ Fikrət müəllimi yazmağa hazırlamışdı.

Bu haqda sonra...

## § 2. Müdrikləşmə - türkün pəncərəsi

Mənim əqidəmcə hər bir yaradıcı şəxsin daxili aləmi, hissləri, əxlaqı onun əsərlərində cücərir, bunu bədiiyyata şamil eləmək bitərəflilikdir mənim aləmimdə. Elmi əsərlərdə, xüsusilə pedaqogika elmində buna daha çox pay düşmüşdür. Söhbət o adamdan getmir ki, boğazından yuxarı qələmi əlinə alır, vurnuxur ora-bura. Ortada da o məsələ... Əsərdə müəllifin hıçqırtıları, əzabları, intizarı, sevinci və qəhqəhələri nəfəs almalıdır. Və öncə özünə "Nə üçün?", yaxud "Kim üçün?" suallarını verməli, cavabını kitabından almalıdır. Professor Fikrət Seyidovun son əsərlərinə dəfələrlə qayıtmağımda təsadüfi hal axtarmağa ehtiyac duymuram. Mən onların hamısına ön söz yazmışam; bu gün onları başqa hisslə oxumalı oldum. Tamamilə səmimi sözümdür. Müəllifin Şərq və antik fəlsəfədən ətraflı informasiyası var; yoxsa ən qədim abidələri və tərbiyə tarixini araşdırmaq sevincini yaşamazdı. Antik filosoflar ona görə əbədi-ölməzdilər-bəli, "Nə üçün?" sualına ömürləri uzunu cavab axtarmışlar. Dahi Sokrat daima sualını daxilinə - içərisinə tuşlamışdı. Qəribədir, o sualların cavabını müsbət mənada Fikrət müəllimdə görürəm. Bəlkə də hələ yeniyetmə və gənc ikən atasının müdrikliyini, Şərq ədəbiyyatının və ilahiyyətının ölməzliyini, antik yunan fəlsəfəsinin məntiqini müşahidə etmişdir. Bilərəkdən "?" işarəsinə ehtiyac duymadım. Elə olub, aramızda bu barədə həyatın müəmmalı qoyduğu sualların alınmayan cavabları haqda söhbətlərə vaxt tapmışıq. Məsələn. Sokrat bütün yaradıcılığında heç bir müasirində tapılmayan keyfiyyətləri özündə axtarmışdır. Baxın onun suallarına:

-Nə üçün şöhrətə çatmış adam daha artıq şöhrət arzulayır?

-Nə üçün hakimiyyətin bir pilləsinə qədəm qoyan növbəti pilləyə qalxmağa can atır?

-Nə üçün hədsiz xəzinə toplamış adam bununla kifayətlənmir? Xəzinə yığmağa can atır?

-Nə üçün doyunca yeyən adam yenə də yeməkdə davam edir?

-Nə üçün keflənənə qədər içən adam yenə də içməkdə davam edir?

Sokratın suallarını özü cavablandırmasına qədər xeyli götür-qoydan sonra Fikrət müəllimin xarakterini təsəvvürə gətirdim və az-çox tanıdığım 45 ilin qənaətində nikbinliyimə sevindim: Bir dəfə soruşdum ki, müəllim, bu şöhrət azarına necə baxırsız? Axı, dövrəmizi




*ABU-nun ingilis dili fakültəsinin dekanı F. Seyidov müəllim və tələbələr arasında*

alıb aparır bu xəstəlik. Kişiləri qadınlaşdırır, qadınları isə arvad qiyafəsinə salır. - O, bir xeyli susdu. Gülümsündü: - Nə üçün soruşursan? - dedi. - Başa düşürəm ki, əhatəmizdə tanıdığımız bir-iki kişi vardı, onlar da şöhrətə çatmaq üçün ikiüzlüyü, riyakarlığı üstün tutdular. Mark Tvenin sözlərini bu dəqiqə yadıma salaram... Hə, belədir: "... Minlərlələ dahi yaşayır və şöhrətə çatmadan ölüb gedir, - ya onu tanıyan olmur, ya da özü-özündən xəbərsiz olur". Bu cür adamlarda zərrə də müsbət nəsə tapılır, vay ola ki, layiqliyini anlamadan qarşına o məqsədi qoyasan. Sənin də tanıdıqların çoxdu, vəzifəyə çatmışdılar, ayaqları yerdən qopmuşdu, hanı onlar?...

-Bəli, bir də baxırsan ki, şöhrəti ürəyinin başına bərk-bərk sıxanda, hakimiyət iddiasına mübtəla olur və arzu baş alıb gedir. Niyə belədir, axı. Məgər onlar azca irəlini görmürlər?

Yenə də özünə xas təbəssüm, sinəsi və yaddaşı maraqlı hadisələrlə dolu müdrikliklə dillənir, sanki belələri heç bu dünyada yoxmuş, bəlkə həqiqətən yoxmuş?

-Hakimiyyət şirnikdirici dərmandır. İçən də sağalmır, içməyən də. Bir fransız filosofu var, Monteskye, yazırdı ki, əsrlərin təcrübəsindən məlumdur, hakimiyyətə yiyələnən adam bu hakimiyyətdən sui-istifadə edir, nə qədər ki son həddə çatmayıb o, bu istiqamətdə gedəcək. - Sui-istifadəyə qətiyyən yol vermək yaramaz. Məncə, bu subyekti götürəndə o şəxs nəinki qarşısındakı fərdi, hətta makro mühiti təhqir eləmiş olur. Hər bir istəyin mərkəzində mənəvi-əxlaqi keyfiyyətlər durur. Mən hakimiyyətə çalışanı, gələni belə zümrəyə daxil etməzdim; kimsə xalqı idarə etməlidir ya yox? Amma o şəxs olsun ki, qanunların aliliyini gözləsin. Spinozanındır gərək ki, bu fikir: "Qanunlarla hər şeyi yoluna qoymaq istəyən çox güman ki, qanunların dəyişdirilməsini arzulayacaqdır". Yoxsa ki...

-Başa düşürəm, müəllim, söhbət ədalətdən gedirsə, hakimiyyətdəkinin cismində ədalətlilik cinayət olmalıdır. Küçəyə çıxanda körpə uşağın titrək addımından bilməlisən, hansı şəhərdəsən və bu adam bolluğunda kim necə düşünür. Sokrat deyirdi ki, qanunsuz şəhəri kim xoşlayar? Hakimiyyəti zəhmlilər, tiranlar, zorkilar deyil, ağıllılar idarə etməlidir. - Bu hakimiyyətsevərin qəlbində mərhəmət hissi yoxsa, işığı boğub yerinə zülmət qaranlığı çalayırsa... Markesin ürəyinin səsini eşitsin: İlahi, mənim imkanım olsaydı, bütün nifrətimi boğar, Günəşin nə vaxt üfüqdən boylanacağını gözləyərdim. - Halaldı bu sözlər yazıçıya.

-Allahverdi, Markesin bu sözü də var, axı: Əgər qadir Allah mənə bir qədər də həyat versəydi, çox adi geyinərdim, Günəş ilk şəfəqlərini aləmə saçanda mən yuxudan qalxar, təkcə başımı deyil, ruhumu da Günəşin şüaları qarşısında çılpaqlaşdırardım.

-Fikrət müəllim, bir nüans da yox deyil: hakimiyyət hərislərini daha çox sərvət hərisliyi, nəvə-nəticələrinə miras qoymaq hissi

maraqlandırır. Onlar nədənsə nəfslərinin öhtəsindən gəlməyi bacarmırlar. Tusidə bu anlam bir əxlaqi konsepsiyadır. - Nəfsə əsir olan cəfa görər, nəfsi əsir edən səfa görəcək, - yerində söyləmişdir. Xüsusilə, hakim dairədə yüksək yer tutmanın nəfsi onu aldadırsa o, müdriklik taxtından özü hiss eləməkdən düşür. Birincilər müdrikliyə anadangəlmə yiyələnməyə borcludular. Bu anlam yalnız elmində yox, əxlaqında - davranışındadı, vücudundadı; ağılla və həyat bir-birini tamamlamalıdı və həqiqətdə birləşməlidi. Sokrat filosof barədə deyəndə bu məsələyə münasibəti belə idi: Onun həyatının mənası ağılla həqiqətdən ibarətdir.

-Müdrik ki deyirsiz, səni anlayıram; amma bu anlayışa quru, çəkisiz hal kimi yanaşmazdım. Olur biri müdrik danışır, özünü aparmağı da müdrik təsiri bağışlayır. Ancaq ki hərəkəti çirkabdır, xeyirxahlığı sözündədir, nəfsi isə alidir. Mən bu mövcudu qəbul etmirəm. Sokrat da bu mövqedədir ki, müdrik olan yalnız tanrıdır; ilahi müdrikliyə məhəbbət gözündə anlanılmalıdır.

-Belə görürəm, müdrik insana özünüzə məxsus yanaşmanız var. - Fikrət müəllim bu anlarında dənizə tamaşanı üstün tutmuşdu. Bu bir dəqiqə də sürmədi, üzünü mənə tərəf çevirdi və susdu:

- Müdrik, Allaha məxsusdur, belə başa düşdüm, deməli, Allahı Təbiətdən ayrı götürməməliyik. Onda belə çıxır ki, Allah ya substansiyadır, ya təbiət. Həqiqət elə Allahın özündədir və belədir ki, Kainat idarə olunur onun tərəfindən. Çünki Allah öz yaratdıqlarının mövcudluğunun səbəbkarıdır.

-Belə halda təbiətdə təsadüfi heç nə yoxdur, adi daş da öz xidmətini görür, ya sükutu ilə, ya da əks təsirlə. - Fikrət müəllim dilləndi.

Daş! Yadıma gözəl şairimiz Əliağa Kürçaylının şerindən misralar düşdü:

*... Daş var - bu torpaqda sərhədə dönüb,*
*Baisi olubdur qəm-kədərin də.*
*Daşlar Qobustanda şöhrətə dönüb,*
*Daşlar yetim qalıb Xudafərində.*

*Daş insan oğlunun evi, otağı,*
*Öləndə buz rəngli məzarı olub.*
*Daşlar dəyirmanda elin dayağı,*
*Heykəldə bir xalqın vüqarı olub.*

*Daşlar bünövrədə olaydı möhkəm,*
*Pıtılı, kövrəyi kaş olmayaydı.*
*İnsan sinəsində ancaq deyirəm:*
*Ürəyin yerində daş olmayaydı.*

Şer pıçıltıdan səslənmişdi, müəllif artıq dünyamızdan əbədi köçmüşdü. Bir ciyərparası Ülkər qızıyla.

Fikrət müəllim çox sevdiyi Xəzərin havasını udurdu. qağayılara baxırdı. Bu qağayılar şairdən uzunömürlü çıxmışdılar.

- Kürçaylının qızı Ülkər atasının ölümünə dözməmişdi, özünü bax bu tərəfdə atmışdı dənizə. - Pıçıldadım.

-Xatırladım, hər qızcığaz bunu bacarmaz, - Fikrət müəllim dedi. - Bir dövrün cavanları olmuşuq. Müharibədən sonra görüşlərini yadıma salıram. Uzun boylu, qırmızıyanaq sağlam, qaltanlı səsli şairdi. Qədr itirməz adamdı, Səməd Vurğun haqqında geniş xatirələrini həvəslə oxumuşam, lap çoxdan. Hə, gözəl şerdir, gözəl şairdir.

Fikrət Seyidovun varlığında xeyirxahlıqla ədalətlilik, yazdığı ilə düşündüyünün vəhdəti, bir-birini tamamlama ruhu vardır. O, dünya malına heç vədə göz dikməmişdir, vəzifə-çinə əyilməmişdir, idrakıyla əməlinin bəhrəsini görmüşdür. Bu yaxınlarda dahi alman şairi Henrix Heyneni (1797-1856) oxuyurdum, bir fikrinə rast gəldim. "Dünyanın mükəmməlliyi hər zaman onu seyr edənin kamalına uyğundur. Xeyirxah adam yerdə özünə cənnət tapır, şər adamsa artıq öz cəhənnəmini yaşayır". Fikrət Seyidovda bu cizgilərin dərinliyi və əyaniliyi yaşayır. Seyidovlar ailəsi bütün imkanlarına baxmayaraq, həyatda cənnətlərini yaratmaq barədə düşünməmişlər. Ata Seyidovdan bu mənəvi - əxlaqi maraq oğul Seyidova da sirayət etmişdir. Gözü dünya malında qalmamışdır,

ailəsini şərəfiylə dolandırmışdır. Onun yeganə həzz mənbəyi evdə ailə ocağı, bayırda sevdiyi müəllimlik peşəsi olmuşdur. Saatlarla dərs demiş, dost-tamşlarıyla söhbət etmiş, evdə yazı stolu arxasında cihad (yaradıcılıq da elə bunun kimi bir şeydir) olmuşdur. Belə ponetsial möcüzə hardan gəlir? Monoqrafiyalarım oxuyanda, hər birinin həcmi 300-350 səhifəyə çatanda mat qalmamaq qeyri-mümkündür. Yaşını xatırlayanda iki qat möcüzəylə üzləşirsən. Yetmiş yaşlarında elmi əsərləri bir-birin ardınca oxucuların ixtiyarına vermək ehtirası. Mənim üçün bu yaradıcılıq sirri bəllidir: Güclü sevmək hissi. İşdən eşqlə yapışma. Və Ailə sədaqəti. Birinci keyfiyyət zamanın vəfasızlığında asanlıqla təslim olur bir çox alimlərdə (şerlə bunu qarışdırmayaq). Hisslər də qocalır, heydən düşür, halsızlaşır. Fikrət müəllimdə bu hiss yerli-dibli olmamışdır. Markesdən misal gətirəcəyəm: "Mən insanlara sübut edərdim ki, qocalmağa başlayanda sevməyi bacarmadıqlarını güman edənlər daha çox yanılırlar; əksinə, onlar məhz sevmədiklərinə görə qocalırlar". Əliağa Kürçaylıya üz tutacam:

*Mənə nəvazişlə dedin bu axşam,*
*Bir cavanlaşıb, yaxşılaşmışam.*
*Yanağım allanıb, çöhrəm təzə-tər,*
*Görən yeniyetmə cavanam deyər.*
*Dən düşüb saçlarım qaralıb sanki.*

*Sevgilis, əzizim, mənə inan ki,*
*Mən elə həminəm - ömrü tən yarı,*
*İndicə saydığın bu nişanları*
*Hünəri, həvəsi, şir qüvvətini,*
*Cavanlıq odunu, hərarətini*
*Mənə sən qaytardın, mehribanım, sən,*
*Gəncliyim qayıdır səni sevəndən.*

Bəli o, bu gün də içərisində sevgisini yaşadır, ona görə ki, həyat yoldaşı Xalidə xanım onu qoruyur, ona lazımi şəraiti yaradır, izahdan söz-söhbətə əl yeri saxlamır. İki qızı da atanı qo-

caltmır. Belə olanda yaradıcılıq xüsusi enerjiyə qoşulur, bir ehtirasa çevrilir. Ruh cavanlaşır. İdrak bu zaman aparıcı deyil, törədici faktdır. Saysız-hesabsız faktlar, lap müəllif qeydləri ruhsuz sıfıra bərabərdir. Yaradıcılıqda idrak ev sahibi yerində çıxış edir, gələni qarşılayır, yer göstərir. Amma bu, hələ qonaqla ünsiyyətə qoşulmağa, həmsöhbətə çevrilməyə əsas vermir. Onun qarşısına çay da qoymaq mümkündü. Bu "gəlişdə" körpü "ruhi ittifaq"dır. Sokrata görə: insan idrakının "hüdudu ilahi idrakın nisbətində məhduddur... İnsanda ölən bədənlə yanaşı ruh olmasaydı, biliyə və zəkaya malik olmazdı". Bax, yaradıcı ruh diridir, oyaqdır, o vaxt ki, İdrak onu səsləyir, çağırır. Hər gün dialoqa girdiyimiz alimlər, yaxud ağıllı adamlar - bu sırada bəziləri müdrik danışmağa üstünlük verirlər, hətta iclası da müdrik kəlamlar yağışında çimizdirirlər. Yazmağa gələndə yazıqlaşırlar: ya bacarmırlar, ya da tənbəldilər, üçüncülərsə zorlayır qələmi. Hüquqda möhkəm maddədir: İnsanı zorlamaq cinayətdir; heyif ki, yaradıcılıqda bu kriteriya nəzərə alınmamışdır. Onlara ölməz və əsəbi F.Niteşenin kəsərini xatırla-



*Fikrət müəllim erməni işğalçılarının Qarabağa hücum edərkən Muğanlı kəndində apardığı təbliğat zamanı*

dardım: "Fikir göz qabağındakı səfehlikdir". Əlbəttə, sərt deyilmişsə, amma ki ruhla qonşuluğundan imtina eləsə... idrakı təqaüdə yola salmaq təntənəsindən savayı bir şey qalmayacaq.

Fikrət Seyidovda böyük hərflə pedaqoqluq ona görə alınır ki, onun şəxsiyyətiylə idarıkı bir-birini tamamlayır; şərtləndirir. Bu amillərin sırasına vətəndaşlıq hissini də əlavə edərdim. Türk xalqlarının tarixi təcrübəsindən irəli gələn tərbiyəvi - əxlaqi dəyərləri bəlkə də genetik - varisliyilə Dədə Qorqud dünyasına çıxdı. Amma bu yaradıcılıq psixologiyasının başqa bir nüansı ortaya çıxır: Müəllif - alimə bəlli olurmu ki, yazacağı mövzunun taleyi ona nəyi qələmə aldıracaqdır? Alim - pedaqoq söhbətlərində hələ heç nəylə (mövzu baxımından) maraqlanmadığını deyirdi. Hərçənd, azca şübhəm vardı ki, o, susa və qələminə "Taym aut" götürməyəcəkdir; gələn yaradıcılıq energisi itməyəcəkdir. Amma mənə o da məlumdur ki, naməlum mövzunun özü bir planetdir, sirli aləmdir. Hərçənd, onun konturları bəllənir, kərpiclərin hansı divarlara hörüləcəyi əvvəlcədən planlaşdırılır. Heyif ki, belə cizgiləri bizim pedaqoqlarımız oxucuları üçün aydınlaşdırmaq istəmirlər. Bəlkə də mən tələsirəm, vaxtı yetişməmişdir. Günlərin birində "sirrini" açdı:

- "Kitabi Dədə Qorqud" dastanından üzü bu yana pedaqoji irsimizin Güney Azərbaycan qatlarını araşdırmaq ideyasını almışam. - Özünə inamla dedi. - Şəhriyar poeziyasını bir daha oxudum...

Yazılışı sürətlə gedirdi, müəyyən hissələri hazır olanda fikir mübadiləsi də aparırdı. Nəhayət, əsər tamamlanır. Bu dəfə (IV kitab) də uğurlu alınmışdı: Naməlum səmtin xəzinəsi açılmışdı.

Və mən yazacaqdım: "Hələ Pedaqoji İnstitutda oxuyurdum. Cənubi Azərbaycandan, onun tarixindən və ədəbiyyatından söz düşəndə bir giley, təəssüf hissi oxunurdu. O müəllimlərin dilindən ki: məşhur tarixçilər, ədəbiyyatşünaslar və pedaqoqlardı. Bəlkə də biz tələbələrə elə gəlirdi ki, bu alimlər ya ideologiyadan çəkinirlər, ya da məktəblərdən xəbərsizdilər, əlbəttə, lazımi material yoxdur. Axı, müqtədir mütəxəssizlərdən Cəfər İbrahimov, Sədi Əfəndiyev, Feyzulla Qasımzadə, Əhməd Seyidov məlumatsızdı-

lar?... " Əslində hər iki səbəb həqiqətə uyğundur. Sovet rejimi və bu ideologiyadan irəli gələn arxivlərin yasaqlığı, əlaqəsizliyi.

Professor F.Seyidovda tarixi irsimizə doğmalıq, daxili istək amili aparıcıdır, bu haqda yazanda özünün görkəmli müəllimlərini gözünün qabağına gətirir. Bu monoqrafiyanın epiqrafında yazmışdır: "Unudulmaz müəllimim Qulam Kərim oğlu Məmmədovun və əvəzsiz xidmət göstərmiş bütün Azərbaycan müəllimlərinin əziz xatirəsinə ithaf edirəm." Həqiqətən o, keçmişimizə ləyaqətlə münasibəti bəslədi. Bir qədər əvvələ getsək, "Dədə Qorqud", N.Tusi tədqiqat obyekti olmuşdur. Lakin F.Seyidov məsələlərə öz yanaşma üslubunda qiymət vermişdir. Əsas məsələ Güneyli görkəmli ziyalılarımızın, yaradıcı soydaşlarımızın irsinə orijinal yanaşmadır: Hacı Mirzə Həsən Rüşdiyyənin və Mir Mehdi Etimadin (Natiqinın) irsini əhatəliyilə tədqiq edərkən, milli kontekstdən yaradıcılıqlarına yanaşır. Məsələn: Mirzə Həsən məktəb məsələsində İrəvan təcrübəsinə üstünlük verir və bunun üçün o, İrəvana gəlir. Əgər bu fakt XIX əsrə təsadüf edirsə, ermənilərin haray-qışqırıqlarına bir cavabdır ki, əzəli torpaqlarımızdır və ona istinadən bir fikri müəllif xatırladır ki: təlimin yeni metodlarını, qanunu və məktəb açmaq qaydalarını öyrənmək məqsədi ilə İrandan mühacirət edir. Topladığı nəticələri Cənubi Azərbaycana aparır ki, məktəb açsın. Və "Həblül Mətin" qəzetində (1903.14.09) bir məqalə çap etdirir. Bu qəzetin izinə düşür Fikrət Seyidov və aşağıdakı fikri oxucularına çatdırır: "Möhkəm qanunları öyrəndikdən sonra təcrübə aparmaq məqsədilə İrəvanda məktəb açdım".

F.Seyidov bu gün ibrət kəsb etməyə layiq bir faktı göstərir; mənə elə gəlir bunu çağdaş milyonçuların nəzərinə barı, kino lenti kimi gətirmək pis olmazdı: Ruşdiyyə böyük çətinlik içərisində yaşamışdır. 1895-ci ildə İstanbulda çıxan "Əxtər" qəzeti yazmışdı ki, yazıq Rüşdiyyə məktəb açmaq üçün atasının mülkünü satmışdır. Hal-hazırda onun nəfəsindən başqa heç nəyi yoxdur.

Hacı Həsən də "Vətən dili" dərsliyini yazdı. F.Seyidov maraqlı paralellər aparır: Y.Kommenski - K.Uşinski. Uşinski - Çernya-

yevski - bir-birindən təsirlənən Əlifba tipli kitabların yazılmasında Ruşdiyyə də istisnalıq yaratmadı. Müəllif dərsliyi təhlil edir, məziyyətlərini vurğulayır. "Vətən dili"ndən tərbiyəvi əhəmiyyətli mətnləri seçmişdir. "Bir aslan və iki öküz", "Bağa ilə dovşan", "Maral", "İnsan və aslan", "Şir və aslan" və s. hekayətlərindən seçmələr vermişdir ki, bizim ibtidai məktəb şagirdləri üçün "Əlifba", "Oxu" dərsliklərini yazan pedaqoqlarımız daima ondan şikayətlənirlər: Yaxşı mətnlər yazılmır, klassiklərdə bir o qədər çox deyil, ondan-buna, bundan-ona daxil edirik. Bəli, müasirlərimiz yazmırlar yox, sadəcə yazmağı bacarmırlar! Elə isə Rüşdiyyənin, azərbaycanlı şairimizin təkrarsız əsərlərini unutmazlar, sağ olsun Fikrət Seyidova - tapıb üzə çıxardı. Məsələn, yaxşı yadımdadır. Biz aşağı siniflərdə oxuyanda hansısa dərsliyimizdə "Aslan və iki öküz" mətni şəkillə verilmişdi. İbrətliydi. Sonralar buna da əl gəzdirildi.

H.M.Rüştiyənin pedaqoji irsi geniş tədqiqat mövzusu ola bilər və yəqin ki, professorun bu niyyətinə cavab verən tapılar.

Fikrət Seyidov Mir Mehdi Etimadın da irsinə eyni həvəslə yanaşmışdır. XX əsrdə fəaliyyətə başlayan bu şəxsin də maraqlı yolları olmuşdur. Xüsusilə, uşaqların vətənpərvərlik ruhunda tərbiyəsinə diqqət yetirmişdir. "Azərbaycan" şerini yaşmışdır. Və bir parçanı təqdim etmişdir. Maraqlılığını nəzərə alıb misraları diqqətə yönəldirik:

*Ey, dağ-daşı gül, bağçası gül,*
*torpağı mərcan.*
*Ey, ay kimi ulduzlar üzü*
*tavan.*
*Ey xalqımızın şövkəti,*
*sənsən bizə zinyət,*
*Sənsən verən ovladına*
*dünya boyu nemət.*

Məncə,oxucularımızın tanımadığı bu pedaqoq və şairin irsini ilk dəfə araşdıran F.Seyidov çox xeyirxah işə rəvac vermişdir.

Bir gün "Təfəkkür" Universitetindən çıxdıq, adəti üzrə Dəniz-kənarına yollandıq. Fikrət müəllimin "Jiqulisi" mini kitabxananı andırır: "Bardoçok"dan tutmuş arxa pəncərə də daxil olmaqla təzə kitablar, əlyazma qovluqlar yetərincədir. - Allahverdi, - dedi. - Bu əlyazmanı vərəqləyərsən. Maraqlandığın mövzudandır. Və elə həmən axşam əlyazmanın bir hissəsini oxudum. Düzü, ilk dəfəydi türklərin, ümumiyyətlə, İslam dünyasının açılmamış sirli dəyərlərini əyani görürdüm, təsəvvür edirdim. Müəllif ilk növbədə İslamdan qabaq türklərdə tərbiyə və islamın meydana gəlməsindən sonra tərbiyə və təhsil haqqında araşdırmaları ilə oxucuları tanış edir. Bu tədqiqatın birinci stadiyasıdır. F.Seyidov ilk mühakiməsində haqlı olaraq qədim türk tayfalarında Bütlərin mövcudluğu (İslamdan əvvəl və sonra) məsələsinə aydınlıq gətirir: "Qədim türk tayfaları... heç zaman Bütlərə inanmamışdır. Onlar Büt yaratmamış və yaratdıqlarını da heç vaxt ilahiləşdirməmişlər. Halbuki Şumerlər, misirlilər, yunanlar, romalılar, iranlılar və sairələri ən böyük heykəl və abidələri Bütlərə həsr etmişlər. Türklər isə nə canlı, nə də cansızlara sitayiş etmədikləri üçün məbədləri də olmayıb. Türklərin əsas inandıqları şey Göy və Yer olmuşdur. Ona görə də onların uşaqları dünyəvi adamlar kimi tərbiyə edilmiş və islamiyyəti heç bir zor olmadan qəbul etmişlər".[1] Və bəzi tədqiqatçıların səhvlərini göstərir. İsrarla türklərin at, qartal, qurd kimi canlı varlıqlara daha əyani inandıqlarını, bunların fiziki keyfiyyətlərinə sözlərini oxşarlıqlarını və qəbul etdiklərini mənbələr əsasında əsaslandırır. Bir detal gətirir: "Orxon" abidələrinin birində qurdla əlaqədar belə bir yazı var: "Tanrı güc verdiyi üçün atam Xaqanın əsgərləri qurd kimi, düşmənin əsgərləri qoyun kimi imiş". Belə haldır ki, bu heyvanlar öz stixi davranışlarına görə rəmziləşdirilmişdir.

F.Seyidov belə bir kontekstdən irəli gələrək uşaqların tərbiyəsi məsələsinə toxunmuşdur: 1) Təbii qüvvələrinə inam; 2) Ata kultu; 3) Göy Tanrı (Göy Allahı). Bu üç faktor ümumiyyətlə, insanın

1. Seyidov F.Ə. Türk xalqlarının tərbiyə və məktəb tarixinə dair. B., 1997, səh. 17.

formalaşdırılmasında əbədi rol oynamışdır. Fikir versək: Təbiət və Kainat (kosmos) ikiliyinin mərkəzində Ata imici dayanır. Deməli, əxlaq anlamının aşılanması Ata ilə bağlıdır: Bu şəxs genetik üstünlüyü də, müəyyən bilik və vərdişləri də üzərinə götürən Kultdur. Bir qeydə nəzər yetirək: "Əgər evin böyük oğulları ata evini tərk edərsə, evin ocağını qalamalı idi. Ailə ocağı müqəddəs olduğundan türklər bir adama qarğış etdikdə "Görüm evinin çırağı sönsün deyərlərmiş. Və bu gün də o yanğıyla qarğışlayırıq!

F.Seyidov əxlaqın təsnifində münasibi Ziya Göyalpın bölgüsünü götürür: 1. Vətən əxlaqı. 2. Ailə əxlaqı. 3. Məslək əxlaqı. 4. Cinsi əxlaq. 5. Mədəni və beynəlmiləl əxlaq.

İslamın yaranması şübhəsiz, Məhəmməd Peyğəmbərin ismiylə əlaqədar olub, Ərəbistanda və Şərqdə güclü təsir oyatmış, Quranın nüfuzunu faktlarla əsaslandırmışdır. Bu, tədqiqatın ikinci stadiyasıdır. F.Seyidova görə: İslam diniylə Şərq dünyasında intibahın bünövrəsinin qoyulması başlanmışdır. İslamdan əvvəlcə ərəblərin həyat - məişət tərzinin, adət-ənənələrinin bəsitliyinə toxunur: "İslamiyyətdən əvvəl ərəblərin qızları diri-diri basdırmaq, ögey anaları ilə evlənmək kimi bir sıra vəhşi adətləri var idi. Belə aşağı həyat tərzi keçirən ərəblər içərisində səyyarə ulduzunu və başqa cisimlərini kəşf edən əqilli, kamil alim adamlar da olmuşdur". Hər halda müəllif qara rəngdə ağ çaları qiymətləndirmişdir.[1]

Məhəmməd Peyğəmbərin həyatına dair məlumatlar, xüsusilə, islam tərbiyəsinin banisi simasında səciyyələndirmişdir. İslamdan əvəl mövcud bütpərəstlik hər hansı insanın məişətində və əxlaqında müsbət addım ata bilmədi: "... insanlar bir çox allahların olduğuna inam bəsləyərək daşa, taxtaya, ağaca və s. kimi müxtəlif əşyalara sitayiş edirdilər. İnsanların əxlaqında böyük pozğunluq və hərc-mərclik hökm sürürdü. Bütpərəstlik ilk qız övladlarını diri-diri torpağa basdıraraq, qadını ən alçaq məxluq hesab etmək, ona şəhvət gözü ilə baxmaq kimi pis adətlərilə fərqlənirdilər", -

1. Məhəmməd Peyğəmbərin həyatı. B., 1990, səh. 10, 22.




*Fikrət müəllim məktəblə əlaqə komissiyası xəttilə keçirdiyi konfrans zamanı (1975-ci il, Kürdəmir rayonu)*

yazan müəllif məhz islamın bəşər tarixindəki mütərəqqi rolunu qiymətləndirmişdir.

Əsərdə Fikrət müəllim əsasən əxlaqi müdriklik məsələsinə toxunmuş, ədəbiyaşar dəyərlərini qeyd etmişdir:

-Əməllərin dəyəri onların məqsəd və nəticəsi ilə ölçülür.

-Çox yeyib içməklə ürəyini gücə salma.

-Dünya ürəkdə şirin, gözdə yaşıldır. Lakin Allah sizi, sizdən əvvəl dünyadan köçəknlərdən sonra yaranıb. Deməli, öz əməllərinizi yaxşıca gözləyin. Dünyanın bütün xəbisliklərindən uzaqlaşın.

-Ömrü uzun əməlləri yaxşı olan insan hamıdan güclüdür.

-Atanın övladına öyrətdiyi ən yaxşı şey ədəbdir.

F.Seyidov Məhəmməd Peyğəmbərin qadın tərbiyəsi barədə fikirlərinə geniş yer vermişdir. Bu da təsadüfi deyil; Şərqdə bu məxluqa münasibəti birmənalı olmamışdır. Yuxarıda xatırlatdığımız kimi, onlara intim yönümdən yanaşmışlar. Lakin Məhəmməd Peyğəmbər ilk dəfə qadına yaxşı mənada münasibəti dəyişməyə nail olmuşdur.

Belə ki, ailə tərbiyəsində qadının rolunu nizama saldı və beləliklə onun funksiyasını sosiallaşdırdı, hüquqi status bəsləməyi peyğəmbərin əxlaqi vəzifəsinə caladı. Evlənməyi, nigaha qoşulmağı ailənin əsasına qoydu. Qadını öz cehizinin tam sahibi hesab etdi. Hətta müharibədə Həzrəti Ayişə ordunu idarə etmişdi.

Müəllif Peyğəmbərin qadına mütərəqqi münasibətini Qurana əsaslanmaqla aşağıdakı şəkildə təsnifi məqsədəuyğun saymışdır:

1. Qadın haqqları məsələsində Allahdan qorxmalı, onları döyməməli,

2. Xanımlarla yaxşı davranmalı,

3. Qadınlara kişi yeməyindən yedizdirməli, geyindiyindən geyindirməli, pis söz səyləməməli, gördüyünə pis deməməli, nöqsanları üzə vurmamalı.

İslamın Şərq məmləkətində pedaqoji fikrin zənginləşməsi və formalaşmasındakı xidməti də maraq doğurur. Böyük şəxsiyyətləri doğulub əsil tərbiyə və təlim nəzəriyyəçiləri yetişdirmişdir. Bu tədqiqatın üçüncü stadiyasıdır. Tərbiyə tarixi İslamdan ölçülməz dərəcədə eralarla qabağa gedib çıxır. Hər bir tayfa, yaxud xalq bu tərbiyədən istədiyi şəkildə istifadə etmiş, hətta mənfi mənada mütləqləşdirməkdən belə çəkinməmişlər. İslam bu ciddi məsələyə tamam fərqli yanaşmağa üstünlük verdi. Əxlaqa hüquq normaların daşıyıcısı kimi qiymət verməyi məqsədəuyğun bildi; beləliklə Şərq pedaqogikasının yaranmasının və inkişafının bünövrəsi qoyuldu.

Professor F.Seyildov peşəkar pedaqoqların Qərb və Avropa pedaqoqlarla bəzi müqayisələrini aparmaqla, obyektiv mövqeyini saxlamışdır. Məsələn, İmam Qəzzalinin, İbn Qafilin, Göy Kavusun pedaqoji ideya və fikirlərini ilk dəfə araşdırmışdır. İmam Qəzzali maraqlı əsərlərin müəllifi, orijinal pedaqoq kimi təqdim olunmuşdur. Onun "Xoşbəxtlik iksiri", "Cəvahürül Quran", "Kimbə səadət" və s. əsərlərindjə maraqlı fikirlər irəlı sürülmüşdür. Onun davranış barədə dedikləri diqqətəlayiqdir. Belə ki, uşağın tərbiyəsinin ilk əlifbasını həya hissinin təbiyəsində görür: Uşağın bəzi şeylərdən həya etməsi onun ağıllı olmasına dəlalət edir. Bu cür məqamlarda o, pislə yaxşını bir-birindən ayırmağı bacarır, çirkin şeylərdən utanır.

Uşaqlara mədəni vərdişlərin aşılanmasını qeyd edən Qəzzaliyə görə: onlarda acgözlüyə, hərisliyə, nifrət hissi oyatmaq vacib şərtdir. O, sağ əliylə yeməlidir, "bisimillah" deməlidir. Tez-tez yeməməlidir, yeyəndə əlini və paltarını bulaşdırmamalıdır və ilaxır.



*Professor Fikrət Seyidov Fizuli rayonunda konfrans zamanı (1976)*

Mədəni davranışa: uşaqların özlərini məktəbdə, ictimai yerlərdə necə aparmağı düşünməlidilər; adamlar içərisində tüpürmək, burnunu bərkdən silmək, böyüklər içərisində ayağını ayağının üstünə qoymaq kimi mənfi hərəkətlərə yol verməməlidir. Pul, gümüş, qızıldan uşaqlar uzaqlaşmalıdılar.

Uşaqların dözümlü, mətin böyüməsi şərtlərdən sayılır: Müəllimlər və valideynlər dözümlü adamları nümunə gətirməli, şəriət çərçivəsində halalla haramı, xəyanətlə ikiüzlülüyü fərqləndirməlidilər. Belə keyfiyyətlər özbaşına yox, yaş xüsusiyyətləri nəzərə almaqla həyata keçirilməlidir. Əyləncəli işlərlə məşğulluq da mühüm amildir. Eləcə də gün rejiminə, fiziki tərbiyəyə, valideynin roluna diqqətli olmağı tövsiyə edir.

**İbn Qafil** geniş dünyagörüşlü pedaqoq, filosof kimi məşhurdur. Təkcə "Təbiət insanı" əsəri bu fikrə haqq qazandırır. Müəllif bu traktatın zəmanəsində geniş şöhrət qazandığını göstərmişdir. Qısa vaxtda ingilis, alman dillərinə tərcümə olunmuşdur. O, pedaqoji ideyalarında marağı xüsusi vurğulayır və bu hissin yaranmasını zəruri hesab edir: həvəssiz, maraqsız öyrənilən bir şey heç vədə uşaqların əməli fəaliyyətində gərəkli olmaz.

F.Seyidov daha maraqlı məlumat verir ki, İbn Qafilin "Təbiət insan"ını D.Defonun "Robinzon Kruzo"su ilə müqayisə edilmişdir. Hətta onu da məlumatlandırır ki, məşhur fransız pedaqoqu J.J.Russo "Emil və yaxud tərbiyə haqqında" əsərinin mövzusunu məhz "Təbiət insanı" mövzusundan almışdır. Bu, Şərq pedaqoqu üçün yüksək qiymətdir. F.Seyidov maraqlı mənbəyə əsaslanır və fransız alimi A.Çampolordan sitat gətirir. Həmən əsər "Səlahəddin islam qəhrəmanlarının möhtəşəmi"dir. - Oxuyuruq: "Ümumiyyətlə, Şərq Qərbin məhsulları (iqtisadi həyatında. - F.S.) üzərində əsaslı dəyişikliklər əmələ gətirdiyi kimi Avropa, Şərq mədəniyyətindən dərs almışdır".[1]

**Key Kavusu** Azərbaycan oxucuları yaxşı tanıyır. "Qabusnamə"si Şərqdə nüfuzlu əsər sayılar və dilimizə dəfələrlə çevrilmişdir: "Oğlum, uca tanrının bu və ya o biri dünyada gizli, yaxud aşkar yaratdığını, hər şey nüfuz sahiblərinin və ağıllı adamların dərk etdiklərini öyrən!..." - müraciətiylə başlayır. K.Kavusa görə: İnsanlar Allaha itaət və qulluq göstərməlidir. Hər kəs öz ailəsini sevməli, ona hörmət etməlidir.

K.Kavus yazırdı ki, ata-ana sənin əsl böyüdənin və tərbiyə verənindir. Sən onların haqqını ödəməkdə kahallıq göstərsən, bu ona dəlalət edər ki, sən heç bir yaxşılığa layiq deyilsən. Çünki aşkar xeyirxahlığın qədrini bilməyən adam dolayı xeyirxahlığın qədrini haradan bilər? Qədir bilməyən adama yaxşılıq etmək nadanlıqdır".[2]

İslamın mütərəqqiliyini görən ilk dövlətlər dinin ciddi qanunlarına riayət etməklə qalmamışlar, onun maarifçilik missiyasının tətbiqinə də əhəmiyyət vermişlər. Bu, tədqiqatın dördüncü stadiyasıdır. Və Qaraxanlı,[3] Səlcuq dövlətləriylə təmsil olundu. Səlcuqun tarixi bəllidir, Qaraxanlı islamın qəbulundan sonra ictimai - mədəni həyatda ciddi dönüş yaratdı. Yeni təhsil ocaqları, əxlaqa aid risalələr, traktaklar və s. qiymətli maddi abidələr yarandı. Yusif Xas Hacib, Mahmud Kaş-

---

1. Bax: Heydər - Bammaq Qərb mədəniyyətinin inkişafında müsəlmanların rolu. B., 1994.
2. Qabusnamə. B., 1989, səh. 33.
3. Orta Asiyada və Türkmənistan ərazilərini əhatə etmiş; Qaraxanlı isə Qara xan - hökmdar deməkdir.

kari, Əhməd Yuqnaki və digər pedaqoji sahədə çalışan şəxsiyyətlər də bu iki dövlətin vaxtında formalaşmışdır. Y.X.Hacibin "Kudatku - bilik" məşhur əsərini qələmə almışdır, xoşbəxtlikdən, elmdən uğurlu məlumatlardan ibarət topludur. 6645 beytlik bu kitabı F.Seyidov əhatəli təhlil etmişdir. Əsas ideyalarını xırdalamışdır. Əsərdə 4 nəfər ədalətli adamın adı çəkilir: 1. Xaqan - "Gün doğdu", 2. Bəxti, dövləti təmsil edən "Ay toldu", 3. Ağılı təmsil edən Vəzirin oğlu "Öyüdülmüş", 4. Qənaət və aqibət təmsilçisi Vəzirin qardaşı "Odqurmuşdur".

Hacibin pedaqojin ideyalarında uşaqlarda qabiliyyətin, vətənpərvərliyin, ümumiyyətlə, əxlaqi sifətlərin aşılanması əsas yer tutur. Maraqlıdır, gənc nəsildə vətənpərvərlik hissi tərbiyəsi ən klassik türk pedaqoqlarını daha çox düşündürmüşdür. F.Seyidov Hacibdən aşağıdakı fikri nümunə gətirir: "İgiddə bir neçə nişan gərək, yağıya qarşı üz tutanda, səfərə çıxanda, düşməni görüncə gərək aslan ürəkli olsun, gərək pələng biləkli olsun. Qaban kimi inadkar, qurd kimi qüvvətli, ayı kimi azğın, buğa kimi kinli, qırmızı tülkü kimi hiyləgər, erkək dəvə kimi qısqanc, sağsağan kimi ayıq, qaya quzğunu kimi sərrast gözlü, aslan kimi dönməz, amansız, bayquş kimi gecələr yatmaz olsun".[1]

Fikrət Seyidov Hacibin ideyalarını saf-çürük edərək belə bir paralellik görür: J.J.Russoya (1712-1778) məxsus: fərdi təlim ideyası, uşaqların xüsusi dayələrə tapşırılması və sair ideyaların Hacibdə verilməsidir. Özü də 9 əsrdən sonra! J.J.Russoda oxuyuruq: "Valideynlərin pis əməllərinin uşaqlarına keçməməsi üçün onlara fərdi dayələr tutub, elm tərbiyə vermək faydalıdır". Hacibisə nəzmlə həmən fikri söyləmişdir.

Mahmud Kaşkarinin tərbiyə haqqında ideyaları əsasən onun "Divani-Lüğəti-İt-Türk" əsərində irəli sürülmüşdür. O, türk dilinin gözəlliyini, siyasi dil olmasını xüsusi əsaslandırmışdır. Kaşkari türk xalqlarının böyüklüyünü, əzəmət və qüdrətini və s. göstərməklə bərabər, türklərin məskunlaşdığı Ərazinin xəritəsini yaratmışdır. Böyük türkşünas gənclərin elmə, ədalətə, zövqə, həzin duyğulara

1. Bax: Yusif Balasaqunlu "Kudatku-Bilik". B., 1994.



*Fikrət müəllim iş yoldaşları ilə (soldan F.Seyidov, F.Əhmədov, B.İsmayılov, S.Həsənov, İ.Məmmədov)*

aşinalığını qeyd edir; bunun üçün atalar sözlərini, hikmətli ifadələri, xalq şer nümunələri misal gətirir və yazır: "Ey oğul. Oxu ki, özündə olan səfaləti yox edəsən. Qoyut unu olan bir kimsə onu bəhməzə qatar. Ağıllı olan kəs nəsihəti qəbul edər".[1] Eyni zamanda gənclərin ləyaqətli, hörmətcil ruhda böyüməsini irəli sürür:

*Paltar gözəldirsə, özünçün götür,*
*Aşın ləzzətlisin qonağa ötür.*
*Hörmət göstərdiyin hər bir müsafir,*
*Sənin şöhrətini yayan səfirdir.*

Professor Fikrət Seyidov əsərində eyni zamanda Qəznəli və Səlcuq türklərində tərbiyə məsələlərini də araşdırmışdır. Qəznəlidə İbn Sinanın (980-1037) və Biruninin (973-1048) dünyagörüşlərindən geniş danışır.

Bir məsələyə də F.Seyidov aydınlıq gətirmişdir. Pedaqogika tarixində sinif-dərs sistemi Y.A.Komenskinin (1592-1670) adı ilə

---

1. Bax: Divvani-Lüğəti-İt-Türk. Ankara.

bağlanmışdır bu gün də: "Halbuki 500 il Kommenskidən əvvəl "Nizamimülk" Universitetində sinif-dərs sistemi tətbiq edilmişdir".[1]

Bu fakt son dərəcə önəmlidir, Şərqin təkrarsız elm və mədəniyyətə malikliyinə işarədir. Həqiqətdir ki, məhz ilk İslam özəl məktəbləri, rəsmi təlim müəssisələri, Ülamə evləri və mədrəsələr, bunlarda təlim-tərbiyənin qoyuluşunun araşdırılması müəllifin diqqət mərkəzindən yayılmamışdır. Bu, tədqiqatın beşinci stadiyasıdır. Biz nədənsə misilsiz dəyərlərimizi qabarıq verməkdə, təbliğ və təşviq etməkdə ya laqeydləşirik, ya da gecikir. Artıq danılmaz faktdır və hələ də ətalətimizdən uzaşlaşmamışıq. Türk dünyasıda bu cəhətdən istisna olunmur.

Professor Fikrət Seyidov haqqında danışdığımız kitabında bizi ayıqlığa, inadkalığa çağırır. Bir üstünlüyü də ondadır Avropanın və Qərbin ən məşhur alimlərinin özlərinin dedikləri fikirləri - qiymətləri oxucularıa çatdırır: Qustav Le Bon, S.Risler kimi nüfuzlara istinad edir. S.Rislerdən verdiyi mənbə məncə kifayət edər: "Beş əsr boyunca İslam elmləri, yüksək mədəniyyəti və elm xəzinələrinin varisi olan müsəlmanlar bu xəzinələri İslam fikirlərilə zənginləşdirdikdən sonra Qərbə - Avropaya verdilər. Beləliklə, orta əsrdə İslamiyyət Avropanın mədəni həyatını genişləndirib, insanların fikir və mənəviyyatında dərin iz buraxdı".

Bu gün pedaqogika nəzəriyyəsilə məşğul olanlar təbii ki, Qərbi, Avropanı nəzərdə tuturam, təlim prosesinin məzmunundan (mahiyyətindən) saysız əsərlər yazır, əsaslandırmalar aparır və bunları dövlət səviyyəsində rəsmiləşdirirlər. Təəssüf ki, hətta bizimkilər bu barədə addım atarlarsa əsl mənbəni göstərməkdə çətinlik çəkirlər. F.Seyidov əsərində mənbələrə əsaslanmaqla həmən "Şərqdən - Türk dünyasından mənimsəmələri ayrıca qeyd etmişdir: Özəl məktəblər, rəsmi təlim müəssisələri, alim evləri və sairə. Mən "özəl sektorlar" (bu cür işlədilir çox vaxt) bizim "hətta Təhsil Qanununda (1992) da təsbit olunmuşdur. Lakin bu on ildən artıq müddətdə özəl məktəbləri

1. Seyidov F.Ə. Türk xalqlarının tərbiyə və məktəb tarixinə dair. B., 1997, səh. 81.



*Fikrət müəllimin əlyazması*

nəinki inkişaf etmişdir, hətta klassik kökündən ayrı düşmüşdür... Rəsmi təlimə gəldikdə, müəllif böyük türk tarixçisi Faruk Bayraqdara istinadən təlim ocaqlarının tiplərini də göstərir: evlərdə, məsciddə, süffələrdə. "Süffə" üçüncü özəl təlim ocağı daha təkmilləşmiş variantdır. F.Bayraqdara görə, islam dünyasında rəsmi təlim müəssisələri aşağıdakı kimi tipikləşdirilmişdir: 1. Məscid-Cami; 2. Küttab (kitab); 3. Ülamə evləri; 4. Mədrəsələr.

Tədris planına nəzər yetirən F.Seyidovun tədqiqatından aydın olur ki, müasirliklə müqayisədə elə ciddi fərqlər görünmür...

Müəllimin özü və vəzifələri, tələbə və şagirdlərə verilən tələblər, mütaliyəyə münasibət də müəllifin diqqətindən yayınmamışdır. Bu da maraqlıdır ki, müəllimlik yalnız dövlət strukturuna o zaman daxil oldu - bu, Nizamiyyə mədrəsələrinin açılmasından sonra maraq obyekti oldu. Eyni yanaşmada biz bu gün "İslahat" adıyla çox iş görməyi arzulayanlar, bu işin öhdəsindən gəlməyi bacaranlar yox deyil.

Azərbaycan türklərində tərbiyə və məktəb tərqiqatın kontekstində götürülmüşdür. V əsrdən başlayaraq XIX əsrə qədər böyük bir yolun ponoramı yalnız fərəh doğurur. Ölkəmizin Güneyli-Qüzeyli sərhədlərində təhsildən öncə tərbiyə daha önəmliydi. Çünki xalqa əvvəla onun ləyaqəti - tərbiyəsi gərəkdir, bu fitri qabiliyyət yerindədirsə - təlim (təhsil) problem yaratmaz! Əgər



*Fikrət müəllim kafedra iclası aparаrkən*

bu yola diqqətli olsaq, Nəsrəddin Tusidən başlayaraq bu günümüzə qədər yaşadığımız yolun şərəfini yaşamağa haqqımız çatar. Bu, tədqiqatın altıncı stadiyasıdır.

Nizami və Xaqani, Tusi konsepsiyası, XIII-XVI əsrlərdə məktəbimizi arxasınca aparan pedaqoji ideyalar, nəhayətdə maarifçilik hərəkatının özü və nümayəndələri.

Mən bu istiqamətdə ətraflı danışmaq istəmirəm, baxmayaraq professor F.Seyidov daha genişliyilə bəhs etmiş, özünə qədərki yazılanlara müasirlik çalarlarıyla yanaşmışdır. Heç şübhəsiz türk dilli yeni Azərbaycan ədəbiyyatının müşayəti də kənardan boylanmamışdır. Ümumiyyətlə, müəllif xalq ədəbiyyatımızı dərindən bilən pedaqoqdur və onun sağ əli bu bulaqdan su içməyən pedaqoq həmkarlarının başına! Biz tədqiqatda F.Seyidovun Nasir - Bakuninin, Qazi Burhanəndinin, Əssar Təbrizinin, Sarı Aşığın, Ərdəbilinin irsinə toxunur.

XV əsrdə məktəb və mədrəsələrdə təhsildən danışan alim-pedaqoq XV-XVI əsrlərin bir qaranlıq (şəxsən mənimçin) səhifəsindən laqeyd ötüşmür: "Bir sıra işğalçı istilalar zamanı Azərbaycanın elm və mədəniyyət xadimləri məcburiyyət qarşısında müx-

təlif ölkələrə müharicət etdi və orada fəaliyyət göstərməyə məcbur oldular. 1514-cü ildə Osmanlı Soltan I Səlim Çaldıran vuruşmasında qələbə çaldıqdan sonra geri çəkilərkən Azərbaycandan xüsusilə Təbrizdən Türkiyəyə 1700 sənətkar apardı".[1]

Bu fakt bəlkə də quru, soyuq səslənir, lakin mənim üçün kədərləndirici tarixdir. Və bu "tarixin" üzü ona görə qaradır ki, təkrarlanır. Müstəqilliyimiz özüylə hələlik fərqinə farmadığı "beyin axınını" reallaşdırdı. Çaldıran məğlubiyyətində bir Şahzadənin Centlement təkəbbürü əsas rol oynadısa, bu məğlubiyyətin acısı Şah İsmayıl şəxsiyyətini başı aşağı etsə də, onun gələcək qələbələrinə "veto" qoysa da... bir ibrət nümunəsi oldu. Budur, bizim çıxardığımıx İbrət (böyük hərflə) qarşısını almağa belə fikirləşmirik. Ata-ana min əzabla övladına təhsil verir, üstünə ac-yalavac qayıdır və bir titrək öpüşlə anasından üzr istəyib məmləkətinin sərhəddini keçib gedir.

Və bu Sərhəddən o alimimizin, mütəxəssisimizin çəkisində "dollar" qayıdır. Faciyəyə bax, a!... Azərbaycanın taleyində görünür, süfrələrə pay olmaq Taleyindədir. Nə qədər bu günahsız Məmləkət siyasi əllərin üstündə gedərmiş. XIX əsrdən etibarən Azərbaycanın Rusiya tərəfindən istilası əslində klassik əxlaqımızı və təhsilimizi qılıncladı və öz mənfur ideologiyasına hamilə qaldı. Bu məsələlər müəllifin diqqətindən kənarda qalmamışdır. Hərçənd, milli təkamül, maarifçilərimizin ciddi-cəhdlə mübarizəsi unudulmamalıdır. Bu tədqiqatın yeddinci stadiyasıdır.

Professor Fikrət Seyidov "Gülüstan" və "Türkmənçay" (1813-1828) müqavilələrinin oynadığı rolu xüsusi vurğulayır, məsələlərini təhlil edir. Ədalət naminə, yeni oyanışa cavab olaraq yeni tipli məktəblərin meydana gəlməsi, dərsliklərin yaranması, uşaq ədəbiyyatının inkiaşfı yeni nəsl maarif xadimlərimizin xidmətində araşdırılmışdar. Oxucular tarixləşən simaların qiymətini verir, fəaliyyətlərinin miqyasına baş əyir. Biz də professorun zəhməti qarşısında təzim edirik...

1. Bax: Onullahi S.M. XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi. Bakı, 1982.

## IV FƏSİL

# TARİXİMİZ: İŞIĞA ÇIXAN SƏHİFƏLƏR

### § 1. Dədə Qorqud - Şəhriyara qədər

*Mən Qazanın nemətini çox yemişəm,*
*bilməzsəm, gözüm tutulsun!*
*Qaracıqda Qazlıq atına çox minmişəm,*
*bilməzsəm, tabutum olsun!*
*Yaxşı kaftanlarını çox yemişəm,*
*bilməzsən, kəfənim olsun!*
*Böyük, geniş otağına çox girmişəm,*
*Mən Qazana dönük çıxmaram, qəti bilin.*

Bu sözlər Beyrəyindir, hansı ki istəyirlər o, Qazan xana asi çıxsın. Amma bu cavab sadəcə bir fərqin niyyəti deyil, azəri-türkün-bir xalqın etnik streotip davranışından xəbər verir. Biz bu yanaşmada cəsarətlilik, sədaqətlilik, inadkarlıq və cılız hisslərin əsirliliyi, sərvət hərisliliyi, mənəmlik kimi bir-birinə zidd qütblər üz-üzə gəlir. Professor Fikrət Seyidovun insanlara müraciəti də təsadüfi xarakter daşımır. Tarixi qaynaqlardan üzü bəri bu eposda xalqımızın içərsində əkilmiş və biçilmiş əxlaqi məziyyətlər tədqiqini tapmaya bilməzdi. Görkəmli psixoloq, professor Əkbər Bayramovun bu mənada fikrini əsas götürərdim: "Kitabi-Dədə Qorqud" epossu üzrə oğuzların etnik streotiplərinin araşdırılması azərbaycanlıların əcdadları olan oğuzların etnik psixoloji xüsusiyyətlərini, onların mənəviyyatlarını daha ətraflı işıqlandırmağa imkan verir".

Professor F.Seyidov Dədə Qorquddan başlamaqla çox nəzəri məsələləri sərf-nəzər etmitşdir, əlbəttə tərbiyəvi nöqteyi-nəzərdən. Bunlarla müxtəlif illərdə tanış olmuşam. Sağ olsunlar ki, dastanın

"pedaqoq" hamısı yox deyilmiş. Lakin F.Seyidov çox da iri həcmli olmayan əsərində bəzi mətləblərin poetikasını proqnozlaşdırmışdır. Deyək ki, dastanda irəli sürülən ailə-daxili ölçülər, mizanlardan irəli gələn qadın simasına hüsn-rəğbət, ailə şərəfi və namusu; rəftar, davranış, etik-streotiplər, comərdlik, namusluq, sədaqət, namərdlikdən və sair kənar streotiplərdən uzaq faktları nəzərdə tuturuq.

Professor F.Seyidov dastanda ilkin kimi ailə tərbiyəsi məsələsinə toxunmuş oldu, deyək ki, valideynin müsbət nümunəsi məsələsindən diqqətsiz keçmir. Dastanda bir yer var:

*Qız anadan görməyincə öyüd eləməz,*
*Oğul atadan görməyincə süfrə çəkməz.*
*Oğul atanın yetirməsi, iki gözünün biridir,*
*Ağıllı oğul olsa, ocağının gözüdür.*

Bu qaynaqlar Fikrət Seyidovun tədqiqatından qırmızı xətlə keçir: Vətənpərvərlik, rəşadətlik, valideyn məhəbbəti və sair xüsusiyyətlər əxlaqilik baxımından xırdalanır. Məsələn, Oğuz bəyləri döyüş meydanlarında yoldaşlarını qoyub qaçanları bağışlamamışlar, hətta öldürmüşlər: "Onu altı bölük edib, altı yolun ayrıcına tullayacam ki, bir kimsə döyüşdə yoldaşını qoyub qaçmasın".[1] Bu yumşaq və sərt nəticə Qazan xana məxsusdur.

Türkün dövlət başçıları həm ağıllı, tədbirlidirlər, həm də qüvvətli, cəsarətlidirlər. Və bunu öz övladlarına da aşılayırlar. Bir dialoqa - Ata ilə oğulun söhbətinə diqqət kəsilək:

Qazan xan: - Oğlan yeməklə böyüməz. O, həm də qılınc oynatmağı, ox atmağı, qan tökməyi, yay çəkməyi bacarmalıdır. Sən isə heç ox atmağı, qan tökməyi, yay çəkməyi bilirsən? Qorxuram öləm, taxt-tacı idarə etməyi sənə verməyələr.

Aruz: Ata! Oğul hünəri atadan öyrənər, yoxsa atalar oğuldan?

Bu dialoq havada qalmır, real əksini tapır.

Fikrət Seyidov qadınların məişətdə - tərbiyədə və kənarda - döyüşdə rolunu da xüsusi göstərmişdir. Belə ki, 4 qadın obrazı - tipi var.

---

1. Kitabi Dədə Qorqud. B., 1992, səh. 74.

*1. Solduran soydur (nəsli zay edən).*
*2. Doyduran toydur (qapılara gəzən, qeybətçil).*
*3. Evin dayağıdır (evin, ailənin dayağı).*
*4. Necə söylərsən bayağıdır (ərinə məhəl qoymayan).*

Əsərdə müəllif ailə tərbiyəsi məsələsinə diqqətlə yanaşmış və yazmışdır: "Kitabi Dədə Qorqud"da ailə tərbiyəsinə böyük yer verilir. Türk dastanlarında ailə üzvlərinin hər birinin öz mövqeyi və həmən mvöqe ilə uzlaşan nüfuzu, hörməti vardır. Bayburanın oturduğu mərəkədə tacirlərdən biri atanın yanında oğlunun əlindən öpdüyünü gördükdə ata deyir ki, əbləhin oğlu, məgər ata durarkən, oğul əlini öpərlərmi?".

"Dədə Qorquddan Şəhriyara qədər..." yol Güney Azərbaycanda toxdayır. Oxucular üçün, eləcə də pedaqoji fikir tariximizə naməlum şəxsiyyətlər, maraqlı elmi və bədii nümunələr ortaya çıxarılmışdır. Və dastanlarda tərbiyə məsələlərinə müasirlik yönümündən yanaşmağı məqsədəuyğun sayır: "Mən belə hesab edirəm ki, bu gün müstəqillik əldə etdiyimiz bir zamanda biz tərbiyə nəzəriyyəmizi türk xalqlarının yaratmış olduğu "Dədə Qorqud" və digər bu kimi dastanlarımız üzərində kökləməliyik".[1]

Bütün bu araşdırma professor F.Seyidovun öz xalqının ölməz ən qədim irsindən üzü bəri irsinə sayğısıdır; necə ki, mən bu məhəbbəti qiymətləndirmişdim. Hər halda oxucularım üçün tarixəkeçmişə xatirəmlə bu hissi verməyim maraq doğurmuş olardı.

* * *

Mən hələ pedaqoji institutda oxuyurdum: Cənubi Azərbaycandan, onun tarixindən və ədəbiyyatından söz düşəndə bir giley, təəssüf hissi oxunurdu o müəllimlərin dilindən ki: məşhur tarixçilər, ədəbiyyatşünaslar və pedaqoqlardı. Bəlkə də biz tələbələrə elə gəlirdi bu alimlər ya ideologiyadan çəkinirlər, ya da mənbələrdən xəbərsizdilər, əllərində lazımi material yoxdur. Axı, müqtədir mütəxəssizlərdən Cəfər İbrahimov, Sədi Əfəndiyev, Feyzulla Qasımzadə, Əhməd Seyidov məlumatsızdılar?!

---

1. Seyidov Fikrət. "Dədə Qorquddan Şəhriyara qədər". B., 2003, səh. 41.

O vaxt sualın real cavabını axtarmağa mənəvi haqqımız yoxuydu, amma məntiqlə bu, mümkündü. Sən demə, əslində hər iki səbəbin rolu varmış. Ən önəmlisisə məhz Sovet ideologiyasının siyasət qılıncıydı ki, eyni qardaşları - milləti parçalasın və onların fiziki - mənəvi gücünü zəiflətsin, bəlkə də yox eləsin. Və buna da nail olmuşdu. Səksəninci və doxsanıncı illərin ab - havası hər şeyə aydınlıq gətirdi, o cümlədən milli soykökümüzə qayıdış, türkçülüyümüzə etimad, xaricə səpələnmiş görkəmli şəxsiyyətlərimizi arayıb - axtarmaq inadı. Və nəhayət, Cənubi (Güney) Azərbaycanımızın taleyi. Ayrılıq həsrətinin bədii ifadəsi. Və o da qəribəydi ki, bu parçalanmış məmləkəti xatırlayanda dilimizə "ayrılıq" elegiyası gəlir və səslənirdi. Sağ olsun Yaqub Zurufçu ki, məşhur "Ayrılıq" mahnısım Güney Azərbaycanımızdan ayırmadan bizə əmanət verdi. Müstəqilliyimiz isə qovuşma, ünsiyyət, şirinliyə bələnmiş ovqat qatdı. Alimlərimiz, ədəbiyyatçılarımız, şairlərimiz əbədi mövzuya qayıtdılar. Tarixçilərimiz onlardan geri qalmadı, qaynaqları aşkara çıxardılar. Bircə... Bircə pedaqoqlar qaldılar kənarda. Bu pedaqoqlar bilməm niyə hər şeydə ədəbiyyatçılara uduzurlar? Bunu yazılarımda etiraf eləyəndə mənə irad tuturlar. Yox, elə deyil, axı! Güney Azərbaycanından söz açırıqsa, orada da istedadlı şairlər, maarifçilər, publisistlər yetişmişdir ki, onların zəngin yaradıcılığı mücrüdə qalmaqdadır; bu xəzinəni açıb mirvariləri xalqına vermək lazımdır. Hərçənd, bir neçə məqalələrdə məsələyə toxunulmuşdursa, ortaya pedaqoji fikrimizin qaynaqları qoyulmamışdır. Halbuki Güney Azərbaycanımızda hikmətə çağıran sərvətlər istənilən saydadır...

Professor Fikrət Seyidov bir neçə ildə ortaya üç samballı monoqrafiya qoydu! Bu "nida" leksika xatirinə yazılmadı. Bir alim gücünün potensialından çox üstün yazılan və xalqın ixtiyarına verilən bu kitabları vərəq-vərəq oxumuşam, saatlarla təsirinə qapılmışam. Məni hətta sərt üslublu, amma təptəzə faktla yüklənmiş elmi əsər də təsirləndirir. Axı, bu da yaradıcı istedadın məhsuludur, axtarışın əbədiləşmiş dəyəridir, Fikrət Seyidov hər bir

əsərində ona çalışır ki, döyənək mövzulardan qaçsın (Bu mənada pedaqogika elmində özünü çətinə salmayan, ənənəvi mövzularla ənənəvi yanaşan, yaradıcılıq fərdiliyindən uzaq pedaqoq - alimlərin sayı artmaqdadır). Belə olmasaydı, "Maarifimizin təkrarsız xəzinəsi" (2001), "Azərbaycan pedaqoji fikir tarixindən səhifələr" (2002), "Qoriyskaya seminariya i yeye vıpuskniki" (2002) kitabları bizlə "dil" tapmazdı. Və hər dəfə onunla görüşəndə, yaradıcılıq söhbətinə qoşulanda, daha doğrusu "yerimizi" təyin eləyəndə dənizkənarı bulvarı məsləhət bilir. Mən əvvəllər bunda bir məna axtarmırdım. Evi dənizə yaxındır və dənizin havası təmizdir, Fikrət müəllim də sağlamdır. Sonralar ürəyimdən keçdi ki, yox, belə də deyil: Dənizdə təmizlik var, təmiz adamlarsa həmişə dənizi xoşlayar, tribunanı yox. Bu sonuncuya meyillilər dənizin qiymətini bilməzlər. Və həm də Fikrət müəllimdə şairlik, yazıçılıq vərdişi olmasa da, poetik təhkiyəsi, lakonik dili vardır. Xüsusilə, onun "Aslanbəylidən başlanan xatirələr" memuranı oxuyanda bunun şahidinə çevrildim. Sosial faktın publisist şərhi və orijinal ifadəetmə tərzi. Sən demə, dəniz Fikrət müəllim üçün yaddaşda ələk-vələk elədiyi faktların, mühakimələrin "tayın-aut" götürmə vaxtı imiş.

Dəniz dəniz kimi təmiz qəlbli adamlarındı. Bu dəfə də dəniz qırağında görüşdük. Yorğun deyildi, amma ürəyi doluydu və bu hissləri həmfikir axtarırdı.

-Allahverdi, - dedi. - Əlyazması hələlik səliqəsizdir, bir - iki günə hazırdır. Qəzetə bükülmüş yazılmış ağ vərəqləri çıxardı. - Cənubi Azərbaycanda pedaqoji fikir tarixindəndir.

Yadıma 5-6 ay əvvəl mənə dediyi: "Cənubi Azərbaycan məni yaman tutub", - sözləri düşdü. İstədim soruşam ki, Fikrət müəllim, bu doğma Diyarın nəyi sizi tutub, - ehtiyatlandım və müəllimimə bu sual verməyə cəsarətim çatmadı. Həm də Firkət müəllim ürəyi kövrək, tez təsirlənən, həssas adamdı və hissə qapılmaq mümkün işdi.

- "Dədə Qorqud" dastanlarından başladım. - Sözləri xəyalımı qırdı və özümü müsahibimə topladım. - Bu xalq xəzinəsi elə

Güney Azərbaycanımızda da oxunub, yayılıb və doğma sərvətə çevrilibdir. Onu ayırmağa ehtiyac qalmır.

Artıq əlyazmaları vərəqləyirdim. Qeydlər, düzəlişlər təmkinlə aparılmışdı. Vərəqlərin solunda başqa rənglə yazılmış cümlələr də yox deyildi. Ürəyimdən keçdi ki, o, öz yaradıcı əməyinə qarşı nə qədər səmimi və amansızdır. Bu iki amil yoxdursa... Allah oxucuları o müəllifə tuş gətirməsin!

Nəhayət, kitabda verilmiş mənbələrin sırasına göz gəzdirdim və heyrətləndim. Bir daha qətiləşdirdim ki, Fikrət Seyidov atası Əhməd Seyidovdan keçmə yazı məsuliyyətinə malikdir, öncə oxucularına qarşı cavabdehdir.

Kitabda yazdığı "Bir neçə söz"də təmkinlə məqsədini açıqlayır, ədəbiyyat mətnlərinə, müəlliflərin özünə münasibətini bildirir.

...Biz xeyli gəzdik, gəlib - gedənlərin simasını almış qayğıya laqeyd qalmadıq. Ziyalılarla salamlaşdıq. Xüsusilə, Fikrət müəllimi tanıyanlar dərhal ayaq saxlayır, əl verir, əhval tutur, sonra yoluna davam eləyirdilər. Bu, onun elitar mühitdə böyük nüfuz sahibi olduğunu göstərirdi. Ümumiyyətlə, professor F.Seyidov Azərbaycan pedaqoji elminin mübaliğəsiz bir nömrəli alimidir, partiarxıdır; bu qiyməti münasibətimə görə xatırlatmıram. Alimin işıq üzü görmüş bütün kitablarım ya redaktor məsuliyyətiylə oxumuşam, ya "Ön söz" yazmışam, ya da oxucu marağı ilə. Onun nədən və necə yazdığını sanki özüm "yaşamışam". Bu qeydləri oxuyanlarda qısqanclıq hissi yaranmasın; onsuz da bu ovqat bəzi pedaqoqları içərisindən didib - parçalayır və xəstəliyə tutulurlar. Vallah, necə yazmaq Allah payıdır, bu dəyərə qisməti düşməyənlər niyə inciyirlər? Hərdən bir məqalə, bir kitab çap elətdirirlər ki, oxucu yaddaşından çıxmayasınlar. Onsuz da əksər müəllif - oxucu zövqü o qədər aşağı səviyyəyə düşübdür ki, məzmuna - formaya, dilə - üsluba qiymət verməkdə subyektivdilər. Onları imzaların kəmiyyəti fərəhləndirir. Mən bu gün lap yaşlı pedaqoqları xatırlayıram ki, "klassik nüfuzlarında" və "professor" rütbələrində gizlənməkdədilər. Ədəbiyyatçılar söz düşəndə miya-

nə "xalq şairlərinə" Füzulini, Sabiri nümunə gətirirlər! Axı, onlar rəsmi "Xalq şairi" deyildilərsə, xalqın şairiydilər. Fikrət Seyidov nə "Əməkdar elm xadimidir", nə də "Akademikdir" müqabilində görkəmli pedaqoq - alimdir və bunu bir tədqiqat İnstitutunun 5-10 ilə birgə apardığı elmi - tədqiqatla müqayisə edərdim. Budur, hələlik sonuncu əsəri: Cənubi (Güney) Azərbaycan pedaqoji fikrinə dair oçerklərin toplusu. Tədqiqatdan bu günə qədər kənarda qalan şəxsiyyətlərin yaradıcılığının araşdırılması. N.Tusinin, Hacı Mirzə Həsən Rüşdiyyənin, Mir Mehdi Etimadın (Natiqin), Həbib Sahirin, İrəc Mirzənin, Seyid Rza Sabirin, Məhəmməd Hidəcin, Mirzə Kazım Qazi Əsgərzadənin, Mir Mehdi Çavuşinin və nəhayət, Məhəmməd Hüseyn Şəhriyarın təlim - tərbiyəyə aid fikirləri, maarifçilik missiyaları və həyatlarından fraqmentlər.

Çağdaş pedaqoqlar mənimlə razılaşar ki, ilk dəfə onları professor Fikrət Seyidov tədqiqata cəlb etmiş, gərgin yaradıcı əməyindən qorxmamışdır. Sonuncunu "özünü əziyyətə salmamaq" sözləriylə də əvəz etmək olardı... Şəhriyara qədər bu simalar bizə məlum deyildi və biz bu cür oğullarımızı tanımırdıq. Ali məktəblərin "Pedaqogika tarixi" dərsliklərində, digər əsərlərdə gənc nəslə bəlli deyildi. Onlar daha öz xələflərinin fəaliyyətiylə yaxından tanış olacaqlar.

Mən "M.H.Şəhriyarın pedaqoji görüşləri" oçerkini həvəslə, təmkinlə oxudum.

Bəllidir ki, bu görkəmli şair Sələfi Füzulidən sonra ikinci simadır ki, iki dildə şerlər qələmə almışdır. Farslar da xüsusilə Şəhriyarı poeziyanın bütü saymaqdadılar və onun layiqli qiymətini vermişlər. Bunun üçün biz fars zövqünə təşəkkürümüzü bildirməyə borcluyuq. "İgidlərin İran üçün şəhid olub" əvəzində - "Dərd almısan, qəm almısan sən İrandan Azərbaycan" - deyən bir cəsarətli şair.

Şəhriyar həmişə milli azadlıq hərəkatını izləmiş, ona laqeyd qalmamışdır. Səttərxan və Şeyx Məhəmməd Xiyabaninin fədakarlığını yüksək qiymətləndirmişdir.

Müəllif oçerkində Şəhriyarın həyat və fəaliyyətindən irəli gələn ictimai - sosial və mənəvi proseslərə münasibətini təhlil etmiş, xüsusilə, şairin dünyagörüşünü qabarıq vermişdir. Və yaradıcılığının 4 mərhələsi fonunda dünyagörüşünün müsbət və çatışmayan cəhətlərini yaşadığı mühitlə əlaqələndirmişdir.

F.Seyidov Şəhriyarın gənc nəslin təlim - tərbiyəsi işində öz poeziyası ilə xidmətini ayrıca vurğulamışdır. Şəhriyarın insan şəxsiyyətinin təşəkkülü barədə fikirlərinə aydınlıq gətirmiş, onlarla şerində bu fikirləri axtarmışdır. Şəhriyara görə, əgər tərbiyə üçün lazımi şərait olmayıbsa, narahat olmaq lazım deyil, həyat yel kimidir. Bu gün şərait olmasa da, sabah o gələcək:

*Hədər getmiş isə gənclik əzizim, qəlbini sıxma,*
*Həyat yeldir, qəmə batma, şirin cana qıyan bülbül.*

Oçerkdə şairin elm, əmək, estetik, ekoloji, ailə tərbiyəsi haqqında fikirləri müəllif tərəfindən sistem halında araşdırılmışdır.



*Fikrət müəllim Sabiq tələbələri arasında*

Eləcə də ailə tərbiyəsi, qadın bardə, ana dili, maarifçilik kimi vacib məsələlər oçerkdə təhlilini tapmışdır. Şəhriyar insanlığı, bir kəşfin, ixtiranın məhz ölümə deyil, yaşamağa, həyata xidmətini qiymətləndirərək deyirdi ki, əfsus Eynşteyn kimi dahi bir ixtiraçının elminin nəticələri insanlığın rifahına deyil, ölümünə səbəb olmuşdur. Xeyirxah bir iş, böyük bir ixtira bəd əməlli adamların əlində insanlığı məhvə apara bilər, insanlıq arasında vəhşilik baş verər, ortadan rəhm, dəyanət, səadət, məhəbbət qalxa bilər.

"Heydərbabaya salam" məşhur poeması Fikrət Seyidovun da diqqətindən kənarda qalmamışdır. Belə ki, poemanın tərbiyəvi tərəflərini təhlil etmiş, uşaqların psixologiyasını açmış, uşaqlıq xatirələrin məktəblilərdə yüksək insani duyğular, təmiz hiss və həyəcan oyatdığını vurğulamışdır. Poemada uşaqların müstəqilliyi, yaradıcı qabiliyyəti, zəhmətkeşliyi və s. vermişdir.

*Qarı nənə gecə qapı döyəndə,*
*Külək qalxıb qapı-bacanı döyəndə,*
*Qurd keçinin Şəngülümünü yeyəndə,*
*Mən qayıdıb bir də uşaq olaydım,*
*Bir gün açıb ondan sonra solaydım.*

Poemada təbiət təsvirlərinə diqqətli yanaşan F.Seyidov kövrək təhkiyə ilə gənc nəslin ekoloji tərbiyəsindəki rolunu qeyd edir və maraqlı nümunələrlə fikrini əsaslandırır.

Maraqlı cəhətdir ki, professor "M.H.Şəhriyar əxlaq tərbiyəsi haqqında", "M.H.Şəhriyar estetik tərbiyə haqqında", "M.H.Şəhriyar ana dili haqqında", "M.H.Şəhriyar ailə tərbiyəsi haqqında", "M.H.Şəhriyar xalq maarifi haqqında" və digər bölmələrdə qüdrətli sənətkarın pedaqoji fikirləri əhatəli təhlil olunmuşdur. Və yəqin ki, maraqlı oxucular çox şeyi əxz edəcəkdir.

Yuxarıda adlarını çəkdiyim güneyli ziyalılarımızın, maarifçilərimizin həyatlarından maraqlı faktları gətirir, onların elmi və bədii əsərlərindəki pedaqoji məsələləri araşdırır. Ən duyğulu nümunələri verməklə, həm də oxucunu yorumdan qurtarır. Eyni zamanda həmən misallardan istifadə etmək də məqsədəuyğun olardı...

Güney Azərbaycanda pedaqoji fikrin təhlilini və ayrıca kitab halında nəşrini mübaliğəsiz sensasiya hesab edirəm. Bu ağır və şərəfli işin öhdəsindən məharətlə gələn böyük alimimiz, professor Fikrət Seyidov xeyirxah bir addım atmışdır. Şübhəsiz, yeni yazarlarımız - pedaqoqlarımız bu qaranquş addımı daha da genişləndirəcəklər. Amma tarix "sözündə" israrlıdır: "Güney Azərbaycanda pedaqoji fikrin ilk tədqiqatçısı professor Fikrət Seyidov!" Tamamilə haqlı qiymətdir.

Mən əlyazmanı sonadək oxudum. Və hər vərəqdə qürurlanırdım ki, nə qədər zəngin Məmləkətik və nə qədər istedadlı Xalqıq. Həm araşdırılan maarifçi - ziyalılarımıza görə, həm də bunu araşdıran Müəllifə görə! Burda da haqlı qiymətdir.

Mən bir də onun üçün qürurlanıram ki, bu günə kimi Güney Azərbaycan barədə bir məqalə də olsun yazmamışam, yaxud hansısa əsərin redaktoru olmamışam. Bu, haradasa yaradıcılığımda boşluqdur. Lakin bəxtim gətirdi ki, müəllimimin kitabını oxumaq və ona nəsə ürək sözümü yazmaq mənim qismətimə düşdü. Hərçənd, daha bitkin və geniş yazmaq mümkündü: nədənsə bu yolu tutmadım. Bəlkə də ehtiyatlandım ağır işin öhdəsindən gəlməkdə. Yox, qoy çox nüanslar oxucu ixtiyarında qalsın. Və bir də professor Fikrət Seyidovun qələmindən neçə-neçə əsər çıxacaq, məni Dəniz qırağına çağıracaq, oturub müəllim-tələbə söhbəti edəcəyik. Buna heç kəsin şübhəsi qalmasın.

Mən müəllifə güney dolu məhəbbəti üçün "Çox sağ olun, professor", - deyirəm və...

## § 2. Qori (Qazax) seminariyası - şəxsiyyətlər məbədi

Mən 2000-ci ildə (11.10) yazmışdım: "Professor Fikrət Seyidov yaradıcılıq tematikasına sadiq qalmaqla Qori (Qazax) seminariyasının tam ensiklopedik səlnaməsini tədqiq etmişdir". Mən bir də onun birinci kitabını vərəqlədim: Tarixi dəqiqliyin gözlənilməsi, şəxsiyyətlərin qaynaqlandığı mənbələrin sərf-nəzəri, keçmişlə bu gün arasındakı varislik, fərdi, özünə məxsus üslub, təhkiyə. Arxiv sənədlərinə həssas münasibət isə xüsusi vurğulanır, axı, tarixi saxtalaşdırmaq vicdansızlıqdır". Bu həqiqət Fikrət Əhməd oğlunu şəxsiyyətlərin həqiqət prizmasında araşdırılması problemiylə üz-üzə qoydu. Onun pedaqoji sahəyə ilkin gəlişində məhz atasının, görkəmli pedaqoqun məsləhətini xatırlatmışdıq. Mövzunun aktuallığının seçilməsi araşdırmanın yarısına bərabərdir. Və bunun sosial-psixoloji aspektləri çoxdur. Praktik vərdiş, fərasət, ovqat-duyğu, proqnozlaşdırma kimi keyfiyyətlər aparıcıdır. Xüsusilə, şəxsiyyət məsələsi. Burada diqqətsizlik, tələskənlik, subyektivlik və sözünə yer tapmamalıdır. Məşhur alim K.Leonhard bu baxımdan şəxsiyyətin öyrənilməsinə konkret üsullar müəyyənləşdirmişdir: Şəxsiyyətin əsas tipləri xalis, saf şəkildə seçilməklə bir növ əsas tonların qalması kimi götürülür; sonra isə yarım ton, ayrı-ayrı səlnamələr və bir tondan digərinə keçmələr də tədqiqatın tərkib hissəsidir. Bu bölgüdə şəxsiyyətin bədii tərəfə istiqaməti istisna olunmur. Lakin professor F.Seyidov Qori-Qazax Seminariyasını tədqiqat obyekti seçərkən əsas diqqəti şəxsiyyətə-məzunlara yönəltmişdir. Maraqlı o idi, həmən məzunların xeylisi dünyalarını dəyişməmişdilər, tələbəlik dostları Əhməd Seyidovla əlaqələrini itirməmişdilər. Dövrün siyasi-mənəvi durumu onları sarsıtmamışdı, baxmayaraq repressiyaya məruz qalanlar vardı.

Bu məqamlarda o, dünyanın daimi olmadığına da inanırdı və birbəbir artıq yaşlaşmış onların qapılarını döyür, təmkinlə dinləyir, xatirələrini qələmə alırdı. Mən Fikrət müəllimin iş otağında

olarkən həmən saralmış, amma muncuq sıralı əlyazmalarına heyranlıqla baxırdım. Qəribədir, Seminariyada demək olar ki, bütün məzunların xətti beləcə səliqəlidi, harmonikdir rus dilini mükəmməl bilirlər və incəsənətin bir növünə tam yiyələnmişlər. Seminariyada təhsilin strukturu və idarə olunması barədə F.Seyidov dərin təhlillər aparmışdır və bu haqda ötəri də olsa danışacağıq.

Müəllif tədqiqatçı psixologiyasına məxsus təmkinlə yaradıcılığının ikinci hissəsini (şərti də götürə bilərik) məhz Qori-Qazax Müəllimlər Seminariyasının tədqiqinə bağlamış, bütöv sistemi əslində başa çatdırmışdır. Lakin ona belə aspektdə sual verdikdə deyir ki, xeyr, Seminariyada qaranlıq mətləblər var, məzunlarının hər birinin pedaqoji fəaliyyətinin özü bir mövzudur.

Professor Fikrət Seyidov ilk monoqrafiyasını "Maarif" nəşriyyatına gətirdiyi vaxtı yaxşı xatırlayıram: operativlik, diqqətlilik, faktların bir daha yoxlanılması, nəşriyyatın qayğılarına cavabdehlik və sairi yerinə yetirirdi. Redaksiyanın müdiri, mərhum İnqilab Süleymanov nəzakətli adamdı, deyirdi ki, Fikrət müəllim, bir iş çıxanda özüm zəng vurub çağıraram. Amma bu xahiş alınmırdı. - Qoy çıxsın kitab, milli xəzinəmizdir, baxmayaraq Qoridə fəaliyyət göstərmişdir, oxuyanlar ki, azərbaycanlılardır.

Əsər nəşr olundu, siqnal nüsxəsini Fikrət müəllimə verəndə uşaq kimi sevindi. Bu, onun vətənpərvər İnsan olduğunun pedaqoqluğun nümunəsidi. Əsər böyük əks-səda doğurdu, qəzetlər obyektiv resenziyalar çap elədi. Hətta mətbuat komitəsinin sədri Nazim İbrahimov Fikrət Seyidovla görüşmüş və bu kitabı rusca nəşrini məsləhət bilmişdi. O da bunu etdi və nəşriyyata təqdim eləmişdi. Bu o vaxtdı, məni yeni sədr S.Rüstəmxanlı vəzifədən uzaqlaşdırmışdı, yeni direktor isə "vətənpərvərlik" nümayişiylə professora demişdi ki, indi bizə rus dili lazım deyil, becə zəhmət çəkirsiz. Halbuki, bu təkrarsız xəzinəni rus dili vasitəsilə Dünya arenasına çıxarmaq hər bir ziyalının borcu deyildimi?

F.Seyidov ikinci kitabını - "Maarifimizin təkrarsız xəzinəsi" (Qazax seminariyası və onun məzunları) monoqrafiyasını 2001-ci

ildə nəşr etdirdi. İlk səhifələrdə müəllifin bu seminariyanın yubileyini - 80 illiyini keçirmək üçün nə qədər təşkilatı iş gördüyünün şahidinə çevrilirik. O, dəfələrlə Qazax Rayon İcra Hakimiyyətində (başçı Əsəd Orucov), Respublika Təhsil Nazirliyində (nazir Misir Mərdanov) və digər təşkilatlarda olmuş, hətta öz nüfuzundan istifadə etməkdən belə çəkinməmişdir. Təşkilat komitəsi yaradılmışdır. Nazir, professor Misir Mərdanov geniş məruzə etmişdir. Ölkə prezidenti, cənab Heydər Əliyev isə təbrik teleqramı vermişdir konfrans iştirakçısına:

Hörmətli konfrans iştirakçıları!

- Əziz müəllimlər! Azərbaycanın milli təhsil sisteminin inkişafında müstəsna rol oynamış Qazax Müəllimlər Seminariyasının yaradılmasının 80 illik yubileyi münasibətilə sizi səmimi qəlbdən təbrik edirəm.

Zəngin mədəniyyət və təhsil ənənələrinə malik olan Azərbaycan, müsəlman şərqində dünyəvi təhsilin gerçəkləşdiyi ilk ölkələrdən biri olmuşdur. XIX əsrin ortalarından başlayaraq Azərbaycanda gedən siyasi və sosial-iqtisadi proseslər onun mədəni həyatına da güclü təsir göstərmiş, böyük vüsət alan maarifçilik hərakatı yeni tipli təhsil ocaqlarınm yaranmasına təkan vermişdir. Öz xalqının gələcəyini elmdə, təhsildə görən görkəmli ziyalılar yeni tələblərə cavab verən müəllim kadrlarının hazırlanması üçün var qüvvələrini sərf etmişlər. Onların və səyləri 80 il bundan əvvəl Qazax Müəllimlər Seminariyasının yaranması ilə nəticələnmişdir. Vaxtilə bütün Yaxın Şərqdə şöhrət tapan seminariyanın yaradılması Azərbaycan maarifçilərinin fədakarlığı və vətənpərvərliyinin canlı nümunəsi, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin təhsil sahəsində yeritdiyi düzgün və məqsədyönlü siyasətin parlaq təzahürüdür.

Qazax Müəllimlər Seminariyası 40 illik fəaliyyəti dövründə respublikamızın müxtəlif bölgələri üçün minlərlə müəllim kadrları hazırlamışdır. Azərbaycanın bir sıra tanınmış elm, mədəniyyət xadimləri bu təhsil ocağının yetirmələridir. Adları Azərbaycan

ədəbiyyatı tarixinə qızıl hərflərlə yazılmış Səməd Vurğun, Osman Sarıvəlli, İsmayıl Şıxlı kimi görkəmli simalar məhz seminariyanın ilk məzunları olmuşlar.

Qazax müəllimlər seminariyasının xalqımızın mədəni həyatında oynadığı böyük rol danılmazdır. Onun təməli üzərində neçə-neçə təhsil ocaqları yaranıb inkişaf etmişdir. Bu təhsil məbədi özündən sonra böyük mədəni irs qoymaqla adını Azərbaycan maarifi tarixinə əbədi həkk etmişdir. Əminəm ki, müstəqil Azərbaycan Respublikasının təhsil işçilərinin neçə-neçə nəsli də bu zəngin irsdən bəhrələnəcəkdir.

Bu əlamətdar gündə sizə, respublikamızın bütün təhsil işçilərinə nəcib fəaliyyətinizdə böyük uğurlar diləyir, hər birinizə cansağlığı və xoşbəxtlik arzulayıram.

Heydər Əliyev

Azərbaycan Respublikasının prezidenti,

Bakı şəhəri, 27 dekabr 1999-cü il."

Qazax Müəllimlər Seminariyasının yübiley iştirakçılarına respublika Təhsil Naziri, professor Misir Mərdanovun təbrik məktubundan:

*"Hörmətli yubiley iştirakçıları. Əziz müəllimlər! Sizi Azərbaycan milli təhsilinin inkişafında xüsusi yeri və rolu olmuş Qazax Müəllimlər Seminariyasının yaradılmasının 80 illiyi münasibətilə Təhsil Nazirliyinin rəhbərliyi, eləcə də ölkəmizin bütün təhsil işçiləri adından səmimi qəlbdən təbrik edirəm.*

*Əziz yubiley iştirakçıları! Müstəqil Azərbaycanda milli təhsil quruculuğunun dönməz xarakter aldığı indiki zamanda milli - mənəvi dəyərlərdə hörmətin parlaq nümunəsi olan Qazax seminariyasının 80 illik yubileyi münasibətilə bir daha təbrik edir, sizə yeni-yeni uğurlar arzulayıram!*

***Misir Mərdanov***

***Azərbaycan Respublikasının təhsil Naziri.***

Qazax seminariyasının açılması bir təşəbbüsüm, bir təsadüfün nəticəsi olmamışdır, tarixi zərurətin məhsuludur. Qısa ömürlü, la-

in çox sürətli sosial-siyasi islahatlar müəllifi Azərbaycan Demokratik Respublikası müəllim kadrları hazırlığını diqqət mərkəzində saxladı. Xüsusilə, maarifpərvər ziyalılarımız M.F.Axundovdan, A.A.Bakıxanovdan, M.Ş.Vazehdən, H.B.Zərdabidən başlayaraq zamanın şərq mədəniyyətinə, şərq tərbiyə və təhsil fərdiliyinə, özünə məxsusluğuna laqeyd qalmamışlar. Türkmənçay müqaviləsinin meydana gəlməsi öz diqtəsini büruzə verdi: Azərbaycan Rusiya İmperiyasının əsarəti və nəzarəti altına keçdi. Tariximizi tərsinə yozan və yazan başıbəlalı soydaşlarımız-tarixçilərimiz bu siyasi terroru müsbət qələmə sarıdılar. Halbuki tarixi səneddən sonra müsəlman türkləri soy-kökündən uzaqlaşmaq, xristian mədəniyyəti qarşısında mütilik psixologiyasına yiyələnmək faciyəsilə üzbə-üz dayandı. Müsbət ənənəli məktəb ocaqları yararsız obyektlər gözüylə ləğv olundu. Amma susulmadı, cəhdlər səngimədi. İsmayıl bəy Kaspirinski və Mirzə Şəfi Vazeh yeni tipli təhsil müəssisələri yaradılması vacibliyini əsaslandırdılar. Məqsəd o idi, Rus imperiyası azərbaycanlı uşaqları milli intellektdən və davranışdan ayırsınlar. Bəli, bu strateji dünyagörüşü 70 ildə reallaşdı və şahidiyik. Məsələn, 1908-ci ildə təhsil alan balalarımızın o vaxtı, Babalarımızın indisinin faizini professor F.Ə.Seyidov göstərmişdir: 8 tipli məktəbdə oxuyanların faizi 47,8. Məhsuldar təhsil müəssisəsi Qori Müəllimlər Seminariyası idi. Unutmayaq ki, belə bir seminariya İrəvanda da olmuşdur...

Çar hər halda yerli əhaliylə ehtiyatla davranırdı, təşəbbüslərə qarşı tam susmurdu. Fikrət Seyidov yazır: "Məhz bu səbəbdən də o, (çar Rusiyası - A.E.) 1875-ci ildə Zaqafqaziya müsəlmanları üçün seminariya açmağa məcbur oldu. İlk Azərbaycan məktəbləri üçün müəllim kadrosu hazırlayan müəssisə Qori müəllimlər Seminariyası nəzdində yaradılan Azərbaycan şöbəsi olmuşdur. O, 1879-cu ildə sentyabrın 1-də qanunsuz olaraq açılmış və 1880-ci il sentyabrın 18-də isə onun açılmasına rəsmi icazə verilmişdir.[1]

---

1. Seyidov F. Maarifimizin təkrarsız xəzinəsi. B., 2001, səh. 30.

Yeri gəlmişkən bu sahədə, hansı ki, azərbaycanlıların təhsili üçün rus maarifçiləri az xidmət göstərməmişlər. D.D.Semyonov və A.O.Çernyayevski unudulmamışlar bizim üçün: "Azərbaycan xalqına həqiqi xidmətin nümunəsini göstərmiş seminariyanın ilk direktoru D.D.Semyonov və ilk inspektoru A.O.Çernyayevskinin xeyirxah fəaliyyəti seminariyanın bütün həyat tərzində öz izini buraxdı" (F.Seyidov).

Maraqlıdır ki, ADR-in fəal üzvləri, hökümətdə nazir postunu tutan seminariyanın məzunları hər vəchlə seminariyanı müdafiyə edirdilər. Qori Seminariyasının tədris-təlim səviyyəsi yüksək qurulurdu və bu işdə pedaqoqlar maraqlı idilər. Bu, həm də ona görə zəruriydi, Qazaxa köçəcək seminariya burada da yüksəkliyini saxlamalı idi. F.B.Köçərli Seminariyadan çox narahatdı, vəziyyəti qiymətləndirirdi. Bu münasibətlə yazmışdı ki, seminariyanın Azərbaycan üçün kadr çatmır qəbul azdır, xalqınsa elmə həvəsi artmışdır, hətta dövlət hesabına qəbul ola bilməyənlərin bir çoxu öz hesabına oxumağa cəhd göstərirlər. N.Nərimanov Qori Seminariyasına, xüsusilə, Azərbaycan üçün müəllim kadrları hazırlığında ərazi məsələsinə toxunmuşdur. "Mühüm məsələ" məqaləsində çar hökumətinin mənfur siyasətini tənqidə tutaraq, üsul-idarəni suçlayırdı. Eyni zamanda seminariyanm nöqsanlarını da gizlətmirdi. Bakıdakı məktəblərdə çalışan müəllim kadrları milli tərkibcə də bizim xeyrimizə deyildi. Fikrət Seyidov arxif sənədlərinə əsasən bildirir ki, Balayanın direktor olduğu məktəbdə 20 erməni, 4 rus, bir azərbaycanlı işləyirdi. Bu anormal vəziyyəti məhz ADR hökuməti aradan qaldırmaq vəzifəsini qarşıya qoymuşdur: "Maarif naziri Kaplanov başqa bir əmrində ADR hökumətinin qərarı əsasında 1919-cu tədris ilindən gimnaziyalarda türk dilində hazırlıq sinifləri açılsın, rus dilində olan hazırlıq sinifləri bağlansın və eləcə də qadın gimnaziyasmda rus dilində olan I sinfin əvəzinə türk dilində I sinif açılsın". Beləliklə, Qori Seminariyanın varisi kimi Qazax Seminariyası özünü təsdiqlədi.

Seminariyanın Qazaxda məskunlaşması səbəbləri pedaqoji ədəbiyyatda birtərəfli işıqlandırılmışdır. Professor Fikrət Seyidov uzun illik araşdırmasından sonra məsələni durultmağa nail olmuşdur. O, hətta seminariyanın məzunlarından Hacıbala Hacıyev, Mirqasım Əfəndiyev, Əhməd Əhmədov, Osman Cəfərov, Abdulla Babayev, R.Axundovdan yazılı və şifahi xatirələrini alır, rəsmiləşdirir. Digər bir məsələni də tədqiqatçı əsaslandırır: F.Köçərli Seminariyanın əmlakını qatarla Azərbaycana gətirərkən gürcü canisini xəbər tutur və general-qubernator kəsəsinə gəlib Aqstafada qatarı saxlatdırır. F.Köçərlinin həyat yoldaşı Badisəba xanım öz qohumları, habelə seminariyanın məzunları qatarın qarşısına çıxırlar. Təsadüf elə gətirir ki, F.B.Köçərliyə görüşə çıxan arvad qohumları Salahlı bəyləri ilə Gürcü canişini arasındakı tanışlıq canişinini fikrindən vaz keçməyə vadar edir. Üçüncü məsələyə-səbəbə də professor F.Seyidov duruluq verir: ADR hökumətinin se-



*Professor Fikrət Seyidov Londonda təcrübə mübadiləsi zamanı*

minariyanın məhz Qazaxa köçürülməsi məsələsidir. O zaman Tiflis Zaqafqaziyada mədəni mərkəz hesab olunurdu. Azərbaycan ziyalılarının xeylisi bu şəhərdə toplaşmışdı. ADR seminariyanın daha səmərəli mühitə yaxın olmasını nəzərdən qaçırmamışdı. Bu bir amil. Qazaxda o vaxt Qorini bitirmiş ziyalılardan Əhmədağa Mustafayev, Haley bəy Şıxlınski, Süleyman Qaibov, Yusif Əfəndiyev, Alyoşa Mustafayev, Əhməd Seyidov, Osman Şıxlınski, Səlim Əfəndiyev, Yusif Qasımov, Əli Hüseynov, İbrahim Qayıbov və digərləri nüfuzlu şəxsiyyətlərdi, işləyirdi, deməli, tədris prosesi yüksək səviyyədə qurula bilərdi. Bu, ikinci amil.

F.Köçərli "Azərbaycan" qəzetində yazırdı: "Qazax şəhərinin əhalisi ADR qarşısında məsələ qaldırmışdı ki, Qori Seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürülsün, hər cür maddi-təsərrüfatı yaradılacaqdır. Binanı isə qazaxlı maarifpərvər, xeyirxah Məşədi İbrahim Kosalı verəcəkdir. Hökumət bu xahişi-çağırşı eşidir: 10 iyul, 1918-ci il iclası məsələni rəsmiləşdirir. Və 10 noyabr 1918-ci ildə təntənəli açıldı. Bu, üçüncü amil.

Qazax seminariyasınm açılışı sakit keçməmişdir. Belə ki, Qazaxda yerləşən türk ordusunun komendantı Səbri bəy, türk qarnizon rəisi Camal Bəy, Qazax rəisi H.B.Şıxlınski, xalq məktəbləri inspektoru Qiyasbəyov, ali məktəblər inspektoru Ə.A.Mustafayev və digər təbəqələrin nümayəndələri qürur hissiylə açılışı izləmişlər. İbrahim Əfəndi, Qazıbəyov, Səbribəy çıxışlar etmişlər. Səbri bəyin çıxışım müəllif oxucuların nəzərinə çatdırmışdır; son sözləri belə qurtarır: "Müəllimlərsiz bu təmanasız, fədailərsiz millətin xoşbəxtliyi, gücü və qüvvəsi ola bilməz". Polkovnik Camal bəyin də sözləri ürəkdən gəlir: "Vətəni yalnız iti qılıncla deyil, həm də elmlə, təhsillə, əqillə qorumaq lazımdır. Belə adamlar isə bu məktəbdə cücərib yetişəcəkdir". Sonda direktor F.B.Köçərli çıxış edir: "... İndi mən əminəm ki, bu məktəb Vətənə gəlirkən o, xalqı mənəvi gerilikdən azad etməkdə böyük faktor olacaqdır".[1]

1. Seyidov F. Maarifimizin təkrarsız xəzinəsi. B., 2001, səh. 52.

Seminariyadan danışarkən F.Seyidov bir epizodu xatırladır: Camal Cahid bəy Aslanbəyli kəndinə gəlir və Əhməd Seyidovun açdığı qız məktəbinə baş çəkir, dərslərdə oturur. Çox razı qalır, müəllimlər qarşısında çıxış edir, təlim-tərbiyə məsələsinə toxunur. Və kövrək fikrini ifadə edir: "Xarici görünüşü ilə məndə pis təəssürat yaradan yuyulmamış, çirkli, cırıq-cındır geyinmiş uşaqlar təbii əql, istedad və düşüncə göstərdilər".

Qazax Müəllimlər Seminariyasını bu qədər şöhrətləndirən səbəbləri nədə axtarmalıyıq? Məzunlardamı, tədris prosesinin mahiyyətindəmi, idarə olunmasındamı, maddi-texniki bazasının zənginliyindəmi, nəhayət Dövlət qayğısındamı? Suallar silsiləsi bir-birini tamamlayır və bir-birindən asılı olur. Bütün bunları yorulmaz tədqiqatçı, professor Fikrət Seyidov dəqiqliyilə araşdırmışdır, sanki ensiklopedik mənbəni ümumiləşdirmişdir. Və məsələyə ilk öncə onun direktoru, görkəmli pedaqoq, vətəndaş Firudinbəy Köçərlidən başlaması da təsadüfi görünməsin. Köçərli dövründən ayrıca danışmışdır.

F.B.Köçərlini hələ Qori Seminariyasında işləyərkən, müşahidələr aparmışdır ki, əsas özək müəllim kadrları hazırlığıdır, bunsuz uğur qazanmaq absurddur. Hətta Qori və İrəvan seminariyaları bu baxımından onu lazımınca qane etməmişdi: Fikrini, marağını indi də itirməmiş silsilə məqalələrində nəzəri-pedaqoji aspektlərdə açıqladı. "Zaqafqaziyada müəllim seminariyası", "Müsəlmanların ehtiyacı məsələsi", "Təlimə xeyir edənlərimizin cəzası", "Məişətimizə dair"də bir növ öz düşüncələrini də irəli sürmüş oldu: "Müəllim orta əsrlərdə olan kimi, ancaq dərs deyən məhdud adam olmayıb, ictimai xalq adamı olmalıdır. O, 3 saat formal dərsini deyib evə qaçan, işini bununla bitmiş hesab edən məmur müəllimləri vicdanı, müqəddəs borcu yaddan çıxarırlar".

F.B.Köçərlinin müəllim axtarışı onun böyük pedaqoqluğuna bariz nümunədir. Ona görə də Qori Seminariyasından tanıdığı üç müəllimi - İbrahim Qayıbovu, Mirzə Vəliyevi və Mustafa Məmmədovu Qazaxa gətirməyə nail oldu. Amma o cür də fikirləşmirdi ki, Qazaxda onun yetirmələrindən gözədəyəni yoxdur, vardı: Əli

Hüseynov, Əhməd Ağa Mustafayev, Yusif Qasımov, İsfəndiyar Vəliyev, Məiş Hüseynov və b. dəvət etdi.[1]

F.B.Köçərli bir problemlə ilk günlərdə qarşılaşdı: Tələbə toplamaq. Xatırladı ki, bu üsuldan A.O.Çernyayevski yararlanmışdı. Odur, inandığı, yerli əhalini yaxından tanfıyan, valideynlərlə "dil tapmaq" psixologiyasına malik müəllimləri bu işə cəlb etdi və nəticə yaxşı alındı. Bir fakt hələ Aslanbəylidə dərs deyən gələcək professor Əhməd Seyidov, Nadir Seyidov, Məmməd Məmmədov, Həmid Nəsibov, Mənsur Yaqubov və başqa şagirdlərini Seminariyaya göndərdi. O cümlədən, Səməd Vurğun da bu yolla Seminariyaya üz tutmuşdu. Məşhur ifadəsi: "Firudin bəy, sən nə bilirsən bu sısqa vücudda nələr var" hazırcavablığı da yaddaşlardadır.

Seminariyada "Pedaqoji şura" yaradılır və üzvləri Qoristlərdi, təcrübəli pedaqoq - müəllimlərdi. Bir nüansa diqqət yetirək: "Pedaqoji şuranın bütün üzvləri demək olar ki, F.B.Köçərlinin Qori Seminariyasındakı tələbələri olmuş müəllimlər idi. Tədris prosesinin və tədris müəssisələrinin bütün həlqələri ilə dərindən tanış olan bu şura üzvlərinə təlim-tərbiyə işlərinin zəruriliyini, müəllim və tərbiyəçilərin vəzifələrini başa salmaq lazım deyildi. Hər kəsin öz müqəddəs vəzifələrini layiqincə yerinə yetirəcəyinə əmin idi".[2]

Seminariyada faydalı üsullar tətbiq edilirdi, bunlar həm təlim, həm də tərbiyənin səmərəliliyinə zəmanət verirdi və bu qaydalar "Seminaristlərin həyat tərzi"ndə öz əksini tapmışdı. Komissiyalar yaratmışdı, didaktik tələblərin icrasını üzərinə götürmüşdü: Dərsdə xorla oxu, nitq inkişafı, didaktik oyunlar və təmrinlərin icrası və s. Eyni zamanda dərsdə əyanilik, müxtəlif yazı növləri vərdişləri aşılamaq, albomların hazırlanması, müəllimlərə, tələblərə tövsiyyələrin çatdırılması da komissiyanın vəzifələrinə daxildi.

F.B.Köçərlinin tədris ocağında pedaqoji mühitin yaratmasını F.Seyidov belə səciyyələndirir. "F.B.Köçərli seminariyanın müəllimlərindən tələb edirdi ki, onlar böyük pedaqoji məharət və

---

1. Seyidov F. Maarifimizin təkrarsız xəzinəsi. B., 2001, səh. 55.
2. Yenə orada, səh.52



*Qazax Müəllimlər Seminariyasının binası*

mərifət göstərib tələblərin hər birinə fərdi yanaşsın və onları qabiliyyətlərinə görə işlətsinlər. Elə münasib və əqilli iş əhval-ruhiyyəsi və pedaqoji mühit yaratmışdı ki, orada aparılan işlərə təəccüb etməmək olmur".[1]

Daha bir önəmli fakt. ADR-in Maarif Naziri Həmid bəy Şaxtaxtinski Seminariyanın işiylə birbaşa maraqlanırdı və Firudin bəyə inanırdı. Naziri əlbəttə, təhsilin məzmunu daha çox maraqlandırırdı və dövrün tələblərinə cavab verməsində israrlıydı. Fikrət Seyidov H.B.Şaxtanxtskinin F.B.Köçərliyə göndərdiyi təliqəni arxivdən çıxarıb oxucuların nəzərinə çatdırmışdır: "Heç şübhə yoxdur ki, məktəblərdə seminariyalar üçün hal-hazırda proqramlar mövcuddur. Ancaq həyat bu proqramların yenilərilə əvəz edilməsini tələb edir. Köhnə proqramlardan lazım olmayanları, artıqları və az lazım olan materialları çıxarıb onları yenilərilə, yeni dövrün tələblərinə cavab verən məsələlərlə əvəz etmək və proqramda olan məsələləri bu gün nəzərə alan elementlərlə zənginləşdirmək lazımdır".[2]

---

1. Seyidov F. Maarifimizin təkrarsız xəzinəsi. B., 2001, səh. 57
2. Azərbaycan Respublikası, Tarix arxivi, F.797, s.-1, №19

Bu təliqəni oxuyanda istər-istəməz müqayisələr apardım günümüzlə. Sevindiricidir ki, biz də müstəqilliyimizdəyik, demokratik hökumətin varisiyik. Təhsil də diqqət mərkəzindədir, Təhsil Nazirliyi son İslahatların Müəllifinə çevrilmişdir. Üzümüzü Amerika, Avropa və qərb təhsil sisteminə tutmuşuq. Onlarla məmurlar bu ölkələri "su yolu" etməkdədilər, təhsilin məzmununa aid bəzi xaotik, abstrakt, vaxtı yetişməyən və s. faktorlarla bağlı sənədləri tərcümə və redaktə üsulu ilə məktəblərimizə sırımaqdadır. Milli təhsildən sürətlə uzaqlaşmaqdayıq. Dünya Bankından maliyə faktoru ilə uzun illik təhsil təcrübəmizi kənara atmaqdayıq. Unudulur ki, sivil dövlətin sivil iqştisadiyyatını, texnikasını, maddi-texniki bazasını və s. amilləri nəzərə almadan okeanları adlamağa dəyməz.

Mən bu sətirləri qələmə alanda F.B.Köçərlinin və H.B.Şaxtaxtinskinin ruhu önündə baş əydim.

Və baş əydim ki...

Və ona baş əydim ki, Yuxarıdan verilən göstərişlər yerlərdə qeyrət hissiylə, rüşvətxorluqdan, yerlibazlıqdan, qohumbazlıqdan uzaq icrasına başlanır. Necə ki, F.B.Köçərli bu məktubdan sonra Seminariyanın proqramını təzədən işləyir. Milli xüsusiyyətlərimizin tədrisə gəlməsinə diqqəti yönəldir, xüsusilə, dilimizin təmizliyinə çalışır. Türk ləhcəsindəki "şimdi", "əvət" və s. sözlərin çıxarılmasını təklif edir. F.Seyidov Firudin bəyin Abdulla Şaiqə yazdığı məktubundan aşağıdakı sözləri nümunə gətirir. "Proqramların cümləsindən ziyadə, sizin tərtib etdiyiniz mənə xoş gəldi. Əgər onda yazdığınız müddəalardan lazımsız sözlər çıxarılsın cümləsinə əməl olunarsa, onda tələbələr kursu tamam etdikdə, gərəkdir yaxşı savadlı olsunlar. Buna da mənim şəkkim yoxdur".[1]

Seminariyanın həm milli, həm də dünyəvi tədris prosesini qısa zamanda qurması tədqiqatçının diqqətindən yayınmamışdır. Bunun başlıca səbəbi ADR-in siyasi kursu ilə bağlı olmuşdur. Hökumət F.B.Köçərliyə Azərbaycan Tarixi kursu proqramını göndərmişdir. Proqramda türk xalqlarının, o cümlədən Azərbaycan türklərinin ta-

---

1. Abdulla Şaiq. Əsərləri, IV cild, səh. 420

rixini hərtərəfli əks etdirmişdir. Bunu nəzərə alan Fikrət Seyidov bu qiymətli sənədi bəhs etdiyimiz monoqrafiyasında tam vermişdir.[1]

F.Seyidov Qori Seminariyasının təcrübəsini araşdırarkən göstərir ki, tədris müəssisəsində Azərbaycan ədəbiyyatı keçilmir. Lakin mütərəqqi müəllimlərdən və maarifçilərdən F.B.Köçərli, R.Əfəndiyev, S.Vəliyev ana dili, milli ədəbiyyat barədə tələbələrə məlumat verirdilər. Biz bu vətənpərvərliyi böyük ədəbiyyatşünas Firudin bəy Köçərlinin iki cildlik "Azərbaycan ədəbiyyatı tarixi" fundamental kitabının nümunəsində əyani görürük. S.Vurğun, O.Sarıvəlli, Mehdi Hüseyn, İ.Şıxlı simasında görkəmli ədəbiyyatçıların yetişməsi məhz F.B.Köçərlinin xidmətiydi, seminariyada ədəbiyyata, sözə verilən qiymətdi. F.Seyidov bu nüansı xüsusi qeyd etməkdə haqlıdır.

Seminariyanın tələbələrdə kitab mütaliyəsinə maraq oyatması ayrıca həlqədir. F.Seyidovun yazdığına görə, F.B.Köçərli məcburi və könüllü ədəbiyyat siyahısını müəyyənləşdirir, dərs ilinin əvvəllərindən tələbələrin nəzərinə çatdırırdı. Belə halda mütaliyə formal ola bilməz, çünki oxunan əsər barədə tələbə öz müəllimini məlumatlandırırdı. Hətta əsərin məzmunu dəftərçələrdə qeyd edilirdi. Bu xatırlama məni 2 cəhətdən keçmişə apardı: hələ yeddiillikdə oxuyarkən mərhum ədəbiyyat müəllimim, unudulmaz Abuzər Ağayev ilk dərs saatında bir il müddətində oxuyacağımız bədii əsərlərin siyahısını yazdırırdı. Və bəzisi haqqında məlumat verirdi. Dərhal yığcam kitabxanada növbə yaranırdı. Elə kitab vardı vur-tut bir nüsxəydi, bu əsər də öz növbəsini gözləyirdi. İkincisi, ölməz yazıçımız İsmayıl Şıxlı bizə dərs deyəndə vurğulayırdı ki, oxuduğunuz əsərin məzmununu ayrıca dəftərdə qeyd eləyin, illər keçəcək, hər biriniz elə yerə düşəcəksiz o əsərləri tapmayacaqsız. Məzmunu oxuyanda dərhal oxuduğunuzu xatırlayacaqsız. Mən orta məktəbdə ədəbiyyatı öyrədəndə müəllimimin tövsiyəsi gərəyimə çevrilirdi. Allah hər iki Müllimimə rəhmət eləsin.

F.Seyidov işlədiyi Azərbaycan XDİ-də bunabənzər, Seminariya ilə müqayisə təxminiylə kitabxananın direktoru Ələddin Əliyevin eksperimentini verir. Və təəssüf ki, alınan nəticə mənfidir...

---

1. Seyidov F. Göstərilən əsəri, səh. 59-61

F.Seyidov Seminariyada tətbiq olunan sinifdənxaric-ekskursiya və gəzintilərin aparılması məsələsinə də toxunmuşdur. Bunun üçün "xüsusi komissiya" yaradılmışdı. Bir fakt bu gün də əhəmiyyətini itirməmişdir.

*1. Ekskursiyanın xarakteri;*

*2. Ekskursiyanın planı;*

*3. Tələbələrin gedəcək yerin xarakteristikası və quruluşu.*

Fikrət müəllim Seminariyanın müəllimi İsfəndiyar Vəkilovdan şəxsən aldığı xatirəni oxuculara çatdırmışdır:

"Biz kollektiv ekskursiya və gəzintilərə gedərkən F.B.Köçərlinin həyat yoldaqı Badisəba xanım da bizimlə gedərdi. O, çox həlim və mehriban olmaqla bərabər, həm də çox savadlı və ağıllı bir qadın idi. Bu tədbirlər zamanı o, getdiyimizin tarixini öyrənməkdə bizə kömək edər, topladığımız eksponatları, herbariləri yığıb qurutmaq yollarını başa salar, bizimlə bərabər böcəkləri saxlamaq üçün karton qutular düzəldərdi. Bir gün mən Qori Seminariyasında tələbə olarkən xəstələndim. Badisəba xanım məni yoluxmağa gəldi. O, bildirdi ki, kənddə xəstə olanlara əvəlikli isti verərdilər. Badisəba xanım mənə bir qab əvəlikli isti bişirib gətirmişdi. Mən onu ləzzətlə yedim, anam yadıma düşdü. Bu alicənab, yüksək mənəviyyatlı qadında anamın isti, məlahətli, şirin nəfəsini duydum. Mən sonra Stalin dövrünün repressiyasına məruz qalarkən Sibirdə xəstələndiyim zaman Badisəba xanımın əvəlikli istisini xatırladım. O, heç vaxt mənim yadımdan çıxmamışdı".

Qazax Seminariyasına qəbul qaydaları da orijinallığı ilə fərqlənmişdir. 1924-cü ildə Bakı Baş Tərbiyə İdarəsi yaradılır (rəhbəri Azad Əmirovdu) və həmən ildə Maarif Komissarlığı qanun qəbul edir. Tərkibi xalq maarifinin vəzifəli təmsilçilərindən ibarətdi. Abutiriyentlər lazımi sənədləri ərizələrinə qoşurdular.

Seminariyanın ayrıca Nizamnaməsi hazırlandı və dəyərli müddəalar vardı. Daha sonra Nizamnamə daha da təkmilləndirildi (9 bölmədən). Professor F.Seyidov Nizamnamədən bəzi xarakterik məsələləri fərqləndirmişdir:

*1. Şagirdlərin dini vəzifələri,*

*2. Dərslərə davamiyyəti və müvəffəqiyyəti,*

*3. Məktəb müdriyyətinə və tərbiyəçilərə münasibəti,*

*4. Şagirdlərin həyat tərzi,*

*5. Şagirdlərin məktəbdə və məktəbdənkənar ədəbi qaydalarına riayət etmələri,*

*6. Sinif üzrə növbətçi şagird üçün qaydalar toplusu,*

*7. Şagird məsuliyyəti.*

Pedaqoji proseslə bağlı bu qayda-qanunların hələ 20-ci illərdə tətbiqinə nail olan pedaqoji kollektivi xoş hisslə xatırlamaya bilmirsən. F.B.Köçərli 1920-ci ildə erməni quldurlarının xəyanətinin qurbanı oldu. Azərbaycan maarifi və ədəbiyyatşünaslığı böyük itkiylə barışmalı oldu. Lakin onun bir xoşbəxtliyi onda idi, layiqli kadr potensialı formalaşdırmışdı. Onlardan biri də Mehdi Hüseynin atası Əli Hüseynovdu. O, direktor kimi fəaliyyətə başladı.

Fikrət Seyidov ənənəsinə sadiq qalaraq Seminariyanın sağ qalan məzunu R.Axundovdan xatirə almışdır: "Əli çox qayğıkeş, tələbkar, intizamı sevən və gözləyən bir şəxsiyyət olmaqla bərabər, sərt və zəhmli idi. Onun məktəb daxilində və məktəbdənkənar tərbiyə işlərinə nəzarəti çox güclü idi. Heç kəs cürət edib onun işinə qarışa bilməzdi. O əsl maarifçi insan idi".

Seminariyaya yeni müəllimlər çağırdı. Məsələn, Süleyman Qayıbov, Yusif Əfəndiyev, Mirzə Əfəndi, Mahmud Bayramov, Abdulla Babanlı və digərləri məktəbə yeni nəfəs gətirdilər. Qabaqcıl təlim üsulları tədrisə ayaq açdı. Və qısa müddətdə Azərbaycanda Seminariyanın şöhrəti yayıldı. Professor F.Seyidov seminariyanın tədris-təlim prosesini müasirlik baxımdan araşdırmış, ən xırda xarakterik detallarını belə yaddan çıxarmamışdır. Belə ki, pedaqoji kollektiv köhnə təlim üsullarının əsirinə çevrilmədi, axtarışlarına sadiq qaldılar. Lakin bir müddət xaricdən gəlmə üsullar Sovet təhsil sistemində tətbiqinə başlayanda, Seminariya da kənarda qalmadı və bu mümkün də deyildi. Bunlardan "Labarator", "Ekskursiya", "Dalton-planı" və s. göstərir. Ümumiyyətlə, 30-cu illərdə bu üsullar SSRİ miqyasında birmənalı qarşılanmadı; Çelyuskin və Fridolin bu barədə məqalələr çap etdirdilər. Əsasən üç üsul (metod): "Laborator", "Ekskursyia" və "Dalton-planı" məqbul saydılar.



*F.Seyidov ingilis dili fakültəsinin dekanı olarkən elmi-tədqiqat işlərinin yekununa həsr edilmiş konfrans zamanı*

Sonuncu üsulun bu günün oxucularına maraqlılığını nəzərə alıb məzmununu veririk: a) şagirdlər fərdi yolla laboratoriyada işləyirlər; b) ehtiyac gələndə müəllimlərinə müraciət edirlər; c) Sonra zaçot verib, yeni göstərişlərini alırlar. Bu üsullar "Laborator briqada" üsuluna qovuşdu: a) Qüvvətli tələbələrdən biri seçilirdi; b)Bu tələbə briqada adından məlumat verirdi; c) Şagirdin aldığı qiymət bütün sinfə şamil edilirdi.

1925-ci ildən artıq Seminariya(lar) texnikum (pedaqoji) adıyla rəsmiləşdi. Müəllimlər hətta belə tipli tədris üsulları və digər qaydalarla razılaşmırdılar. Hətta Qazax Pedaqoji Texnikumun şurası 1928-ci il, 22 noyabr tarixində belə bir məsələ qaldırdı: "Tələbələr təyin olunan vaxtda materialı həll edə bilmir, bəzən çox çətinliklə baş çıxarırlar. Ləvazimat tədriciyənin kifayət qədər olmaması qrupda intizamın pozulmasına səbəb olur".

Müəllif texnikumda qadın təhsili məsələsinə ilk dəfə aydınlıq gətirmişdir. Azərbaycan SSR XMK-nın 1926-cı il 9 avqust tarixli qərarı Bakıda, 1928-ci ildə Qazaxda qızlarla oğlanların birgə təhsil alması haqda qərar verdi. Və yeni tədris planı hazırlandı.

Biz yuxarıda texnikumun nüfuzuna toxunmuşduq. Tədqiqatçı arxiv sənədlərinə əsasən Qazax Texnikumunun Azərbaycanda 23-ü sırasında Bakıdan sonra II yerdə durduğunu göstərmişdir. Rəqəmlərə diqqət yetirək: Bakıda 755 nəfər tələbə, Qazaxda 405 nəfər tələbə oxuyurdu (Rəqəm 1930-32-ci illərə aiddir).

1937-ci ildə Azərbaycanda pedaqoji seminariyalar, pedaqoji texnikumlar "Pedaqoji məktəb" adlandırıldı. Tədqiqatçı haqlı ola

raq yazır ki, Azərbaycan xalqına azadlıq şüarı altında qəsd edənlər, Azərbaycanda ermənilərin qırğın salmasına şərait yaradanlar və sonralar AKP-nin katibi olarkən ermənilərlə birləşib, Azərbaycan ziyalılarını bir-bir sıradan çıxarn mənfur Kirovun adını Qazax Pedaqoji məktəbinə qoydular.[1]

Professor Fikrət Seyidov məktəbin maliyyələşdirilməsi məsələsini vurğulayarkən yenə də arxiv sənədlərinə istinad etmişdir. 1935-1956-cı illəri. 20 illik bir dövrü. Hər halda mütəxəssislər bu günümüzlə müqayisədə konkret nəticələr çıxara bilərlər.

*Cədvəl №1*

| | Açılmış kredit | | | | | |
|---|---|---|---|---|---|---|
| Dərs illəri | Büdcə cəmi təsdiq olmuşdur | Zəhmət haqqı | İnventar | Tədris xərci | Təqaüd pulu | Kabinə təchizinə açılmış pul |
| 1935/36 | 728.235 | 138875 | 42160 | 47430 | 401760 | 26,370 |
| 1936/37 | 1.093460 | 295590 | 44200 | 18000 | 533760 | 8,300 |
| 1937/38 | 1.279.203 | 347242 | 51760 | 24000 | 660340 | 17.240 |
| 1938/39 | 1420.320 | 409216 | 58760 | 38900 | 691040 | 15,000 |
| 1939/40 | 1.234.590 | 449152 | 40000 | 28300 | 517650 | 11,000 |
| 1940/41 | 520.910 | 291370 | 41000 | 27820 | 80360 | 11.500 |
| 1941/42 | | | | | | |
| 1942/43 | | | | | | |
| 1943/44 | 440.274 | 208888 | 5000 | 5000 | 144960 | 3,000 |
| 1944/45 | | | | | | |
| 1945/46 | | | | | | |
| 1946/47 | 1.004491 | 371445 | 26000 | 20800 | 40800 | 11,000 |
| 1947/48 | 1.055.830 | 363470 | 22000 | 9900 | 449260 | 16,000 |
| 1948/49 | 1.148.100 | 343200 | 44400 | 22700 | 423100 | 20,800 |
| 1949/50 | 969.900 | 395600 | 38600 | 22600 | 351200 | 8,000 |
| 1950/51 | 855700 | 400700 | 26200 | 8600 | 293200 | 3,000 |
| 1951/52 | 762.200 | 338700 | 23300 | 6500 | 281400 | 3,000 |
| 1952/53 | 679.200 | 280000 | 24000 | 4900 | 251500 | 2,000 |
| 1953/54 | 565.200 | 262600 | 13100 | 4200 | 174900 | - |
| 1954/55 | 527700 | 241700 | 11100 | 3400 | 163500 | - |
| 1955/56 | 570.500 | 253300 | 11500 | 3200 | 194000 | - |

1. Seyidov F. Göstərilən əsəri, səh. 92.

Məktəbdə laboratoriyalar və kabinetlərin təşkili və zənginləşdirilməsi diqqətdə dayanmışdır. Məsələn, fizika kabineti (müdiri Abdulla Babanlı) 10-11 min manatlıq avadanlıq almışdır. Təbiət və kimya kabinetləri 14 min manatlıq, hərbi və bədən tərbiyəsi 6-7 min manatlıq avadanlıqla məchiz olunmuşdur. Bu rəqəmlər də mütəxəssislər üçün müqayisə baxımından maraqlıdır. 1947-1956-cı illərdə laboratoriya və kabinetlərdəki avadanlıq və onların xərcləri də maraq doğurur.

*Cədvəl №2*

| | Kabinələr | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Dərs illəri | Təbiyyət -kimya | Fizika-riyaziyyat | Hərbi və b/tərbiyyəsi | Tarix-coğrafiya | Pedaqoji | Nəğmə | Kitab-xana |
| 1947 | 16757 | 10.942 | 18.531 | 1.500 | 3.350 | 3.000 | 41.620 |
| 1948 | 18.368 | 12.850 | 18.531 | 1.500 | 3.350 | 3.000 | 28.941 |
| 1949 | 19.849 | 13459 | 20.398 | 1.286 | 2.292 | 5.842 | 35.297 |
| 1950 | 23.185 | 15459 | 26.246 | 1.286 | 5487 | 5.842 | 54.000 |
| 1951 | 29.330 | 23.168 | 33490 | 5.958 | 5487 | 5.842 | 57.130 |
| 1952 | 39777 | 29.948 | 34490 | 2.616 | 5487 | 9467 | 54749 |
| 1952 | 71738 | 84.181 | 53417 | 9.011 | 11.087 | 11.287 | 222686 |
| 1953 | 68.677 | 80.878 | 50.521 | 7.845 | 11.087 | 11.287 | 219814 |
| 1954 | 67.965 | 83457 | 51.817 | 7.845 | 11.087 | 12.196 | 218497 |
| 1955 | 64.887 | 80.903 | 49.142 | 7.189 | 9.163 | 10759 | 187380 |

Tədqiqatçı Qazax Müəllimlər Seminariyasında qızların təhsilinə qayğısını xüsusi qeyd etmiş və bu işdə məktəbin direktoru Əhməd Ağa Mustafayevin rolunu xüsusi qiymətləndirmişdir. Arxiv materialları bir yana, F.Seyidov sağ qalanları, habelə atası Əhməd müəllimin sonralar Pedaqoji İsntitutda dərs verdiyi məzunları da arayıb tapmış, danışdırmış, xatirələrini almışdır. Bu fədakar alim-pedaqoq yazır: "1920-ci ildə Qazaxda açılan Qızlar Seminariyasındakı şöbəyə ilk məzunlar gəldi. Onlar Dilrubə Mustafayeva,

Dürrə Mustafayeva, Dilşad Şıxlinskaya, Validə Mustafayeva (Dürrənin bacısı), Səlimə Əfəndiyeva, Həbibə Mustafayeva və familiyasını tapa bilmədiyimiz Kövsər xanım oldular.[1]

Dilrubə Mustafayeva sonralar Ə.Seyidovun aspirantı olur və "Abdulla Şaiqin pedaqoji görüşləri" mövzusunda dissertasiya müdafiyə etmiş, ömrünün sonuna qədər BDU-nun dosenti işləmişdir.

Bir haşiyə çıxım ki, mən 1971-ci ildə dissertasiya işimi tamamlamışdım. Pedaqoji İnstitutunun "Pedaqogika" kafedrasına təqdim etməliydim. Azərbaycan DETPİ-də Elmi Şuranın sədrini əvəz edən bir pedaqoq (indi yaşayır, Allah canına dəyməsin) başqasının əliylə badalaq vurub, məni bir il ləngitdi. Nə isə... Mərhum professorla, elmi rəhbərimlə opponentlik məsələsi barədə söhbət eləyirdik. O, dedi ki, Universitetdə mənim tələbəm işləyir, Dilrubə Mustafayevadır, onunla görüş, mehriban xanımdır, yaşlıdır. Getdim, Universitetdən çıxanda ona yaxınlaşdım, salam verdim, ayaq saxladı.

Məni professor Seyidov yanınıza göndərib, - dedim.

O, ani duruxdu, gözləri parladı, baxmayaraq bu gözlərdə cavanlıq qaynarlığı yoxuydu, əvəzində sifətindəki nur payını işıqlandırmağa qadirdi.

- Buyur, oğlum, nə lazımdı?

Sualdan çox müəlliminə ehtiramın kövrək vahiməsini duydum, sevincini hiss elədim ki, bu xahişi acizanə yerinə yetirsin.

Qəribədir, mən də özümü itirmişdim ki, adımı, kimliyimi deyim. O, astadan soruşdu:

- Hansı institutdan gəlmisən? Nə istəyirsən?

- Dilrubə müəllimə, dissertasiya müdafiyə eləyəcəyəm, sizin opponentliyinizi professor məsləhət görüb.

Onun da yadına düşdü ki, biz elə küçədə durub danışırıq.

Yeridik, üzü dayanacağa sarı.

- Oğlum, baş üstə, amma mən. - Susdu, bir-iki addım yeridik.

---

1. Seyidov F. Göstərilən əsəri, səh. 100.

- Sağ olsun professor, tələbəsini unutmayıb. - Yenə də sözünü tamamlamadı.

Mənisə həyəcan əldən salırdı, sanki onun cavabı ağır qanteldi, gücüm çatmayacaqdı eşidim:

- Mümkündümü, iki-üç gündən sonra gələsən. Bəlkə?

- Bilmədim bu sonuncu kəlmə sualdımı, yoxsa Allahdan nəsə umurdu.

Ayrıldıq, bir-iki gün professorun kafedrasına getmədim ki, konkret cavabım yoxuydu.

O biri həftə Universitetə gəldim, kafedradan Dülrubə xanımı xəbər aldım, dərsdə olduğunu bildirlər, bir qız hətta nəzakətlə hansı mərtəbədə, hansı auditoriyada olduğunu da dedi. Və gözlədim, o da birbaşa kafedraya yox, aşağıya düşdü. Xeyli gedəndən sonra utana-utana yaxınlaşıb salam verdim. Dərhal tanıdı, əlini uzatdı, görüşdü.

- Oğul, neçə gündü, fikirləşirəm ki, professorun təklifini yerinə yetirim. Amma. - Susdu. - Əlini çiynimə qoydu. Mənə elə gəldi bu mehriban, həlim, arıq, alçaqboylu müəllimə haçansa mənə dərs deyibdir və ilk dəfədi şagirdininin ərklə çiyninə toxunur. Və elə bildim.

- Bərk ağrılarım başlayıb, oğul - dilləndi. - Fikirləşdim ki, bəlkə halım yaxşılaşa. Görürəm. - Susdu. Əlini çəkdi, yüngülləşdim, həm də içimdə kədər hissi çırpındı: xəstədi, yaşdı, eh, daha nələr. - Nə lazımdı eləyərəm, birdən ölərəm, sənin işin ləngiyər. Onnan qorxuram, oğul.

Dilrubə xanımın qırışmış, amma abırlı, həyalı sifətinə baxmağa cəsarət göstərmədim.

- Lazımdı, professora zəng eləyim ki.

Nə "hə", nə də "yox" dedim. Minnətdarlığımı çatdırıb ondan ayrıldım.

Əhməd Seyidovun kafedrasına gəldim, məsələni danışdım. Ciddi, hər şeyə dərhal reaksiya verməyən professor fikirə getdi. Duydum ki, ötən o illərə qayıtdı, olub-keçən o çağlar vərəqləndi.

-Hə, zəng eləmişdi. - dedi professor. - Yaxşı, Ənvər Məmmədovu fikirləşdim. O da mənim tələbəm olub. Bizim Fikrətlə bir yerdə işləyirlər. - dedi. Vəssalam.

Dilrubə Mustafayeva az sonra rəhmətə getdi. Ənvər Məmmədov opponetim oldu. Allah hər iki pedaqoqa, insana və hər üçümüzün elmi rəhbəri və müəllimi olmuş Əhməd Seyidova rəhmət eləsin, qəbirləri nurla dolsun.

* * *

Fikrət müəllimlə Dəniz kənarında söhbət edirdik. Kamal Dadaşov da bizimləydi. Biz skamyada əyləşdik, qaçmağı, idman hərəkini xoşlayan Kamal müəllim öz işindəydi. Bilirdim ki, Fikrət Seyidov Qazax Müəllimlər Seminariyası haqqında monoqrafiya yazır və məsləhətləşməmiz də olurdu. Mən də dediyirdim ki, hissə-hissə ver oxuyum. - Yarımçıq əsəri verməzlər. - Allahverdi, demişdi. Bu dəfə Fikrət dedi:

-Kitabda istəyirəm Seminariyada təhsilin məzmunu məsələsini işıqlandırım. Bu, əsəri ağırlaşdırmaz ki?

-Lazımdı məncə. -Cavab verdim.

-Bu gün müqayisə aparmaq üçün də maraqlı olardı.

Az sonra Fikrət müəllim tam halda monoqrafiyanı verdi mənə.

Budur, əsərdə Qazax seminariyasında təhsilin məzmunu ayrıca tədqiqat obyektidir və onun müəllifinin elmi araşdırmasındakı diqqətlilik, səbrlilik, tarixə müasir baxış və sairin şahidi oldum. Tədris planının məzmununu əks etdirən atributlar detallarınadək nəzərdən qaçırılmamışdır.

Tədris planları: 1921-ci ilə kimi Seminariya ADR-in qəbul etdiyi Qori Seminariyasının Azərbaycan şöbəsinin planı ilə işləmişdir. 1921-ci ilin oktyabrından etibarən Müəllim Seminariyasının Nizamnaməsi və Tədris planı hazırlanıb yerlərə ünvanlanmışdır. Peşəkarlıq baxımından oxucular üçün planın bir maraqlı cəhəti də odur ki, həftəlik dərs saatları yeməkdən əvvəl və sonrakı məşğələlərlə əks olunmuşdur. Biz bunu şərh etmək istəmədik, sadəcə, hər iki cədvəli bütövlükdə verməyi məqsədəuyğun saydıq.

## Həftəlik dərs saatları (Yeməkdən əvvəl)

*Cədvəl № 3*

| № | Tədris edilən fənnlər | I | II | III | IV | Cəmi |
|---|---|---|---|---|---|---|
| 1. | Azərbaycan dili və metodikası | 6 | 4 | 3 | 3 | 16 |
| 2. | Rus dili | 3 | 3 | 2 | 2 | 16 |
| 3. | Fizika | 3 | 3 | 2 | - | 8 |
| 4. | Botanika | 2 | - | - | - | 2 |
| 5. | Zoologiya | - | 2 | - | - | 2 |
| 6. | Kimya | 2 | - | - | - | 2 |
| 7. | Minerologiya və geologiya | - | 2 | - | - | 2 |
| 8. | Riyaziyyat və və metodikası | 4 | 3 | 3 | 3 | 13 |
| 9. | Anatomiya və fiziologiya | - | - | 2 | - | 2 |
| 10. | Coğrafiya və təyinat metodikası | - | - | - | - | 1 |
| 11. | Coğrafiya | 2 | 2 | 2 | - | 6 |
| 12. | Mədəniyyət tarixi | 2 | 2 | 2 | - | 6 |
| 13. | İctimaiyyət və sovkonstruksiyası | - | - | - | - | - |
| 14. | Pedaqoji və pedaqoji tarix | - | - | 3 | 2 | 5 |
| 15. | Didaktika | - | - | 1 | - | 1 |
| 16. | Psixologiya və məntiq | - | - | 2 | - | 2 |
| 17. | Məktəb gigiyenası və ilk yardım | - | - | - | 2 | 2 |
| 18. | Rəsm | 2 | 2 | 1 | 1 | 6 |
| 19. | Təcrübə dərsləri | - | - | - | 10 | 10 |
| | **CƏMİ:** | **26** | **23** | **25** | **24** | **98** |

**Yeməkdən sonrakı məşğələlər**

*Cədvəl № 4*

| № | Tədris edilən fənnlər | I | II | III | IV | Cəmi |
|---|---|---|---|---|---|---|
| 1. | Botanika | 1 | - | - | - | 1 |
| 2. | Zoologiya | - | 1 | - | - | 1 |
| 3. | Anatomiya və fiziologiya | - | - | 1 | - | 1 |
| 4. | Kimya | 1 | - | - | - | 1 |
| 5. | Minerologiya və geologiya | - | 1 | - | - | 1 |
| 6. | Kənd təsərrüfatı | - | 2 | 2 | - | 4 |
| 7. | Fizika | 1 | 1 | 2 | - | 4 |
| 8. | Texnika və əl zəhməti | 2 | 2 | 4 | 4 | 12 |
| 9. | Bədən tərbiyəsi | 2 | 2 | 2 | 2 | 8 |
| 10. | Musiqi və nəğmə | 2 | 2 | 2 | 2 | 8 |
| 11. | Nümunə dərsinin təhlili | - | - | - | 6 | 6 |
| | **CƏMİ:** | **9** | **11** | **13** | **14** | **47** |
| | **YEKUNU:** | **35** | **34** | **38** | **38** | **145** |

Proqramlar: 1928-ci ildən yeni tədris planı, proqramlar və pedaqoji təcrübə və s. məsələlər qəbul edildi, orijinal idi. 1926-1931-ci illərdə bütün tədris müəssisələrində "Kompleks", yaxud "Kompleks-layihə" adlı məşhur proqramlar işlədildi. İkincisi onunla seçilirdi ki, bilavasitə əməli-praktik xarakterliydi. Amma müəllimin funksiyası inkarı yeni bir proqramda - "Laborator - briqada" üsulunda vardı. O, bir növ tələbənin məsləhətçisi rolunu oynayırdı. Təbii ki, bu məsələ SSRİ miqyasında ciddi narahatçılıq doğurdu və iki qərar çıxarıldı: 1. 1932-ci il 25 avqust tarixli və 2. 1932-ci il 19 sentyabr tarixli "Ali məktəb, ali texniki və texnikumlarda dərs proqramları və rejim haqqında" MK-nın. Xüsusilə, sonuncusu xeyli müsbət addım idi və kadr hazırlığında işini gördü.

Dərsliklər: Bu, daima diqqət mərkəzində olmuşdur, ona görə ki, əsasən şagirdlər (tələbələr) nəzərdə tutulmuşdur və mövcud ideologiyanın maraqları daha çox bu kitablarda özünü tapır. Məz-

munca və və mahiyyətcə bədii, elmi, sosial xarakterli mətnlərdə lazımi məsələlər verilir, şagirdlərin yaddaşına ötürülür, sonralar bu "zəhərli" hadisələri, faktları unutmaq çətinləşir, bəlkə də mümkünsüzləşir. K.D.Uşinskidən əsası qoyulan orijinal, didaktik tələblərə cavab verən dərslik ənənəsi Azərbaycan maarifçiləri tərəfindən davam etdirildi, hətta öz inkişaf mərhələsinə çatdı. D.L.Semyonov və F.B.Köçərli də istisna olmamışdı.

1918-ci il 13 dekabrda seminariya, xalq maarif inspektorları və ali ibtidai məktəblərin müdirlərindən ibarət qurultayı çağrılır. Maarif Naziri H.Şaxtaxtinski, idarə rəisi A.Əmirov, məktəb direktorluğunda S.M.Qənizadə və başqa ərazilərdən iştirak edənlərin iradəsiylə o cümlədən, dərsliklərdən istifadənin mümkünlüyü və yeni dərsliklərin yaranması idi. S.M.Qəniyev, H.B.Nərimanbəyov, R.B.Əfəndiyevdən ibarət komissiya yaradıldı. Beləliklə, köhnələrdən "Türk əlifbası" (M.Mahmudbəyov), "Vətən dili" (A.O.Çernyayevski), "Rəhbəri cəbr" (Qəbulov), "Hesab elmi" (H.Usubbəyov), "Gülzar" (A.Şaiq) və sairin istifadəsi məqbul sayıldı.

Qazax Seminariyasında tədris prosesinə kompleks yanama başlıca məsələ olmuş və bu, məktəbin idarəedilməsi işində əsas həlqə idi. Nəzəriyyə ilə praktikanın vəhdəti bu amillərsiz qeyri-mümkündü. Professor Fikrət Seyidov mövzunu tədqiq edərkən əhatəli müqayisələr aparmış, canlı şahid müəllimləri dinləmiş, ümumiləşdirmələr aparmış və sözünü demişdir. Buraya saralmış arxiv materiallarını da əlavə etsək, məsələyə optimal yanaşa bilərik. Belə ki, Seminariyada pedaqoji təcrübə, sinifdənxaric və məktəbdənkənar işlər, tələbə təşkilatlarının fəaliyyəti, tədris - tərbiyə prosesiniə rəhbərliyin əsasları və metodik iş - bütün bunların miqyası genişdir.

Bir haşiyə çıxmaq istərdim: hansı ki, bu gün də təhsil sistemində problemə çevrilməkdədir. Nədir ki, bu belə çətindir, mümkünsüzdü? Mümkünsüz yalnız ölümdür və labüddür. Sadəcə, subyektivlik olmasaydı... Gəlin, Qazax Seminariyasına qayıdaq. Müdiri XMK təyin edirdi, - təsdiqləyirdi. Qalan işçilərsə seminari-

yanın rəhbərliyilə qəbul olunur və çıxarılırdı. Məncə, əsas halqələr bu fiqurlardır. Bu gün necədir? Təhsil Nazirliyi ilə Yerli İcra Hakimiyyəti sanki rəqiblərdir bu təyinatda və təsdiqdə. İkincisinin zəmanəti olmasa cavabdeh Nazirliyin heç bir səlahiyyəti çatmır. Texnikumların (kolleclərin) və universitetlərin (institutların) direktorlarını və rektorlarını isə Prezident təyin edir. Paradoks odur, azad etmək imzası Təhsil Nazirinə məxsusdur. Analoqu olmayan bir kəşf!

Olmazmı orta məktəbdən başlayaraq sonrakı pillələrin kadr potensialı optimal dəyişməz hansısa Qanunla təsbit edilsin?

İntuitiv kəsdirdim ki, sevimli oxucularım şəxsiyyət məsələsini qoyduğumu unutmayıblar və bələkə də konkret "vədi"n intizarındadılar. Amma mən baxmayaraq diqqəti təhsilə, onun tərkib hissələrinə, fiziki obyektlərə yönəltdim. Amma mən bu "daşınmaz mənəviyyatın" (ifadə bizimdir) özündə də şəxsiyyətləri görürəm, Təhsil (Maarif) olan yerdə İnsan (müəllim) dayanır, onun fəaliyyəti durur. Qazax Müəllimlər Seminariyası məhz böyük vətənpərvər pedaqoqlar tərəfindən yaradılmış, idarə olunmuşdur. Adları çəkilmiş məzunlar hələ sağlıqlarında müdriklik zirvəsinə ucalmışlar, ona görə ki, onlar Zamanın inkişaf gedişini praqnozlaşdırmağı bacarmışlar. Onlar Vətəni sevirdilər, onun doğduğu övladların gələcəyini düşünürdülər. Yaxşı bilirdilər ki, təhsili unudulan və laqeydliyin qurbanına çevrilən Məmləkət məhkumluqdu. Ona görə ki, bu qurbanlığın və məhkumluğun obyekti Uşaqlardı. Bu hissi qiymətləndirmək istəməyən hökmdar da, ata da öyünməyə cəhddə bulunmamalıdı. Hökmdarın sərhədsiz torpağı olsa da, atanın hesabını itirdiyi övladları olsa da hər iki vətəndaş Müdrikliyə yaramaz şəxsdilər. Çin filosofu Kofusiya yazmışdı: "Müdriklik adamların necə inkişaf etdiyini diqqətlə izləməkdən yaranır". Əslində müdrikliyə yol sadədir; əlbəttə, yalnız tərəqqidə insanları axtarasan. Qoridən gələn Qazax Seminariyası 33 illik fəaliyyətində 2300-dən çox müəllim hazırlamışdır! Halbuki Qori Seminariyası 42 illik kəsikdə 250- məzunu ilə öyünə bilər. Bu müqayisə kəmiyyətin

keyfiyyətə uduzması, yaxud udması deyil. Və Qorinin xidmətlərini unutmaq nankorluq olardı. Sadəcə, Qazax torpağı və təhsili daima ziyalıları ilə də fəxarət duymuşdur. Amma ona heyifslənirəm ki, son 30-35 il ərzində bu elatın kadralırı bütün idarəetmə sferalarında arxa plana adlamışdır. Azərbaycana daima kadr verən savadlı, təmiz, istedadlı ziyalıların qədr-qiymətini nəzərə almamq da insafdan deyil. Axı, ayrı - seçkilik də bəşəri hiss deyil...

Professor Fikrət Seyidov məzunların bütün siyahısını tam əhatə etməyin mümkünsüzlüyünün təəssüfini çəkir: Arxiv sənədləri qəsdən yandırılmış, it-bata salınmışdır. Buna baxmayaraq o, bütün imkanlarını səfərbərliyə almış, özündən sonra pedaqoji elmə, gələcək nəslə əvəzsiz yadigar vermişdir. Bu şəxsiyyətlərin adları pedaqogika və ədəbiyyatda, tarix və riyaziyyatda əbədiləşmişdir. Bizi ilk növbədə Qazax Seminariyasının direktorları maraqlandırmışdır: F.B.Köçərli (1863-1920) ilk direktor olmuşdur. Bu şəxsin xalqımızın yaddaşında ömrü ölməzdir. Əli Hüseynov (1886-1940) ilk təhsilini doğulduğu II Şıxlı kəndində almışdır. Ə.Hüseynov sonralar (1923) müxtəlif vəzifələrdə çalışmışdır. Əhməd Qurbanov, Mirqasım Əfəndiyev, Əli Yaqubov, Əli Əliyev, Məcid Tağıyev, Əhməd Cəlilov müxtəlif dövrlərdə təhsil ocağına rəhbərlik etmişlər.

Qazax Seminariyasının məzunlarını mən deyərdim ki, bir-birindən seçmək düzgün olmazdı, hamısının maarifçilik xidmətləri yetərincədir. Lakin biz bioqrafik məlumatlı məzunlardan milli ədəbiyyatımızın inkişafında misilsiz xidmət göstərmiş Səməd Vurğunun, Osman Sarıvəllinin, Mehdi Hüseynin və İsmayıl Şıxlının adlarını çəkməyə bilmərik.

Professor Fikrət Seyidovun tədqiqatının özünün bir tədqiqata ehtiyacı vardır. Hərçənd, mən monoqrafiyanı oxuyanda dərinə getmək istədimsə, gördüm çətin işdir və düzü, ön sözə bənzər nəsə yazmağı planlaşdırmamışdım. Elə bil duymuşdum ki, haçansa qayıdacam mövzuya və yanılmadım da. Nöqtəni qoymazdan əvvəl o qeydlərimdən bir parçanı xatırlatmaq hissini də unutmadım. Zənnimcə... "Fikrət Seyidov isə uzun illər qəlbində və yad-

daşında yaşatdığı o maarifçiləri, onların dərs dediyi o Seminariyanı bu günün dövrünə gətirmişdir. Nə qədər əzab çəkdiyini də, kövrək sarsıntı keçirdiyini də duydum bu əsərdən. Və onun nə qədər böyük İnsan, Pedaqoq, Varlı olduğunu yaddaşıma köçürdüm ki,... bəlkə ömür vəfa verdi, elə öz müəllimim, görkəmli alim, professor Fikrət Seyidov haqqında samballı bir kitab qələmə aldım. Bəlkə də..."

P.S. Mən Qazax Müəllimlər Seminariyasında bu və ya digər yönümdən şəxsiyyət məsələsini vurğulamışdım. Ona görə ki, şəxsiyyət yoxdursa, o mühitdə ziyalı havası çatışmır, hətta uşaq da darıxır. Qazax MS-ona görə misilsiz uğurlar qazanmışdı ki, Firudin bəy əsil vətənpərvər şəxsiyyətləri ətrafına toplamışdı və şəxsiyyətlər də formalaşdırmışdı.

Xeyli götür-qoydan sonra əlbəttə, Fikrət Seyidovun tədqiqatlarına üz tutdum. Amma müəllifin özünün etiraf etdiyi kimi: 1917-ci ildə Qori Seminariyası son buraxılışı ilə fəaliyyətinə xitam verdi və bu intəhasız iş Qazax Seminariyasına tapşırıldı. Amma məzunların sayını dəqiqləşdirmək müşkül məsələdi. Bu siyahını dəqiqləşdirmək də mümkünsüzdü. Hər halda unudulanlar unudulmamalıdı, artıq onlar haqq dünyalarındadı. Birdən xatırladım ki, professor F.Seyidov bu "Unudulmaz təhsil məbədi"ndə yetişən şəxsiyyətləri imkanı daxilində anmışdır: həm dərs deyənlər, həm də məzunlar. Daha maraqlı faktlar. Mən qərara gəldim ki, F.Seyidovun daha bir araşdırmasını, hansı ki, oxucular üçün naməlum, qaranlıq məqamlara aydınlıq gətirmişdir...

Və vergülünə, nöqtəsinə əl vurmadan oxucularıma təqdim edim. Bu, həm də mənim mənəvi borcum olardı.

1917-ci ildə Qori Seminariyasının son buraxılışı idi. Seminariyanın Azərbaycana gətirilməsi onun inspektoru F.Köçərliyə nəsib oldu. Onun Qazaxda açılması barədə heç bir elmi əsası olmayan, bir sıra uydurmalar gəzir və mübahisələr gedir. Həqiqətən isə belədir: 1918-ci il dekabrın 28-də Azərbaycan Respublikasının Gəncə xəzinədarı F.Köçərliyə yazırdı: "Tatar şöbəsinin Qori şə-

hərindən Qazaxa köçürülməsi ilə əlaqədar bizim fonddan göndərdiyimiz 5.000 manat pulun verilməsi barədə tələbnaməni iltizamnamə ilə birlikdə geri göndərəsiniz".[1]

Buradan göründüyü kimi, Qori seminariyasının Qazaxa köçürülməsi bəzilərinin yazdığı kimi, təsadüfi hal olmayıb ADR hökumətinin əvvəlcədən planlı qərarının nəticəsi olmuşdur. Qori Seminariyasının Qazaxa təsadüfi köçürülməsi barədə arada gəzən şayiələr haradan əmələ gəlmişdir? Qori seminariyasının son buraxılışlarından olan Yusif Qasımov və Əhməd Seyidovun, Qazax seminariyasının ilk buraxılışlarından olan Hacıbala Hacıyev, R.Axundov, Mirqasım Əfəndiyev, Əhməd Əhmədov, Osman Cəfərov, Abdulla Vabanlının bizə verdikləri yazılı və şifahi xatirələrinə görə, F.Köçərili seminariyanın əmlakını qatara yükləyib Azərbaycana gətirərkən gürcü canişini bundan xəbər tutur. General-qubernator kəsə yolla gəlib Ağstafada qatarı saxladır. F.Köçərlinin həyat yoldaşı Badi-Saba xanımın qohumları onunla görüşmək üçün Ağstafa qatarının qarşısına gəlirlər. Firudin bəyin gəlişindən xəbər tutan Qori seminariyası məzunlarının Qazaxda işləyən böyük bir dəstəsi də F.Köçərli ilə görüşmək məqsədilə qatarın qarşısına çıxır. Gürcü canişini ilə Badi-Səba xanımın qohumları Salahlı bəylərinin arasındakı tanışlıq gürcü canişinini geri qayıtmağa məcbur edir. Qori seminariyasının Qazaxdakı keçmiş məzunları seminariyanın əmlakını tələsik qatardan boşaldıb Qazaxa aparırlar.

Nəhayət, Qazax seminariyası 1918-ci il noyabrın 10-da təntənəli şəkildə açıldı. Əli Hüseynovun yazdığına görə F.Köçərlinin sədrliyi ilə seminariyanın təntənəli açılışında o zaman Qazaxda yerləşən türk ordusunun komendantı Səbri bəy, türk qarnizon rəisi Cəməl bəy, Qazax rəisi Haley bəy Şıxlinski, xalq məktəbləri inspektoru Qiyasbəyov, ali məktəblər inspektoru Əhməd ağa Mustafayev, yerli hökumətin məmurları, şəhər adamları və seminariyaya daxil olacaq ilk şagirdlərin valideynləri iştirak edirdilər.

---

1. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi. Fond. 797. S-1, sax.19

F.Köçərli Qoridən Qazağa gələrkən üç nəfər dərin savadlı, intellektual səviyyəli müəllim və metodistdən İbrahim Qayıbovu, Mirzə Vəliyevi və Mustafa Məmmədovu da özü ilə bərabər gətirmişdir.

F.Köçərli demokratik respublikaya qədərki bütün istək və arzularını həyata keçirmək üçün geniş fəaliyyət dairəsi əldə etdi. Ona bu fəaliyyətində Qazağın kəndlərində işləyən Qori seminariyasının keçmiş məzunlarından Əli Hüseynov, Əhməd Seyidov, Osman Əfəndiyev, Səlim Əfəndiyev, Osman Şıxlinski və başqaları yaxından kömək edib oxutdurduqları layiqli tələbələrdən bu seminariyaya göndərirdilər. Məsələn, Aslanbəyli kəndindən Əhməd müəllim dərs deyib oxutduğu Süleyman Seyidov, Nadir Seyidov, Məhəmməd Məhəmmədov, Həmid Mustafayev, Həmid İsmayılov, Əli Zeynalov, Mansur Yaqubov və bir çox başqalarını göndərdi. Mehdixan Vəkilov xatirələrində yazırdı ki, məni məktəbə qəbul edəndə Səməd Vurğun da ora daxil olmaq istədi, lakin o, boyca və yaşca balaca olduğundan F.Köçərli onu məktəbə qəbul etmək istəmirdi. Səməd Vurğun F.Köçərliyə deyir: "Sən nə bilirsən bu başda nələr var." Belə kəsərli cavabdan xoşhal olan F.Köçərli onu qəbul edir. F.Köçərli çalışırdı ki, seminariyaya istedadlı şagirdlər gəlsin. Bu məqsədlə o, məktəbə topladığı İbrahim Qayıbov, Mustafa Məmmədov, Əhmədağa Mustafayev, Mirzə Vəlizadə, Yusif Qasımov, Əli Hüseynov Məyiş Hüseynov və H.Şıxlinski kimi ilk qəbul etdiyi müəllimləri Azərbaycanın müxtəlif rayonlarına tələbə toplamağa göndərir. Bu təbliğat və seçmə üsulu özünün müsbət nəticəsini verdi. Seminariyaya tələbələr təkcə Qazaxdan deyil, eləcə də Quba, Gəncə, Laçın, Cəbrayıl, Şamaxı, Göyçay, Naxçıvan, Zaqatala və digər rayonlardan gəlməyə başladılar. F.Köçərli başda olmaqla, bu müəllimlər topladığı istedadlı tələbələrlə və özlərinin zəhmətli, namuslu əməyi ilə Qazax seminariyasının rolunu və nüfuzunu qaldırdılar. Ona görə də xalq öz uşaqlarını məmnuniyyətlə bura oxumağa göndərdi.

Azərbaycan Demokratik Respublikasından ruhlanan Müsavat Partiyasının üzvü F.Köçərli Qazaxda təkcə müəllim, direktor deyil,

həm də ictimai xadimə çevrildi. O, burada yaşlılar üçün savad kursu açdı, yetimlər evi təsis etdi, qaçqınlara yardım fondu kimi bir çox faydalı işlər gördü. 1920-ci ildə F.Köçərli erməni quldurlarının xəyanəti nəticəsində həlak olduqdan sonra xalq yazıçısı Mehdi Hüseynin atası Əli Hüseynov Qazax Seminariyasının direktoru oldu. Əli Hüseynov direktor olarkən seminariyanı yeni müəllim kadrları ilə təkmilləşdirərək ora ədəbiyyat müəllimi Süleyman Qayıbova, Yusif Əfəndiyevi, coğrafiya müəllimi Mirzə Əfəndini, daha sonra isə orta yaşlı təbiət müəllimi Mahmud Bayramovu, fizika müəllimi Tahir Abdullayevi, Abdulla Babanlını, ədəbiyyat müəllimi Əkrəm Cəfəri, rus dili müəllimi Əhmədağa Gülməmmədovu, alman dili müəllimi Alyoşa Mustafayevi gətirdi. Seminariyanın gərgin əməyi öz böhrəsini verdi. Birinci buraxılış oldu. Bunlar Səməd Vurğun Vəkilov, Mehdixan Vəkilov, Mirqasım Əfəndiyev, Məhəd Abbasov, Mirəli Mirəliyev, Nəsrəddin Mirzəyev, Osman Əfəndiyev idilər. İkinci buraxılışda isə Mustafa Əliyev, Mirpaşa Nəsibov, Əsgər Xasməmmədov, Hüseyn Nəsibov, Yusif Yusifov və b.

Qazax seminariyası Azərbaycanın bir sıra əməkdar müəllimlərini yetirdi. Onlardan Osman Cəfərov, Mirqasım Əfəndiyev, Bilal Əhmədov. Əhməd Əhmədov, Növrəstə Qaibova, Osman Əfəndiyev, Nüsrət Aşırov, Tükəzban Budaqova, Şirin Həmşəyev, Əsgər Mahmudov, Şirin Məmmədov, Babanlı Abdulla, Aslan Babaxanov, Mahmud Süleymanov, Fərhad Əliyevin adlarını fəxrlə çəkmək olar. Qazax seminariyası məzunlarını təkcə müəllim kimi deyil, həm də təşkilatçı kimi formalaşdırıb dövlət aparatının müxtəlif strukturunda işləyən fəal xadimlər kimi yetişdirmişlər. Onlardan uzun müddət partiya komitəsinin katibi, icraiyyə komitəsinin sədri işləmiş Əsgər Xasməmmədov, Məcid Tağıyev, Barat Kərəvəliyev, Əli Yaqubov, Qəhrəman İbrahimov, Gədəbəy rayonundan Əli Rəsulov, Mamed Mehdiyev, İrəvandan Abbas Mazanov və b. göstərmək olar. Biz bunlardan əlavə seminariyanın və onun davamı olan pedaqoji məktəbin aşağıda adları çəkilən görkəmli nümayəndələriylə ictimaiyyətimizi tanış etmək istərdik.

1943-cü ildə Mirqasım Əfəndiyev Böyük Vətən müharibəsi dövründə Qazaxda maarif müdiri olmuşdur. Mirqasım müəllim Səməd Vurğun Vəkilovla Qazax seminariyasında bir sinifdən oxumuş və ömürlərinin sonuna kimi möhkəm dost olmuşlar. Mirqasım müəllim maarif müdiri olarkən görür ki, maarifin arxivində Qazax seminariyasının tarixi ilə əlaqədar çoxlu materiallar var. Bu materiallar içərisində F.Köçərli, Əli Hüseynov, Əli Mustafayev, Əhmədağa Mustafayev və bir çox başqa maarif xadimlərinin qiymətli əlyazmaları, məruzə və çıxışları, seminariyanın protokolları, müəllim və tələbələrin şəxsi işləri var və bu materiallar günügündən dağılır, cırılıb məhv olurdu. Maarif tariximizin bir hissəsi olan bu sənədləri gələcək nəsillərə salamat çatdırmaq məqsədilə Mirqasım müəllim cildçi çağırır və seminariyanın bütün sənədlərini kitabça şəklində cildləməyi tapşırır. O zaman Qazaxda adı yadımdan çıxıb, bir qadın pedaqoji məktəbin direktoru işləyirmiş. O, təhlükəsizlik idarələrinə telefon edib xəbər verir ki, Mirqasım müəllim Hitlerin gəlməsini ləyaqətlə qarşılamaq üçün keçmiş materialları səliqəyə salıb onları cildlədir. Bu xəbər izsiz qalmır. Mirqasım müəllimin dediyinə görə Qazaxa Bakıdan Təhlükəsizlik Komitəsindən bir erməni gəlir. O, cildlənmiş arxiv materiallarını yandırmaq haqqında qərar verir və Mirqasım müəllimi tutduğu vəzifədən azad edib cəbhəyə "cərimə batalyonuna" göndərir. Bundan xəbər tutan Səməd Vurğun həmişə olduğu kimi, bu dəfə də xalqa, maarifə xidmət üstündə günahsız ittiham olunan dostunu müdafiəyə qalxır, müxtəlif idarələrə gedir və M.C.Bağırovla görüşür. Səməd Vurğun Mirqasım müəllimin günahı olmadığını sübut edir. Mirqasım müəllimi Biləcəri əsgərliyə yığma punktundan S.Vurğun azad etdirib qaytarır.

1946-cı ilin avqust ayında keçmiş uşaq univermağının, indiki "İmproteksin" II mərtəbəsində yerləşən Ziyalılar evində müəllimlərin III qurultayı keçirildi. Qeyd etməliyəm ki, o zaman respublikada alimlərlə, müğənnilərlə, ziyalılar və şairlərlə görüş həmin Ziyalılar evində keçirilərdi.

Müəllimlər qurultayını o zaman maarif naziri olan Mirzə İbrahimov həmin Ziyalılar evində açdı. O, məruzəsində Qazax seminariyasının arxivinin yandırılmasını xalqa xəyanət kimi qiymətləndirdi. Qurultayda çıxış edən APİ-nin keçmiş direktoru, professor Əhməd Seyidov da Qazax seminariyasının arxivini yandırtdıran şəxsi ciddi tənqid edib, belə ləyaqətsiz bisavad, millət və xalq hissiyatı olmayan adamların ucbatından xalqımızın mədəniyyət tarixinə necə böyük zərbələr vurulduğundan danışdı. Müəllimlər qurultayı özünün qərarları içərisində Qazax maarifinin arxivini yandırtdıran nəfəri pislədi və abidələrə, mədəniyyət tariximizə, arxivlərə diqqəti artırma məsələlərini daxil etdi.

Mən bütün qazaxlılara və Qazaxda təhsil almış başqa rayonların nümayəndələrinin uşaqlarına, nəvələrinə müraciət edib kimdə bu seminariya və onun məzunları ilə əlaqədar sənəd qalmışsa, xahiş edirik bizə - Xarici Dillər İnstitutunun "Pedaqogika" kafedrasına göndərsin.

Əvvəlcədən təşəkkürümü bildirirəm.

## V FƏSİL

# EPİSTOLYAR: JANRDA YAŞAYAN MƏKTUBLAR

### § 1. Yazışma - hissin sədası

Ədəbiyyat insan varlığının bütün proseslərində axır, çalxalanır və özünü sözlə büruzə verir. Və bu coşğunluq şerdə, nəsrdə, dramaturgiyada əbədiləşir. Amma bu əksetmə yaradıcı adamı kifayətləndirmir. Ona görə də deyilir ki, ədəbiyyat sərhəd tanımır. Əslində belədir ki, hiss və həyəcan olan məqamlarda reallıqdan, mütləqlikdən danışmaq əbəsdir. Elə isə necə olur bu böyük bədiiyyat ustaları şeri, nəsri... kənara qoyub məktub yazırlar?! Bəlkə onlar həmən anlarda qələmə tabeçilik göstərirlər? Mən bu sualların mənfi cavablarına zəmanət vermirəm. Dünyanın V.Hüqo, O.Balzak, L.Tolstoy, F.Dostoyevski kimi nəhəngləri məhz məktublaşmaya xüsusi yer ayırmaqdan çəkinməmişlər. Bizim ədəbiyyat xadimlərimiz nədənsə bu janra ya diqqət kəsilməyiblər, ya da yazılanlar əks tərəfdən biganə qarşılanıb - o mənada arxivlərdə qorunmayıb. Mən bu ekskursu ona görə xatırladım ki, epistolyar yalnız onların adına çıxılmayıbsa, "rəqibləri" olmamışdır. İnsaf naminə, bütün yaradıcıların arxivindəki yazı-pozuları araşdırıcılar üzə çıxarmamışlar...

Mən düzü, ədəbiyyatşünaslıqda əhatəli bir məqalə qələmə aldım. Və ilkin tədqiqatçısı M.Monten idi, sonralar Con Lokk, Q.Fildinq, B.Şou, R.Rollan bu janra acizlik göstərməmişlər. Bəs pedaqoqlar necə?

Sualı bu yaşımda öncə özümə verərdim. Saysız dost-tanışlarım, həmkarlarım olmaqdadır. Qürbətdə də gün keçirmişəm, xeyli kənar yerlərdə də. Fərqi olmamışdır mənimçin; ona görə ki, Bakıma, ailəmə darıxmışam, hisslərimi kağıza köçürüb ünvanlamışam.

cavab da almışam. Heyif ki, uşaqlıq edib, bu əziz məktubları qorumamışam. Bu günlərdə arxivimə "qonaq" getdim, əlimə bir-ikisi keçdi. Hər halda laqeydlikdi bu!

Mən Fikrət müəllimlə söhbətlərimdə birbaşa bu məsələyə toxunmamışam. Amma deyib ki, Allahverdi, babamın (atası Əlməd Seyidova belə müraciət edərdi) yazışmaları var, bəzisi qorunmuşdur. Mənə də məktublar ünvanlamışdır.

-Siz əsasən haçan, kimə məktub yazırdız? - Maraqla xəbər aldım.

O, bir-iki saralmış, ancaq muncuq kimi düzülmüş xətli kağızı əlinə aldı:

-Babamdandı. - dedi. - Onun məktublarında iki ovqatı duyurdum: Ata məhəbbətiydi, üzbəüz hiss elətdirmirdi. Sanki adi bir vəzifədir, buna da borcluyam. Məsələn əsgərliyə, məni yola salanda eynən beləydi. İlk məktubu soyuq Rusiyada alanda, az qala sarsılmışdım. Müdrik yaşlı atam, zəhimli professor hansı hissi keçirirmiş, ilahi! Bir də mənim uğurumu görəndə, eşidəndə bu əhvalı duyurdum, qürurlanırdım.

Qarşımda elə məktubları yığmışam, onları tipaloji baxımdan fərqləndirmirəm. Hərçənd, münasibət göstərmək ziyan gətirməz. Məncə, bu üsulu seçsəm belə qruplaşdırardım: Klassikləşmişlər və müasir səslənənlər. Birincilər ona görə "klassik" deyil ki, ən görkəmli adamların qələmində ünvanlanıbdır, yox. Sadəcə o illərdən 40-50 il ötübdür, ab-hava yuyunub, insanlar nəsli xatirələşmişlər. İkincilərdə Fikrət müəllimin pedaqoqluğu, humanistliyi və s. keyfiyyətləri qiymətləndirilmişdir. Bəzi sətirləri nəzərə çatdıraq, lazım gələrsə münasibətimizi bildirərik: "... Yəqin ki, siz özünüz bilirsiz ki, tələbələr müəllimləri adətən iki qrupa bölürlər: Yaxşı və pis. Bəlkə də ona görə ki, sizdə alman düzlüyü var (fərqləndirmə bizimdir). Sizə qarşı olan fikrim birdən-birə dəyişdi. Bilirsiz niyə? Siz zəngdə uşaqlarla çox mehriban söhbət etdiyiniz üçün. İkincisi, siz qızlara "qızım" deyə müraciət etdiyiniz üçün. Çünki hər dəfə siz "qızım" deyəndə atam yadıma düşür. Nəhayət, üçüncüsü... Sizin, Avropa musiqisini, gənclərin onları

necə ifa etdiklərini qiymətləndirməniz mənim daha çox xoşuma gəldi. Qəribədir, bir adam haqqında əvvəlcə bir fikirdə olasan, sonra isə fikrin dəyişə. Bu, böyük xoşbəxtlikdir" (imza yoxdur).

Həssas oxucu kəsdirər ki, bir tələbə öz müəllimi barədə obyektiv fikrini gizlətməmişdir: Alman düzlüyü. Yüksək klassik musiqini qavrayıb qiymətləndirmə zövqü. Tələbələrə qarşı səmimiyyət.

Bu üç keyfiyyəti təsadüfi də sadalmadım. Cəmiyyətin tarazlığı itəndə ziyalılarda, məmurlarda düzlük obyektivlik yerini başqa-başqa xüsusiyyətlərə bağışlayır. Ali məktəblərin payına isə daha çox düşməkdədir. Əsas göstərici odur ki, gənclərin gözü və zövqü tərəzidir. F.Seyidov xeyirxah yanaşmasında məhdudiyyətə, özünüsıxmaya yol verməmişdir, yəni dambat olmamışdır. Bəziləri özünü çəkməklə, özünü quru aparmaqla tələbələrinin nəzərində özünü müdrik göstərmək həvəsini yaşayırlar. Məşhur fransız filosofu Labrüeyrin yaxşı fikrini xatırlatmağı vacib saydım: "Məlumdur ki, məhdudluq bəzilərinə müdrik yolunu tutmağa kömək edir". Ünsiyyətçilik bu mənada güclüdür, xüsusilə tələbələrlə. Belə səmimiyyət son vaxtlar ali təhsil auditoriyalarında tükənməkdədir, çünki bəzi alim-müəllimlər tələbələrin gözünün içinə düz baxa bilmirlər... halbuki ünsiyyət çox xarakterik cizgiləri üzə çıxarır. B.Edminq deyirdi ki, ünsiyyətdə nəzakət, ədəb özünə və başqasına hörmətin əsasıdır.

F.Seyidovu yaxından tanıyanlar yəqinləşdirər ki, onun yüksək zövqü var, buna səbəblər az deyil; əvvəla, bir neçə dili mükəmməl bilir, bir çox xarici ölkələri gəzmişdir, ali kübar tərbiyəsi almışdır. Ədəbiyyatı yüksək səviyyədə mütaliyə edir. Zövq insanın bəzi cizgilərini üzə çıxarır. R.Uel göstərirdi: zövqün yoxdur ki fikirləşməyi bacarmırsan, adamlarla yola getmirsən, iradlara insan kimi heç vəchlə dözə bilmirsən.

Nurlananın məktubundan: "Pedaqoji təcrübəmiz çox gözəl keçdi, çünki bizim pedaqoqumuz siz idiniz. Bu qısa müddət ərzində sizdən çox şeylər öyrəndik. Təəssüflər olsun ki, sizin kimi insanlara bizim ehtiyacımız vardır... Ana və atamdan sonra siz bizim

ikinci tərbiyəçimiz oldunuz. Mən sizin kimi müəllimlə qarşılaşdığıma görə özümü dünyanın ən xoşbəxt sanıram" (10.03.2001). Diqqətli olsaq, bu mövqedə də Fikrət müəllimin yüksək insani keyfiyyətləri, öz işində peşəkarlığı və sairi nəzərə çatdırılır. Bu sətirlər məni 60-70-ci illərə apardı, ona görə ki, belə isti sözlər o dövrün insanlarını, konkret müəllimlərini xatırlatdı, hansı ki, cəmiyyətdə bir təmizlik, düzlük - mizan-tərəzi heç nəyin önündə əyilməmişdir. Bu gün tələbənin ata-ana məhəbbətini qazanan pedaqoq-alimə vallah heykəl ucaldılmalıdır. Demokratik quruluşla əhatə olunsaq da, bu xətti pozanların sayı günbəgün artmaqdadır və beləəri alimlərin, pedaqoqların cibinə göz dikirlər, əzazilləşirlər, qansorana çevrilirlər. Dahi Platon yerində səsini çıxarmışdı: "Demokratiyadan müstəbidlər doğulur".

Professor Fikrət Seyidova olan məhəbbətin, istiliyin kökü haradan gəlir? Əlbəttə, mən ilk növbədə gəncliyi, tələbələri nəzərdə tuturam. Onlar daha zövqlü, düzünü söyləməyi bacaran, savadlı uşaqlardır. Və əsası ondadır, müəllimin ustalığı, natiqliyi, obyektivliyi, ünsiyyətçiliyi kimi məziyyətlər tələbələrə nümunə 'olur, mənimsədilir. Daha doğrusu, pedaqoq tələbədən çəkinməmişdir. Ötən il Fikrət Seyidov tələbələr arasında maraqlı sorğu keçirməli olmuşdur. Mövzusu da konkoretdir: "Pedaqogika tarixi bizə nə öyrətdi?" Adətən, suallı sorğular riskə qurban verilir. Əsil müəllimsə belə sualı ona görə ünvanlamır ki, özünü təbliği səciyyələndirsin. Əsası odur ki, əksi əxlaqi dəyərlərimizdən xəbər tuturlarmı? Tələbələr nə dərəcədə fənni sevirlər, fənnin müəllimindən nəyi götürürlər? Əlimin altında xeyli məktublar xatirəyə çəkilibdir.

"Pedaqogika tarixi" fənni vasitəsilə mən əvvəlcə fərqinə varmadığım bir çox mətləbləri anladım, mənim üçün qiymətli və faydalı olan bir çox faktlarla tanış oldum... Bu fənn vasitəsilə islam dininin necə mütərəqqi rol oynadığını başa düşdüm" (Rəhimə Şirəliyeva).

"Pedaqogika tarixi" fənni mənə xalqa və cəmiyyətə gərəkli olan bir şəxsiyyətin formalaşması üçün lazım olan mütərəqqi



*Fikrət müəllim tələbələri arasında*

ideyaları öyrətdi. Fənn tələbələrə tək gələcək müəllim üçün yox, hər bir insana özünü ictimai yerlərdə, özündən böyüklər arasında və ya ailədə necə aparmağı aşılayan tövsiyələrlə, məlumatlarla doludur... Heyif ki, bu fənlərə ayrılan vaxt azdır. Ancaq yarım semestr vaxt ərzində şəxsən mən həyatda gərəyim ola biləcək məlumatlar qazandım bu dərəcədə" (Səbinə Həsənova).

"Bu fənnin köməyilə mən bu vaxta qədər xəbərdar olmadığım görkəmli pedaqoqlar, onların pedaqoji və tərbiyəvi fikirləri haqqında məlumat əldə etmişəm. Onların söylədikləri tərbiyəvi fikirlərdə nə qədər məna, nə qədər düzgünlük vardır. Onları oxuduqca istəristəməz özümdə tətbiq etməyə çalışır, bu vaxta qədər bilməyərək etdiyim səhvləri düzəltməyə çalışıram" (Günel Mustafayeva).

"Pedaqogika tarixi"ndən mühazirələrdə biz islamdan əvvəlki türklərdə tərbiyənin mahiyyətiylə tanış olduq, türklərdə ənənələrə münasibəti gördük. Hiss etdik ki, bizim nə qədər önümlü nəcib tərbiyəmiz var imiş. Eyni zamanda Məhəmməd Peyğəmbərin həyatını, onun ideyalarının ölməzliyini faktlarla öyrəndik. Onun islam tərbiyəsi və əxlaqının banisi olmasını da həmçinin...

XIX əsrdə pedaqoji fikir və məktəb, Qori Seminariyası və onun məzunları, Azərbaycan maarifçilərinin təlim-tərbiyə və uşaq ədəbiyyatı yaranması uğrunda mübarizə kimi mövzuları məmnuniyyətlə öyrəndik" (Leyla Seyidova).

"Pedaqogika tarixi"ndən mühazirəyə qulaq asanda bizim görkəmli maarifçilərimizdən M.F.Axundov, A.A.Bakıxanov, M.Ş.Vazeh, S.Ə.Şirvani, H.B.Zərdabi, N.Nərimanov kimi şəxsiyyətlərin fəaliyyəti haqqında geniş biliklər qazandıq. Bu kurs gənclərə dərindən öyrədilməlidir. Tariximizi biz gənclərə yaxınlaşdırır" (Aytən Qafarova).

Bu sətirlərdə daha bir neçə məsələyə aydınlıq gəlir: Yeni nəslin pedaqoji fikir tariximizi öyrənməyə nə dərəcədə meyilli və maraqlıdılar, bu fənni öyrədənin özünün şəxsiyyəti və pedaqoji ustalığı! Belədə çox mətləblər də xoş hiss doğurur. Haradasa oxumuşam ki, təhsil alanlar yüngül yatır, yaxşı istirahət eləyir. Habelə səbirlilik, məqsədardıcıllığı, bilikliyi istisna edilmir. Bu, ona görə belədir ki, müəllim tələbəsini sevməklə bərabər, onun şəxsiyyətinə hörmət bəsləməlidir. Belə qiymətvermə hələ orta əsrlərdən təhsil ocaqlarında mövcud idi. Təsadüfi deyil ki, F.Seyidovun yaradıcılığının böyük bir qismi məhz tərbiyənin təlimlə qarşılıqlı əlaqəsində əsas subyektin müəllim olduğunu vurğulamışdır.

Pedaqoqlar arasında da epistolyarlıq - məktublaşma davam edir. Çünki bunsuz yaşamaq da qeyri-mümkündür. Lakin pedaqoq-alimlərimizdə bir təvazökarlıq da var axı! Amma lazımdı bəyan eləsinlər. Məktublaşmada çox nüansları maraq doğurur. Günah nədir? Pedaqoq-alimlər bu janrı araşdırmalıydılar. Xüsusilə, klassik pedaqoqlarımızın arxivlərinə nüfuz etməlidilər. Nəsə yada düşmür. Bəlkə də xatırlanmalıdı? Çox ətalətdəyik ki, epistolyarlığı necə deyərlər "dəb sala" bilmirik. Lazımdı cavan magistirlər, aspirantlar (dissertantlar) tapşırıq alsınlar - bu haqda yazmaq üçün. Bilirsiz, yenə deyəcəyəm: Yaşlı, təcrübəli pedaqoqlar ədəbiyyatdan çox uzaq düşmüşlər; vallah, dünya ədəbiyyatı bir yana, özümüzü oxumurlar. Bir gün ədəbiyyatşünaslıqda epistolyar janrın tədqiqiylə maraqlandım özümüzdə, gördüm bir məqalə belə yazıl-

mamışdır. Görünür, bəzi mühüm maraqlı məsələlərə qarşı bir laqeydliyimiz özünü göstərir. Pedaqoqlar da həmçinin...

F.Seyidov haradasa istisnalıq təşkil edir. Onun arxivində qoruduğu məktublar da, məşhur memuarında da şahidiyik. İlk dəfə mən bu kitabda qarşılaşdım ki, o, məktubları necə səliqəylə, üstündə əsə-əsə qoruyur... Bir dəfə, daha dəqiq, 1974-cü ildə professor Əhməd Seyidov haqqında jurnal üçün məqalə yazırdım, evində görüşdüm. Handan-hana dedi ki, Qori Seminaristlərindən bir qrupu mənə məktub göndərmişdi, saxlayıram gərək ki. Və Fikrət müəllim o saralmış, amma xəttə xələl gəlməmiş o məktubu üzə çıxardı, səhv eləmirəmsə, məqalədə bəzi qeydləri vermişdim... Deməli, bu ənənə rəhmətlik Əhməd müəllimdən gəlmədir və o, məktubu qiymətləndirmişdir. Pedaqoqlar yaxşı işdən imtina etməyi xoşlamırlar, bu janrdan da həmçinin.

... Mən Fikrət müəllimlə görüşəndə ondan xahiş eləmişdim ki, həyatınızda saysız məktublar almısız və yazmısız. Təbii ki, məktub təsadüfi qələmə gəlmir; hansısa həsrətin, qəribliyin, yaxud sevincin, arzunun doğurduğu hissdi. Xüsusilə, Ordu həyatında məktub canlı varlıq kimi dilə gəlir, xəbərlər çatdırır. Başıma gəlibdir; Moskva altında qulluq eləyəndə qardaşımdan, dostlarımdan, hətta şagirdlərimdən alırdım. İstər-istəməz o günlərə qayıdırdım. Təəssüf ki, arxivimi aradım, bir vərəqi belə qorumamışam. "Gündəliyim" də nə yazmışamsa, onlardı. Amma Fikrət müəllim səliqəylə atasından, anasından, qardaşından, bacısından... aldığı məktubları qoruya bilmişdir.

-Arxivimdə saysız-hesabsız məktublar var, 700-dən artıqdı, dilləndi. - Qara çit parçalı çantanı açdı. Bir-bir (beş-beş, on-on) saralmış vərəqlərdə əbədilik qazanmış məktubları çıxardı. - Bir hissəsidi, seçmək istədim, hamısı əzizdi mənə.

Mən kənardan baxırdım. Bəzisi şagird dəftərlərində, bəzisi indi adlandırdığımız "qranna"larda. Bəlkə də o illərdə ağappaq imiş, Zaman rəngini keçmişində qoyub, amma "ximet" dediyimiz "ruçka"ların düzdüyü sətirlər pozulmamışdır. Bu yazılarda ata və

ana məhəbbəti necə də səmimi və kövrək nəfəslə ədəbiləşmişdi. İlk məktubun tarixi: 05.12.1950-ci il. Sərlövhəyə diqqət yetirək: "Əzizim, canım, cigərim, ümidim, pənahım, atam, qardaşım, saf ürəkli, incə qəlbli, nəcib duyğulu, vəfalı, mərd oğlum Fikrət!" Bu epitetlər 58 yaşlı məşhur professor Əhməd Seyidovun ürəyindən qopmuşdur. Doğrudanmı bu yaşda evdə bir oğul olduğu halda digər balanı bu dərəcədə sevəsən?!

Məktubda ata oğlunun nəyə ehtiyacı olduğunu israrla bildirir. Unutmayaq ki, söhbət 50-ci illərdən - ağır vəziyyətdən gedir və o vaxt valideyn köməyinə yasaq yoxuydu. Axı, dövlətin özünün vəziyyəti ürəkaçan deyildi. Məktubda oxuyuruq: "Əzizim Fikrət! Əyər bizi rahat etmək istəyirsənsə yaz görək nəyə ehtiyacın var, onu göndərək; sən məndən nə qədər çox tələb etsən, mən səndən o qədər razı qalacam; səndən mənim qəti tələbim budur, mənə yaz hər ay nə qədər lazım isə o qədər göndərim. Əyər sən bunu mənə yazmasan, onda məni istəmədiyini zənn edəcəyəm və bununla da həm məni, həm də ananı incitmiş olacaqsan. Mən heç təsəvvür edə bilmərəm ki, sən bizim belə incitmək niyyətində olasan".

20.05.1951-ci il məktubuna da professor Əhməd Seyidov imza atmışdır (rəsmi çıxmadı ki!). Və "Sevimli soldat oğlumu həsrətlə qucaqlayıb bərk-bərk öpürəm"lə başlayır. Məktubun yaşı çox-çox qocalsa da, bir o qədər cavanlığını saxlardı. Məsələ ondadı, məktubda nigarançılıq da var; ailədə hansısa problemin olması da həmən tarixli məktubu oxuyanda da. Əslində Əhməd Seyidovun mühitə və onun doğurduğu probleblərə münasibətini duydum. Bu, öz yerində. Hiss elədim ki, Fikrət müəllimin bacısı Nigar nasazdı, xəstədi və çox narahat olduğunu yazıbdır. Əlbəttə, inanılasıdı, Qərib ölkədə qeyri-dəqiq məlumat çıxmazdı. Əhməd müəllimə bir ata kimi ORdu həyatı keçirən gənc oğluna "faktı" təsdiqetmək qəbahət də deyildi. Amma o, bir pedaqoq "üsulu" ilə nigarançılıqla yanaşır: "Sən məktublarının birində Nigardan çox nigaran olduğunu yazmışdın; bu tamamilə əsassızdır. Nigarın xəstəliyi ta-

mamilə müvəfəqiyyətlə qurtardı: sağ və salamat, kefi kök, damağı çağ evdədir".

Bu, ailədir. Fikrət - gənc soldat (vallah "əsgər" sözündən sərt səslənir, ona görə də "soldat" ola bilmədik ki, Qarabağ əlimizdən getdi, müharibə yumşaqlığı xoşlamır) həm də kəndlə, doğma torpağıyla bağlılığını yazıbmış. Atanın cavabı oğul nigarançılığını yolda qoymur: "Əzizim Fikrət, sən məktubların birində kəndin əhvalatı ilə maraqlanmışdın. Kəndin ümumi vəziyyəti yaxşıdır, lakin bu il arada bir quraqluq olması yaxşı deyildir. Mən özüm də kəndə getmişdim, məni çox yaxşı qəbul etdilər. Nəsiblə Osman Qazaxa xüsusi maşın gətirib məni kəndə qonaq apardılar".

Diqqət yetirək. Bakıda nüfuz sahibi, dövlət səviyyəsində tanınan, sabiq rektor adi detalla maraqlanır və ayağı kənddən üzülmür.

Soldat (ata müraciətidir, bəlkə də oğul üçün yadigardır) Fikrət də məktubları cavabsız buraxmır, yazır (Təssüf ki o, bu qəlb çırpıntılarının maddi əksini saxlamamışdır). Bunu professor Əhməd Seyidovun 1951-ci ildə yazdığı məktubdan: "Səni, balaca (övladlar daima valideynlər üçün uşaqdır, axı!) soldat oğlumu uzaqdan həsrətlə qucaqlayıb bərk-bərk öpürəm. Fevralın 25-də yazdığın məktubunu və çox intizar və həsrətlə gözlədiyimiz şəklini aldıq".

Bir yer var bu məktubda. Atanın oğlunun simasında "sirr" axtarması möcüzəsi. Bu uşaq, indinin kişisi məgər atanın gözü qabağından keçməmişmi? Bəli, elə möcüzə də bundadı: "... Sənin hər cizgilərində bir sirr duymaq istəyirəm" - deyir Əhməd Seyidov. Ata məhəbbətinin elə sirri də bundadır.

Məktublarda (ikinci tərəfdə) Fikrət müəllimin narahatçılığı, lazımi işlərlə maraqlanması barədə də faktlar çoxdur. O, yəqinlik hasil etmək istəyir ki, filənkəs nə oldu, düzəldimi? Və sairə. Məsələn, qardaşı İsmayıl barədə nigarançılığına ata cavabında yazır ki, sən İsmayılın işi haqqında soruşursan; o barədə mən sənə pasılkada yazdığım məktubda qeyd etmişdim: O, məktəbdə təcrübə aparır, yazır-pozur, gah da maşınkaya çap üçün material aparır, ancaq nədənsə bizə göstərmir, vəd edir ki, vaxtında qurtaracaqdır.

Məktublarda Fikrət müəllimin böyük qardaşı İsmayıla və İsmayılın da ona dərin, pak məhəbbət hisslərinin şahidinə çevrilirsən. Aralarında elə bir ciddi yaş fərqi olmasa da, onlar necə də sadiq oğullardır. Maraqlıdır, ata bunu duyur və məktublarında ayrıca vurğulayır: "... lakin səni bircə İsmayıl sevmir, bütün bizim ailə üzvlərimiz səni o cür dərin möhübbətlə sevir... Bizim bəzilərimiz səni hisslərlə sevirik, bəzilərimiz əqillə, lakin İsmayıl səni həm əqillə, həm də hissləri və qəlbilə sevənlərdəndir. O, səni bircə qardaşın kimi deyil, həm də ağıllı bir gənc təhsilli bir ziyalı, sədaqətli bir Vətən keşikçisi kimi sevir: sənin məhəbbətin onun varlığını təşkil edir..."

Məncə şərhə ehtiyac yoxdu...

Əhməd müəllim məktublarında hətta oğlunun uşaqlıq illərindən ən maraqlı detalları yada salır, sanki özü o illərə qayıdıb əylənir. O biri tərəfdən, oxumağı, təhsil işindən soyumamağı tapşırır, sanki burda da oğlunun fikrinə kəskin müdaxilə etməyə haqqı olmadığını bildirir - məktubları oxuduqca atanın oğlunun bütün keçmişi, indisi və gələcəyi ğarədə narahatçılığı gözümün önündən keçirdi. 15.01.1951-ci ildəki, bir məktubunda Fikrətin maddi-cəhəti durumu üçün necə də nigarançılıq keçirdiyini gizlətməmişdir. Maraqlıdı, məktublarında Fikrətin sağlamlığına diqqətli olması, pasılka və pul göndərməsi vurğulanır. Bir məktubda özünə məxsus ata hissiylə yazır, özü də bir pedaqoq, valideyn kimi sevincini gizlətmir: "Sənin məktubunda bizi bir daha sevindirən bir qism də sənin papiros çəkməyi həmişəlik atmağındır. Bu, hər şeydən əvvəl, sənin səhhətinlə əlaqədar olduğu üçün bizi çox şad etdi. Sonra sən pul haqqında yazmışdın; belə görürük ki, sən həddən artıq qənaət edirsən; buna mən razı deyiləm: sən bilirsən mən mənasız israf əleyhinəm, lakin lazımi yerdə mütləq xərcləmək lazımdır və xüsusilə də səhhətini qorumaq üçün bunu əsirgəmədən etməlisən".

Fikrət Seyidovun qoruduğu məktublar arasında anası Abıhəyatın qısa, titrək qələmlə yazdığı məktublar da oxuculara maraqlı olmaya bilməz. Əllinci illərin bu yadigarları hələ də təravətini itir-

məmişdir. Adətən, ata, qardaş, bacı məktub yazır, ana isə sözlərini onlara deyir ki, mənim adımdan filən sözü yazın. Fikrət müəllimin sevimli anası oğlunu isti nəfəsiylə unutmamışdır. Adətən: "Əzizim, gözüm, canım, mənim gözümün işığı, balaca oğlum" - müraciyətiylə başlayır. Bir sözünü oxuyanda əllərim titrədi və ana qüdsiyyətinə təslim olmaqdan başqa çarəm qalmadı: "Əzizim, görürəm ki, ana olmaq çox çətindir və ana qəlbi çox məhəbbətli olur. O, istəyir ki, əziz balasınm böyüyən boyunu və şirin danışığını, qara gözlərini görmək istəyir". Abıhəyat ana təkcə oğlu üçün yox, yaxın qohumu (niskilli) üçün də nigarandır və bu haqda yazır: "Əzizim Fikrət, Mahmud məndən pasılka istəyib, ona da göndərəcəyəm və bir də məndən paket və kağız istəyir, onu da göndərəcəyəm. Əzizim, anada, ürəyi çox yanır və hər gün kağız yazıram və deyirəm: neçə ki, mən sağam Mahmud, sən özünü analı kimi hesab et və darıxma. Hər nə istəsən göndərəcəyəm. Fikrət, onun ümidi yalnız bizik..."

Məktublar sıralanır və hər yaşı 40-50-ni ötmüş bu kağız vərəqlərdə nələr yoxdu?

Mən İsmayıl Seyidovdan - ailənin böyük övladından xeyli danışmışam. Bu istedadlı alim-psixoloqu, şairi öz Dünyasında doğulanlardan sayıram. Kiçik qardaşına da qarşılıqlı səmimiyyətdə olmuşdur və oldular!

Fikrət müəllim məktublar içərisində bir neçəsini də ayırmışdı:

- Allahverdi, bunlar İsmayılın mənə yazdıqlarıdır. - Ruçka qələmə aldıqları da var. Sənin üçün də, oxucular üçün də maraqlı olar. Hansı ki, o, rus dilində təhsil almamışdır, ancaq yazmağı bacarmışdır.

Məktubların tarixi 1950-ci illərə gedib çıxır, 22.12; 31.12. 1950 və 31.01.1951-ci illərin qardaş qoxulu kövrək, bəzən də didaktik tövsiyəli səliqəli məktublarıdı. Maraqlıdır, "ailə xətti" atalarının yazı texnikasının təsiriylə formalaşmışdır.

Məktublardakı məhəbbət bacıları Səyyarənin və Nigarın yazdıqlarında da duyulur. Kövrək bacı hissləri necə də pakdır. Xüsu-

silə, mərhum Səyyarə çox qayğılı qadındı, həssasdı. Bir-iki dəfə Ata evində Fikrət müəllimlə söhbət eləyəndə gəlib söhbət eləyib və gedib. Əhməd Seyidov haqqında məqaləmi oxuyanda, hansı ki, rast düşəndə minnətdarlığını gizlətməyibdir. Bunun şahidiyəm. İnsaf naminə, qardaş Fikrət də bacısı üçün, xüsusilə xəstə yatanda (xarici ölkədə) nələr etdiyini eşitmişəm. Bunlar faktdır, baxmayaraq Səyyarə indi Seyidovlar üçün ölməz xatirədir...

F.Seyidovun arxivində məşhur filoloq, professor Mirzağa Quluzadənin; dostu, həmkarı, Əhməd Seyidovun yetirməsi, dosent Ənvər Məmmədovun da yazıları saxlanılır. Mirzağa müəllim məşhur diplomat Vəfa Quluzadənin atasıdır. Maraqlı ədəbiyyatşünas olubdur, Füzuli haqqında tədqiqatları ilə hələ tələbə ikən tanış olmuşdum. Sonralar Azərbaycan REA-nın Nizami adına Ədəbiyyat İnstitutunun direktoru vəzifəsində çalışmışdır. Yeganə məktubunu 24.12.1950-ci ildə göndərmişdir. Və Fikrət müəllimə Vətənin şərəf və azadlığını qorumağa hazırlaşan bir gənc kimi müraciət etmişdir.

Ənvər müəllimlə dünyamızdan ayrılıq çox da uzaq deyilsə, artıq unudulmaqdadır. Uzun boyunda görkəmini itirməyən, mədəni, nikbin, müəllimlərini unutmayan bu şəxs Xarici Dillər İnstitutunda ömrünün sonunadək işlədi. Mənim rəsmi opponentim də olmuşdu. Fikrət müəllimlə Dənizkənarı parkda gəzməyi xoşlayırdı. Ayrılanda eyni avtobusa minirdik, yarı yolda o, düşürdü, mən IX mikrorayona gəlirdim.

O, hələ yaşaya bilərdi, amma yaşamadı. Amma bir məktubunu dostu Fikrət müəllim arxivində əzizləmişdir. Bu da sədaqətdir, yoxsa ki diriliyində dilə-ağıza düşmək, öləndən sonra unudulan bəzi həmkarları kimi!

Allah yaxşı adamları pis adamların "xatırlamasından" qurtarsın!..

## § 2. Sətirlər - intizarın sonu

### Seyidov Əhməd

**Əziz və seimli oğlum Fikrət!**

Səni bərk-bərk qucaqlayıb öpürəm! Əzizim Fikrət, bu axır vaxtlarda səndən məktubları az-az alırıq və onun üçün də nigarançılıq çəkirik, sən elə et ki bizi nigaran qoyma, mümkünat və fürsət tapdıqda bizi məktubsuz qoyma. Dolanmandan ətraflı yaz görək bazardan, şəhərdən yeməyə bir şey ala bilirsənmi? Stolovada yaxşı yeməklər almaq olursa, al ye! Pulun azlıq edirsə də artıq göndərim, fevralın 20-də yenə də sənə pul göndərəcəyəm, yəqin ki ayın axırına qədər alacaqsan; bu posılkanı və pulu alanda bizə bildirərsən, burada azca qovurma və halvadır, bundan qabaqda meyvə yəni alma və bir az hayva posılkası göndərmişdik; bilmədik necə gedib çatdı; bu barədə bizə bir şey yazmadın.

Bu yaxınlarda səndən aldığımız məktubun birində sənin dərsdən əla oxuduğunu, rus dilini bildiyini, yoldaşlarına yaxşı kömək nəticəsində onların da əla oxuduğunu bilib çox şad olduq. Çalış, xalq, Vətən xidmətində həmişə dilin uzun, üzün ağ olsun, onlara həmişə sədaqətli ol.

Buralar sağlıq - səlamətlikdir. Dostların və qohumların sənə çoxlu salamları var.

Niyar da oxumağında çalışır. "Çay-çay"da yazır, pozur, görən nə çıxardacaq.

Sənə tez-tez məktub yazmağı biz Səyyarəyə tapşırmışıq, ondan məktub alanda, onu həm də bizim hamımızın məktubu hesab et.

Səni bərk-bərk ötüb ayrılırıq.

Səni canından artıx istəyən atan və anan Əhməd və Abıhəyat.

*12.II.51.*

**Əzizim, gözümün işığı, qəlbimin istisi, canım, cigərim, saf ürəkli, nəcib xasiyyətli mərd, ağıllı oğlum Fikrət!**

Səni bərk-bərk öpürəm. Bu günlərdə İsmayıla yazmış olduğun iki məktubunu birdən aldıq və həm çox sevindik, həm də bir qədər kədərləndik; sevincimiz məlumdur: səndən, ən istəkli oğlumuzdan məktub aldıq, əhvalını bildik, həm də sənin əziz, çox əziz hədiyən olan şəkillərini aldıq; elə bildik sən özün gəlibsən, sən bu sevinci təsəvvür edə bilməzsən. Lakin bizi kədərləndirən o oldu ki bizim sənə qədər yazmış olduğumuz məktubları almamısan; bu bizi olduqca narahat edir. Mən sənə birinci məktubu oktyabrın 24-də Yavorova yazmışam, sonrakı məktublarımı isə Jolkova yazmışam; teleqram vurmuşam, hətta teleqramın cavabının pulunu belə, buradan vermişəm ki sən orada pul verməyəsən. Balaca posılka göndərmişik, sonra pul göndərmişik və sən bunların heç birini almamısan. Dediyim kimi, bunlar bizi narahat edir. Sən Niyara məzəmmətli kağız yazırsan ki biz səni tez unutduq:? Bu belə ola bilərmi? Qətiyyən ola bizməz; mənim sağlığım bir tərəfə dursun, ölsəm də qəbrimin torpağı, daşı belə sevimli oğlum Fikrətin həsrəti və intizarı ilə yaşayacaqdır. Sən mənim oğlum, qardaşım, atamsan, sən mənim istəkli oğlumsan; mənim uşaqlarımın içində sənə olan möhübbətim xüsusidir; bunu mən bizim ayrı olduğumuz üçün demirəm, bu elə əvvəldən belədir. Səndən ayrılıq vaxtı nə qədər uzaqlaşdıqca o qədər də sənə olan sevgimiz qat-qat artır və dərinləşir; Mən özüm belə, səninlə birlikdə olduğum zaman bu hisslərimin bu qədər dərinliyini dərk edə bilmirdik; indi onlar mənə daha aydın olur.

Sənin təşəkkür aldığını, əla aldığını oxuduq və çox sevindik, fəxr etdik. Birinci müvəffəqiyyətlərinlə səni təbrik edirik, mən əvvəl də bilirdim ki sən mənim dilimi uzun edəcəksən, sağ ol, oğlum!

Sən böyük rus xalqının dilini öyrən. Nəyə can atdığını da bilirəm, bu nəcib niyyətini çox bəyəndim, sən özün yazdığından məlum olduğu kimi onu yaxşı öyrənməyə şərait var, indi belədir bu fürsəti əldən vermə. Böyük şairimiz Seyid Əzimin dediyi kimi, rus dili bizə çox-çox lazımdır və sənin ali təhsilin olduğu bir zamanda o sənin üçün yənə bir ixtisasdır, buna nə qədər zəhmət qoysan boşa getməz. Yazdığından məlum olur ki, heç bir dəqiqəni belə boş keçirmək istəmirsən, öz ixtisasın üzərində çalışırsan, belə də lazımdır. Biz çalışacayıq sənə lazım olan kitabları göndərək.

Sənin məktubunda bir xoş xəbər də papirosu atmağındır. Bunu axıra çatdır. Sənin məktubun ağıllı həyatın bütün məsuliyyətini düşünən gəncin məktubunda bunlar hamısı yaxşıdır, lakin sən səhhətini də unutma, özünə yaxşı qulaq as; hər nə lazımsa, nə qədər lazımsa yaz göndərim, bunu yadından çıxarma. Mən sənin üçün heç bir şey etməmişəm. İndi məni və ananı razı salmaq istəsən bizdən çox tələb et; bu bizə yalnız rahatlıqdır. Sən məndən nigaranlıq çəkirsən; bu çox nahaqdır; mən lap yaxşıyam, mənim arzum sənin sağlığın və işlərində müvəffəqiyyətindir. Bilmirəm, bu məktub sənə nə vaxt çatacaqdır, ümidimiz belədirki bəlkə təzə ilə qədər çatdı, təzə ilini təbrik edirəm.

*Yoldaşlarına salam söylə.*
*Səni canından artıq sevən atan Əhməd.*
*Hamımız səni bərk-bərk öpürük.*
*24.12.50.*

**Əzizim Fikrət!**

Səni bərk-bərk öpürük. Bu gün iyunun 19-da sənin 13 iyunda Bryanskdan yazdığın məktubu aldıq; sevincimizin həddi-hesabi olmadı. Ancaq bizi bir şey narahat etdi: sən pulsuz qaldın. Mən sənə mayın dördündə Nestrova dörd yüz manat göndərdim və sonra iyunun 9-da Maqerova dörd yüz manat gördərdim; mənə belə gəlir ki, sən bu pulları ala bilməmisən, indi bizi o pulların alınıb-alınması narahat etmir, sənin pulsuz qaldığın bizi narahat

edir. Biz sənə bu məktubu aldığımız gün yazırıq, sən də bu məktubu alan kimi bizə yaz, orada çox dayanacaqsınızsa sənə pul göndərim xərclə, çünki indi sən böyük şəhərdəsən, mədəni ehtiyacını təmin et, səndən bu haqda tez cavab gözləyirik. Biz hamımız sağ və salamatıq, yayda haraya gedəcəyimizi müəyyən etməmişik, gedəndə sənə yazacayıq, hər halda iyulun 10-na qədər buradayıq. Fikir var Səyyara iyunun 25-dən Moskvaya ekskursiyaya getsin. Bizdən yoldaşlarına və xüsusilə Abdullaya salam söylə.

*Həlalik səni öpüb ayrılırıq.*
*Atan Ə.Seyidov.*
*29.06.53.*

**Seyidova Abıhəyat**

**Əzizim, gözüm, canım, ciyərim mənim gözümün işığı balaca oğlum bərk-bərk öpürəm səni.**

Əzizim Fikrət, sənin 2 kağızını və 2 şəklini aldım birini yanvarın 12-də aldıq, o birini 13-də aldıq. Əzizim Fikrət ayaqüstə çəkdirdigin şəkilində bir az zəif görünürsən. Əmma başı açıq şəkilində kök görünürsən. Əzizim Fikrət, sənin şəkilini zəif görəndə ürəyim yanmağa başladı. Əmma şəkilin məni sevindirdi. Əzizim, o şəkilin yaxşı görünür, bilmirəm hansına inanım. Əzizim Fikrət, sənin teleqramında yazılmışdır ki, novi qod üçün pasılka aldım. Biz də çox düşünürük ki, bu pasılqanı haradan aldın.

Əzizim Fikrət, bizim işlərimiz çox yaxşıdır, yaxşı dolanırıq və evimizdə hər şeimiz var. Əzizim Fikrət, bizi səndən narazı qalırıq ona görə ki, ürəyin istəyən şeylərdən yazmırsan ki göndərək. Əzizim Fikrət, icazə ver ki sənə hər ayda bir pasılqa göndərim və mən də anayam, qəlbim odlar içərisində yanıram və istəyirəm bu evdə olandan sən də yəyəsən və mənim qəlmi də bir az rahat ola. Əzizim Fikrət, sənə bu günlərdə pasılqa göndərəcəyəm. Əzizim Fikrət, Mahmud məndən pasılqa istəyib, onada göndərəcəgəm. Bir də məndən paket və kağız istəyir, onu da göndərəcəgəm, Əzizim, ona da ürəyim çox yanır, hər gun kağız yazıram və

deirəm neçə ki mən sağam, Mahmud, sən özunu analı kimi hesab et və darıxma, hər nə istəsən göndərəcəyəm. Əzizim Fikrət, onun ümidi yalnız bizik, qardaşı çox insafsız oldu. Əzizim Fikrət, daha nə yazım, səni çox istəyən anan Abıhəyat.

**Əzizim, gözüm, canım, cigərim mənim, gözümün işığı balaca oğlum, bərk-bərk öpürəm səni.**

Əzizim Fikrət, necə ki bir sakit çay yaz gələndə gurultilə axan kimi, mənim də qəlbim səni isəyəndə yaz çayları kimi qəlbim daşır və səni isəyir. Əzizim, kağızlarını oxuyuram və şəkilərinə baxıram, görürəm ki ürəyimin o sızıltısını kəsmir. Əzizim, görürəm ki ana olmaq çox çətindir və ana qəlbi çox məhəbbətli olur o və istəyir ki əziz balasının o böyüyən boyunu, şirin danışığını və qara gözlərini görmək istəyir. Əzizim Fikrət, baban və İsmayıl mənə deyir ki əsgərlik də bir məktəbdür, sənin oğlun orada vaxtlarını hədər keçirmir, daha da irəli gedir və hər şeyi öyrənir. Əzizim Mahmuddan tez-tez kağız alıram, o, yazır ki hələ ayın sonuna kimi bizdən kağız almadığını söyləyir. Mən ona 2 gündə bir kağız yazıram, o, yenə də deyr kağız almıram, səndən bir kağız aldığını söyləyir. Əzizim o, çox darıxır və deyir ki, mənim atam və anam yoxdu mənə tez-tez kağız yaza. Əzizim, mən də ona tez-tez kağız yazıram və pasılqa istəmişdir, onu da göndərdim. Əzizim Fikrət, gözlədim ki sən ürəyin istəyəni deyəsən, mən də göndərəm. Gördüm ki daha sən yazmırsan, mən də özüm nə istədim, onu göndərdim.

Əzizim, biz tərəfdən nigaran qalma, anan Abıhəyat.

**Əzizim, canım cigərim, həsrətini çəkdigim körpə-saldat Fikrəti!**

Səni - vətənimizin sədaqətli keşikçisini, balaça saldatı bərk-bərk öpürəm. Sənin gördüyün şərəfli işlə iftixar edirəm. Ömrümün ən xoş xatirələri, ana qəlbinin ən incə duyğuları, mehriban, nəvazişli sohbətləri səninlə bağlıdır. Mən hər zaman, hər yerdə sənin xoş nəfəsini duyuram; sanki həmişə səninlə söhbət edirəm. Evimizi şən-

ləndirən, həyatı sevən və sevdirən təranələrini, eşidirəm. Fikrim, xəyalım sənsən; bizim açıq ürəkli oğlumuz məktub yazanda əhvalından, hərtərəfli yaz. Sənin hər işin bizim üçün maraqlı və əzizdir. Biz Səmədovdan məktub aldıq o, da səndən az məktub aldığını söyləyir. Temur də tez-tez bizim əhvalımızı, xəbər alır. Əzizim, mənə yazığın gəlsə və mənim ürəgimm rahət olmağını istəsən, məndən tez-tez pasılka istə gödərim və bir az sakit olum. Əzizim biz tərəfdən intizarın olmasın: baban lap yaxşıdır və hamımız da yaxşıyıq.

Əzizim əgər sənə çətin olmasa şəklini göndər. Ürəyim çox istəyr və sənin ayrılığın nə qədər məni saraldıb soldürür. Ona gör də mənə tez-tez kağız və şəklini göndər. Daha nə yazım, səni istəyən anan.

## Fikrət oğulun cavabları

**Əzizim, canım, ciyərim, istəkli anam!**

Sənin axırıncı yazmış olduğun qayğılarla dolu olan məktubunu aldım. Artıq dərəcədə şad oldum. Əziz anam! Mən bütün bu 2 ildə müntəzəm olaraq sənin məktublarını alıram. Ancaq müntəzəm onlara cavab verə bilmirəm. Bu da vaxtımın azlığındandır. Atama yazdığım məktub elə hesab edirəm ki, hamınıza aiddir. Əziz anam! Onun üçün xahiş edirəm ki, məndən inciməyəsən. Əziz anam! Siz bu 2 ildə mənə o qədər zəhmət çəkmisiniz ki, (daha doğrusu 22 ildə. Bu 2 il mənim müstəqil dövrlərim olduğu üçün əsasən bu 2 ili qeyd edirəm) mən heç bilmirəm bunların əvəzini çıxa biləcəyəmmi?

Yeganə arzum odur kı gəlib sizin nə zəhmətləriniz varsa onu çəkəm. Həyatımın bütün qalan hissəsini sizin dinc yaşamanıza sərf edəm. Heç bilirsənmi ürəyim nə qədər sizi görmək istəyir. Vətən bir il də yenə dözməyi tələb edir. Bunu da etmək lazımdır. Vətən də 2-ci bir anadır. Onun da borcunu vermək lazımdır. Ona görə, Əzizim, canım, ciyərim, istəkli anam! Məndən qətiyyən nigaran olma. Mənim işlərim lap yaxşıdır. Kefim də çox kökdür. Demək olar ki, bir dəfə də xəstələnməmişəm. Bunların hamısı mənim fiziki cəhətdən sağlam olduğunu göstərir.

**Əzizim Süheylə!**

Salam!

Xeyli müddətdir ki, telefon etmədiyimə baxmayaraq mən sizdən, Türkiyədən gələnlərdən və Kamal vasitəsi ilə mütamadi xəbər tuturam. May ayında sizə telefon çaldım. Kamal Abedən öyrəndim ki, yay ayını Ankarada onlarla keçirəcəksən. Bu, çox yaxşıdır. Hər halda qohum-əqraba içərisində yaşamaq insana mənəvi istilik verir və gümrahlıq gətirir.

Əzizim Süheylə! İbrahim bəy Bakıya gələndə, biz yenicə kənddən, sən aperasiyaya gedən vaxt vəd etdiyimiz qurbanı baban Hacı Mahmud Əfəndinin türbəsində kəsib gəlmişdik. Öyrəndik ki, səhhətin yaxşıdır. Sevindik, çünki sən Yasin dayımın yeganə yadigarısan. Anam gecə-gündüz səni düşünür və duasını sizdən kəsmir.

Əzizim Süheylə! Bizi şad edən bir də Leylanın uşağı olmasıdır. Onlara xoşbəxtlik və sağlamlıq arzu edirik. Eşitdiyimizə görə, indi Öndər bəy öz işini buraxıb Fərdaxla bərabər rəhmətlik Acar bəyi əvəz edərək fabriki idarə edirlər. Mən elə o zaman da belə fikirdəydim ki, Öndər bəy çox bacarıqlı və ağıllı kişidir. Hamımızın ən səmimi salamını və ürək dolu məhəbbətini ona yetirin.

**Əzizim Süheylə!**

Səndən bir xahişim var. Bizim əqrabalardan bir çoxu İstambul Universitetinə oxumağa gedir. Onu Türkiyə hökuməti öz hesabına oxudacaq. Türklər həmişə olduğu kimi, bu dəfə də dar ayaqda Azərbaycana əl tuturlar. Sağ olsunlar. Bizim əqraba Bilal sizə telefon çalacaq və ünvanını deyəcək. Uşağın cəmi 17 yaşı var. Cavandır. Qərib ölkədə özünü tənha hesab etməsin deyə, sənə zəhmət vermirəm, mümkünsə Fərdah, Lala, Səlahəddinin çocuqlarına de ki, hərdən onu arasınlar. Bizim əqraba Bilal bəyə İstambulda ancaq mənəvi kömək lazım olacaq. Hər halda bilsə ki, orada qohum-əqraba var, daha ürəkli olar. Bilal çox əqilli çocuqdur. O bir neçə yüz adamın içərisindən seçilib İstambula gedən 25 nəfərdən biridir.

Daha nə yazım. Özündən müğayət ol. Bircə dərdimiz sənsən. Hamınızı bərk-bərk qucaqlayıb öpürük. Bütün qohum əqrabaya salam söyləyin. Uşaqların yolunu gözləyirik.

Səni çox sevən qardaşın Fikrət.

**Seyidov İsmayıl**

**Дорогой Фикрет!**

Здраствуй! Ты нас совсем забыл. Пишешь очень редко. В одно время ты жаловался на нас, и мы не имели оснований возражат. Теперь все изменилось. Мы стали писать чаше, а ты перестаешь ответить на наше письма. Последнее твое письмо получили несколько дней тому назад. В конверте нашли твой снимок с товарищами. Неплохой снимок. Дорогой, в нашу голову не только не приходят мысли о том, что ты снимаешся то с одним, то с другим товарищем, что ты бездельничаешь и проводишь беззаботную, расточительную жизни. Наоборот, эти снимки радуют нас ибо перед нашим взором, каждый раз когда мы рассматриваем твои снимки оживает черты дорогого нам человека: вот он стоит перед нами, строгий, задумчивый. Это он, Фикрет, бывший школьник, учитель иностранных языков, а теперб славный бесстрашный войн, при одной мысли о которей содрегают враги нашей Родины. Его мощь, его величие сочетаются с его такой же простатой и скромностью. Дорогой Фикрет, у нас нет и не может быть другого более увлекательного занятия, чем рассмотрет твоих снимков. Дорогой Фикрет, ты пишешь, что иногда ваши товарищи без ведоми начальства, самовольно, уходят в город, прогуливаются там вдоволь (истядийин гядяр). Очень боюсь, чтобы они тебя не соблазнили. Но до сих пор ты не делал этого и я уверень, что не сделаешь и дальше не только потому что мы человек образованный, понимающий. Пусть некоторые из твоих товарищей уходят без разрешения. Сам увидешь, поймают их, и за недозволенное накажут их надлежащим образом. Но дело совершенно не

в этом. Ты должен всячески узбегать таких недостойных позорящий советского война поступков.

Здесь, ты прежде всего советский человек, который отличается высокой сонательностью, добросовестностью, честностью, преданнностью. Неся действительную службу ты еще раз должен доказать что, ты не только жил в новой стране, но что ты сам новый человек, действительно с присущими ему благородными качествами.

Кроме всего этого, ведь ты педагог, значить воспитатель. Недостаточно, что ты закрываеш глаза на такие вещи, только констатируешь факты. Ты удовлетворяешься тем, что сам не идешь на такие дела. Ты должен воздействовать на своих товарищей, перевоспитать их, (словом, беседой) помочь начальству в этом деле.

Дорогой брат, я хочу предупредить тебя еще раз потому, что такие недостойные поступки могут привести к самым печальным, нежелательным результатом. Если начальство обнаружит то же самое и с твоей стороны, то твое наказания будет тяжелее, чем многих других. Ты азербайджанец, что ты сознательный, образованный представитель нашего народа. Малейший твои проступки позор для нас, для нашей семьи, для твоих товарищей, института, где ты получил высшее образование. Ты ведь знаешь, напишуть в Министерство, в институт и проработают тебя как следует. Это уже тяжело будет и тебя, и нам и всем тем кто тебя любить и дорожить твоим именем. Будь таким с которого можно и нужно брать примерь. Будь примерным, дисциплинированным, образцом для многих других малосознательных. Пусть эти люди понимают, что значить быть человеком высоко образованным, культурным, что значить быть педагогом. Пусть они видят, что учитель не только воспитывает других, но, что он сам является тем, кому можно подражать во всем.

Кажется я прочел целую нотацию. Извини за длиннословия. Но говорят, что хорошие советы не приносят вреда тому, кто их слушается. Ты возможно лучше меня знаешь все то, чему я

посвятил целые две страницы. Ио все точки, несмотря на все это я считаю путным еще раз напомнить тебе знакомые вещи. Ты молод, мало опытем, следовательно советы, старших пригодятся. Они очень помогают в решительные, критические моменты. Ясно отчетливо представлять себе последствия своих действий.

Несколько слов о себе. Дела мои идут пока что неважно. Пока рано сказать что-нибудь. Ближайщие 2-3 месяца проляютсвет на все. За это время думаю закончить экспериментальную работу. Дорогой брат, сегодня мы похоронилн Худавердиева, бывшего декана. Бедный долго страдал. Смерть избавил его от мучений. Как знаешь у него был туберкулез.

Дорогой Фикрет, часто вижу твоих товарищей, особенно Айдына. От Исмета не получаю письма. Я был у них. В одном мести своего письме, он между прочим намекает на получение моего письма.

*Твой брат Исмаил.*
*30.II.51.*

### Fikrətin qardaşına cavabı

**Əziz və istəkli qardaşım İsmail!**

Salam!

Bir neçə gün bundan əvvəl sizdən kağız aldım və bunlar məni çox məyus etdi. Məni hər şeydən əvvəl, maraqlandıran sizin sağ və salamat olmağınızdır. O da ki, sizin kağızlarda müsbət qeyd edilir. Əzizim, Siz məndən şikayət edərək yazırsınız kı, mən sizə məktublarımı çox qısa yazıram. Düzdür, bu belədir. Ancaq mən sizə o qədər tez-tez məktub yazıram kı, bu qısa müddətdə heç bir yenilik olmur. Bunun üçün də məktubum qısa olur. Bir də mənə elə gəlir ki, sizi maraqlandıran mənim sağlığım və işlərimdə tam müvəffəqiyyətimdir. Bunu da hər məktubumda yazıb sizə xəbərdar edirəm. Əzizim, mən sizin şikayətlərinizi nəzərə alaraq məktubu bir az uzatmaq və öz işlərimdən bir az geniş yazmaq istəyirəm. Jolkevda Bakıdakı kimi, havalar çox tez-tez dəyişir. Gündə

4-5 cür hava olur. Ayın 24-də bərk qar yağdı, eyni zamanda 22 dərəcə şaxta var idi. İndi isə ayın 27-dir. Günlər bərk qızıb, yavaş-yavaş həsrətini çəkdiyimiz gün sümüklərimizi qızdırır və bütün həyatı canlandırır. Bu saat buranın elə gözəl təbiəti var kı, təsvir etməklə başa gəlməz. Biz olduğumuz yer meşənin kənarında yəni bir kilometliyində, çayın qırağındadır. Çayın kənarı böyük gül və ağcaqayın ağaclarıdır. Bunlar böyük qırmızı güllər açır, hansıkı bizim yerdə (yəni Kafqazda yoxdur). Jolkevin qışı nə qədər pisdirsə (cəhənnəm) yazı bir o qədər gözəldir və Əzizim, bura elə öyrənmişdik ki, elə bil doğma evimiz idi. Jolkevin belə bir gözəl vaxtında "doğma" evimizi atıb laqerə köçürük. Yəni, sabah 28-də Livov oblastının Magerov şəhərindən 2 km kənarda yerləşəcəyik. 6 aylıq həyatımızı çadırlarda keçirəcəyik. Hər şeyi görmək yaxşı işdir. Jolkevdə qalsam daha yaxşı olardı. Bu haqda əlbəttə danışmağa dəyməz.

Əzizim, mənim dərdim odur ki, burada əldə etdiyim bir saatlıq vaxt və kitablarımı qoymaq üçün olan tumboçka orada olmaya. Bunların hamısını (kitabları) Jolkevdə bir nəfər tanışımın evində qoymalı olacağam. Laqerdə olduğumuz zaman isə 8 saat, dərs qalan vaxtı isə "texnika"dır. Əyər görsələr ki, texnika təmizliyi vaxtı mən kitab oxuyuram, məni tənbeh edərlər. İndi gələcək mütaliə saatımı necə quracağımı özüm də bilmirəm. Hər şeydən çətin budur.

Əziz qardaşım, indi mənim əlimə bir dəqiqə də vaxt düşəndə oxuyuram.

**Seyidova Səyyarə**

**Mənim canım, ciyərim, əzizim hamıdan çox istədiyim balaca qardaşım.**

Salam! Səni həsrətlə bər-bərk öpürəm. Əzizim sənin babana yazdığın məktubu aldıq. Bu bizi olduqca çox sevindirdi. Çünki sən də məsələdən xəbərdar olmusan. Mən səndən çox-çox üzr istəyirəm ki, məktubların arası bir az uzanır. Mən buna heç bir

bəhanə gətirə bilmərəm. Çünki əziz qardaş üçün məktub yazmağa gərək hər zaman vaxt tapılsın. Əzizim mən bunu etməyə və səni şəhərdəki hadisələrdən xəbərdar etməyə cəhd edəcəyəm. Əzizim bu günlərdə Bakıda yeni stadionun açılışı oldu. Çox tərifləyirlər. Biz də kollektivlə 16-da ora getdik. Aldığım təəssüratı mütləq sənə yazacağam. Bu günlərdə əmin oğlu Nemətdən də məktub aldıq. Onu Gədəbəyə 7 illik məktəbə dərs hissə müdiri təyin ediblər. Bizə məktub yazmışdı. Kefinin kök olduğunu söyləyir. Sənə məktub yazmaq üçün sənin adresini soruşur. Əzizim daha burada elə bir yenilik yoxdur. İşlərimiz çox yaxşıdır. Baban, anan, nənən, hamısı yaxşıdırlar. Bizim çəkdiyimiz nigarançılıq ancaq sənsən. Arzumuz isə səni heç olmasa bircə saatlıq görməkdir. Əgər belə bir iş olsa bu bizim üçün nə qədər böyük bir səadət olardı.

Əzizim Fikrət. Sən hərbi məktəbə oxumağa getmək barədə bizə yazmışdın. Bu bizi çox düşündürür. Ancaq buradan sənə nə məsləhət verə bilərdik? Çünki biz hansının daha yaxşı olduğunu bilmirik. Sən özün ağıla, kamala çatmış bir oğlansan və özün bu işləri yaxşı bilirsən və bilirsən ki, hansı iş sənin üçün daha münasibdir. Fikirləş, tələsmək lazım deyil. Həmişə səbirli ol. Təmkinli olmağa çalış. Yüz ölç bir biç. Əgər belə etsən daha düzgün hərəkət etmiş olarsan. Əgər mümkünsə bu barədə bizə ətraflı yaz görək səni ora getməyə vadar edən nədir. Nə üçün ora səni maraqlandırır.

Əzizim, sən əvvəlki məktubunda əmin oğlu Mahmudun əsgərlikdəki ünvanını istəmişdin. Bu ünvan bizdə yoxdur. Əgər ünvanı kənddən ala bilsək mütləq sənə göndərərik. Əzizim öz işlərimdə isə hələlik bir yenilik yoxdur. Aspirantura imtahanlarına hazırlaşıram. Müvəffəqiyyət qazansam sənə mütləq yazacağam. Daha nə yazım. Səni bərk-bərk öpürəm. Səni canından artıq istəyən bacın Səyyarə.

*15.09.1951-ci il*

## Seyidova Nigar

**Дорогому брату!**

Любимому солдату, нашей Великой Родины, свету моих глаз, горячо любимому Фикрету.

Обнимаю тебя и крепко-крепко целую тебя. В день несколько раз читаю и перечитываю твоё письмо и не могу начитываться потому что там слышу твои умные слова. Ты как любящий брат, как заботливый воспитатель беспокоишся обо мне, о твоей маленькой, любящей тебя и скучающей о тебе сестрёнке. Я получила хорошие и отличные отметки; постараюсь стать отличницей. Я совсем стала другой: помогаю маме, забочусь об отце, слушаюсь брата и сестру. Имею успехи по музыке. Ты мне пишеш, дорогой брат, чтобы я всегда писала тебе письмо; ты моя дуща, ты моё сердце, ты мой хлеб и вода, можно ли забыть душу и сердце? Буду всегда писать тебе, потому что это даёт мне удовольствие. Ты пишеш мне дорогой брат о твоём телефонном секрете. Да, иногда мне звонят и я сообщаю имеющиеся новости о тебе.

Yaz gəlsin
Qış getsin, yaz gəlsin
Eşitmişəm sözün var,
Əsirgəmə yaz gəlsin.

Ещё раз крепко целую тебя, твоя сестра Нигяр. Передай паривет твоим товарищам.

*Сеидова Нигяр.*
*10.X.50 год.*

**Дорогой брат.**

Мой дорогой, любимейший брат Фикрет! Крепко-крепко обнимаю и целую тебя мой дорогой. Ох, если бы ты знал как я скучаю про тебя, и как страшно хочется видеть тебя. Когда ты был вместе сомной, я думала что ты обыкновеиный член нашей семьи, но оказывается я жестого ошиблась. Твое отсутствие я

начала глубко чувствовать, и ничем не могу утишить себя. Единственное утешение то, что ты защитник нашей Великой Родины, а это выше всего. Двадцать девятого декабря нас отпустили и мы ходили в Т.Ю.З. и смотрели пьесу "Не твоё , не моё, а наше", пьеса была хорошая. И в этот же день мы получили письмо от тебя. Это письмо нас обрадовала и огорчила, а вот ты пишешь что пасылки не посылайте. Напиши письмо подробно. Ещё я забыла поздравить тебя с Новым годом.

Пока, досвидания. Передай своим товарищам привет от меня.

Язиз гардашым, сян ки, аьыллысан, аьылсыз щярякяти етмя. Вя чалыш щямишя аьыллы оласан.

*Сеидова Нигяр,*
*31.XII.50 год.*

## Quluzadə Mirzağa

**Əziz və Mehriban oğlumuz Fikrət!**

Sənə və böyük Vətənimizin şərəf və azadlığını qorumağa hazırlaşan gənc, sevimli vətənpərvərlərimizə alovlu salamlar göndəririk. Biz sənin qəhrəman Sovet Ordusu sıralarında olmağınla fəxr edirik. Ana Vətəni düşmənlərdən qorumağa layiq olanlar, xalqını müdafiə etməyə qüvvəti və istedadı olanlar ən xoşbəxt və şərəfli adamlardır. Bu xoşbəxt adamlar içərisində bizim də əziz oğlumuz Fikrətin olmağı bizi sevindirir və başımızı ucaldır. Vətənimiz və xalqımız sənə də etibar edib, əlinə müqəddəs silah vermişdir. Gələcəkdə ağsaçlı bir qoca kişi olanda, gözəl gəncliyinin bu coşğun, həyəcanlı günləri sənin ən qiymətli və sevimli xatirələrin olacaqdır. Qaraul xidmətində təşəkkür aldığını eşidib mən də sevinmişəm. Siyasi və döyüş təlimi işlərin də həmişə əlaçı olmağını, böyük müvəffəqiyyətlərinlə bizi sevindirməyini arzu edirəm. Evinizdəkilər hamısı yaxşıdır. Biz də hamımız Səni, Vənətinimin gənc və qəhrəman əskərini hərarətlə təkrar-təkrar öpürük.

*Mirzağa, Yaqut*
*24.12.50.*

**Məmmədov Ənvər**

**Tarixlər boyu unudulmaz qardaşa və müəllimimə kiçik qardaşı və tələbəsi Ənvərdən hörmətli Məktub!**

Əziz qardaşım Fikrət. Əgər zəhmət çəkib mənim və bizlərin əhvalını bilmək istəsən, bu ilk məktubumu yazana qədər sağ-salamat olmaqla sizin və sizlərin də sağ-salamat və xoşbəxt olmağınızı yaradıcı təbiətin varlığından arzu edirəm.

Əziz qardaşım Fikrət, əgər bilsən mən sağ-salamat gəlib işə başladım. Hələlik rayonun özündə işləyirəm. 15 saat dərsim vardır.

İş çox gözəldir. Mən sizə ona görə minnətdaram ki, siz təcrübə müddətində mənə çox şeylər öyrətdiniz - İndi mən qismən heç bir çətinlik çəkmədən dərs deyə bilirəm.

Əlbəttə, müəyyən çətinliklərlə qarşılaşıram. Doğrudan da istehsalat insana zövq verir və çox şeylər öyrədir. Ailəmizin də vəziyyəti yaxşıdır və sizə salamlar göndərirldər.

Qardaşım Fikrət, siz mənə səyahətinizdən və ailə üzvlərinizin təssuratından yazın. Bu şərtə, İvanovka ilə müqaisəli surətdə. Əlbəttə, şəhərlə kənd arasında olan süni gözəlliklər müstəsna olmalıdır.

Sonra özünün vəziyyətindən, kefindən və s. yaz. İsmayılın xeyir işi oldumu? Olmuşsa bizə nə üçün xəbər vermədiniz. Əgər yaxın gələcəkdə olacaqsa bizə də xəbər edin.

Sonra professorun səhhətindən və işindən, ümumi vəziyyətinizdən bübümün vəziyyətindən, Niyarın dərslərindən, Səyyarəgilin vəziyyətindən yaz.

Əlbəttə, bu qədər sizə gec məktub yazmağıma görə günahkərəm və üzr istəyirəm. Mən telefonla danışmaq istəyirdim. Sonra isə məktub yazıb vəziyyətinizlə tanış olmağı məsləhət bildim. Məncə, evinizə telefonla danışmaq asandır. Əgər olmazsa onda mərkəzi poçta zəng edəcəyəm. Qismət olsun, tətildə sizə gələcəm.

Etiraf etməliyəm ki, hələ şəhərə olan həvəsim daha da qüvvətlənir. Sizləri bir də görə biləcəyəmmi?

Əziz qardaşım Fikrət, mən sizin insanpərvərliyinizə həsəd çəkirəm və ömrüm boyu sizin ailənizə borcluyam.

Məndən ayrı-ayrı ailə üzvlərinizə mehriban salamlar söyləməyinizi xahiş edirəm.

Sizə və ailə üzvlərinizə uzun illər ömr, cansağlığı və işdə müvəffəqiyyətlər arzu edən kiçiyiniz Ənvər.

Hazırda arzum yalnız şəhərə qayıtmaqdır. Məni unutmayın. Hələlik bu qədər.

*Məmmədov Ənvər*
*18.IX.1957.*
*Gədəbəy rayonu*

## VI FƏSİL

## HAQQINDA: MARAQLI ELMİ TƏDQİQATLAR

### § 1. Tənqid - bir nəzər

Professor Fikrət Seyidovun pedaqoji yaradıcılığı, təhsil sahəsində fəaliyyəti hansı aspektdən araşdırılmışdır? Sualın nigaran cavabını yalnız F.Seyidova şamil edilməlidimi? Bir-birini tamamlayan bu suallara cavabım hər halda müsbət olmayacaqdır. Müqayisəmə aydınlıq gətirəcəyəm: Ədəbiyyatşünaslıq elmi var və ədəbiyyatın nəzəri məsələləriylə, ədəbi tənqidlə daha geniş məşğuldur. Deməli, konkret sahəsi mövcuddur, bu istiqamətlə hərəkət edir. Və görkəmli nümayəndələri yaşamışlar və indi də yaşayır. Ad çəkmirəm. Bəs pedaqogikada vəziyyət necədir?

Vaxtilə (1975) "Azərbaycan məktəbi" jurnalında "Pedaqoji yaradıcılıq prosesi haqqında"[1] geniş məqalə çap etdirmişdim. Bir neçə pedaqoqun ayrı-ayrı əsərləri timsalında onların və ümumiyyətlə pedaqoji yaradıcılığı araşdırmışdım. Və göstərmişdim ki, pedaqoq bu məsələyə ədəbi simalardan az gərginlik anları keçirmir, yaradıcılıq psixoligiyası ona da xas keyfiyyətdir və s. Üstündən 30 il keçdi, heç bir reaksiya alınmadı. Açığı, mənim toxunduğum mövzu onlar üçün anlaşılmaz və maraqsız gəlmişdi ki... Sonralar da bu tematikaya bu və ya digər rakuslarda toxunsam da, hətta "Pedaqojişünaslıq elmi", "Pedaqoji tənqid" haqqında nüfuzlu pedaqoji nəşrlərdə məqalələr yazdımsa... Deməkdə məqsədim odur, xüsusilə 10-20 il əvvəl pedaqogika elminə gələn cavanlar bu işə başlamalıydılar, təbii ki, təcrübəlilərin məsləhəti və istiqamətləndirmələriylə. Amma gölə daş atılmışdır. Budur, bir nəfər durub pedaqojişünaslıq elminin tarixini, inkişaf yollarını və s. araışdırsın, əlinə heç nə keçməyəcəkdir...[2]

---

1. Eminov A. Pedaqoji yaradıcılıq profesi haqqında. "Azərbaycan məktəbi" jurnalı, 1975.
2. Eminov A. Pedaqojişünaslıq və pedaqoji tənqid. Azərbaycan Müəllimlər İnstitununun "Elmi əsərləri", № 13, 2003.

Mənim bu problemi ortaya atmağımda bir təsadüflük axtarmağa ehtiyac qalmır. Hər bir ürəyidolu, sözü var alim təmsil olunduğu elmin təəssübünü çəkməyə borcludur. Təsəvvür edin ki, əziz oxucular, Yazıçılar Birliyinin üzvü olan az-maz (az-çox yoxa!) şairlər və yazıçılar, ədəbiyyatşünaslar və tənqidçilər haqqında dissertasiyalar yazılmış, müdafiyə edilmişdir. Bunun təşəbbüskarları kimlərdir? Filoloqlar! Qısqanclıqdan uzaq həmkarları! Gəlin, pedaqogika aləminə (!) diqqət yetirək: Haçansa elmlər doktoru dissertasiyası yazanlar, yaxud xidmətiylə bu adı alanlar tutduqları vəzifədən istifadə ilə zəif, qələmsiz, məntiqsizləri elmlər namizədləri diplomlarıyla təbrik edirlər. Beş-altı ildən sonra da elmlər doktoru olacaqlar. Qoy bu adı alsınlar! Amma o "klassik" doktorlar barı öz müəllimləri, görkəmli tədqiqatlar müəllifləri haqqında dissertasiya mövzusu verməyin də paxıllığını çəkirlər. Mən bu haqda 80-cı illərin əvvəllərində "Azərbaycan müəllimi" və "Azərbaycan gəncləri" qəzetlərində yazmışdım. Klassik pedaqoqlarımızdan Əhməd Seyidov, Mehdi Mehdizadə, Mərdan Muradxanov, Abasqulu Abaszadə, Əyyub Tağıyev, Aben Kərimov, Ağahəsən Rzayev haqqında namizədlik dissertasiyası yazmağa kim "veta" qoymuşdur? İndi də Moskva hakimlik edir? Axı, bu böyük pedaqoqlar ixtiyar sahiblərinə ən azı institutda dərs deyiblər, pedaqogikanı öyrədiblər. Bəli, ən azı! Sanballı kitablar, dərsliklər, proqramlar yazıblar, hazırlayıblar. Budurmu? Təsəllimiz odur, xatirələr toplayıb çap etdirirlər. Bu bir yana. Yaşayanlar haqqında da dissertasyia yazmağın vaxtı çatmışdır. Ədəbiyyat aləmindən uzaq pedant pedaqoqlar öyrənsinlər ki, Osman Sarıvəlli, Mir Cəlal, Rəsul Rza və başqaları sağ ikən onların yaradıcılığından dissertasiyalar müdafiyə ediblər. Mərhum tənqidçilərdən İsrail Mustafayev, Əhəd Hüseynov və professor Bağır Bağırov. Mən şəxsən həmən müdafiyələrdə marağım daxilində iştirak etmişəm. Mərhum sənətkarlarımız iclas zalında əyləşib qürur hissini yaşayardılar.

Bəs səbəb nədir ki, gələcəkdə özümüzü "qəfəsə" salmışıq? Deyə bilərəm də, bilmərəm də. Amma böyük ürəkli olmaq üçün varlığında Böyüklük olmalıdır. İrsən xırda adamlar "akademik" titulunа sahib kəsilsə də nə faydası? Beləlari özünü fədasına qurban verməklə görkəmli pedaqoqların tədqiqat obyektinə çevrilməsinə qısqancılıqla yanaşırlar! Kim bilir, bəlkə də biganəlikdir? F.Volter deyirdi ki, biganə adam düşməndən qorxuludur. Əlbəttə, belələri haqda belə fikirdə olmaq istəməzdim.

Professor Fikrət Seyidovun yaradıcılığına məhz mən bu baxımdan toxunmuşdum: "Yaxşı ki, bir-iki il öncə görkəmli pedaqoq, professor Fikrət Seyidov "Türk xalqlarının tərbiyə və məktəb tarixi" (1998) və "Dədə Qorquddan Şəhriyara qədər" (2002) sambаllı tədqiqat əsərləri meydana gəldi".[1]

Mən professor Fikrət Seyidovun əsərləri haqqında dövri mətbuatda çap olunan məqalələrə nəzər saldım. Bilmirəm, bəlkə də haradasa vurğulamışam ki, bizdə pedaqoji tənqid yox dərəcəsindədir. Əgər pedaqogika elmdirsə, niyə onun "tənqid" janrı olmasın? Var bu baxımdan, "iri", yaxud kiçik həcmli rəylər, resenziyalardır. "Qori Seminariyası və onun məzunları" (1998) monoqrafiyası gələcək yaradıcılıq mərhələrinən ilk yol açan əsərdir. "Maarif" Dövlət Nəşriyyatında hazırlanmış və pedaqoji ictimaiyyət tərəfindən yüksək qiymətini təmannasız (subyektiv mənada) almışdır. Mərhum pedaqoqumuz, professor Xəlil Fətəliyevin o zamankı ən nüfuzlu dövlət mətbuatında ("Kommunist" qəzeti, 21 noyabr 1988) "Azərbaycan maarifinin qaynaqları" resenziyası nəşr edilmişdir. Yeri gəlmişkən deməyi özümə borc bilirəm ki, Xəlil müəllim mənim tələbə yoldaşım idi, yataqxanada da bir qalmışıq. Məhsuldar alimdi, şagirdlərin hərbi-vətənpərvərlik tərbiyəsi problemini araşdırmışdı. "Maarif"də çalışarkən iri həcmli bir monoqrafiyasının nəşrində yardımçı oldum və bu işim üçün elə bilirəm mərhum dostumun ruhu qarşısında mənəvi borcumu ödəmişəm.

1. Bax: A.Eminov. "Elmi əsərlər", № 13, 2003.



*Professor Seyidov keçmiş tələbəsi, universitetin dosenti Məcid Əliyevlə*

Xəlil Fətəliyev həssasdı, iti qələmliydi, diqqətsiz deyildi. Maraqlıdı, həmən 88-ci ildə kitab barədə xeyli sayda yazı işığı çıxmışdı. X.Fətəliyev, Xeyrulla Məmmədov, Məcid Əliyev, Şahin Xəlilov, Bağır Bağırov və digərlərinin adını çəkmək lazımdı. Xəlil müəllim öncə müəllifi duymağı bacarmış, onun yazı üslubunu mənimsəmişdir. Bəlkə də bu iki faktor kiməsə artıq görünər; əslində ədəbiyyatda olduğu təkin, elmi əsəri və onun yazarını başa düşmək əsas şərtdir. Mən əgər bu prosesləri nəzərə almıramsa, əsərin qiymətini necə verərəm? - Qənaətimdir bu. Ona görə də X.Fətəliyev əsəri bütün xırdalığına qədər nəzərə almış, özünün mühakiməsi sferasında qiymətləndirmişdir. Müəllifin müəllif haqqında konkret fikri: "F.Seyidov iyirmi ildən artıqdır ki, atasının - Qori Müəllimlər Seminariyasının məzunu, görkəmli pedaqoq, mərhum professor Əhməd Seyidovun məsləhətilə unudulmaz təhsil məbədgahının yorulmaz tədqiqatçısına çevrilmişdir". X.Fətəliyev monoqrafiyanın bütün hissələrinə analitik yanaşmışdır.

Şahin Xəlilovun "Pioner" jurnalında (1989, №5) eyni adla kiçik, amma maraqlı rəyi vardır. O, fərqli olaraq məktəbli oxucula-

rına Qori Seminariyasının Azərbaycana verdiyi təhsil mütəxəssisləri barədə təsəvvür yaradır. Kitabdan lazımlı epizodu gətirir və aydın fikir aşılayır: "O zaman geri qalmış Azərbaycan şəraitində uzaq kənd və qəzalarda qız və oğlan məktəbləri açıb, yeni dünyəvi təhsil uğrunda mübarizə aparan bu fədailərin xeyirxah işini çar məmurları izləmiş, onları dinsizlikdə ittiham etmişlər. Bütün bu məsələlərə baxmayaraq, xalq müəllimlərinin əksəriyyəti özünün doğru yolundan dönmədi".

Məcid Əliyev ümumiyyətlə, Fikrət Seyidovun yaradıcılığını izləyən alimdir (Yuxarıda bu barədə yazmışdıq). "Qori Seminariyası və onun məzunları" məqaləsi də həvəslə qələmə alınmışdır ("Bilik" qəzeti. 04 Noyabr, 1988). Məqalədə Azərbaycan Müəllimlərinin örnək ola biləcək fəaliyyətləri, habelə onların maarifçilik və mədəniyyət sahəsindəki gərgin və uzun illik işləri kontekstində təhlil edilmişdir. Konkret məsələyə gəldikdə, M.Əliyev Qori Seminariyasının məzunları haqqında danışır. Kitabda F.Seyidov ilk dəfə olaraq Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının açılmasında M.F.Axundovun roluna və səyinə aydınlıq gətirmişdir. A.O.Çernyayevski və D.D.Semyonovun azərbaycanpərəst mövqeləri də əsaslandırılmışdır. Məcid Əliyevin 15 il əvvəl dediyi: adları, mənalı həyatları və səmərəli pedaqoji fəaliyyətləri tarixin yaddaşından silinməkdə olan digər məzunlar haqqında da öz sözünü desin", bu sözlər həqiqi yerini tutdu. Professor F.Seyidov bu boşluğu maraqlı, sanballı monoqrafiyaları ilə doldurdu.

Professor Fikrət Seyidovun digər kitabları haqqında da mətbuatda geniş yazılar getmişdir. Belə ki, "Maarifimizin təkrarsız xəzinəsi", "Dədə Qorquddan Şəhriyara qədər" barədə pedaqoqlarımızdan Zeynəb Zamanova, Vidadi Bəşirov, Allahverdi Eminovun[1] geniş məqalələri çapdan çıxmışdır. Bu rəylər həcminin azlığı və ya genişliyindən asılı olmayaraq ürək, sevinc hissli qələmin məhsuludur.

Vidadi Bəşirov bir kitab haqqında "Pedaqoji fikrimizin aynası" adında iki məqalə çap etdirmişdir. Əlbəttə, ədəbiyyat və digər hu-

1. Bax: Eminov A. Əhməd Seyidov fenomeni. B., 2002.

manitar sahələri haqqında çıxan əsər bir müəllif tərəfindən yazılır. Görünür, pedaqoqlarımızın ürəyi o qədər doludur ki... Digər tərəfdən, tənqiddə təkcə müəllifin əməyi qiymətləndirilmir, əsərə ön söz yazanın, habelə elmi redaktorun da işi əksini tapır. Təəssüf ki, bizim resenziya yazanlarımızın subyektivliyi burda da özünü göstərir. Bu sətirlərin müəllifi son iki kitabın ("Maarifimizin təkrarsız xəzinəsi" və "Dədə Qorquddan Şəhriyara qədər...") həm elmi redaktoru olmuş, həm də geniş fikrini elmi - publisist ovqatla yazmışdır. Bunu unutmağı həmkarının əməyinə sayğısızlıq kimi qiymətləndirərdim.

Bəzən, müəlliflər təkcə əsər barədə danışmaqla kifayətlənmirlər. Ümumi yaradıcılığa baş vurur, fəaliyyətiylə əsərlərini birbirindən ayırmır və pedaqoqların bu yolu tutması təqdirəlayiqdir; ən çox səmimiyyətdən irəli gəlir. Heyif ki, yenə də subyektivlik, xəsislik, qısqanclıq və sair hisslər payımıza çox düşmüşdür. Dosent məcid Əliyev istisnadır, geniş ürəklidir.

Məcid Əliyev xarici dillər institutunu bitirmişdir. Fikrət müəllimin tələbəsi olmuşdur. Bu gün bir yerdə çalışırlar. M.Əliyevin səmimiyyəti onun şəxsiyyətindən irəli gəlir, məqaləsində də bu hiss açıq görünür.

"Professor Fikrət Seyidovun yaradıcılığı barədə bəzi qeydlər" adı altında müəllif alimin pedaqoji irsini tam araşdırmaq məqsədini qarşısına qoymamışdır və bu, qeyri-mümkün işdir. Lakin F.Seyidovun pedaqoji fikir tariximizi tədqiq etməsində genetik bir bağlılıq görmüşdür. Eyni zamanda düşdüyü mühitin elmiliyini, elm adamları ilə bağlılığını xüsusi göstərmişdir.

Hələ uşaq ikən Əhməd Seyidovun ailəsinə məşhur ziyalılardan Bədəl Bədəlbəylini, Yusif Qasımovu, Əli Hüseynovu, Mehdi Mehdizadəni daha digərlərini görməsi, söhbətlərini dinləməsi də başlıca şərtlərdən sayılır. Misal var: "Dolu su bol olan yerə düşər". Mən bu pedaqoji mühitin üzərində dayanmaq istəmirəm, yuxarıda ətraflı danışmışam.

M.Əliyev F.Seyidovun yaradıcılığında iki istiqaməti fərqləndirmişdir: "Xarici dillərin tədrisi metodikası və Azərbaycan pedaqoji fikir tarixinin tədqiqi". Həqiqətdir ki, F.Seyidov uzun illər orta ümumtəhsil məktəbləri üçün dərsliklər, dərs vəsaitləri yazmış, onlarla qəzet və jurnallar məqaləsi çap etdirmişdir. Bu ciddi işə o, 1960-cı illərdən başlamışdır: "Yüz minlərlə azərbaycanlı şagirdlər Fikrət Seyidovun gərgin məhsuldar əməyinin məhsulu olan ingilis dilinin incəliklərinə yiyələnmişlər" - qənaətində tamamilə haqlıdır. Fikrət müəllim ingilis və rus dillərini mükəmməl mənimsəmiş, orta məktəbdə uzun illər dərs demiş, ədəbiyyatı yetərincə mütaliyə etmişdir.

Məqalədə F.Seyidovun pedaqoji irsimiz, onun araşdırılması, pedaqoji həqiqətləri üzə çıxarmaq yolundakı gərgin fədakarlığını qiymətləndirmişdir. Müəllif professorun "Qori Seminariyası və onun məzunları" adlı dəyərli monoqrafiyası üzərində ətraflı danışmışdır. 80-cı illərdə belə bir mövzunu əhatəliyilə kitab halında canına nail olmağın özü hünərdir. Ona görə ki, sovet ideologiyasının tüğyan etdiyi bir zamanda belə milli seminariyaya qısqanclıq gözü ilə yanaşılırdı və vaxtilə başı da ağrımışdı... M.Əliyev yazmışdır: "Azərbaycan pedaqoji elmində ciddi uğur hesab edilən bu tədqiqat əsərində Qori Müəllimlər Seminariyasının təlim - tərbiyə fəaliyyəti sistemli, bütün ziddiyyətləri ilə obyektiv təhlil edilmişdir. Sözügedən monoqrafiyada həmçinin xalqımızın ictimai fikrinin inkişafında, maariflənməsində əvəzsiz xidmət göstərmiş onlarla mütəffəkirin, maarif fədaisinin həyat və yaradıcılığı yığcam təhlil olunmuşdur".

Məcid Əliyev professor F.Seyidovun yaradıcılığından danışarkən alimin psixoloji durumunu, yaşın müdrikliyində məhsuldar fəaliyyətini xüsusi göstərmişdir. Belə ki, 3-5 il ərzində gənclik həvəsiylə "Türk xalqlarının tərbiyə və məktəb tarixi" (1998, 12 çap vərəqi), "Aslanbəylidən başlanan xatirələr" (2000, 20 ç.v.), "Maarifimizin təkrarsız xəzinəsi" (2001, 10 ç.v.) və s. monoqrafiyalar qələmə aldığını qeyd edir. "Aslanbəylidən başlanan xatirələr" avtobioqrafik - memuarı üzərində obyektiv zövqlə danışır, onun müəllifinin bədii dilini, tarixi məqamlara işıq salmasını, yaddaşın qeyri-adiliyini vurğulayır. Mən Məcid Əliyevlə tamamilə şərikəm. Mübalicəsiz nadir əsərdir. Mən bir məziyyəti də deyərdim ki, F.Seyidovun vəzifəli şəxslərin mövqeyinə obyektiv qiymət verməsi alqışlanmalıdır.



Məqalədə M.Əliyev arxiv materiallarına münasibət məsələsində professor F.Seyidov səliqəsini, ciddiliyini qiymətləndirir və düzgün yanaşır ki, arxiv materialları tarixi əsərin yazılmasını şərtləndirən mənbədir. Lakin həqiqətdir ki, Qori seminariyasının arxivi də erməni terrorunun qurbanına çevrilmişdir vaxtilə. "Təmizlik aparmaq" bəhanəsilə yandırılmış, sənədlər oğurlanmışdır. Yaxşı ki, F.Seyidov fədakarlıqla, vətəndaşlıq hissiylə bir sıra tarixi sənədləri əldə etmiş ikinci kitabını - "Qazax Müəllimlər Seminariyası" haqqında tədqiqatının capını reallaşdırmışdır.

Məcid Əliyev professor Fikrət Seyidovun daha bir neçə kitabı: "Azərbaycan pedaqoji fikir tarixindən səhifələr" və "Dədə Qorquddan Şəhriyara qədər" monoqrafiyaları haqqında da öz mülahizəsini söyləmiş və bu əsərlərin pedaqogika elmində ən qiymətli mənbələr olduğunu əsaslandırmışdır.

Biz məqalədə Fikrət Seyidovun təşkilatçılıq səriştəsi haqqında da qısa məlumata rast gəlirik və maraqlıdır ki, bu illər məhz hazırda ADU-nun xarici dillər fakültəsinin ingilis dili kafedrasının dosenti kimi, onun müşahidəsiylə olmuşdur. Və bir həqiqətdir ki, Fikrət müəllim son dərəcə məsuliyyət hissli, işgüzar, təmiz bir insandır, pedaqoqdur, alimdir. Və bu xüsusiyyətlər onun müdrik tərbiyəyə malikliyini göstərir. Lev Tolstoy da bu mövqedə haqlıydı: "Müdriklik - sonsuzluqdur - nə qədər uzağa getsən, bir o qədər sənə lazımdır".

## § 2. Kitablar - fikirlər, rəylər

### Zirvələrə gedən yol. Professor Fikrət Seyidovun yaradıcılığı barədə bəzi qeydlər

*Professor Fikrət Seyidov mənim həyatımda əvəzsiz xidməti olan bir insandır. Tələbə olarkən dekanım və müəllimim, aspiranturada oxuyarkən məsləhətçim, müdafiə edərkən qolumdan tutanım, sonrakı illərdə iş yoldaşım olub. Onunla həmişə fəxr etmişəm - insanlığına, ziyalılığına, alimliyinə görə. Fikrət müəllim haqqında çox az yazmışam: cəmi üç məqalə. Onun haqqında yazmaq nə qədər asan olsa da (dərindən tanıdığıma gbrə), bir o qədər çətindir (Fikrət müəllimin elmi yaradıcılığı artıq xüsusi tədqiqat tələb edir).*

Çağdaş Azərbaycan pedaqoq - alimləri içərisində Fikrət Əhməd oğlu Seyidov xüsusi mövqeyə malikdir. Ömrünün 50 ildən çoxunu şərəfli müəllimlik peşəsinə həsr etmiş Fikrət Seyidov 40 ildən çoxdur ki, gənclik həvəsi ilə yazıb-yaradır, pedaqogika və metodika elmlərini dərin məzmunlu əsərləri ilə zənginləşdirir. Fikrət müəllim başqaları üçün örnək olan həyat yolu keçmiş, yaradıcı alim, gözəl praktik müəllim, təşkilatçı və ən başlıcası əsl insan ömrü yaşamışdır. Fikrət Seyidovun məhz bu ömrü yaşaması son dərəcə qanunauyğundur. O, 1930-cu ildə vətəninə, torpağına min bir tellərlə bağlı olan, Azərbaycan xalqının görkəmli oğlu, milli pedaqoji tariximzin yorulmaz tədqiqatçısı, Azərbaycan elmi-pedaqoji məktəbinin yaradıcısı Əhməd Seyidovun ailəsində dünyaya göz açmış, böyüyüb boya-başa çatmışdır. Uşaq vaxtlarından evlərində xalqımızın ən görkəmli elm, maarif fədailəri olan Əli Hüseynovu, Bədəlbəylini, Yusif Qasımovu, Zümrüd Axundovanı, Mehdi Mehdizadəni və başqalarını görmüşdür. Görkəmli maarif xadimlər ilə ünsiyyət, evlərində elm, maarif və məktəb haqqında olan söhbətlər, münasibətlər onun gələcək həyat yolunu müəyyən etməkdə həlledici əhəmiyyətə malik olmuşdur.

Təsadüfi deyildir ki, Seyidovlar ailəsində böyüyən, tərbiyə alan övladların hamısı ömrünü müəllim kimi xeyirxah peşəyə həsr

etmişlər. O, 1950-ci ildə ali təhsilini tamamladıqdan sonra Bakı şəhərindəki 193 nömrəli məktəbdə ingilis dili müəllimi işləmiş, hərbi xidməti başa vurduqdan sonra isə 199 nömrəli orta məktəbdə yenidən ingilis dili müəllimi kimi fəaliyyətini davam etdirmiş, 1961-ci ildən isə ömrünü aili məktəblə, tələbələrin təlim-tərbiyəsinə bağlamışdır.

Professor Fikrət Seyidovun elmi yaradıcılığında iki istiqamət aparıcı mövqeyə malikdir: xarici dillərin tədrisi metodikası və Azərbaycan (türk) pedaqoji fikir tarixinin tədqiqi. Bir-birindən bütün parametrlər üzrə fərqlənən istiqamətlərin hər ikisində Fikrət Seyidov gənclik illərindən bu günə kimi eyni məsuliyyət və məhsuldarlıqla fəaliyyət göstərir.

Fikrət Seyidovun orta və ali məktəblərdə ingilis dilinin tədrisi metodikası sahəsindəki fəaliyyəti yaradıcı bir alim ömrü üçün kifayət edərdi. Müxtəlif illərdə ingilis dilinin tədrisi ilə bağlı çap olunmuş əsərlər Azərbaycanda metodika elminin inkişafına təkan vermişdir. O, Xarici Dillər İnstitutu tələbələri üçün yazılmış "8 illik məktəbdə xarici dilin tədrisi metodikası" (1967) adlı dərsliyin əsas müəlliflərindən biridir. Fikrət müəllim xarici dil dərslərində şifahi nitqin inkişafı və təlimin texniki vasitələrindən istifadə problemlərinə həsr olunmuş aşağıdakı əsərlərini nəşr etdirmişdir: "Xarici dil dərslərində diafilm" (1966), "Şifahi nitq vərdişlərinin inkişafına dair" (1964), "İngilis dili dərslikləri üçün metodik rəhbərlik" (1964), "Xarici dil dərslərində maqnitafonlardan istifadə", "Xarici dil dərslərində kinofilmlərdən istifadə", "Texniki vəsaitlərin köməyi ilə şifahi nitqin inkişafı", "Nitq inkişafına dair metodik izahat" (1965).

İngilis dili üzrə dərslik tərtibi sahəsində Fikrət müəllimin xalqımıza xidməti əvəzsizdir. 1960-cı ildən başlayaraq bu günə kimi yüz minlərlə azərbaycanlı şagirdlər Fikrət Seyidovun gərgin, məhsuldar əməyinin məhsulu olan ingilis dili dərsliklərinin vasitəsilə dünya mədəniyyəti ilə tanış olmuş, ingilis dilinin incəliklərinə yiyələnmişlər. Orta məktəblərdə uzun illər istifadə olunmuş V, VI,

VII, VIII siniflər üçün ingilis dili dərslikləri və onlara yazılmış metodik vəsaitlərin müəlliflərindən biri Fikrət Seyidov olmuşdur.

Fikrət müəllim indi də xarici dil üzrə proqramların və dərsliklərin tərtibində fəal iştirak edir. Onun rəhbərlik etdiyi müəlliflər kollektivi yeni proqram tələblərinə və Avropa standartlarına uyğun VI sinif üçün ingilis dili dərsliyi tərtib etmişlər. Fikrət Seyidov xarici dil tədrisinin aktual problemləri ilə bağlı ümumdünya seminarında çıxış etmiş, keçmiş sovetlər birliyinin bir çox şəhərlərində məruzələr etmiş, konfransların daxilində metodikanın elmi nəzəri problemləri ilə bağlı konfransların təşkilatçılarından və daimi iştirakçılarından biri olmuşdur. O, ali məktəbdə işləməklə yanaşı, 25 il müddətində orta məktəbdə ingilis dili müəllimi kimi də fəaliyyətini davam etdirmişdir.

Bütün bunlara baxmayaraq, pedaqoji irsimiz, onun araşdırılması, tarixi həqiqətlərin pedaqoji ictimaiyyətimizə çatdırılması məsələləri Fikrət Seyidovu bir alim kimi həmişə narahat etmiş, özünə çəkmişdir. Pedaqoji fikir tariximizin qaynaqlarına əl uzatmaq, onları saf-çürük etmək, dərin təhlil süzgəcindən keçirmək, Fikrət müəllimin həm həyat amalıdır, həm də alim kimi ən çox narahat edən problemdəndir.

Fikrət Seyidovun çoxillik araşdırmalarının nəticəsi olan "Qori seminariyası və onun məzunları" (15 çap vərəqi) adlı dəyərli monoqrafiyası xalqımızın pedaqoji fikir tarixini öyrənmək baxımından son dərəcə qiymətli töhfə olmuş və layiqincə qiymətləndirilərək haqqında onlarla müxtəlif mətbu orqanlarında məqalələr yazılmışdır. Azərbaycan pedaqogika elmində ciddi uğur hesab edilən bu tədqiqat əsərində Qori Müəllimlər Seminariyasının təlim-tərbiyə fəaliyyəti sistemli, bütün ziddiyyətləri ilə obyektiv təhlil edilmişdir. Sözügedən monoqrafiyada həmçinin xalqımızın ictimai fikrinin inkişafında, maariflənməsində əvəzsiz xidmət göstərmiş onlarla mütəfəkkirin, maarif fədaisinin həyat və yaradıcılığı yığcam təhlil olunmuşdur. Onu da qeyd edək ki, əsər hər iki dildə - Azərbaycan və rus dillərində nəşr olunmuşdur. Hazırda Qori Mü-

əllimlər Seminariyasının arxivi yandırıldığı üçün bu əsərin tarixi, elmi qiyməti daha da yüksəlmişdir.

Professor Fikrət Seyidovun yaradıcılığının son 5 ili qibtə ediləcək qədər zəngindir. Ömrünün müdriklik dövrünü yaşayan Fikrət müəllim gənclik eşqi ilə, yorulmadan işləyir. "Türk xalqlarının tərbiyə və məktub tarixinə dair" (1998-ci il, 12 çap vərəqi), "Aslanbəylidən başlanan xatirələr" (2000-ci il, 20 çap vərəqi), "Maarifimizin təkrarsız xəzinəsi" (2001-ci il, 10 çap vərəqi) kimi üç fundamental əsər onun son illərdəki gərgin zəhmətinin bəhrəsidir. Fikrət Seyidov təkcə son üç əsərini yazmaqla Azərbaycan xalqı qarşısında öz alim-övlad dorcunu yerinə yetirmiş və sağlığında özünə heykəl ucaltmışdır.

Bədii dildə yazılmış, avtobioqrafik səciyyəli "Aslanbəylidən başlanan xatirələr" kitabı azərbaycanlı oxucular, ilk növbədə pedaqoji ictimaiyyət tərəfindən çox maraq və minnətdarlıqla qarşılanmışdır. Çağdaş Azərbaycan pedaqoqları içərisində konseptual-pedaqoji təfəkkür çəkisi ilə seçilən, Seyidovlar ocağına daimi bağlılığı və sədaqəti ilə nümunə olan, mənəvi qida aldığı ocağa sönməz məhəbbətini əməli fəaliyyəti ilə daim sübut edən görkəmli pedaqoq, yazıçı-publisist Allahverdi Eminov əsərə dərin məzmunlu və kövrək ön sözü yazmışdır.

Bir elin, bir nəslin, bir ailənin taleyi haqda olan bu pedaqoji əsərin tərbiyəvi dəyəri son dərəcə böyükdür.

Fikrət Seyidovun uzun illər gərgin axtarışlarının nəticəsi olan "Türk xalqlarının tərbiyə və məktəb tarixinə dair" (1998) adlı tədqiqatı XX əsr Azərbaycan pedaqoji fikrinin ən qiymətli əsərlərindən biridir. Qədim türk xalqlarının məktəb və tərbiyə tarixinin, eləcə də islam məktəblərində təlim-tərbiyə işlərinin araşdırılması, obyektiv, sistemli tədqiqi hələlik pedaqoji elmimiz tərəfindən az öyrənilən sahələrdəndir. Pedaqoqlarımız öz diqqətini rus və Avropa pedaqoji fikrinin öyrənilməsinə yönəltdiyi zaman, Fikrət Seyidov başqa istiqamətdə yaradıcılıq axtarışları aparmış, bu günkü təhsil siyasətimizin strateji məqsədləri və məzmunu ilə kifayət qədər səsləşən qədim türk xalqlarının tərbiyə, təlim və məktəb

tarixini öyrənmiş, Yusif Xas Hacib, İbn Qafil, Füzuli, Nizami və s. kimi bir çox mütəfəkkirlərin əsərlərini təhlil etmiş, islami dəyərlərə qovuşmağın yollarını göstərən islam məktəblərini tədqiq etmək vəzifəsini şərəflə və yüksək peşəkarlıqla yerinə yetirmiş, tarix və müasir yönümdən fundamental bir əsər yazmışdır. Bunun nəticəsidir ki, əsər pedaqoq alimlərimizin, müəllimlərimizin rəğbətin qazanmış, eyni zamanda dərslik ali pedaqoji tədris müəssisələrində istifadə edilir.

Arxiv materiallarını saf-çürük etməklə tarixi əsər yazmaq ciddi tədqiqatçı səriştəsi və zəhməti tələb edən işdir və pedaqoji fikir tarixində bu səpgili dərin məzmunlu əsərlər kifayət qədərdir. Lakin arxivi məhv edilmiş təhsil ocağının uzunmüddətli səmərəli təlim-tərbiyə fəaliyyətini arxiv dəqiqliyi ilə bərpa etmək xalqın yox edilmiş tarixini yenidən özünə qaytarmaq işinin məsuliyyətini və ağılagəlməz çətinliyini təsəvvür etmək belə çətindir. Fikrət Seyidov Azərbaycan xalqının XX əsr ictimai və mədəni həyatında xüsusi əhəmiyyətə malik olan Qazax müəllimlər seminariyasının tarixini zərgər dəqiqiliyi ilə bərpa etməklə, pedaqoji elmimiz və məktəb tariximiz üçün əvəzsiz xidmət göstərmişdir. Qazax müəllimlər seminariyası 40 il (1918-1958) fəaliyyət göstərmiş, 3 minədək müəllim kadrları hazırlamış, xalqın elmi- mədəni tərəqqisinə qüvvəili təkan vermişdir. Öz isti qucağında Səməd Vurğun, Mehdi Hüseyn, Osman Sarıvəlli, İsmayıl Şıxlı kimi dahi şəxsiyyətlər, şair-yazıçılar yetişdirmiş seminariyanın tarixini unutmağa haqqımız yox idi; nə yaxşı ki bu şərəfli işin öhdəsindən Əhməd Seyidovun geniş mənada varisi Fikrət Seyidov gəldi. Fikrət müəllimin bu əsəri də layiqli qiymətini almış, az müddət içərisində Azərbaycan ziyalılarının diqqətini cəlb etmiş, bir neçə ali təhsil müəssisəsində geniş pedaqoji ictimaiyyətin iştirakı ilə kitabın təqdimat mərasimləri keçirilmiş, əsər Ə.Şıxlınski diplomuna layiq görülmüş və haqqında dövrü mətbuatda geniş materiallar dərc olunmuşdur.

Fikrət Seyidov "Azərbaycan pedaqoji fikir tarixindən səhifələr" əsərində də pedaqoji fikrimizin qaranlıq səhifələrinə aydınlıq

gətirmişdir. O, Azərbaycan maarifpərvərlərini müəllim və müəllim hazırlığı, milli dərslik və uşaq ədəbiyyatı yaratmaq, ana dili, qadın azadlığı və təhsil haqqında fikirlərini və əməli fəaliyyətini geniş təhlil edərək Azərbaycan maarifpərvərlərinin bu sahədəki çətin, xeyirxah və müqəddəs işlərini xalqımıza pedaqoji ictimaiyyətimizə çatdırmışdır.

Professor Fikrət Seyidovun yaradıcılığında "Dədə Qorquddan Şəhriyara qədər: Güney Azərbaycanda pedaqoji fikir" adlı monoqrafiyası xüsusi yer tutur. Güney Azərbaycanda yaşayan 25 milyon həmyerlimiz nə qədər ağır, məşəqqətli həyat keçirsələr də, qabaqcıl ziyalılar öz milli mənlik qürurunu və heysiyyətini daim saxlayaraq Azərbaycan xalqının azadlığı uğrunda mübarizə aparmış və gənc nəslin maariflənməsində əvəzsiz xidmətlər göstərmişlər. Güney Azərbaycanın qabaqcıl maarifpərvərlərindən Mirzə Həsən Rüştiyyə, Mir Mehdi Etimad, Məmməd Bağır Xalxali, Seyid Rza Sabit, Əsgərzadə Mətləf, Həbib Sair, Mirzə Əbdülrəhim Talıbov, Məhəmməd Şəhriyar və s. kimi şair və müəllimlər dərsliklər yazmış, yeni üsullu məktəblər açmış, gənc nəslin əxlaq tərbiyəsinə güclü təsir göstərən uşaq ədəbiyyatı yaratmışdır. Güney Azərbaycanda pedaqoji fikir tarixinin tədqiqinə həsr edilmiş bu monoqrafiya pedaqoji ictimaiyyətimizə qiymətli hədiyyə olmaqla, inanırıq ki, bu mövzuda yeni-yeni tədqiqat işlərinin yazılmasına təkan verəcək.

Professor Fikrət Seyidov müntəzəm olaraq pedaqoji kollektivlər qarşısında radio və televiziyada pedaqogikanın, pedaqoji fikir tariximizin, metodikasının müxtəlif problemləri ilə bağlı məruzələr edir. O, müstəqil respublikamızın yeni tələblərinə uyğun "Pedaqogika tarixi kursu" üzrə proqram tərtib etmiş, N.Tusi adına APİ-nin "Azərbaycanda pedaqoji fikrin inkişafı tarixindən" adlı elmi əsərlərin redaksiya heyətinin üzvü olmuş, 10 il müddətində Xarici Dillər İnstitutunda səmərəli fəaliyyət göstərən "Məktəblə əlaqə komissiyası"nın sədr müavini, pedaqogika və metodika üzrə ixtisaslaşdırılmış müdafiə şurasının üzvü olmuşdur.

Fikrət müəllim yüksək təşkilatçılıq keyfiyyətlərinə malik bir insandır. O, işlədiyi bütün vəzifələrdə müəllim və tələbə kollektivinin sevimlisinə çevrilmişdir. Pedaqoji prosesi incəliklərinə qədər bilməyinin və yüksək insani və təşkilatçılıq keyfiyyətlərinə malik olmasının nəticəsidir ki, Fikrət müəllimin rəhbərlik etdiyi kollektivlər, bölmələr başqaları üçün nümunə olmuşdur.

Fikrət Seyidov müxtəlif illərdə 2 illik ingilis dili kurslarının ilk direktoru, dekan müavini, kafedra müdiri vəzifələrində işləmişdir. İndi isə "Odlar Yurdu" Universitetində pedaqogika kafedrasının müdiri kimi səmərəli fəaliyyət göstərir.

*Məcid Əliyev,*
*ADU-nun Xarici dillərin*
*metodikası kafedrasının dosenti*
*03.12.2003.*

**Azərbaycan Maarifinin Qaynaqları**

Azərbaycan maarifinin inkişaf tarixi dərin köklərlə bağlı olub, uzun və keşməkeşli bir yol keçmişdir. Həmin yolda bir sıra qaynaqlara istinad etmiş, onlardan bəhrələnmişdir. Bu qaynaqlardan biri Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi olmuşdur. XIX əsrin 70-ci illərində yaradılmış və mütərəqqi rus pedaqoqlarımn rəhbərliyi altında fəaliyyət göstərmiş seminariyanın Azərbaycan şöbəsi xalqımızın mədəni həyatında və maariflənməsində böyük rol oynamışdır.

Qori müəllimlər seminariyasının bugünkü Sovet Azərbaycanı maarifinin yüksəlişindəki xidməti nədən ibarətdir? Onun mütərəqqi ideyaları, səmərəli toxumları hansılardır? Bu suallara ötəri cavab vermək qeyri-mümkündür. Həmin məsələləri illərlə öyrənmək, ilk mənbələr əsasında tədqiq etmək, çoxsaylı məxəzləri araşdırmaq və ümumiləşdirmək lazımdır. Müqəddəs maarif ocağının işığına yön alıb sirlər qapısını açmaq və tədqiqat aparmaq alim üçün zəhmətli olsa da böyük səadətdir. Bu cür səadət pedaqoji elmlər namizədi, dosent Fikrət Seyidova nəsib olmuşdur.

F.Seyidov iyirmi ildən artıqdır ki, atasının - Qori müəllimlər seminariyasının məzunu, görkəmli sovet pedaqoqu, mərhum professor Əhməd Seyidovun məsləhəti ilə unudulmaz tədqiqatçısına çevrilmişdir. Onun çoxillik və səmərəli tədqiqatları vardır. "Maarif" nəşriyyatının bu günlərdə çapdan buraxdığı "Qori seminariyası və onun məzunları" (1987) adlı monoqrafiya pedaqoji irsimizin öyrənilməsinə yeni bir töhfədir.

Monoqrafiya sovet məktəbinin yenidən qurulduğu, təlim və tərbiyə işlərinə aşkarlıq və demokratiya işığından yanaşıldığı bir vaxtda yazılmışdır. İndi hamımızı düşündürən məsələlərdən biri budur ki, sovet məktəbi ləyaqətli vətəndaş, kamil şəxsiyyət yetişdirmək vəzifəsini layiqincə yerinə yetirsin. Bunun üçün tarixin təcrübələrinə, ötən günlərin müsbət cəhətlərinə, harada və nə zamansa istifadə olunmuş yaxşıların hamısına istinad etmək lazım gəlir. Sorağında olduğumuz bir sıra müsbət cəhətləri Qori müəllimlər Seminariyasının, xüsusən də onun Azərbaycan şöbəsinin iş təcrübəsində özünə geniş yer tapmışdı. Şöbənin fəaliyyət göstərdiyi 40 il ərzində onun xalq məktəbləri üçün hazırladığı 250 nəfər azərbaycanlı müəllim öz zəhməti, halallığı, ləyaqəti, əqidəsi və sözün əsl mənasında müəllimlik səriştəsi ilə fərqlənmiş, xalqımızın dərin hörmət və ehtiramını qazanmışdır.

Bəs necə olmuşdur ki, çar hökumətinin Azərbaycandan uzaqda açdığı və məqsədi bilavasitə mütləqiyyətə sədaqətli müəllimlər hazırlamaq olan seminariyanın məzunları inqilabçı mübariz, marksist pedaqoq, yazıçı, alim, bəstəkar, teart xadimləri kimi yetişmişlər? Monoqrafiyada həmin suallara geniş və aydın cavab verilir. Seminariyanın açılış tarixinin mübahisəli məsələləri də dəqiqləşdirilir. Müxtəlif dövlət sənədlərini, ayrı-ayrı tarixi şəxsiyyətlərin xatirələri, seminariyanm özünün yazılı mənbələrini dərindən öyrənmək əsasında sübuta yetirilir ki, təhsil ocağı 1879-cu ildə, nəzdindəki Azərbaycan ibtidai məktəbi isə 1880-ci ildə açılmışdır. Onun məhz bu illərdə və həm də Azərbaycandan uzaqda açılmasının dərin sosial, siyasi səbəbləri vardı. Müəllif həmin sə-

əblərin çar Rusiyasının bir tərəfdən Bakı neft sənayesinin savadlı kadrlara tələbatı ilə, digər tərəfdən hökumətin Bakı proletariatınm inqilabi təfəkkürünün siyasi yetkinliyindən qorxması faktları ilə əlaqədar olduğunu göstərir.

Monoqrafiyanın böyük bir hissəsi ayrı-ayrı başlıqlar altında şöbənin tərbiyə işlərinə, ibtidai məktəbin xüsusiyyətlərinə, müəllim və tələbələrin əxlaqi münasibətlərinə həsr olunmuşdur.

Müəllif seminaristlərin müəllimlik sənətinə dərindən yiyələnməsində, elmi-metodik hazırlığında xüsusi xidmətləri olan pedaqoqlardan A.O.Çernyayevskinin, R.B.Əfəndiyevin, F.B.Köçərlinin, A.B.Muxtarovun, Ə.B.Maqomayevin, N.Novospasskinin, M.L.Pekkerin, K.Korakonidzenin fəaliyyətini geniş təhlil edir. Onlar təlimdə K.D.Uşinskinin səs üsulunu tətbiq etmiş, tədrisi dövrün nümunəvi dərslikləri əsasında qurmuş, bununla da seminariyamn bitkin metodika əsasında işləməsinə nail olmuşlar.

Məhz təlimin metodik cəhətdən düzgün təşkilinin nəticəsi idi ki, seminaristlər səliqəli yazı, rəvan oxu, sürətli hesablama, elmi tədqiqatçılıq vərdişlərinə mükəmməl yiyələnirdilər.

Əsərdə seminaristlərin müəllimlik sənətinə praktik hazırlıqlarının izahına geniş yer verilmişdir. Bunun üçün tələbələrə əvvəlcə pedaqogika və metodikalar dərindən öyrədilir, sonra II və III kurslarda pedaqoji təcrübə keçilirdi. Pedaqoji təcrübə seminariyanın nəzdindəki Azərbaycan ibtidai məktəbində aparılırdı. Bu, aşağıdakı sistem üzrə qurulmuşdu: seminaristlər II kursun birinci yarısından etibarən ibtidai məktəbin dərsliklərinin geniş təhlili barədə hesabat hazırlayır, yazı, oxu, əyani təlim və ilk say anlayışlarının verilməsinə dair dərs icmaları tutur, pansionda ibtidai məktəb şagirdlərinin təliminə kömək göstərdilər. III kursun birinci yarısında bir ay dərslərdə müşahidəçi kimi iştirak edir, bundan sonra bir həftə ibtidai məktəb müəllimlərinin köməkçisi, bir həftə praktikant, bir həftə də assistent rolunu yerinə yetirirdilər. Kursun ikinci yarasında rus ibtidai məktəbində qrammatika, hesab, həndəsə, coğrafiya, tarix fənləri üzrə nümunə dərsləri keçirdilər. Tə-

ləbələr buraxılış imtahanından qabaq ibtidai məktəbin bütün sinif-lərində pedaqoji şuramn üzvlərinin iştirakı ilə üç nümunə dərsi keçməli idilər.

Təlim-tərbiyə işlərinin belə nümunəvi təşkilinin nəticəsi idi ki, bu bilik məbədi dünyanın ayrı-ayrı ölkələrinin seminariyalarından yaxşı mənada fərqlənirdi. Onun işləri 1900-cu ildə Parisdə ümumdünya sərgisində, 1901-ci ildə isə Tiflis yubiley sərgisində birinci yeri tutaraq qızıl medal almışdı.

Sonuncu hissə Qori müəllimlər seminariyasının müdaivmləri haqqında portret oçerklərdən ibarətdir. Fəsildə əlli oçerk vardır. Əlli ziyalı - əlli maarif fədaisi Qori müəllimlər seminariyasından götürülmüş maarif məşəlini Azərbaycanın ayrı-ayrı kənd və şəhərlərinə aparmış, minlərlə gəncin həyat yolunu işıqlandırmışlar. Biz onları şərti olaraq aşağıdakı kimi qruplaşdırdıq: partiya və dövlət xadimləri - N.Nərimanov, T.Hüseynov, Y.Qasımov; yazıçılar - C.Məmmədquluzadə, F.B.Köçərli, S.S.Axundov, R.B.Əfəndiyev, Rəcəb Əfəndiyev, H.Sanılı. A.Sübhanverdixanov, Ə.Səbri, İ.B.Musabəyov; bəstəkar və teatr xadimləri - Ü.B.Hacıbəyov, M.Maqomayev, Əli və Hənifə Terequlov qardaşları; pedaqoq - alimlər - C.Cuvarlı, İ.Qayıbov, Ə.Seyidov, M.Mustafayev, Ə.Qəmərlinski, A.B.Əmirov, Z.Vəkilov, M.B.Mahmudbəyov, F.Ağazadə... Onlar xalqımızın maariflənməsi, elmə, təhsilə yiyələnməsi üçün fədakarlıq göstərmişlər. Azərbaycan xalqı onları həmişə minnətdarlıqla yad edəcəkdir.

F.Seyidovun "Qori seminariyası və onun məzunları" monoqrafiyası məhz bu minnətdarlığın ifadəsidir.

*Xəlil Fətəliyev*
*pedaqogika elmləri doktour*
*24.11.1988.*

## Maarifimizin təkrarsız xəzinəsi

Görkəmli pedaqoq-alim, Azərbaycan Dillər Universitetinin qocaman müəllimi, professor Fikrət Seyidovun Qazax seminariyası və onun məzunlarına həsr etdiyi "Maarifimizin təkrarsız xəzinəsi" adlı ikinci kitabı çapdan çıxıb. Qeyd edək ki, bu kitab "Qori seminariyası və onun məzunları" adlı kitabın davamıdır. Kitabda 1879-cu ildə fəaliyyətə başlayan Qori Müəllimlər Seminariyasının sonrakı taleyi, onun Qazaxda yenidən açılması, orada təhsil alan görkəmli yazıçı və şairlərimiz haqqında maraqlı məlumatlar verilib. Qazax seminariyasının həyatındakı bəzi qaranlıq məqamlara da aydınlıq gətirilib.

Professor F.Seyidov yaradıcılıq tematikasına sadiq qalmaqla, Qori (Qazax) Seminariyasının tam ensiklopedik salnaməsini tədqiq etmişdir. Tarixi dəqiqiliyin gözlənilməsi, keçmişlə bu gün arasındakı varislik, fərdi, özünəməxsus üslub, arxiv sənədlərinə həssas münasibət bu kitabın nəzərə çarpan xüsusiyyətlərindəndir.

F.Seyidov seminariyanın tarixinin araşdırılmasına cavan ikən, özü də mərhum atası Əhməd bəyin istəyilə başlamışdır. Kitabdan məlum olur ki, Azərbaycanda və Şərqdə ilk maarif ocağı olan Qazax Müəllimlər Seminariyası 1918-ci il noyabr ayının 10-da fəaliyyətə başlayıb. Onun təşəkkül tapmasında Qori seminariyasının Qazaxda yaşayan məzunları Əli Hüseynovun, Əhməd Seyidovun, Osman Əfəndiyevin, Səlim Əfəndiyevin, Osman Şıxlinskinin və digər görkəmli elm xadimlərinin böyük rolu olmuşdur. Seminariya qırx illik fəaliyyəti dövründə üç minədək müəllim hazırlamış və onlar respublikamızın rayonlarına maarif işığı aparmışlar.

Azərbaycan Demokratik Respublikası yaranarkən Qori seminariyasının keçmiş məzunlarından F.Köçərli, Ü.Hacıbəyov, S.S.Axundov, N.Şahsuvarov respublikamızda ön cərgədə gedənlərdən olmuşlar. Onlar maarifimizin və məktəbimizin rolunu yüksək qiymətləndirmiş, onun inkişafına hər cür şərait yaratmışlar.

F.Seyidov monoqrafiyada pedaqoji faktoara son dərəcə diqqətlə yanaşır, hər bir müəllimin rolunu xüsusi qeyd edir. Bu kitabda

seminariyanın direktorları və məzunları haqqında da maraqlı məlumatlar verir. Seminariyanın ilk direktoru F.Köçərli olmuşdur. Qazax seminariyasında pedaqoji işin təşkilində Qori seminariyasının təcrübəsindən istifadə edilmişdir.

Qazax Müəllimlər Seminariyasında digər maraqlı məqam da qadın şöbəsinin fəaliyyətidir. F.Seyidov müasir oxucuya aydınlıq gətirmək üçün məsələnin tarixinə qayıdır və qadın köləliyi və hüquqsuzluğu kimi qeyri-elmi qənaətləri təkzib edib və tarixi qadın şəxsiyyətlərini nümunə göstərir.

Zəngin mədəniyyət və təhsil ənənələrinə malik olan Azərbaycan müsəlman Şərqində dünyəvi təhsilin gerçəkləşdiyi ilk ölkələrdən biri olmuşdur. XIX əsrin ortalarından başlayaraq, Azərbaycanda gedən siyasi və sosial-iqtisadi proseslər onun mədəni həyatına da güclü təsir göstərmiş, böyük vüsət alan maarifçilik hərəkatı yeni tipli təhsil ocaqlarının yaranmasına təkan vermişdir. Azərbaycanın bir sıra tanınmış elm, mədəniyyət və ədəbiyyat xadimləri, adları Azərbaycan ədəbiyyatı tarixinə qızıl hərflərlə yazılmış S.Vurğun, O.Sarıvəlli, İ.Şıxlı kimi görkəmli simalar məhz bu seminariyanın ilk məzunlarıdır. Qazax müəllimlər seminariyasının xalqımızın mədəni həyatında oynadığı böyük rol danılmazdır. Onun təməli üzərində neçə-neçə təhsil ocağı yaranıb inkişaf etmişdir. Bu təhsil məbədi özündən sonra böyük mədəni irs qoymaqla adını Azərbaycan maarifi tarixinə əbədi həkk etmişdir. Qeyd edək ki, "Maarifimizin təkrarsız xəzinəsi" kitabı adından da məlum olduğu kimi, elmimiz və maarifimiz üçün qiymətli bir töhfədir.

*Zeynəb Zamanova*
*18.04.2001.*

## Pedaqoji Fikrimizin aynası

Məktəb və pedaqoji fikir tarixinin tədqiqi, onun öyrənilmə üsullarının təkmilləşdirilməsi və yeni milli məfkurə komponentlərinin vəhdəti ilə möhkəmləndirilməsi bu gün qarşıda duran mühüm perspektiv vəzifələrdən biridir.

Professor N.Kazımovun təbirincə desək, "İndi şərait dəyişmişdir. Azərbaycan Respublikası müstəqil dövlətdir. Onun ideologiyası formalaşır, milli mənlik şüuru baş qaldırır, tariximiz açılır, adət və ənənələrimiz dirçəlir. Deməli, Azərbaycanda milli pedaqogika yazmaq üçün indi müvafiq siyasi şərait yaranmışdır".

Qeyd olunanları nəzərə alaraq, bu günlərdə işıq üzü görmüş zəngin bir monoqrafik nəşrin - professor Fikrət Seyidovun "Dədə Qorquddan Şəhriyara qədər: Güney Azərbaycanda pedaqoji fikir" (Bakı, OKA Ofset Azərbaycan-Türkiyə Nəşriyyat Poliqrafiyası şirkəti, 2003) adlı monumental kitabı haqqında mülahizələrimizlə oxucuları da tanış etmək istəyirik.

Kitab zəngin elmi axtarışların, tarixi düşüncənin məhsulu olaraq meydana gəlmişdir. "Güney Azərbaycana məhəbbətlə" açılan bu kitabın elmi siqləti, məzmun dəyərliliyi, əhatə problematikası yeni pedaqoji təfəkkür baxımından işlənildiyi üçün müəllifin istək və arzuları ilə oxucunun birbaşa təmasda olmasına geniş imkan verir.

Kitab Cənubi (Güney) Azərbaycan pedaqoji fikrinə dair oçerklər toplusu, almanax təsiri bağışlasa da, bu günə qədər tədqiqatlardan kənarda qalan şəxsiyyətlərin - N.Tusinin, Hacı Mirzə Həsən Rüşdiyyənin, Mir Mehdi Etimadın (Natiqin), Həbib Sahirin, İrəc Mirzənin, Seyid Rza Sabirin, Məhəmməd Hidəcin, Mirzə Kazım Qazi Əsgərzadənin, Mir Mehdi Çavuşun, Mirzə Əbdürrəhim Talıbovun, Məhəmməd Bağıro Xalxalinin və nəhayət, Məhəmməd Hüseyn Şəhriyarın təlim-tərbiyəyə dair fikirlərini, maarifçilik düşüncələrini və həyat məramlarını, müqəddəs diləklərini öyrənmək baxımından istiqamətləndirici bir mənbə kimi də çox dəyərlidir.

Müəllif öz monoqrafiyasında ləyaqətli və vicdanlı alim-vətəndaş mövqeyinə sadiq qalaraq, müstəqil, azad və tamhüquqlu türk məhvərində birləşən suveren və sülhməramlı bir ideyanın işığında öz fikir və düşüncələrini aşılayır. Öz qədir və qiymətini bilən xalqın zəngin ideya-mənəvi irsini üzə çıxarmaqda əməyi olan hər bir vətən övladının nüfuzunu, dəyərliliyini dərin məntiqi-fəlsəfi mündəricədə etiraf edir. Bu münasibətlə "Azərbaycanda pedaqoji fikrin inkişafı

tarixindən bir neçə söz "ərməğanı" ilə oxucu görüşünə gələn müəllif öz fikrini səmimi notlarla ifadə edərək yazır:

"Təəssüflə qeyd etməliyik ki, pedaqoji fikir tarixi sahəsində digər qonşu ölkələrdən nə qədər irəli getmiş olsaq da, pedaqoji ictimaiyyətimiz Azərbaycan xəritəsini tam əhatə edə bilməmişdir. Ə.Yaqubi istisna olmaqla, 25 milyonluq Cənubi Azərbaycan pedaqoji fikir tədqiqat obyektimizdən tam kənarda qalmışdır. Biz bu gün müstəqil respublikamızın yaranması fürsətindən istifadə edib soy kökümüzün ən möhtəşəm abidələrindən olan Dədə Qorqud, Tusi ilə yanaşı, Cənubi Azərbaycanın bir sıra görkəmli maarifpərvərlərinin tərbiyə haqqında fikirlərini tədqiq etməyə çalışmışıq".

Müəllifin tədqiqat sahəsi Cənubi Azərbaycan ədəbiyyatının təhlili əsasında qurulsa da, təqdim olunan mövcud ədəbi nümunələr, müntəxəbat xronologiyası, tərtibatçılıq prinsipləri pedaqoji zəmindən, pedaqoji prosesə, məktəb və müəllim hazırlığı ideyasına rəvac verdiyi üçün bu kitab sırf milli tərbiyə məzmununun real mənzərəsini əks etdirir.

Professor F.Seyidov öz qayəsini pedaqoji ədəbiyyata, ictimai məfkurəyə gətirdiyi elmi yeniliyi məhz milli mündəricədə, milli və ümumbəşəri dəyərlərin mənimsənilməsi kontekstində təhlil edərək, oxucu mühakiməsinə təqdim etmişdir.

"Dədə Qorquddan Şəhriyara qədər: Güney Azərbaycanda pedaqoji fikir" salnaməsinin tarixi qaynaqlarını, məzmun mənbələrini potensial imkanlar daxilində öyrənən tədqiqatçı gələcəkdə bu məsələnin pedaqoji antologiy nümunəsində araya-ərsəyə gəlməsi üçün də ciddi elmi araşdırmalar aparacağına inanırıq.

Milli müstəqilliyimizin - mənəvi dəyərlərinin göründüyü indiki şəraitdə ağıl və idrak fütühatını formalaşdıracaq bu cür sanballı kitabların meydana gəlməsi həyatın öz tələbidir. Müəllif bir qayda olaraq, işlədiyi problemin elmi-metodik səciyyəsini də aydın duymuş, müasir təhsil quruculuğu istiqamətində aparılan fəaliyyətin məzmununa dinamik çalar gətirərək, onu humanist-demokratik təsisatları möhkəmləndirən milli təməl üzərində qurmuşdur.

Tarixi-pedaqoji irsin tədqiqat və təbliği ilə ardıcıl və sistemli şəkildə məşğul olan müəllif kitabdakı ideyaları aşağıdakı məqsədlər ətrafında cəmləşdirmişdir:

-Milli dirçəliş və milli problemlərin ideya platformasını təkmilləşdirmək;

-Xalqı, milləti ictimai tərəqqi ideyalarına səfərbər edən tələblər sisteminin (humanizm, demokratizm, xəlqilik, ümumbəşərilik, dünyəvilik və s.) həyata keçirilən təxirəsalınmaz milli-mənəvi məramların qorunmasına xidmət etmək;

-Məktəb və pedaqoji fikrin dinamik inkişafına kömək edən mütərəqqi, demokratik, humanist ideyaları dönmədən, yüksək siyasi vətəndaşlıq mövqeyindən, Vətən, Xalq, Yurd istiqlalı kontekstindən həyata keçirmək;

-Bu məqsədlə pedaqoji, iqtisadi və sosial-mədəni maariflənmənin ilk ideyalarının məktəb həyatına sirayət edən ümdə cəhətlərini öyrənib, ümumtəhsil və ixtisas təhsili üçün zəngin ideya, məfkurə irsinə xeyli kömək etmiş olan təhsiləndirici mənbə hazırlamaq;

-Təlim-tərbiyə sisteminin təkmilləşdirilməsi istiqamətində (ibtidai təhsil, ana dilinin Dövlət dili səviyyəsinə qaldırılması, qadın və kişi təhsilinin bərabərlik hüququnun qorunması, xalq arasında savadı və maarifi yaymaq cəhdi, yaşlıların savad kurslarına cəlb olunması, milli dərslik və dərs vəsaitlərini yaratmaq məsələlər, hamılıqla təhsil və s.) dövrün ictimai-siyasi hadisələrinin maarif mücahidləri tərəfindən yüksək qiymətləndirilən nəzəri və təcrübi istiqamətlərini müəyyənləşdirmək.

Kitab zəngin pedaqoji və filoloji məxəzlər əsasında yazıldığından fakt və hadisələrin ümumiləşdirmə səviyyəsi tarixi-müqayisələr zəminindən təhlilini tapmış, əsərdə xeyli arxiv, muzey və digər tarixi salnamə məlumatlarından istifadə olunması onun ictimai dəyərliliyini olduqca əhəmiyyətli etmişdir.

Kitabda verilmiş ayrı-ayrı maarifpərvər şəxsiyyətlərin məktəb və pedaqoji fikir tarixi üçün qiymətli olan nəzəri-ideya irsi dərin elmi müşahidə, yaradıcı prinsiplər ehtiva edən problemlər səviy-

yəsində işlənilmiş, burada yenilməz pedaqoji ideyaların konseptual reallıqları öz əksini tapmışdır.

Bir incə mətləbi də qeyd edək ki, Güney Azərbaycanda pedaqogika tarixinin bir elm və tədris fənni kimi inkişaf xüsusiyyətləri bu cür tarixi-pedaqoji tədqiqatlar əsasında yaranacaq tarixi-ensiklopediyaların da meydana gəlməsini zəruri edir.

İnanırıq ki, bu fundamental vəsait həm pedaqoji ictimaiyyət, həm də geniş oxucu kütləsi üçün stolüstü kitab olmaqla yanaşı, müasir gənc nəslin mənəvi dünyasının zənginləşməsinə də öz töhfəsini verəcəkdir.

*Vidadi Bəşirov,*
*pedaqoji elmlər namizədi, dosent*
*21-27.02.2003.*

## Təqdimat Mərasimi

Azərbaycan Dillər Universitetində bu təhsil ocağının professoru Fikrət Seyidovun son illərdə yazdığı əsərlərin təqdimat mərasimi keçirilmişdir. Tədbiri ADU və Respublika Təhsil Şurası təşkil etmişdilər.

Respublika Təhsil Şurasının sədri, pedaqoji elmlər doktoru, professor Əjdər Ağayev təqdimat mərasimini açaraq qeyd etmişdir ki, bir qədər bundan əvvəl Respublika Komissiyası yaradılmışdır. Komissiyaya professor Nurəddin Kazımovun rəhbərlik etdiyini qeyd edən natiq bildirdi ki, sözügedən komissiyanın yaradılmasında məqsəd pedaqoji prosesdə gedən vəziyyəti, elmin tədqiq imkanlarını öyrənmək, alimlərimizin yaradıcılığını izləmək, yazılan dərslik və vəsaitlər, monoqrafiyalar barədə mülahizələr söyləməkdən ibarətdir. Bugünkü görüşün sayca üçüncü olduğunu vurğulayan Ə.Ağayev dedi ki, ölkə pedaqoqları içərisində öz xidmətləri, yaradıcılığı və dəst-xətti ilə seçilən professor F.Seyidovun son bir neçə ildə yazdığı əsərlər pedaqoji ictimaiyyətin diqqətini cəlb etmişdir. Bu gün həmin kitabların elmi ictimaiyyətə təqdim olunmasına böyük ehtiyac vardır.

Məruzə üçün söz həmin əsərlərin elmi redaktoru olmuş, pedaqoji elmlər namizədi, dosent, yazıçı-publisist Allahverdi Eminova verildi. Natiq qeyd etdi ki, mənim müəllimim olmuş Fikrət Seyidov şəxsiyyəti, insanlığı, pedaqoji yaradıcılığı ilə diqqəti cəlb edən alimlərimizdəndir. Mən onun əsərlərində dövrləşmə aparmışam. O, yaradıcılığının ilk dövrlərində orta və ali məktəblər üçün ingilis dilində dərslik və dərs vəsaitləri də yazıb. Belə ki, F.Seyidov dərslik, dərs vəsaiti yaradıcılığından birbaşa tədqiqatçılığa keçərək pedaqoji fikir tariximizin ən önəmli, ən aparıcı mövzularında əsərlər yazmışdır. Çox çətinliklə də olsa, 1987-ci ildə Fikrət müəllimin "Qori Müəllimlər Seminariyası" monoqrafiyası çap olundu. Mən onun 5 kitabını birbaşa əlyazma şəklində oxuyub tanış olmuşam. Bundan sonra onun "Maarifimizin təkrarsız xəzinəsi", "Azərbaycan pedaqoji fikir tarixindən səhifələr", "Dədə Qorquddan Şəhriyara qədər: Güney Azərbaycanında pedaqoji fikir" kitabları çap olunub. Mən bu kitabların elmi redaktoru olmuşam.

Fikrət müəllimin pedaqoji yaradıcılığını araşdırarkən belə qənaətə gəldim ki, bu yaradıcılığın müəyyən mənbələri var. Mən bunu şərti olaraq 4 yerə ayırmışam.

1. Varislik, varisliyə sədaqət məsələsidir. F.Seyidov ilk növbədə Əhməd Seyidov, Mehdi Mehdizadə irsindən bəhrələnmiş, onların yaratdıqları məktəbi uğurla davam etdirmişdir.

2. Pedaqoji fikrmizin qaynaqlarına bələdlik. Fikrət müəllim bu çoxşaxəli sahəyə dərindən bələddir.

O, öz vəsaiti hesabına Türkiyəyə getmiş, uzun müddət orada qalmış, arxivlərdə, kitabxanalarda işləmiş, hətta insanların söhbət və xatirələrini yazıya köçürmüş, beləliklə "Türk xalqlarının tərbiyə və məktəb tarixi" kitabını ərsəyə gətirmişdir.

3. Cənubi Azərbaycanın təlim, tərbiyə sahəsində fikir nümayəndələrinin yaradıcılığına münasibət. Bu onun "Dədə Qorquddan Şəhriyara qədər..." adlı kitabında hərtərəfli göstərilib.

4. O, memuar yazan ilk pedaqoqdur. Ensiklopedik biliyə malik insanların xatirələrini toplayaraq çap etdirib.

Yığıncaqda professor Fərahim Sadıqov görkəmli pedaqoq F.Seyidovun "Dədə Qorquddan Şəhriyara qədər" əsərinin pedaqoji fikir tarixində əhəmiyyəti haqqında fikir söyləmişdir.

Sonra professor Xeyrulla Məmmədov, BDU-nun müəllimi Fatma Abdullayeva, professor Nurəddin Kazımov, psixologiya elmləri doktoru Əbdül Əlizadə, N.Tusi adına ADPU-nun professoru Əmrulla Paşayev, ADU-nun tarix kafedrasının müdiri, dosent Xanməmməd İbrahimov, Bakı Qızlar Seminariyasının professoru Sərdar Quliyev, Təhsil Problemləri İnstitutu estetik tərbiyə şöbəsinin müdiri, professor Vidadi Xəlilov, MEA-nın elmi işçisi Məmmədəli Paşayev Fikrət Seyidovun Azərbaycan pedaqoji elminin inkişafındakı xidmətlərindən, pedaqogikaya gətirdiyi yeniliklərdən danışdılar.

Azərbaycan Müəllimlər İnstitutunun prorektoru Mir Cəfər Həsənov Respublika Təhsil Şurasının təklifi ilə alimlərin bir yerə yığılmasının mühüm əhəmiyyət kəsb etdiyini qeyd edərək Fikrət müəllimin əsərləri haqqında deyilən çıxışlara öz münasibətini bildirdi.

Tədbirdə BDU-nun prorektoru Ələddin Əliyev bu cür görüşlərin müntəzəm keçirilməsinin əhəmiyyətini xüsusi vurğuladı.

*Nisəxanım.*
*"Azərbaycan müəllimi" qəzeti*
*12-18.03.2004.*

## Professor Fikrət Seyidovun əsərləri müzakirə edildi

Fevral ayının 25-də universitetimizin Heydər Əliyev muzey-lektoriyasında Azərbaycan Respublikası Təhsil Şurasının "Pedaqoji elm və pedaqoji proses" komissiyasının növbəti yığıncağı keçirildi. Yığıncaq professor Fikrət Seyidovun son illərdə işıq üzü görmüş kitablarının müzakirəsinə həsr olunmuşdu.

Tədbiri giriş sözü ilə açan Respublika Təhsil Şurasının sədri, professor Əjdər Ağayev iştirakçıları salamladıqdan sonra dedi ki, Şura bir neçə ay bundan əvvəl başladığı işi davam etdirir. Mün-

təzəm olaraq öz iclaslarını keçirən Təhsil Şurası pedaqoji elm və pedaqoji proses adlı komissiya yaradıb. Bu komissiyam yaratmaqda məqsəd respublikamızda pedaqoji prosesin gedişini izləmək və hansı tədris vəsaitlərinin hazırlanması vəziyyəti ilə tanış olmaqdır. Bu komissiyaya Pedaqogika kafedrasının müdiri, əməkdar elm xadimi, professor Nurəddin Kazımov başçılıq edir. Hörmətli professor komissiyanın proqramını işləyib hazırlayıb. Pedaqoji elm qarşısında duran problemlər və həlli vacib olan məsələlər ümumiləşdirilərək mətbuat vasitəsi ilə pedaqoji ictimaiyyətin diqqətinə çatdırılıb. Bu günkü tədbirimiz isə professor Fikrət Seyidovun son illərdə işıq üzü görmüş əsərlərinin müzakirəsinə həsr olunmuşdur.

Bundan sonra məruzə etmək üçün söz Azərbaycan Müəllimlər İnstitutu Salyan filialının direktoru, dosent Allahverdi Eminova verildi. Professor Fikrət Seyidovun elmi-pedaqoji yaradıcılığından danışan məruzəçi qeyd etdi ki, bu yorulmaz alim uzun illər müxtəlif arxivlərdə araşdırmalar apararaq çox dəyərli əsərlər yazıb. Belə əsərlərdən biri də 1987-ci ildə çapdan çıxmış "Qori Müəllimlər Seminariyası"dır. Məruzəçi bu əsəri professor Fikrət Seyidov yaradıcılığının zirvəsi adlandıraraq bildirdi ki, indiyədək bu vacib mövzuda heç kim belə bir samballı tədqiqat əsəri yazmamışdır.

Professor F.Seyidovun elmi yaradıcılığını və pedaqoji fəaliyyətini yüksək qiymətləndirən dosent A.Eminov qeyd etdi ki, Qafqazın ilk pedaqoqlarından biri, pedaqogika elminin inkişafına böyük töhfələr vermiş, görkəmli alim Əhməd Seyidov yolunun layiqli davamçısı Fikrət Seyidovun əməyinin dövlət tərəfindən qiymətləndirilməsi bütün pedaqoqların arzusudur.

Bundan sonra çıxış edənlər - universitetimizin Pedaqogika kafedrasının professoru Fərahim Sadıqov, ADPU-nun professorları Xeyrulla Məmmədov, Əbdül Əlizadə və Əmrulla Paşayev, BDU-nun dosenti Fatma Abullayeva, Pedoqogika kafedrasının müdiri, əməkdar elm xadimi professor Nurəddin Kazımov, Tarix kafedrasının müdiri, dosent Xanməmməd İbrahimov, Təhsil Problem-

ləri İnstitutunun professoru Vidadi Xəlilov, BQS-nın professoru Sərdar Quliyev, MEA-nın elmi işçisi Məmmədəli Paşayev, professor Hacı Mircəfər Həsənov professor F.Seyidovun keçdiyi ömür yolundan və onunla bağlı xatirələrindən danışdılar. Çıxışçılar professor F.Seyidovu vətənpərvər ziyalı, tanınmış alim və qeyrətli vətəndaş kimi xarakterizə edərək bildirdilər ki, onun zəhmət dolu ömür yolunu başqa cür təsəvvür etmək də mümkün deyil. Çünki o, professor Əhməd Seyidov ocağının yetirməsi, Qəranilər nəslinin layiqli davamçısıdır. Qafqazın ilk pedaqoq-alimlərindən olan professor Ə.Seyidov Qazaxda ilk Qızlar Məktəbi açmış, milli kadraların hazırlanmasında əvəzsiz xidmətlər göstərmişdir.

Tərbiyə işləri üzrə prorektor Ələddin Əliyev çıxış edərək universitetimizin rektoru, millət vəkili, professor Səməd Seyidovun adından bu tədbiri hazırlayanlara, bütün iştirakçılara, KİV nümayəndələrinə, xüsusilə Təhsil Şurasının rəhbərliyinə öz minnətdarlığını bildirdi.

Bundan sonra çıxış edən professor F.Seyidov onun ünvanına deyilən xoş sözlərə, fəaliyyətini yüksək qiymətləndirdiklərinə görə bütün çıxışçılara öz minnətdarlığını bildirdi. Professor vurğuladı ki, bu tədbirə, sözün əsl mənasında, elmə qiymət verən elm adamları toplanıb. Elə buna görə də bu tədbir çox maraqlı və düşündürücüdür. F.Seyidov sonda bu yaxınlarda işıq üzü görəcək "Soy-kökümüzdən gələn fikir" adlı kitabının ilk nüsxəsi ilə iştirakçıları tanış etdi.

Tədbirdə bildirdilər ki, komissiyanın növbəti iclası mart ayının 5-də keçiriləcək. Bu iclasda professor N.Kazımovun "Milli pedaqogika sxemlərdə" adlı tədris vəsaiti müzakirə olunacaq.

**Redaksiya. 01.03.2004.**

## VII FƏSİL

## YADDAŞ: UZAQ-YAXIN XATİRƏLƏR

### § 1. Avtoqraflar - illərin yadigarı

Bir dəfə kitabları "dilinə" və "xasiyyətinə" görə sıralayırdım. Adətən, belə olanda lazımlısını dərhal tapıram, yoxsa bilirsiz ki, yaradıcılıq ovqatının borc verdiyi informasiyalar Sahibinə qaytarılır. Müəllimlərimdən mənə bağışlanan əsərlər də vardı. Çoxdandı, ona görə də unutmuşdum. Vərəqlədim, əlim titrədi, gözümə işıq doldu: Fikrət Seyidov bir kitabım mənə hədiyyə vermişdi: "Qori Müəllimlər Seminariyası və onun məzunları" idi. Təxminən səhifənin yarısı səliqəli xətlə yazılmışdı... Mən kitabımı yazarkən həmən monoqrafiyanı vərəqləmək istədim. Nə görsəm yaxşıdı: Beş, altı kitabların (F.Seyidovun) sırasında birinin yeri bomboşdu. Elə bil budağa hörülmüş quş yuvalarının arasında hansısa əl onu uçurmuşdu. Ana-Ata quş hey budaq ətrafında qanad açır, çırpınır ki hanı mənim əzabla, əziyyətlə toxuduğum o yuva? Onun ağuşunda balalarımızı qanadlandırmışıq.

Oturdum və xəyal apardı məni ki, əziz müəllimimin avtoqrafı ilə qoruduğum, yeri gələndə faydalandığım o əsər harada olar? Bəlkə kiməsə vermişəm ki, oxuyub qaytarsın? Yanılmamışdım. Adını çəkmək istəmədiyim bir pedaqoq məndən aldı ki, oxuyub qaytararam. Bir-iki aydan sonra soruşdum ki, Fikrət müəllimin Qori Seminariyası haqqındakı kitabı qaytar. O adam (dilim gəlmir "pedaqoq" deyim) düz üzümə qayıtdı: - Mənə verməmisiz, - dedi. - Sanki həqiqəti söyləyirdi.

-Filən vaxt verdim, hətta kafedrada da neçə gün qalmışdı.

Faydası olmadı.

Sınamaq üçün neçə gündən sonra bir də istədim.

Faydası yoxuydu.

- Kitab sənə gərəklidisə qalsın səndə, amma müəllimimin maraqlı avtoqrafı yazılıb. Lap surətini çıxar ver.

Heç tükünü də tərpətmədi. Mən elə-belə heyifslənmədim ki, bir kitabı itirdim. Mən o məqamında tələbəsinə ürək sözlərini yazan alimin, pedaqoqun fikirlərinin "oğurlanmasına" açımaqdayam...

Avtoqraf ümumiyyətlə, "xatirə ədəbiyyatı"nın bir növüdür, əlbəttə, mənim şəxsi fikrimdir. Ona görə ki, bir şəxsi xarakterizə edərkən onun tam portretini cızmaq qeyri-mümkündür. Və əsasən avtoqraf da operativ, atüstü yazılır. Lakin hər şey - o şəxsin müəllifə isti münasibətini əks etdirir. Bütün hallarda avtoqraf kövrək ayrılıq, xatırlama ilə sonunclanır.

Fikrət müəllim bəlkə də ilk dəfəydi hiss eləyirdim, xahişimi yubandırır. Və bu, səbəbsiz deyil: Təvazökarlıq, fərqlənməmək, "nə lazımdı ki", "yazıblar, sağ olsunlar ki..." kimi etirafları oxuculardan gözləməməyə çalışır. Mən yaxşı başa düşürəm ki, onun iş otağında və kitabxanasında saysız kitablar var, avtoqraflardır: Səmimi, nikbin, şəxsiyyətinə layiq, elmini qiymətləndirən... ürəklərin səsi, gözəl dilçi qadın, xanımlığım ixtiyar yaşında qoruyan professor Mərziyyə Qiyasbəyli ona bağışladığı kitabında yazmışdı: "Nəcib insana, görkəmli alim Fikrət müəllimə səmimi ehtiram hissiylə. 10.09.2001".

Mərhum professor Qulu Xəlilovu unuda bilmərik. Onun poetik tənqidi təfəkkürü vardı, kəskin obyektivliyi və bədii yaradıcılığı da həmçinin. Dəfələrlə şəxsən görüşmüşəm, söhbət eləmişik, təbii ki, tribunalarda gur səsini eşitmişəm, uyarlı jestlərini görmüşəm. Elə xaraktercə də özünə bənzəyən pedaqoq həmkarlarım, kiçik qardaışi İnqilab Xəlilovla görüşüb dərdləşirik.

Qulu müəllim "Atam və mən" nəsr ktabını Fikrət Seyidova avtoqrafla hədiyyə eləmişdir: "Həmişə dərin hörmət bəslədiyim ləyaqətli bir kişinin ləyaqətli oğlu Fikrət müəllimə, səmimi və xoş arzularla dolu" (28.08.1976) sözlərini eyni dərəcədə unudul-

maz Qulu müəllimə də şamil edərdim... Professor F.Seyidovun ünvanına sayıb-seçilən ziyalılarımız, alimlərimiz, pedaqoqlarımız, şair və yazıçılarımız ürək sözlərini demişlər: Hüseyn Əhmədov, Nurəddin Kazımov, Yusif Talıbov, Bəşir Əhmədov, Qulu Xəlilov, Əjdər Ağayev, Əliheydər həşimov, Rəfiqə Mustafayeva, Fərrux Rüstəmov.

Maraqlıdı, Fikrət müəllimdə öz əsərini o səmimiyyətlə, sevinclə, fəxrlə bağışlayır. Mənim müəllimimin tələbəsinə avtoqrafla verdiyi neçə-neçə kitabını ən əziz yadigar təkin qorumaqdayam və yəqin ki, balalarım da bu hissimin keşiyində dayanacaqlar:

"Səməd Vurğunun: Kimdə zəngin bir könül varsa, kimin insanlığı və hünəri çoxsa, həyat və gələcək onundur, - sözlərini eynən müasir pedaqoqlarımızın hamısından özünün hərtərəfli və insanlığı ilə fərqlənən, pedaqoji ictimaiyyətin ən görkəmli alimlərindən olan Allahverdi müəllimə aid etmək olar. Əzizim, redaktə etdiyiniz, ön sözü yazdığınız və məni məlahətli, isti sözlərinizlə ruhlandırdığınız bu kitabı ən xoş arzularla sizə təqdim edirəm, 10.02.2001".

Gənc pedaqoq, elmlər doktoru Fərrux Rüstəmov öz avtoqrafında dahi Əhməd Seyidovu xatırlamaqla ürək sözünü bildirir: "Əhməd Seyidov nəslinin ləyaqətli davamçısı, əsərlərilə Azərbaycan pedaqoji fikir tarixini zənginləşdirən Fikrət müəllimə hörmət və ehtiramla".

*Həmişə dərin hörmət bəslədiyim ləyaqətli bir kişinin ləyaqətli oğlu Fikrət müəllimə səmimi və xoş arzularla dolu.*

*Qulu Xəlilov, professor*
*28.08.1976.*

*Böyük bir nəslin ləyaqətli oğlu, xalqımızın ən böyük səviyyəli məclislərdə təmsil etməyə layiq, ictimai quruluşdan asılı olmayaraq öz işini qiymət veriləcək dərəcədə yerinə yetirən, böyük təşkilatçı,*

*iqtisadi, ictimai, siyasi cəhətdən çox razı qaldığım, həyat tərzimin bu günkü kimi bərqərar olmasının əsl səbəbkarı, öz duzlu-məzəli söhbətləri ilə məclislərin yaraşığı, hörmət bəslədiyim adamların birinciis, istedadlı pedaqoq, gözəl insan, ailəmizin böyük dostu Fikrət müəllimə və onun mehriban ailəsinə ən xoş arzularla*

*Həmid Abbasov, tərcüməçi*
*08.05.1986.*

*Hörmətli Fikrət bəyə dərin ehtiramla, xoş arzularla, bir də minnətdarlıq hissiylə təqdim edirəm, elmi rəhbərimin yadigarına.*

*Əliheydər Həşimov, professor*
*20.05.1992.*

*İnkişafımda həlledici rol oynamış elmi rəhbərimin ləyaqətli oğlu professor Fikrət müəllimə ali məktəb fəaliyyətində uğurlar arzu edirəm.*

*Bəşir Əhmədov, professor*
*21.12.1992.*

*Elmi, tərbiyə ocağının ibrətamiz nümayəndəsi, pedaqoji fikrimizin zəhmətkeş tədqiqatçısı, istəkli müəllimim, xətrini dünyalar qədər istədiyim insan, həmkarım Fikrət Seyidova ən xoş arzularla müəllif hədiyyəsi.*

*Əjdər Ağayev, professor*
*14.06.1994.*

*Gözəl pedaqoq, usta müəllim, hörmətli professor Fikrət Seyidova professor O.İ.Musayevdən ən xoş və səmimi arzularla.*

*Oruc Musayev, professor*
*01.10.1998.*

*Qırx illik yaddaşımda bütöv şəxsiyyət, türk pedaqoji fikrinin təkrarsız tədqiqatçısı, dahi Əhməd Seyidov ocağının ləyaqətli da-*

*vamçısı kimi yaşayacaq unudulmaz müəllimim Fikrət Seyidova müəllifdən xatirə ümidiylə.*

*Allahverdi Eminov, yazıçı*
*10.05.1999.*

*Səmimi və xeyirxah insan, həmişə diqqət və qayğısını hiss etdiyim Fikrət müəllimə hörmət və ehtiramla.*

*Fərrux Rüstəmov, professor*
*25.05.1999.*

*Hörmətli professor, əvəzsiz ziyalı Fikrət Seyidov üçün xoş arzularla.*

*İlyas Adıözəlov, jurnalist*
*2000.*

*Nəcib İnsana, görkəmli alim Fikrət müəllimə səmimi ehtiram hissiylə.*

*Mərziyyə Qiyasbəyli, professor*
*11.09.2001.*

*Böyük dostum və qardaşım, elimin, günümün ləyaqətli oğlu, görkəmli alim və insan Fikrət müəllimə ən xoş ülvi arzularla.*

*Mahal Məmmədov, professor*
*24.11.2000.*

*Pedaqogikanın karifeylərindən biri olan professor Əhməd Seyidovun övladı, varisi, sələfi, çox layiqli davamçısı professor Fikrət Seyidova kiçik xatirə hədiyyəsi.*

*Rəfiqə Mustafayeva, professor*
*13.01.2003.*

*Ağsaqqal alim, gözəl insan Fikrət müəllim üçün kiçik bir hədiyyə.*

*İslam Qəribli, ədəbiyyatşünas*
*2003.*

*Fikrət müəllimin tələbələrindən Təranə və Nigarın ona bayram münasibətilə bağışladığı kitabda oxuyuruq.*

*Bəzən yaxından tanıdığımız və ya heç tanımadığımız bir insanın ömrümüz boyunca unuda bilməyəcəyimiz gözəl bir davranışıyla qarşılaşırıq. Duyğularımızı gizləyə bilmir, təbrik və təqdirlərimizi dilə gətirməkdən özümüzü saxlaya bilmirik, hətta sevinclə deyirik də: "Deməli ki, insanlıq ölməmiş".*

*Bir gözəl xüsusiyyət, yüksək səviyyəli bir fəzilət insanı belə duyğulandırırsa, bir insanda bunun kimi iyirmi, otuz, hətta əlli, yüz fəzilət ola bilirsə, o insanın nə qədər təbrik və təqdirə, təşəkkürə layiq bir insan olduğunu anlamaq bir o qədər də çətin olmayacaq hər halda...*

*Öz gözəl mühazirələrilə ruhumuzu təzələyən, əsl bir insan kimi yetişməyimizdə böyük rolu olan sevimli Fikrət müəllim! Siz çox xoşbəxtsiniz, belə yüksək fəzilətli bir insan olduğunuz üçün!!!*

*Gül budağında gözəl!*

*Torpaq yaşılla; Göyüzü maviylə, üzlər təbəssümlə, qəlblər sevgiylə gözəl!!!*

*Həyat sizin kimi insanlarla, dərslər sizin kimi müəllimlərin varlığıyla gözəldir!!!*

*Əziz, sevimli müəllimimiz! Sizin ad gününüz münasibətilə səmimi qəlbdən təbrik edir, can sağlığı və uzun, mənalı bir ömür yolu arzulayırıq!!!*

*Sizin varlığınız biz tələbələriniz üçün olduqca mühimdir...*

*Siz həyatın gözəlliklərinə layiq bir insan, heç vaxt unudulmayacaq qədər yüksək insani keyfiyyətlərə Malik bir müəllimsiniz...*

*İmza: Sizi çox sevən tələbələriniz: Təranə və Nigar.*
*10.05.04.*

## § 2. Xatirələr - şəkillərin yaddaşı

### Müqəddəs elm ocağının közü

Görkəmli şəxsiyyətlər, elm, incəsənət adamları dünyasını dəyişəndən sonra zaman etibarı ilə bizdən uzaqlaşdıqca, onları daha dərindən öyrənməyə çalışır, onların böyüklüyünü dərindən-dərinə dərk edirik. Belə şəxsiyyətlərdən biri pedaqogika elmimizin patriarxı, ədalətli və obyektiv tədqiqatçı, müdrik alim Əhməd müəllim Seyidovdur. Seyidovlar ailəsində elmə, elm öyrənməyə yüksək qiymət vermişlər. Bu ailənin nəsil səcərəsi, tarixi kökləri Fikrət müəllimin "Aslanbəylidən başlanan xatirələr" adlı monoqrafiyasında deyildiyi kimi, çox-çox əvvələ, XIV-XV əsrlərə gedib çıxır. Bu ailənin elm ocağında çox adamlar isinmiş, pərvazlanmışlar. Əhməd müəllimin tərbiyə etdiyi, boya-başa çatdırdığı övladları müxtəlif elm sahələri ilə məşğul olmuş, hər kəs öz qabiliyyətinə görə Əhməd müəllimin ailə-elm ocağından kül deyil, qor götürüb onu alova çevirmişlər. Bu övladlardan biri - Fikrət müəllim haqqında səmimi sözlərimi bildirməyi özümə borc bilirəm. Belə ki, Fikrət müəllim deyəndə, gözlərim önündə iki Fikrət dayanır. Birinci Fikrətlə XX əsrin 50-ci illərinin lap əvvəlində tanış olmuşam. O vaxt biz Xarici Dillər Pedaqoji İnstitutunda oxuyanda Fikrət, sonralar elmlər doktoru, professor olmuş M.Pənahi, dosentlər Ə.Yaqubi, Y.Yusifi, görkəmli tərcüməçi, gözəl müəllim, dosent İ.Rəhimov və başqa tələbələrə qibtəedici nəzərlərlə baxırdıq. Eyni zamanda biz tələbələr üçün bizə dərs deyən müəllimlər - ingilis filologiyası sahəsində ilk qadın elmlər namizədi, dosent Rüxsarə xanım ingilis dili qrammatikasını, sonralar elmlər doktorları, professorlar olmuş Əkbər Ağayev, Kamran Məmmədov dünya ədəbiyyatı və İngiltərə ədəbiyyatını, Gülzar xanım Əliyeva OML-i, professor Şahmalıyev İngiltərə tarixini necə böyük həvəs və zövqlə tədris edirdilər. Onlar bizim üçün əlçatmaz zirvələr idi. Fikrət də, qeyri tələbələr də onlardan dərs alırdılar...

İkinci Fikrətlə 1956-cı ildə APİ-də aspiranturaya daxil olandan sonra görüşdüm. Tale elə gətirmişdi ki, əvvəllər bizə pedaqogika

tarixini öyrədən Əhməd müəllim mənim elmi rəhbərim oldu. Bundan sonra mən Seyidovlar ailəsi ilə yaxından tanış oldum...

Professor işdən sonra adəti üzrə dəniz kənarı ilə evinə gedərdi. Mən də ona yoldaşlıq edər, çəkinə-çəkinə söhbətə girişər, oxuduğum kitablardan danışardım (professor pedaqogika tarixindən minimum imtahanı üçün proqramda nəzərdə tutulmuş pedaqoqların və bir neçə psixoloqun əsərlərini soruşur və zaçot verərdi) ...

Professora qapını ən çox Fikrət müəllim açardı. Biz səmimi görüşüb ayrılardıq. Mən Fikrət müəllimlə ən çox Xarici Dillər İnstitutunda görüşərdik. Onunla söhbətimiz çox səmimi olardı. O, oxumaqdan, öyrənməkdən həvəslə danışar, dostum Oruc Musayevlə (O.Musayev sonralar ingilis filologiyası üzrə doktor, professor, fundamental "Azərbaycanca-ingiliscə" lüğətin əsas müəllifi, baş redaktoru olmuşdur) orta ümumtəhsil məktəbləri üçün dərsliklər yazmalarından, Qori Müəllimlər Seminariyasının Azərbaycan bölməsinə dair arxiv sənədlərini necə tədqiq etməsindən söz açır, böyük maraqla F.Köçərlinin, R.Əfəndiyevin, Ü.Hacıbəyovun, M.Moqamayevin və başqalarının necə oxumalarından danışardı. Fikrət müəllim məhz burda birləşib qoşa qanada çevrilirdi. Yəni o, yorulmaq bilmədən bir tərəfdən arxiv materiallarını öyrənir, universitetə bərabər QMS-nın Azərbaycan bölməsini bitirmiş məzunları axtarır, digər tərəfdən "İngilis dili" fakultəsinin dekanı işləyir, ingilis dilinə aid dərsliklər yazır, metodik vəsaitlər nəşr etdirirdi. O vaxtlar məni dövlət imtahan komissiyasının sədri kimi Xarici Dillər İnstitutuna dəvət edirdilər.

Mən Fikrət müəllimi vəzifəli bir şəxs kimi də müşahidə edirdim. O, müəllimlərlə, tələbələrlə səmimi söhbət edər, çətinliklərlə qarşılaşmış tələbəyə köməyini əsirgəmirdi. 1989-cu ildə Fikrət müəllimin "Qori Seminariyası və onun məzunları" adlı çox məzmunlu monoqrafiyası nəşr edildi. Kitab haqqında ilk rəyi mən dissertantım olmuş, pedaqoji elmlər namizədi M.Ağayevlə birgə hazırladıq. Rəy "Azərbaycan müəllimi" qəzetində də (5.IX.1989) dərc edildi. Rəyə verilmiş sərlövhə (Universitetə bərabər semina-

riya) pedaqoji ictimaiyyətin böyük marağına səbəb olmuşdu. Qori Müəllimlər Seminariyası həqiqətən də Azərbaycan üçün universitet olmuşdur. Xalqımızın böyük ziyalıları, maarifçiləri 250 nəfər həmin seminariyanı bitirib Azərbaycanın müxtəlif regionlarında maarif məşəllərini yandırmışlar.

Xarici Dillər Pedaqoji İnstitutunda dövlət imtahanı götürürdük. Fikrət müəllim dedi ki, o, "Türk xalqlarının tərbiyə və məktəb tarixinə dair" əsərini tamamlamışdır. İmkanınız olsa, onu oxuyub fikrinizi bildirəydiniz. Mən sakitcə dedim: "Gözüm üstə!" lakin nədənsə, o əsəri ertəsi gün gətirmədi. Bir neçə gün keçdi. Mən onun evinə zəng edib dedim: "Fikrət müəllim, əsər gəlmədi". Ertəsi gün o kitabı gətirdi. Kitabı bir nəfəsə oxudum. Çox xoşuma gəlmişdi. Bir neçə gündən sonra görüşdük və əsəri çox təriflədim. Bir giriş yazmağı da özümə borc bildim. Əsərin bəzi səhifələrində müəyyən düzəlişlər də etdim. Bəzi fikirlərimi də bildirdim. Söhbətimiz çox səmimi alındı. Fikrət müəllimin bu məzmunlu təlim-tərbiyə haqqında qiymətli fikirlərlə zəngin olan əsəri mənim kitaba yazdığım "Qiymətli tədris vəsaiti" girişimə və elmi redaktorluğumla nəşr edildi. Sonralar Fikrət müəllimin bir neçə hissədən ibarət "Pedaqoji fikir tarixindən səhifələr" adlı əsəri də pedaqoji ictimaiyyətin böyük marağına səbəb olmuşdur.

Fikrət müəllim! Siz böyük bir elm ocağının nümayəndəsisiniz. Müqəddəs elm ocağınızın müqəddəs közü həmişə var olsun. Seyidovlar nəslinin gənc nümayəndələri həmin ocağın müqəddəs közünün qoruyucuları olsunlar. Sizə can sağlığı, xoşbəxtlik, yeni nailiyyətlər arzusu ilə.

*Yusif Talıbov,*
*pedaqoji elmlər doktoru, professor,*
*respublikanın əməkdar müəllimi,*
*akad. M.Mehdizadə adına mükafatın laureatı*

## Köhnə ziya ocağının yeni nəsli

Hacı Əfəndi ocağı, Əhməd Seyidovun elmi xidmətləri yenilik və xeyirxahlığı çoxdan geniş ictimaiyyətin ruhuna hopmuş, hafizələrinə hakim kəsilmişdir. Müqəddəsləşmiş bu nəsil insanların ən güclü inam yerinə, nicat mənbəyinə çevrilmişdir. Çox qədimlərdən şölələnən Qaranilər ocağının parıltısı Orta Asiyadan, Yaxın - orta Şərqdən Kiçik Asiyadan, Qafqaz ölkələrindən gəlmiş və gəlməkdədir. Özlərinin qeyri-adi istedad və qabiliyyətləri ilə seçilən bu nəsl Azərbaycan -türk dünyasına, bütövlükdə dünya elminə mədəniyyətinə, incəsənətinə böyük qabiliyyətlər bəxş etmişdir.

Müasir dövrdə bu nəslin layiqli elm əzabkeşlərindən biri, öz sənətinə, elminə, xalqına dəyərli və əvəzsiz töhfələr vermiş alim Fikrət Əhməd oğlu Seyidovdur. Professor F.Seyidovu mən 1946-ci ildən APİ-nın hazırlıq şöbəsində oxuyan andan tanıyıram. Hələ o zamanlar 15-16 yaşında olan Fikrət özünün mehribanlığı, sadəliyi, qayğıkeşliyi və çevikliyi, incə yumoru, düzlü-məzəli zarafatları ilə seçilirdi. Baxmayaraq Azərbaycan Pedaqoji fikrinin tədqiqində pioner olmuş, sonra isə xüsusi pedaqoji məktəb yaradan atası professor Ə.Y.Seyidov APİ-nın direktoru işləyirdi. Ancaq o, rektor oğlu olduğunu əsla hiss etdirmirdi.

Professor F.Seyidov əməli pedaqoji fəaliyyətə ingilis dili müəllimi kimi başladı. Lakin çox keçmədən Fikrət Seyidov ingilis dilinin elmi, metodik incəliklərinə o qədər nüfuz edə bilmişdir ki, qısa zaman kəsiyində o ümumtəhsil məktəbləri üçün ingilis dili dərsliklərinin müəlliflərindən biri oldu. Onun V-VI-VII-VIII siniflərə aid ingilis dili dərsliyi məktəb həyatında ən sayılıb - seçilən, şagirdlər tərəfindən asanlıqla mənimsənilən bir kitaba çevrildi. Məhz ona görə də həmin dərslik dəfələrlə təkrarən çap olunmuşdur. 199 saylı məktəbin ingilis dili müəllimi çox keçmədən müəllim və şagirdlərin daha sonra isə Respublikanın geniş elmi ictimaiyyətinin; pedaqoq və metodistlərin tanıdığı, hörmət etdiyi

əsil elm adamlarından biri oldu. Hal-hazırda VI siniflər üçün, Avropa standartlarına uyğun ingilis dili dərsliyinin müəlliflərindən biridir və o mütəxəssislər tərəfindən yüksək səviyyədə hazırlanmış dərslik kimi qəbul edilmişdir. Fikirimizcə buna səbəb bir tərəfdən Professor Fikrət Seyidovda olan təbii genetik əlamətlərlə bağlıdırsa, digər tərəfdən onun çalışqanlığı, işgüzarlıqı, öz peşəsinə olan dərin hörmət və sevgisi ilə izah olunmalıdır.

Maraqlı bir cəhəti də qeyd etmək yerinə düşər. İki profil-istiqamətdə, yəni həm ingilis dili, həm də pedaqoji elmləri ilə məşğul olan bu elm fədaisi hər iki sahədə də özünə məxsus, qibtə ediləcək nüfuz sahibi olmuşdur.

Daha böyük maraq doğuran, diqqəti cəlb edən bir də odur ki, prof. Fikrət Seyidov son 5-6 ildə daha məhsuldar olmuşdur. Qori müəllimlər seminariyasının Azərbaycan bölməsinin tarixini araşdıran və ortaya çox sammallı elmi tədqiqat əsəri çıxaran müəllif, sonra Qazax seminariyasının tarixi və məzunları haqqında respublikamız üçün son dərəcə faydalı olan orijinal tədqiqat əsəri yaratmışdır. Əgər onu da nəzərə alsaq ki, həm Qori seminariyasının, həm də Qazax seminariyasının arxivləri naməlum səbəblərdən yanmış, məhv olmuşdur, onda bu elm cəfakeşinin, bütövlükdə elmimiz üçün nə kimi əvəzsiz fayda verdiyi də yaxşı dərk edilər, başa düşülər.

"Milli pedaqoji fikir tarixindən səhifələr" əsərində professor Fikrət Seyidov keçmiş tariximizin öyrənilməsinin nə kimi bəlaları olduğuna toxunaraq yazır "tədqiqatımı sovet hakimiyyəti illərində başladığımdan çox şeyləri-represiyaya uğramış məzunları, ADR dövründə onların əvəzsiz xidmətlərini kitabımda yaza bilmədim, daha doğrusu Qlavlit nəşriyyatda, yoxlayacaq orqan kimi yazmağa qoymadı. Sonralar rus bolşevik imperiyasının dağılması ilə əlaqədar arxivlərə yol açılarkən aydın oldu ki, ADR hökümətinin əsasını təşkil edən Qori məzunlarından olan ziyalılar o qədər maarif və məktəb sahəsində iş görmüşlər ki, biz rus dövlətinin tərkibində 10 illərdə o işi görə bilməmişik".

Professor Fikrətin tarixə tuşlanmış hər bir əsərində müasir oxucunun qəlbini riqqətə gətirən, onu düşündürməyə təhrik edən məlumatlar çoxdur.

Onun avtobioqrafik mahiyyət daşıyan "Aslanbəylidən başlanan xatirələr", "Maarifmizin təkrarsız xəzinəsi", "Türk xalqlarının tərbiyə və məktəb tarixinə dair", "Dədə Qorqudan Şəhriyara kimi", "Soy kökümüzdən gələn pedaqoji fikir" və s. əsərləri ilə tanış olduqda müəllifin həyat həqiqətlərinə son dərəcə həssas obyektiv yanaşmasına, digər tərəfdən bəlkə də başlıcası, onda olan milli ruh təəssüfkeşliyə, sözün tam mənasında xəlqiliyə, yalnız qibtə etməli olursan.

Professor Fikrət Seyidov həm də gözəl təşkilatçıdır. O, uzun müddət ingilis dili fakültəsinin dekanı işləmiş, həm də öz işinin öhdəsindən məharətlə gəlmiş, tələbələrinin, müəllimlərin sevimlisi olmuşdur. Çünki, Fikrət müəllimdə qayğıkeşlik, humanistlik, obyektivlik, ciddilik, məhsuliyyət hissləri üzvü surətdə vəhdət tamlığı şəkili almışdır. Tamahdan, riyakarlıqdan, xəbislikdən uzaq olan bu insanda yalmz yaxşılıq etmək amalı hakimdir. Hal-hazırda Odlar yurdu universitetində pedaqogika kafedrasının müdiri işləyən prof. F.Seyidov bu tədris ocaqında tələbə və müəllimlərin böyük hörmətini qazanmışdır..

Professor Fikrət Seyidov gözəl ailə başçısıdır. El-oba, qohum-qardaşcanlı ağsaqqal alimdir. O, bu gündə gənclik həvəsi ilə yazıb-yaratmaq iştəyi-amalı ruhunda köklənmişdir, biz ona, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq. Köhnə ocaq onun əməllərində daha da şölələnsin. Allah ona yar olsun! Amin!

*Həmzə Əliyev.*<br>
*APU-nun İbtidai təhsilin pedaqogikası*<br>
*kafedrasının müdiri, dos.*<br>
*27. V.2004-cü il*

## İllərin dostuyuq...

Əməli fəaliyyətimizin xeyli hissəsini birlikdə addımladığım, xeyli mehriban, səmimi zəhmətkeş, dərin mühakiməli alim dostum Fikrət müəllim çoxsaylı elmi yaradıcılığında müasir pedaqogika elminə aid tədqatları xüsusi yer tutur. O, 1960-ci illərin əvvəllərindən bu sahədə axtarışlar aparmağa başlamış və indiyə kimi də ondan ayrılmamışdır. F.Seyidovun müasir pedaqoqika və ingilis dilinin metodikası problemləri haqqında düşüncə və mülahizələri onun respublikamızda çap olunmuş çoxlu məqalə, orta və ali məktəblər üçün yazdığı dərslik və monoqrafiyalarında əks olunmuşdur.

Professor F.Seyidovun pedaqogika və ingilis dilinin, eləcə də ümumi metodikaya dair tədqiqatları özünün çox cəhətliliyi ilə fərqlənir. Burada, hər şeydən əvvəl, həmin sahələri əhatə edən xeyli maraqlı olan iki elmi-pedaqoji istiqamət göz önündə durur. Bu, hər şeydən əvvəl böyük pedaqoji aləmin çıxış nöqtəsi, başlanğıc, təlim, tərbiyə, dialektika məsələləri ilə bağlı olan istiqamətdir. Burada professor Seyidovun bir sıra sanballı tədqiqatlarından "Qori seminariyası və onun məzunları", "Türk xalqlarının tərbiyə və məktəb tarixi", "Dədə Qorquddan Şəhriyara qədər: Güney Azərbaycanda Pedaqoji fikir" və s. daxil etmək olar.

Digər istiqamət onun ingilis dilinin tədrisi metodikası, tədris proseslərinin müəyyənedici rolunun araşdırılmasıdır. Onun ingilis dili üzrə həm orta məktəblər üçün, həm də ali məktəblər üçün yazdığı dərsliklər və dərs vəsaitləri gənc nəslin bu sahədə fəaliyyəti üçün əsl məktəb hesab edilə bilər.

Fikrət Seyidov respublikamızda pedaqogikanın bir elm kimi inkişafında və formalaşmasında mühüm xidməti olan pedaqoq alimlərimizdəndir. O, yazmış olduğu əsərlərində, Azərbaycan Dillər Universitetində oxuduğu mühazirələrində, mətbuatda, müntəzəm surətdə dərc etdirdiyi elm - pedaqoji-metodikı yazılarında pedaqoji elmin aktual problemlərinə ziyalı, vətəndaş, alim mövqeyindən münasibət bildirir.

Fikrət müəllim elə seçilən və sayılan alimlərimizdəndir ki, kollektivdə, ümumiyyətlə insanlar arasında olanda hər kəs onun çox maraqlı, duzlu söhbətlərindən bəhrələnir. Biz onunla tez-tez dəniz kənarına xəzəri seyr edirik. O, təbiət qoynunda olanda, belə hesab edirəm ki, təbiətin özü ondan zövq alır, bəhrələnir.

Dostum Fikrət müəllim çox zəhmətkeş müəllim, pedaqoq, qayğıkeş ailə başçısıdır.

Onun mənə məzmununu qısa xülasə edən, pedaqogikaya aid elmi əsərlərinin siyahısı hələ bitməyib. İnanıram ki, dostum onları da, onu çox sevən oxucularına çatdıracaq.

*K.O. Dadaşov prof.*
*Bakı 2004-cü il.*

## Əfəndiliyi böyük zəhmətilə qazanan kişi

Azərbaycanın elm və mədəniyyətinə böyük alimlər, şəxsiyyətlər bəxş etmiş Seyidovlar haqqında sözü tanınmış elm xadimləri, alimlər bir də bu nəslin yaradıcı insanlarının illərlə apardıqları tədqiqatların şahidi olmuş yoldaşlar deyə bilər. Fikrət müəllimin yaradıcılığı, onun yazdığı kitablar bizim kitabxananın stolüstü kitablarıdır. Bu institutda işlədiyim iyirmi səkkiz ildə mən hər gün bu kitablara olan tələbatı, ehtiyacı görürəm. Bütün bunlar mənə əsas verir ki, mən də Fikrət müəllim haqqında bir neçə kəlmə ürək sözlərimi deyim.

Fikrət müəllim atası Azərbaycan xalqının pedaqogika tarixini yazan ilk professor Əhmət Seyidovun həyat və yaradıcılığına da toxunduğu "Aslanbəylidən başlanan xatirələr" kitabında yazır ki, mənim ömrümün 53 ili arxivlərdə keçib. Onun bütün yaradıcılığını kənara qoyub təkcə iki kitabını "Qori müəllimlər seminariyasının məzunları" və "Maarifimizin təkrarsız xəzinəsi" (Qazax Müəllimlər Seminariyası) kitabını götürsək, bu kitablarda biz Azərbaycanın dövlət quruculuğunda, elm, maarif və mədəniyyətində böyük işlər görmüş insanların həyat və yaradıcılığı ilə tanış oluruq. Və bu gün görəndə ki bu seminariyaların arxivi dağıdılıb, yoxdur, ancaq bu seminariyaların tarixi haqqında nə məlumatlar varsa hamısı artıq bu kitablarda toplanıb. Onda Fikrət müəllimin yazdığı bu iki kitab Azərbaycan pedaqogikasının tarixində əvəzsiz materiallar axtarışında sözünü demiş bir ziyalı ömrünə bəs edər.

Bir dəfə Fikrət müəllimə sual verdim ki, 100-dən çox elmi-metodiki əsərlərini, pedaqogikanın tarixindən bəhs edən onlarla kitabın, neçə-neçə dərsliklərin və s. müəllifisiniz. İndiyə kimi necə olub ki, doktorluq müdafiəsi etməmisiniz?

Fikrət müəllim "mən atam Əhmət Seyidovun davamçılarından biriyəm. Fikirləşəndə ki atam Əhmət müəllim də elmlər doktoru olsun, mən də. bu mənə çox qəribə gəldi. Fikirləşdim ki, atamın

yolunu davam etdirsəm də mən heç vaxt ona çata bilmərəm". Mən Fikrət müəllimdə olan məsuliyyətə, böyüyə hörmətə heyran qaldım. Ancaq elmi axtarışları, yazdığı kitabları, məqalələri, dərslikləri ilə daimi maarifimizi zənginləşdirən gözəl müəllim, səviyyəli ağsaqqal olan Fikrət müəllim atası Əhmət Seyidovdan heç də geri qalmayan bir alimdir.

Ən çətin anlarda müəllimlik adını uca tutub, gələcək nəslin tərbiyəsində önəmli ola biləcək kitablar yazan, öz elmi axtarışları ilə Azərbaycan mədəniyyəti tarixində iz qoymuş dahilərin tərbiyə haqqında fikirlərini bizlərə və gələcək nəslə çatdıran, heç vaxt yoruldum deməyib həmişə axtarışda olan bir insanın yaradıcılığı ilə yaxından tanış olduqda, Böyük Mustafa Kamal Paşa Atatürkün bir kəlamını xatırlayıram:

"Millətə əfəndilik etmək olmaz; xidmət etmək olar. Millətə xidmət edən şəxs onun əfəndisi olur."

Bax, belə Əfəndilərdəndir Fikrət müəllim.

Mən ona ailəmiz və bütün maarif işçiləri adından can sağlığı, yaradıcılıq uğurları arzulayıram.

*Gülzar Əfəndi qızı*
*ADU-nun kitabxanasında şöbə müdiri*

## Nur yolunun adamı

Həyatda bəxtimin gətirməməsi, nadanlıq və namərdliklə üzləşdiyim çoxlu məqamlar olmuşdur. Danışsam, bir kitaba sığışmayası hadisələrdir və xoşbəxtlikdən mənə qarşı kin-ədavət-xəyanət kampaniyası aparanların əksəri bu gün də sağdır və imkan düşəndə onlardan yaxşılığımı əsirgəmirəm.

Bəxtimin gətirməsi halları da az olmamışdır və əgər məndən ən əsasını soruşsalar, ilk növbədə deyərdim ki, müəllimlərimdə bəxtim gətirmşdir! İbtidai və orta məktəb müəllimlərimdə də, ali məktəb müəllimlərimdə də bəxtim gətirmişdir. Allah mənə aman versə, onlara olan borcumu ürək sözlərinə çevirərək ayrıca iri həcmli əsər yazmaq fikrindəyəm.

Tələbəlik illərimdən xoş və işıqlı xarakterinə aludə olduğum, müəllimim olmasından fərəh duyduğum müəllimlərimdən biri də professor Fikrət Seyidovdur.

Əminəm ki, bu kitabı oxuyacaq adamların əksəri onu yaxşı tanıyır. Əslində, həmişə cəmiyyətin gözü qabağında olmuş bu adam haqqında nəsə yeni söz demək çətindir. Onun zahiri ötkəmliyi arxasında çırpınan səmimi ürəyi də, həmişə axtarışlarda olan narahat təbiəti də, incədən-incə olan yumor hissi də, gözəl ailə başçısı olması da, bir-birinin ardınca işıq üzü görən kitabları da, bar verdikcə başını aşağı tutmaq təvəzökar xarakteri də... hamıya yaxşı məlumdur.

Öz sözümü deməyə cəhd etməzdən qabaq sadaladığım bu xüsusiyyətlərin haradan su içməsi haqqında fikirlərimi bölüşmək istəyirəm.

Əslində, nə Fikrət müəllimin, nə də Zaqafqaziyada ilk pedaqoji elmlər doktoru olmuş görkəmli alim, proqressiv ziyalı Əhməd Seyidovun ailə şinelindən çıxmış digər övladalrın başqalarına nümunə olmaqdan savayı heç bir çıxış yolları olmamışdır. Uzun illər boyu auditoriyalarda ayrı-ayrı nəsillərə, az qala bütün Azərbaycana əxlaq tərbiyəsi aşılayan Əhməd müəllimin övladları məhz belə olmalı idi! Fikrət

müəllmin və ailənin digər övladlarının müsbət nümunəsi məşhur "ot kökü üstə bitər" deyiminin əsaslı olduğunu bir daha təsdiq edir.

...Əsgərlikdən təzə qayıdaraq ingilis dili fakültəsinin III kursunda təhsilimi davam etdirməyə başladım. İsti sentyabr günlərində "Pedaqogika tarixi" fənnindən mühazirələrimiz akt zalında olurdu. Fikrət müəllimin ciddi xarakterini yaxşı öyrənmiş tələbələr zəng vururlmamış içəridə yerlərini tutmuşdular. Həmişə olduğu kimi (indi də elədir), zəng içəri vurulan kimi Fikrət müəllim auditoriyaya keçir və bir qayda olaraq özündən sonra içəri girmək istəyən tələbələrə icazə vermirdi. Məlum məsələdir ki, əsgərlikdən təzəcə qayıtmış mən hələ tələbə yoldaşlarımı düz-əməlli tanımırdım, Fikrət müəllimin xasiyyətindən xəbərim yox idi və bu səbəbdən də birinci mühazirədə içəri keçə bilmədim.

İkinci mühazirədə isə vaxtında zalda idim, bu dəfə isə başqa məsələnin güdazına getdim.

Qeyd edim ki, Fikrət müəllimi fərqləndirən əsas cəhətlərindən biri auditoriyanı yaxşı görməsi və bütün tələbələri nəzarətdə saxlaya bilməsidir. Mühazirəsinin müəyyən yerlərini yazdırır, müəyyən məsələləri aydınlaşdıranda isə diqqəti özünə cəmləşdirirdi.

-Ay oğlan, ay oğlan, dur, dur, dur görüm!

Fikrət müəllim hansı zavallı tələbənisə qaralayıb özünəməxsus tərzdə ona qalxmaq əmri verirdi. Haçandan-haçana anladım ki, həmin o "ay oğlan" deyəndə məni nəzərdə tutur. Ayağa qalxdım.

-Niyə yazmırsan?

-Qələmim yoxdur, - deyə mən ağlıma gələn ilk bəhanəni gətirdim.

-Bu nə deməkdir? Bir dəfə dərsə yubanırsan, o biri dəfə qələmin olmur. Əyləş və yadında saxla ki, yaxşı tələbənin iki qələmi olar.

Təəccübləndim ki, dərsə yubanmağım haradan yadında qalmışdı? O, gecikənlərin üzünə bircə saniyə də baxmadan zala keçərək qapını örtmüşdü. Bir də rahat nəfəs aldım ki, hələ tanımadığım tələbə yoldaşlarım arasında məni ciddi məzəmmət eləmədi. Əvəzində bəlkə özü də bilmədən gözəl nəsihətini elədi: "Yaxşı tələbənin iki qələmi olar".

Fikrət müəllim mühazirə oxuyanda ilk baxışdan sürətli və haradasa sanki pərakəndə danışır. Məqsədə çatmaq üçün arabir sözün birini qoyub o birinin dalınca gedir. Lakin ümumilikdə onun hər bir mühazirəsi gözəl alınır, ibrətamiz olur. O, sadə danışıqdan da, elmi üslublu damşıqdan da eyni dərəcədə səmərəli istifadə edərək öz tələbələrini sehirləyə bilir. Üstündən qırx ildən artıq vaxt ötsə də, onun xüsusilə görkəmli rus pedaqoqu Makarenko haqqında oxuduğu mühazirə, həmin mühazirədən yaranmış həm xoş, həm də düşündürücü ovqat yaddan çıxmır.

Otuz ildən artıqdır ki, mən professor Fikrət Seyidovla çiyin-çiyinə çalışıram. Fikrət müəllimi tanıyanlara sevdirən məqamlardan biri də onun sadəliyi və səmimiliyidir. O, müsahibləri ilə yaş fərqini asanlıqla aradan qaldıran, duzlu söhbətlər aparmağı bacaran azsaylı ziyalılarımızdan biridir.

Onun hər bir uğuruna sevinən tələbələrindən biriyəm. Fikrət müəllmin Qori və Qazax seminariyaları və bütöv Azərbaycanı əhatə edən pedaqoji fikrin tədqiqi, təhlili və qiymətləndirilməsi sahəsində çapdan buraxdırdığı kitabların hər biri ciddi axtarışların sanballı nəticəsi kimi mühüm əhəmiyyət kəsb edir.

Fikrət müəllmi kafedra müdiri kimi də görmüşəm, fakültə dekanı kimi də. Meyli və ya istəyi olsaydı indi də vəzifəsiz qalmazdı. Lakin o, daha artıq dərəcədə tədqiqatçılıq yoluna üstünlük vermiş, universitetimizin Pedaqogika kafedrasında professor kimi çalışmaq yolunu tutmuşdur. O, yenə də pedaqoji aləmin nur qapılarını tələbələrin üzünə açmaqla məşğuldur.

Bu gün professor Fikrət Seyidovun addımladığı geniş nur yolunun cığırını neçə-neçə illər qabaq onun atası professor Əhməd Seyidov açmışdı. Atanın açdığı həmin nur yolu ilə indi oğlu ləyaqətlə addımlayır.

*Zeydulla Ağayev,*
*filologiya elmləri doktoru, professor.*

# ƏLAVƏ

## Tələsmirəm-yubileyi gözləyirəm

Fikrət müəllimin bir ildən sonra 75 yaşıdı: yaşanmış ömrün şərəfli möhürüdür. Möhür hansısa sənədin həqiqiliyini təsdiq eləyir; amma saxtalıq da istisna olmur. Şərəflidir ki, görkəmli alimin, pedaqoqun həyat yolu saxtakarlıqdan sonsuz qədər uzaqdır. Nə yaxşı, dünyamızda belə insanlar var və olacaq da!

Beş-altı ay əvvəl, hansı ki, monoqrafiyanı yazmağı qətiləşdirə bilməmişdim, tərəddüddə idim: zor işin öhdəsindən gəlmək elə-belə deyildi. "Avans" kimi qərara almışdım ki, müəllimimin, sayılıb-seçilən ziyalımın yubileyi gəlir. Hərçənd, yetmiş illiyini unutmamışdım. Bir oçerk qələmə almalıyam, axı, zarafat gəlməsin. 45 ildi Fikrət Seyidovu tanıyıram, 45 ildi o, bizim müəllimiz olaraq qalır! Şəxsən bu illərdə onu müxtəlif vəzifələrdə də görmüşəm, adi müəllim imicində də. Dəyişilməyi bacarmayan, sadəliyini itirməyən, yaradıcılıq potensialından uzaqlaşmayan, öncə şuxluğunu və yaddaşını saxlayan bir insan. Bu sadaladıqlarım elə-belə anlayışlar deyil ha! Hər bir bəşər övladını yüksəkliyə qaldıran da, endirən də bu keyfiyyətlərdir. Mən onun çalışdığı doğma Universitetinə hər gəlişimdə məsuliyyət duyuram: Birdən gecikərəm, o isə gözləyər. Çünki son qədər dəqiqdir, sözünə bütövdür. Gəlmişəm qabaqcadan, bu, məndən asılı olmayıb, müəllimimin "dərsinə" gecikməyə cəsarətim çatarmı? Tanış-dostlarımdan soruşmuşam ki, Fikrət müəllimi görmüsənmi? Dərhal cavab almışam ki, filən mərtəbədədir, filən auditoriyadadır. Bunu ona görə vurğuladım ki, bütün Xarici Dillər Universiteti ona dərin hörmət bəsləyir və onun görünməsi yalnız nikbinlik doğurur. Biri öz müəllimilə qarşılaşır, digəri məsləhətə tələsir, üçüncüsü onun hikmətli, yerinə düşən kəlamlar, əhvalatlar söyləməsinə möhtacdır...

Bir detala da diqqət kəsilmişəm: Universitetin yeməkxanasında yemək alanda xahiş eyləyirlər ki, o, otursun, hər şey gələcəkdir. Fikrət müəllimsə qəti buna yol verməz, özü öz əliylə padnosu oturacağı stola qoyub rahatlanar. Bu xidməti etmək istəyənlər onun

tələbələridi, baxmayaraq kamil yaşlarındadı: - Xasiyyətini dəyişmir, hələ bir dəfə də mənə imkan düşməyib ki, yeməyi-çayı götürüb stoluna qoyum. - Bu sözləri çox eşitmişəm.

Dostluğa sadiqdir, itirdiklərinin heyfini çəkəndi. Əl tutandı, imkanını əsirgəməyəndi. Bir gün vədələşdik ki, Dənizkənarında görüşək. Adətən, Kukla teatrının qənşərində olur bu. Gəldim, yanında 45-50 yaşlarında bir nəfər vardı. Tanış elədi, dedi ki, 20-25 il əvvəl onu işə götürmüşəm, kişi kimi işləyib. Sonra çıxıb gedib. Neçə gün qabaq rastıma çıxdı. - Allahverdi. - dedi - Bir məsələ olmuşdu, hamı bir yana, o kişi sözüylə o adamı müdafiyə elədi, heç kəs ona təsir göstərə bilmədi. Mən bu anı unutmamışam. Biz xeyli gəzdik, sonra rahat yerdə nahar edəsi olduq. Təbii ki, mən də, o da susmağa üstünlük verirdik, başqa əlacımız da yoxdu. Müəllimimin yanında sözə yer verə bilməzdim... Bu adam utana-utana dilləndi ki, Fikrət müəllim, icazənizlə özümlə gətirdiyim konyakı çıxarım.

Fikrət müəllim özünəməxsus cəldliklə dedi ki, yox, yox, nə danışırsan, konyak içmək istəyirsənsə... - Ofisiantı çağırmaq istəyirdi, razılaşmadı: - Fikrət müəllim, bu konyakın tarixi var. - Astadan çəkinə-çəkinə dilləndi və əyilib portfeldən çıxardı. - Düz on il əvvəl mənə hədiyyə etmişdiz bir münasibətlə, həmən konyakdı.

Fikrət müəllim xəyala getdi. Mən hələ də bu şəxsin qəribəliyinə də heyran kəsilmişdim.

Fikrət Seyidovu tanıyanlar mənə elə gəlir, onun rəsmi tərəfinə daha çox üstünlük verirlər və bu da təbii haldır. Ona görə ki, o, orada-burada oturan, yemək üçün tələsən, kim gəldi qarşısına çıxan olmamışdı. Aldığı elitar tərbiyə də buna imkan yaratmamışdır. Harada və kiminlə çörək kəsdiyinin fərqinə varandı. Özü də ürəyi tutmayanla bir kəlmə də kəsməz, nəinki onunla otursun. Mən bu mənada özümü xoşbəxt sayıram ki, böyük insanla xeyli bir masa arxasında çörəyini yemişəm, məişət psixologiyasını müşahidə eləmişəm. Bu cəhətdən də nadir şəxsiyyətdir...

Fikrət Seyidov vaxtlı-vaxtsız dünyamızla vidalaşan dost-tanışlarını əsla unutmur, onlar barədə şirin xatirələr danışır. Xüsusilə,

gənclik və iş dostu, vaxtsız aramızdan getmiş pedaqoq Ənvər Məmmədovu tez-tez anır, keçdiyi həyat yolunun çətinliklərindən söz salır. Ümumiyyətlə, tələbə dostlarından, institut müəllimlərindən kövrək notları yada salır. Mən kitabı yazanda bu dediklərimin şahidi olmuşam, şəkilləri seçəndə: - Bu, filankəsdir, bu yaşayır, bu başqa aləmdir, yaxud vəfat etmişdir - deyir və son sözlərini pıçıldayır. Bəli, yalnız pıçıldayır!

Valideynlərinə qarşı həssaslığı qeyri-adidir onda. Elə memuarında da bu hissi oxuyursan. O qədər kövrək və şirin epizodları şahid gətirir, heyrətlənirsən diqqətliliyinə. Təsəvvürümüzə gətirək ki, atası, rəhmətlik Əhməd müəllimimiz Qazaxda Aslanbəyli kəndində neçə il xəstə yatanda, o, hər həftənin şənbə günü oraya maşınla gedirmiş, nə lazımsa aparır və istirahət günü qayıdıb dərsinə çatırmış. Bu, bəlkə də kiməsə adi gələr. Əlbəttə, qeyrətli oğul üçün belədir. Yalnız Fikrət Seyidov kimi oğullar üçün!

Onun tələbələri yanında zabitəsi, tələbkarlığı gücünü itirməmişdir. Mübaliğəsizdir sözlərim. Mən bunu deyəndə Pedaqoji İnstitutda biz "59-ları" nəzərdə tuturam. Bir fakt. Bu il (2004) institutu bitirdiyimizin 40 illiyiydi və bir yerə cəmləşib planlaşdırırdıq. Tələbələrindən, hansı ki, respublikamızda pedaqoji və digər sosial sferalarda çalışırlar: Zərifə Rəhmanova, Aydın Şirinov, Rafiq Xəlilov, Bəhram Avılov, Arif Şükürov, Təhminə Mehdiyeva, İsmət Əliyeva, Rafiq Məmmədov və digərlərimiz qərara almışdıq ki, Fikrət müəllimi dəvət edək. Qəribə və səmimi fikir alındı: O məclisimizdə iştirak edərsə, nə çörək yeyə, nə şənlənə bilərik, nə də ağız dolusu məzəli-duzlu xatirələrimizi söyləməyi bacararıq... Bəli, həqiqətdir bu və ilk dəfədi etiraf edirəm...

Bizim üçün professor Fikrət Seyidov belə şəxsiyyətdir! Görkəmli alimin yaradıcılıq aləmi də xarakterindən irəli gəlir. Daxilən zəngin və səmimi, zahirən sağlam və cəld olduğundandır. Məhsuldar işləyir, milli dəyərlərimizdən çıxış edir, soy-kökümüzə söykənir və özünəməxsus təhkiyə-üslubla oxucusuyla görüşür. Saysız məqalələri və kitabları elə-belə qələmə alınmamasıdır; bu

prosesdə qələminə güvəc onun potensial enerjisi və ata yolunun məsuliyyətidir. İş otağında hələ də atasının, anasının nəfəsini yaşadır. Bu günlərdə pedaqoq dostumuz, gözəl insan, mənim tələbə yoldaşım və Fikrət müəllimin tələbəsi Oqtay Əliyevlə Universitetdən çıxdıq: - Gedək evə, sonra qayıdıb gəzərik. - Fikrət müəllim fikrini bildirdi. Və doğma ata-ana ocağına gəldik. İçəri, iş otağına keçdik. Divarda Əhməd atayla Abihəyat ananın yağla boya ilə çəkilmiş qoşa portreti asılmışdı. Bu iki sima hələ də bir-birindən ayrılmamışdır, necə ki, ruhları da qoşalaşmışdır. Mehriban və istəklə ər-arvad ruhu beləcə əbədidir, ölməzdir.

- İstəyirəm kitabda getsin bu şəkil. - Fikrət müəllim astadan dedi və ani duruxdu. - İşləyəndə mənə lazım olur. Cavan vaxtı gecə oturanda atam kənardan baxardı, qürrələnərdi. Anamsa dabanları üstə əlində çay stəkanı içəri keçərdi, deyərli ki, az işlə, qalanı da sabaha qalsın. - Anamın çayı bütün yuxumu qaçırardı... İndi onlar yoxdu.

Oqtay müəllim foto-aparatıyla portreti çəkdi. Mən bir daha Fikrət Seyidovun böyüklüyünün şahidi oldum.

Məni başa düşər oxucularım ki, məqsədim yubiley məqaləsini yazmaqla zamanı qabaqlamaq deyil və sağlıq olsun, hər şeyin öz vaxtını gözləmək Allaha da xoşdu.

Bu yazını qələmə almaq bir təsadüflə də bağlıdı. "Də"ni ona görə mənalandırdım ki, hiss gələndə qələmi "həbsə" məhkum eləmək qeyri-mümkündü. İş elə alındı, kitabın ilk mətbəə varaqlarına göz gəzdirməliydim və bir xeylisi hazırdı, oxudum. Mündəricatda şəkillərin yeri ayrıca verilməmişdi, görünür, Fikrət müəllim təvazökarlıq edib ki, tarixi-xatirələri özündə əbədiləşdirən fotolar ayrıca "danışmasın". Və səhifələrə də "sığınmışdı". Beləliklə, simmetrik quruluşu yazılarımda da gözlədiyim "plan" pozulmuşdu. Bəs nə etməli? Səhər erkən yuxudan qalxdım və ani fikrimdə yanıb-sönən yazının fabulası hazır oldu: "Şəkillərin yaddaşı" paraqrafına ehtiyac qalmasa da... Tələsmirəm - yubileyi gözləyirəm.

Və ümidliyəm ki...

**Allahverdi Eminov**

Professor
Fikrət Seyidovun
elmi-pedaqoji yaradıcılığı

Çapa imzalanmışdır 19.08.2004.
Format 60x90 $^{1}/_{16}$ Ofset çapı.
Fiziki çap vərəqi 7,5. Tiraj 200 nüsxə